MƏLUMAT KİTABI



# Ədalət mühakiməsinə çatım üzrə Avropa hüququna dair məlumat kitabı


FRA
EUROPEAN UNION AGENCY
FOR FUNDAMENTAL RIGHTS

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Partnership for Good Governance
Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

COUNCIL OF EUROPE

EUROPEAN UNION

CONSEIL DE L'EUROPE

© Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi (FRA) və Avropa Şurası, 2016
Bu kitabın əlyazması 2016-cı ilin yanvarında yekunlaşıb.
Yenilənmələr gələcəkdə FRA-nın fra.europa.eu saytında, habelə Avropa İnsan Hüquqları Məhkəməsinin echr.coe.int saytında "Presedent hüququ" menyusunda yerləşdiriləcək.
Burada qeyd edilənlərin təkrar çapına icazə verilir, bu şərtlə ki, mənbə göstərilməlidir.

**Europe Direct Avropa İttifaqı ilə bağlı suallarınıza cavab tapmağa kömək edən xidmətdir**

**Ödənişsiz telefon nömrəsi (*):**
**00 800 6 7 8 9 10 11**

*(*) İnformasiyalar pulsuz verilir, zənglərin çoxu da pulsuzdur (hərçənd ki, bəzi operatorlar, telefon köşkləri və ya otellər Sizdən ödəniş ala bilərlər).*

Fotolar (üz qabığında və içəridə): © iStockphoto
Lüksemburq: Avropa İttifaqının Rəsmi Nəşrlər Bürosu, 2016
© Avropa Şurası, azərbaycan dilində nəşr, 2018

| | | | |
|---|---|---|---|
| COE – print: | ISBN 978-92-871-9820-4 | | |
| COE – pdf: | ISBN 978-92-871-9819-8 | | |
| FRA – print: | ISBN 978-92-9474-261-2 | DOI: 10.2811/121163 | TK-04-16-997-AZ-C |
| FRA – pdf: | ISBN 978-92-9474-342-8 | DOI: 10.2811/007512 | TK-04-16-997-AZ-N |

Bu məlumat kitabı ingilis dilində hazırlanıb. Nəşr Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq çərçivəsində Avropa İttifaqı və Avropa Şurası tərəfindən birgə maliyyələşdirilən "Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi" layihəsinin vəsaiti hesabına tərcümə və dərc olunub. Avropa Şurası (AŞ), Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) və Avropa İttifaqı (Aİ) digər dillərə tərcümələrin keyfiyyətinə görə cavabdehlik daşımırlar. Bu məlumt kitabında ifadə edilmiş fikirlər AŞ, AİHM və Aİ üçün məcburi qüvvəyə malik deyil. Məlumat kitabında seçmə şərhlərə və yazılı vəsaitlərə istinadlar var. AŞ, AİHM və Aİ onların məzmununa görə cavabdehlik daşımırlar və onların bu kitabdakı siyahıya daxil edilməsi bu nəşrlərin hər hansı formada dəstəklənməsi kimi başa düşülməməlidir. Əlavə nəşrlər echr.coe.int saytında AİHM-in kitabxanasının internet səhifələrində sadalanır.

FRA
EUROPEAN UNION AGENCY
FOR FUNDAMENTAL RIGHTS

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Ədalət mühakiməsinə çatım üzrə Avropa hüququna dair məlumat kitabı

# Ön söz

Avropada ədalət mühakiməsinə çatım barəsindəki bu məlumat kitabı Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi (FRA) və Avropa Şurası tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinin Katibliyi ilə birlikdə hazırlanıb. Bu, bizim təşkilatlarımız tərəfindən birgə hazırlanmış Avropa hüququna dair məlumat kitabları silsiləsindən beşinci kitabdır. Əvvəlki məlumat kitabları bu məsələləri əhatə edirdi: ayrı-seçkilik əleyhinə Avropa hüququ; sığınacaq, sərhəd və immiqrasiya məsələləri üzrə Avropa hüququ; məlumatların qorunması üzrə Avropa hüququ; və uşaq hüquqları üzrə Avropa hüququ.

Əvvəlki məlumat kitablarına müsbət reaksiyaları nəzərə alaraq, biz olduqca aktual olan digər bir mövzu üzrə – ədalət mühakiməsinə çatım mövzusu üzrə əməkdaşlıq etməyi qərara aldıq. Ədalət mühakiməsinə çatım özü-özlüyündə təkcə hüquq deyil, həm də digər hüquqların gerçəkləşdirilməsi üçün şərait və imkanlar yaradan önəmli vasitədir.

Bu məlumat kitabında ədalət mühakiməsinə çatım sahəsində Avropa İttifaqının əsas hüquqi prinsiplərinin qısa icmalı verilir. Kitabın məqsədi Avropa İttifaqı və Avropa Şurası tərəfindən müəyyən edilmiş müvafiq hüquq normaları barədə məlumatlılığın artırılmasından və biliklərin təkmilləşdirilməsindən ibarətdir və bunun üçün xüsusən Avropa İttifaqı Ədalət Məhkəməsinin (AİƏM) və Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququndan istifadə edilib. Bu məlumat kitabının Aİ-yə və Avropa Şurasına üzv olan dövlətlərdəki məhkəmə proseslərinin iştirakçıları olan hakimlər, prokurorlar və praktiki hüquqşünaslar üçün praktiki təlimat rolunu oynaması nəzərdə tutulur. Ədalət mühakiməsinə çatım məsələlərində qurbanlara yardım göstərən qeyri-hökumət təşkilatları və digər qurumlar üçün də bu məlumat kitabı faydalı olacaq.

Bizə göstərdiyi yardıma görə Birləşmiş Krallığın Nottingem Universitetinin İnsan hüquqları üzrə Hüquqi Mərkəzinə təşəkkür etmək istərdik. Həmçinin bu məlumat kitabının hazırlanmasının erkən mərhələlərindən bu işə qatıldığına görə Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasına (CEPEJ) və kitab hazırlandığı müddətdə oraya daxil ediləcək məlumatları təqdim etdiyinə görə Avropa Komissiyasının Ədliyyə məsələləri üzrə Baş Direktorluğuna minnətdarıq. Nəhayət, kitabın hazırlanmasının yekun mərhələsində təqdim etdiyi dəyərli qeydlərinə görə Avropa İttifaqı Ədalət Məhkəməsinin hakimi Mariya Bergerə (Maria Berger) minnətdarlığımızı ifadə etmək istərdik.

**Filip Buayya (Philippe Boillat)**
Avropa Şurasının
İnsan hüquqları və qanunun aliliyi
məsələləri üzrə baş direktoru

**Maykl O'Flaerti (Michael O'Flaherty)**
Fundamental hüquqlar üzrə Avropa
İttifaqı Agentliyinin direktoru

# Mündəricat


ÖN SÖZ ........................................................................................3
PERSPEKTİVLİ PRAKTİKALAR ........................................................................8
ABBREVİATURALAR VƏ QISALTMALAR ..................................................................9
BU MƏLUMAT KİTABINDAN NECƏ İSTİFADƏ ETMƏLİ ......................................................11
1. ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇATIM NƏ DEMƏKDİR? ..........................................................15
2. MÜSTƏQİL VƏ QƏRƏZSİZ MƏHKƏMƏ VƏ DİGƏR ORQANLAR VASİTƏSİLƏ İŞİN ƏDALƏTLİ VƏ AÇIQ ARAŞDIRILMASI HÜQUQU ................23
2.1. Məhkəmələr vasitəsilə ədalət mühakiməsinə çatım ............................26
2.1.1. Məhkəməyə müraciət hüququ ................................................26
2.1.2 “Məhkəmə” termininin anlayışı ................................................31
2.2. Məhkəmələrin müstəqilliyi və qərəzsizliyi ..........................................35
2.3. Ədalətli və açıq məhkəmə araşdırması nədir? ....................................40
2.3.1. Ədalətli məhkəmə araşdırması ................................................40
2.3.2. Açıq məhkəmə araşdırması ....................................................45
2.4. Ədalət mühakiməsinə çatımın digər formaları ....................................48
2.4.1. Qeyri-məhkəmə orqanları ......................................................48
2.4.2. Mübahisələrin alternativ həlli ..................................................50
3. HÜQUQİ YARDIM ..............................................................................57
3.1. Qeyri-cinayət prosesində hüquqi yardım ............................................59
3.1.1. Tətbiq dairəsi ..................................................................59
3.1.2. Şəxsin maddi vəziyyətinin və şikayətinin mahiyyətinin yoxlanılması ....................64
3.2. Cinayət prosesində hüquqi yardım ..................................................67
3.2.1. Tətbiq dairəsi ..................................................................67
3.2.2. Şəxsin maddi vəziyyətinin yoxlanılması ........................................68
3.2.3. Ədalət mühakiməsinin maraqlarının yoxlanılması ...............................69
4. HÜQUQİ MƏSLƏHƏT ALMAQ, MÜDAFİƏ EDİLMƏK VƏ TƏMSİL OLUNMAQ HÜQUQU ..................73
4.1. Qeyri-cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ ..........75
4.1.1. Tətbiq dairəsi ..................................................................75

4.1.2. Praktiki və səmərəli hüquqi yardım ........................................77
4.2. Cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ ........................................79
4.2.1. Tətbiq dairəsi ........................................79
4.2.2. Hüquqi yardımın keyfiyyəti ........................................83
4.2.3. Şəxsin özünün seçdiyi müdafiəçinin hüquqi yardımı........................................85
4.2.4. Şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olması........................................86
4.2.5. Hüquqlardan imtina ........................................87
4.3. Özü-özünü təmsil etmək hüququ ........................................89
5. SƏMƏRƏLİ HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ HÜQUQU........................................93
5.1. Səmərəli hüquqi müdafiə vasitəsi nədir? ........................................95
5.1.1. Səmərəli hüquqi müdafiə vasitəsi ilə bağlı substantiv və prosessual tələblər........................................96
5.1.2. Səmərəli hüquqi müdafiə vasitəsi ilə bağlı institusional tələblər ........................................101
5.2. Xüsusi hüquqi müdafiə vasitələrinin nümunələri ........................................103
5.2.1. Kompensasiya ........................................104
5.2.2. Konkret hərəkətlərin icrasının təmin edilməsi........................................108
5.2.3. Məhkəmə əmrləri ........................................109
6. ÜMUMƏN ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇATIMA QOYULAN MƏHDUDİYYƏTLƏR ........................................113
6.1. Qanuni məqsəd və mütənasiblik ........................................116
6.2. Yekun məhkəmə qərarına və ya qərardadına nail olmaq qarşısındakı məhdudiyyətlərin nümunələri........................................119
6.2.1. Məhkəmə rüsumları ........................................119
6.2.2. Həddən artıq formalizm........................................122
6.2.3. Sübutlarla bağlı maneələr........................................124
6.2.4. İddia müddətləri ........................................127
6.2.5. İmmunitetlər........................................128
6.3. Yekun məhkəmə qərarlarının icrasının gecikdirilməsi........................................130
7. ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇATIMA QOYULAN MƏHDUDİYYƏTLƏR: MƏHKƏMƏ PROSESİNİN MÜDDƏTİ ........................................135
7.1. Prosesin müddətinin müəyyənləşdirilməsi........................................137

7.1.1. Qeyri-cinayət prosesinin müddətinin müəyyənləşdirilməsi......139
7.1.2. Cinayət prosesinin müddətinin müəyyənləşdirilməsi ..............140
7.2. Prosesin müddətinin ağlabatan olub-olmadığını müəyyənləşdirmək üçün meyarlar.........................................................................141
7.2.1. İşin mürəkkəbliyi ...............................................................143
7.2.2. Ərizəçinin davranışı.............................................................144
7.2.3. Dövlət orqanlarının davranışı..................................................145
7.2.4. İşin ərizəçi üçün nə dərəcədə önəmli olması ...........................147
7.3. Məhkəmə prosesinin həddən artıq uzun sürməsinə qarşı hüquqi müdafiə vasitələri ........................................................................148
8. SEÇİLMİŞ KATEQORİYALARDA VƏ SAHƏLƏRDƏ ƏDALƏT MÜHAKİMƏSİNƏ ÇATIM ......................................................................151
8.1. Əlillər ........................................................................................155
8.1.1. Ədalət mühakiməsinə çatım ..................................................156
8.1.2. Hüquq qabiliyyəti.................................................................159
8.2. Cinayət qurbanları .......................................................................161
8.3. Məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar ......................167
8.3.1. Məhkəməyə və vəkilin yardımına müraciət imkanı .................168
8.3.2. Azadlıqdan məhrum edilməkdən şikayət hüququ ....................170
8.3.3. Qanunsuz həbsə görə kompensasiya.......................................175
8.4. Ətraf mühit hüququ.....................................................................176
8.5. Elektron ədalət mühakiməsi ........................................................181
ƏLAVƏ ƏDƏBİYYAT [ƏLAVƏ ƏDƏBIYYATIN SİYAHISI ORİJİNAL DİLDƏ VERİLİR] ..................185
PRESEDENT HÜQUQU.......................................................................193

# Perspektivli praktikalar

Məhkəmədə müştərək iştirak vasitəsilə ədalətli məhkəmə araşdırmasının təmin edilməsi ....41
Ayrı-seçkiliyə dair işlərdə ədalət mühakiməsinə çatım imkanının yaxşılaşdırılması ....50
Ailə hüququ prosedurlarında arbitrajdan istifadə ....51
Həssas durumda olan qruplara hüquqi yardım göstərilməsi ....60
Ədalət mühakiməsinə çatımın təmini üçün onlayn rejimində hüquqi yardım təklif edilməsi ....66
Hüquqi məsləhətlərin müxtəlif formalarının təklif edilməsi ....78
Özü-özünü təmsil edən proses iştirakçılarına yardım ....89
Məhkəmə xərclərinin azaldılması və prosedurların sadələşdirilməsi ....122
Həddən artıq formalizmi azaltmaqla ədalət mühakiməsinə çatım imkanının artırılması ....124
Məhkəmə qərarlarının səmərəli icrası ....133
Ailə işlərinin icraatının sürətləndirilməsi ....137
Məhkəmə sisteminin istifadəçilərini dinləməklə prosesin müddətinin qısaldılması ....147
Prosesin tezləşdirilməsi ....147
Polisin əlillərə yardım üçün təlimatla təmin edilməsi ....156
Öyrənmə qabiliyyəti zəif olan qurbanlara dəstək ....164
Öyrənmə qabiliyyəti zəif olan məhbusların ədalət mühakiməsinə çatımına yardım edilməsi ....169
Ekoloji demokratiyanın praktikada təşviqi ....178
Cəza təyin edilməsinin vizuallaşdırılması: ədalət mühakiməsinə çatımın asanlaşdırılmasına yönələn onlayn alət ....184

# Abbreviaturalar və qısaltmalar

| | |
|---|---|
| MAH | Mübahisələrin alternativ həlli |
| AHMŞ | Avropa Hakimlərinin Məşvərət Şurası |
| CEPEJ | Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası |
| CETS | Avropa Şurasının müqavilələr seriyası |
| AİƏM | Avropa İttifaqı Ədalət Məhkəməsi (2009-cu ilin dekabrınadək Avropa Ədalət Məhkəməsi (AƏM) adlanırdı) |
| AŞ | Avropa Şurası |
| ƏHK | Əlillərin hüquqları haqqında Konvensiya |
| AİC | Avropa İcması |
| AİHK | Avropa İnsan Hüquqları Konvensiyası |
| e-CODEX | Onlayn məlumat mübadiləsi vasitəsilə ədalət mühakiməsi sahəsində elektron kommunikasiya layihəsi |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| AİV | Avropa icra vərəqəsi |
| ƏMTQD | Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında direktiv |
| e-SENS | Avropa vahid elektron şəbəkə xidmətləri layihəsi |
| Aİ | Avropa İttifaqı |
| FRA | Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi |
| MSHBP | Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt |
| QHT | Qeyri-hökumət təşkilatı |
| MİHT | Milli insan hüquqları təsisatı |
| MOH | Mübahisələrin onlayn rejimində həlli |
| AİMq | Avropa İttifaqı haqqında müqavilə |
| AİFM | Avropa İttifaqının fəaliyyəti haqqında müqavilə |
| İHÜB | İnsan Hüquqları haqqında Ümumi Bəyannamə |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |

# Bu məlumat kitabından necə istifadə etməli

Bu məlumat kitabında Avropada ədalət mühakiməsinə çatımın mühüm aspektləri nəzərdən keçirilir və bu zaman Avropa Şurasının sənədi olan Avropa İnsan Hüquqları Konvensiyasında (AİHK) nəzərdə tutulan və Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) tərəfindən şərhi verilən, habelə Fundamental hüquqlar haqqında Avropa İttifaqı Xartiyasında nəzərdə tutulan və Avropa İttifaqı Ədalət Məhkəməsi (AİƏM) tərəfindən şərhi verilən müvafiq hüquqlara istinad edilir.

Ədalət mühakiməsinə çatım özü-özlüyündə təkcə hüquq deyil, o həm də fərdlərin digər hüquqlarını həyata keçirmələrinə şərait yaradır. Bu məlumat kitabının əhatə dairəsi geniş olmaqla həm cinayət hüququnu, həm də mülki hüququ əhatə edir. FRA və AİHM tərəfindən hazırlanan, sığınacaq, sərhəd və immirqasiya məsələləri üzrə Avropa hüququna və uşaq hüquqları üzrə Avropa hüququna aid olan mövcud məlumat kitablarında sığınacaq axtaranların və uşaqların ədalət mühakiməsinə çatımı məsələləri təhlil edilib; buna görə də bu məsələlər bu məlumat kitabında əhatə olunmur.

Bu məlumat kitabı ədalət mühakiməsinə çatım məsələləri üzrə ixtisaslaşmayan praktiki hüquqşünaslara yardım göstərmək üçün nəzərdə tutulub və onların bu sahənin əsas məsələləri ilə tanış olmalarına xidmət edir. O, vəkillər, hakimlər və digər praktiki hüquqşünaslar üçün, eləcə də ədalət mühakiməsinin həyata keçirilməsi və ədalət mühakiməsinə çatım sahəsində çalışan qurumlarla işləyən şəxslər üçün, o cümlədən məhkəmə proseslərində iştirak edən qeyri-hökumət təşkilatları (QHT-lər) üçün nəzərdə tutulub. Məlumat kitabı həmçinin hüquqi araşdırma və ya ictimai təşviqat məqsədləri üçün istifadə edilə bilər. Kitabın məqsədi praktiki hüquqşünasların məlumat kitabını bütünlüklə oxumadan bilavasitə onlara tələb olunan konkret bölmələrə və ya mövzulara müraciət etməsinə imkan yaratmaqdır. “Əlavə ədəbiyyat” bölməsində konkret məsələyə dair əlavə məlumatlar axtaran şəxslər üçün maraqlı ola biləcək xüsusi materiallar sadalanır.

Avropa Şurasının (AŞ) və Avropa İttifaqının (Aİ) hər bir mövzuya aid müvafiq qanunvericiliyi təqdim edilir. Lakin AİHK-da və Fundamental hüquqlar haqqında Aİ Xartiyasında yer alan ədalət mühakiməsinə çatım hüquqları xeyli dərəcədə üst-üstə düşür. Xartiyada açıq şəkildə təsdiq edilir ki, Xartiyada yer alan hüquqlarla AİHK-da yer alan hüquqlar arasında uyğunluq var və onların tətbiq dairələri və mənaları eynidir. Buna görə də, Xartiyada yer alan hüquqların əhatə dairəsi və tətbiqi nəzərdən keçirilərkən bu iş üçün AİHM-in presedent hüququnun böyük bir hissəsi aktuallıq kəsb edə bilər. Belə hesab edilməlidir ki, bunun əksi aydın şəkildə qeyd edilməyibsə, Aİ qanunvericiliyi AİHM-in presedent hüququna uyğundur. AİƏM-in müvafiq məsələyə dair məhkəmə praktikası mövcuddursa, o halda AİƏM-in presedent hüququna istinad edilir və həmin presedent hüququ ədalət mühakiməsinə çatım hüquqlarının alternativ mənbəyi kimi təqdim edilir və ən əsası, iki hüquq sisteminin

necə paralel işlədiyini əyani şəkildə nümayiş etdirir. AİƏM-in burada istinad edilən qərarlarının çoxu milli səviyyədə baxılan mübahisənin həll edilməsindən ötrü Aİ qanunvericiliyinin müvafiq müddəalarının AİƏM tərəfindən şərh edilməsi üçün milli məhkəmələrin etdiyi müraciət əsasında başlanan ilkin qərar prosedurunun gedişində qəbul edilir. İlkin qərar proseduru çərçivəsində AİƏM-in rolu Aİ qanunvericiliyinin müddəasına şərh verməkdən və onun qanuniliyi məsələsinə dair qərar çıxarmaqdan ibarətdir. Bunun ardınca həmin qanunvericiliyi əsas məhkəmə icraatının, yəni ölkədaxili məhkəmə prosesinin faktoloji hallarına AİƏM-in şərhinə uyğun şəkildə tətbiq etmək vəzifəsi milli məhkəmənin üzərinə düşür. Avropa İttifaqı Ədalət Məhkəməsi (AİƏM) 2009-cu ilin dekabrınadək Avropa Ədalət Məhkəməsi (AƏM) adlansa da, dolaşıqlığa yol verilməməsi üçün bu məlumat kitabında 2009-cu ilədək çıxarılmış qərarları qəbul etmiş məhkəmənin adı Avropa İttifaqı Ədalət Məhkəməsi kimi göstərilib.

Hər bir fəsil həmin fəsildə işıqlandırılan məsələlərin qeyd edildiyi cədvəllə başlayır. Cədvəldə həmçinin həmin məsələlərə tətbiq edilə bilən hüquq normaları göstərilir və AİƏM və AİHM-in müvafiq presedent hüququ sadalanır. Bu, istifadəçiləri maraqlandıran situasiya barədə əsas informasiyaların onlar tərəfindən tez tapılmasına kömək etməlidir. Yalnız Avropa Şurası hüququ ilə maraqlanan praktiki hüquqşünaslar Avropa Şurasına aid materiallara baxmaqla kifayətlənə bilərlər, Aİ-yə üzv olan dövlətlərdən olanlar isə informasiyalar üçün cədvəllərdəki hər iki sütuna baxmalıdırlar, çünki bu dövlətlər hər iki hüquq sisteminə bağlıdırlar. Bundan əlavə, əsas məqamlar hər bir bölmənin başlanğıcında cədvəldə verilir ki, bu da müvafiq fəsildəki məsələlərə tez nəzər salmağa imkan yaradır.

Avropa Şurası hüququnun əsas müddəaları AİHM-in seçilmiş işlərinin yer aldığı çərçivələrin içərisində, habelə kitabın əsas mətnindəki istinadların vasitəsilə təqdim edilir. Həmin işlər AİHM-in öz zəngin məhkəmə praktikası çərçivəsində müəyyən etdiyi prinsipləri necə tətbiq etdiyinə dair ən son nümunələri özündə əks etdirir. Lazımi hallarda Avropa Şurasının tövsiyələrinə və hesabatlarına da istinad edilib, hərçənd ki, onlar icrası məcburi olan hüquqi öhdəliklər doğurmur.

Aİ hüququnun müddəaları həm AİƏM-in işlərinin yer aldığı çərçivənin içərisində, həm də Aİ-nin müvafiq əsas qanunvericiliyinə və qanunvericilik tədbirlərinə, məsələn, direktivlərinə və tənzimləyici aktlarına kitabın əsas mətnində edilən istinadların vasitəsilə təqdim edilir. Eynilə AİƏM-in işləri də Aİ hüququ normalarının son dövrlərdəki işlərdə tətbiqinin əyani nümayişi üçün seçilib. Mətnaltı qeydlərdə praktiki hüquqşünaslara əlavə nümunələrin mənbələri təqdim edilir. Bundan əlavə, əgər Aİ-nin məcburi hüquqi qüvvəyə malik olmayan hər hansı sənədinin nəzərdən keçirilən əsas məsələlərə aidiyyəti varsa, həmin sənədlərə istinad edilir.

Məlumat kitabında hüquq məsələləri ön planda dayansa da, Avropa Şurasına və Avropa İttifaqına üzv olan dövlətlərdəki “perspektivli praktikaları” özündə əks etdirən çərçivələr mətndə yerləşdirilib. Bu dövlətlərin ədliyyə sistemləri xeyli dərəcədə fərqlənə bilər, amma bu perspektivli praktikalar qısa və ya uzun müddət

ərzində ədalət mühakiməsinə çatıma yardımçı ola bilən təşəbbüsləri özündə ehtiva edir. Çox zaman bu təşəbbüslərin adekvatlığını və səmərəliliyini yoxlamaq lazım gəlir – onların dəyərini tam anlamaq üçün müvafiq milli mənbələrin əlavə tədqiqinə ehtiyac duyula bilər.

Bu məlumat kitabında cinayət hüququ və mülki hüquq məsələləri ön plana çəkilir. İnzibati hüquq məsələləri ekologiya hüququ ilə əlaqədar araşdırılsa da (8-ci fəslə bax), ümumən həmin məsələlər bu kitabın mövzusuna daxil deyil. Məlumat kitabı qanunvericiliyin milli səviyyədə tətbiqinə aiddir, buna görə də burada AİHM-ə və AİƏM-ə şikayət etmə və şikayətin qəbuledilənliyi məsələlərinə toxunulmur, amma bu məsələlərin ayrı-ayrı hüquqların başa düşülməsinə yardım edə biləcəyi hallar istisna təşkil edir. Analoji olaraq, beynəlxalq sənədlərə və beynəlxalq presedent hüququna, habelə milli presedent hüququna onlar yalnız nəzərdən keçirilən məsələlərin başa düşülməsinə kömək edəcəyi təqdirdə istinad edilir.

Məlumat kitabı "ədalət mühakiməsinə çatım" termininin hüquqi mənasının və AŞ və Aİ tərəfindən yaradılmış iki hüquq sisteminin rolunun qısa təsviri ilə başlayır (1-ci fəsil). Kitabda aşağıdakı məsələləri əhatə edən yeddi substantiv fəsil yer alıb:

- müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ədalətli və açıq məhkəmə araşdırması (o cümlədən məhkəmələrə müraciət hüququ, ədalətli və açıq məhkəmə araşdırması hüququnun əhatə dairəsi və ədalət mühakiməsinə alternativ olan vasitələr);
- hüquqi yardım (o cümlədən cinayət prosesi çərçivəsində "şəxsin maddi vəziyyətinin və şikayətinin mahiyyətinin", habelə "ədalət mühakiməsinin maraqlarının" yoxlanılması);
- hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ (o cümlədən hüquqi yardımın keyfiyyəti, öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ və müdafiəçidən imtina etmək hüququ);
- səmərəli hüquqi müdafiə vasitələri hüququ (o cümlədən bu hüququn substantiv və institusional tələbləri, habelə sərəncamda olan hüquqi müdafiə vasitələrinin nümunələri);
- ümumən ədalət mühakiməsinə çatıma qoyulan məhdudiyyətlər (o cümlədən icazə verilən məhdudiyyətlərin xarakteri və məhdudiyyətlərin nümunələri);
- ədalət mühakiməsinə çatımın məhdudlaşdırılması: məhkəmə prosesinin müddəti (o cümlədən müddətin ağlabatan olub-olmadığının müəyyənləşdirilməsi üçüm meyarlar);
- seçilmiş kateqoriyalarda və sahələrdə ədalət mühakiməsinə çatım (həmin kateqoriyalar və sahələr üçün konkret prinsiplər işlənib hazırlanıb, buraya əlillər, cinayət qurbanları, məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar, habelə ekologiya hüququ və elektron ədliyyə sahələri daxildir).

# 1

# Ədalət mühakiməsinə çatım nə deməkdir?



| Aİ | Əhatə olunan məsələlər | AŞ |
|---|---|---|
| Ədalət mühakiməsinə çatım | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>Fundamental hüquqlar haqqında Xartiya, 51-ci maddə (tətbiq dairəsi)<br><br>Fundamental hüquqlar haqqında Xartiya, 52-ci maddə, 3-cü bənd (hüquqların və prinsiplərin şərhinin hüdudları<br><br>Avropa İttifaqı haqqında müqavilə (Aİ haqqında müqavilə), 4-cü maddə, 3-cü bənd<br><br>Aİ haqqında müqavilə, 19-cu maddə | **Tətbiq dairəsi** | AİHK 6-cı maddə (ədalətli məhkəmə araşdırması hüququ)<br><br>AİHK, 13-cü maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>AİHK, 35-ci maddə (şikayətin qəbuledilənlik şərtləri)<br><br>AİHK, 46-cı maddə (qərarların məcburi qüvvəsi və icrası) |

Bu fəsildə insan hüquqlarına aid əsas Avropa standartlarına istinadən “ədalət mühakiməsinə çatım” termininin izahı verilir. Bu fəsildə fərdi hüquqları qoruyan Avropa regional sistemləri təqdim edilir və milli səviyyədə hüquqların müdafiəsinin təmin edilməsinin vacibliyi vurğulanır. Bu fəsildə həmçinin Avropa İttifaqında (Aİ) və Avropa Şurasında (AŞ) ədalət mühakiməsinə çatım hüquqları arasındakı əlaqənin qısa icmalı verilir və aşağı hissədəki cədvəldə onlar arasındakı əsas fərqlər qeyd edilir.

## Əsas məqamlar

- İnsan hüquqlarına dair beynəlxalq və Avropa hüquq normalarına əsasən, ədalət mühakiməsinə çatım anlayışı dövlətlərin üzərinə öhdəlik qoyur ki, hər bir fərdin hüquqlarının pozulduğu müəyyən edildiyi hallarda hüquqi müdafiəyə nail olmaq üçün məhkəməyə (yaxud bəzi hallarda mübahisələrin alternativ həlli orqanına) müraciət etmək hüququnu təmin etsinlər. Beləliklə, bu hüquq həm də fərdlərin digər hüquqlarını həyata keçirmələrinə kömək edən hüquqdur.
- Ədalət mühakiməsinə çatım bir sıra əsas insan hüquqlarını, məsələn, AİHK-ın 6-cı maddəsində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması hüququnu, habelə AİHK-ın 13-cü maddəsində və Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulmuş səmərəli hüquqi müdafiə vasitələri hüququnu əhatə edir.
- Fundamental hüquqlar haqqında Aİ Xartiyasında yer alan ədalət mühakiməsinə çatım hüquqları AİHK-da yer alan ədalət mühakiməsinə çatım hüquqları ilə üst-üstə düşə bilər. Buna görə də AİHM-in presedent hüququ Xartiyada yer alan hüquqların şərhi üçün mühüm əhəmiyyət daşıyır.
- AİHK-ın icrası ilə Fundamental hüquqlar haqqında Aİ Xartiyasının icrası müxtəlif sistemlər vasitəsilə tənzimlənsə də, hər iki sistemdə səmərəli hüquqi müdafiə vasitələri hüququnun və ədalətli məhkəmə araşdırması hüququnun həyata keçirilməsi ilk növbədə milli səviyyədə təmin edilməlidir.

Ədalət mühakiməsinə çatım fərdlərə imkan verir ki, hüquqlarının pozulmasına qarşı özlərini müdafiə etsinlər, mülki hüquq pozuntularının düzəldilməsinə, icra hakimiyyəti orqanının məsuliyyətə cəlb olunmasına nail olsunlar və cinayət prosesində özlərini müdafiə etsinlər. Bu, qanunun aliliyinin mühüm elementidir[1]

1 Avropa Şurası (2015), Qadınların kişilərlə bərabər əsasda ədalət mühakiməsinə çatımının təmin edilməsinə dair tematik məlumat vərəqəsi, Strasburq, Avropa Şurası

və mülki, cinayət hüququna və inzibati hüquqa bütünlüklə şamil olunur. Ədalət mühakiməsinə çatım həm proses, həm də hədəfdir və digər prosessual və substantiv hüquqlarından bəhrələnmək istəyən fərdlər üçün mühüm əhəmiyyət daşıyır.

Beynəlxalq səviyyədə, BMT-nin İnsan Hüquqları Komitəsi təsis edildiyi vaxtdan bəri ədalət mühakiməsinə çatımla bağlı konseptual anlayışların şərhində BMT-nin müqavilə orqanları arasında aparıcı yer tutur[2]. Ədalət mühakiməsinə çatım həmçinin BMT-nin sənədlərində, məsələn, "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" 1998-ci il tarixli Orxus Konvensiyasında və "Əlillərin hüquqları haqqında" 2006-cı il tarixli Konvensiyada təmin edilir.

Avropa İttifaqının siyasəti səviyyəsində, Avropa İttifaqına üzv olan dövlətlərdə ədalət mühakiməsinə çatım (xüsusən Aİ daxilində ədliyyə sistemlərinin səmərəliliyi və keyfiyyəti və məhkəmə hakimiyyətinin müstəqilliyi) "Aİ-nin ədliyyə şkalası" deyilən meyar vasitəsilə mütəmadi olaraq qiymətləndirilir[3]. Bu qiymətləndirmə üçün informasiyalar əsasən Ədalət mühakiməsinin səmərəliyi üzrə Avropa Komissiyasının məlumatlarından əldə edilir və Avropa Komissiyasının "İllik artımın icmalı" sənədinin tərkib hissəsini təşkil edir; sonuncu isə Avropa İttifaqının illik siyasət sikli (Avropa semestri) zamanı aparılan və dövlətlərin milli büdcələrinə mühüm təsir göstərən müzakirələr zamanı nəzərə alınır[4].

İnsan hüquqlarına dair Avropa hüquq normalarına gəlincə, "ədalət mühakiməsinə çatım" anlayışı İnsan hüquqları haqqında Avropa Konvensiyasının (AİHK) 6-cı və 13-cü maddələrində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində təsbit olunub və müvafiq olaraq Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) və Avropa İttifaqı Ədalət Məhkəməsi (AİƏM) tərəfindən şərh edilmiş bu maddələr ədalətli məhkəmə araşdırması və səmərəli hüquqi müdafiə vasitələri hüququnu təmin edir. Yuxarıda qeyd edildiyi kimi, bu hüquqlar həmçinin beynəlxalq sənədlərdə, məsələn, Birləşmiş Millətlər Təşkilatının (BMT) "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ının (MSHBP)[5] 2-ci maddəsinin 3-cü bəndində və 14-cü maddəsində və BMT-nin "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"sinin (İHÜB)[6] 8-ci və 10-cu maddələrində nəzərdə tutulub. Bu hüquqların əsas elementlərini mübahisələrin həlli orqanına səmərəli çatım imkanı, ədalətli araşdırma hüququ və mübahisəli məsələlərin vaxtında həll olunması hüququ, adekvat təzminat hüququ, eləcə də ümumən ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyi və effektivliyi prinsiplərinin tətbiqi təşkil edir[7].

2 Birləşmiş Millətlər Təşkilatı (BMT), İnsan Hüquqları Komitəsi, 32 saylı ümumi şərh (2007).

3 Avropa Komissiyası (2015), 2015-ci il üçün Aİ-nin ədalət mühakiməsi şkalası, COM(2015) 116, yekun versiya, Brüssel, 9 mart 2015-ci il.

4 Fundamental hüquqlar üzrə Avropa İttifaqı Agentliyi (FRA) (2015), Əsas hüquqlar: 2014-cü ildə problemlər və nailiyyətlər – FRA-nın illik hesabatı, Lüksemburq, Rəsmi Nərşlər Bürosu, bu məsələtə aid fəsil, səh. 14.

5 BMT, Baş Assambleya (BA) (1966), Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (MSHBP), 16 dekabr 1966-cı il.

6 BMT, BA (1948), İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (İHÜB), 10 dekabr 1948-ci il.

7 FRA (2011), Avropada ədalət mühakiməsinə çatım: problemlərin və imkanların icmalı, Lüksemburq,

AİHK-da və Fundamental hüquqlar haqqında Aİ Xartiyasında qorunan hüquqlar əsasən üst-üstə düşür. Xartiyada yer alan və AİHK-dakı hüquqların müvafiq qarşılığı olan hüquqlar Xartiyanın 53-cü maddəsinə uyğun olaraq AİHK-dakılarla eyni məna daşıyır və eyni əhatə dairəsinə malikdir. Xartiyaya dair izahatlarda[8] (həmin izahatlar Xartiyanın məzmunu başa düşməyə kömək edən şərhedici vasitə rolunu oynayır, amma məcburi hüquqi qüvvəyə malik deyil) bu məsələyə dair əlavə təlimatlar verilir. Hüquqların üst-üstə düşməsi o deməkdir ki, AİHM-in presedent hüququ Fundamental hüquqlar haqqında Aİ Xartiyasında yer alan hüquqların şərhində çox zaman mühüm əhəmiyyət daşıyır. Bununla belə, aşağıda qeyd edildiyi kimi, AİHM və AİƏM-in hüquq sistemləri fərqlidir ki, bu da milli səviyyədə hüquqlarının qorunmasına təsir göstərə bilər.

## Avropa İnsan Hüquqları Konvensiyası

AŞ-yə üzv olan 47 dövlət var; onların hamısı 1953-cü ildə qüvvəyə minmiş AİHK-ın iştirakçısıdır. [9] AİHK-ın 1-ci maddəsinə əsasən, iştirakçı dövlətlər yurisdiksiyaları daxilində olan şəxslərin AİHK-da müəyyən edilmiş hüquqlarını təmin etməkdən ibarət hüquqi öhdəlik daşıyırlar. İştirakçı dövlətlər qanunvericilik və praktikalarının AİHK-a uyğun olmasını təmin etməlidirlər. Onlar ilk növbədə AİHK ilə təmin edilən hüquq və azadlıqlarının həyata keçirilməsinə və təmin edilməsinə görə məsuliyyət daşıyırlar, hərçənd ki, onlara bu və ya digər halların öz hüquq sistemlərinə uyğun şəkildə şərh edilməsində müəyyən "qiymətləndirmə sərbəstliyi" verilə bilər.

AİHM-in rolu nəzarət xarakteri daşıyır: o, AİHK-ın pozulduğu barədə ayrı-ayrı şəxslərdən daxil olan şikayətləri həll etməklə iştirakçı dövlətlərin öhdəliklərinə riayət etmələrini təmin edir.[10] AİHK-ın 35-ci maddəsinə əsasən, AİHM fərdlərin işinə baxmazdan əvvəl onlar bütün ölkədaxili hüquqi müdafiə vasitələrini tükəndirdiklərini sübut etməlidirlər.[11] Bu, subsidiarlıq prinsipindən irəli gəlir, bu prinsip o deməkdir ki, milli səviyyədə insan hüquqlarının təmin edilməsinə və qorunmasına görə ilk növbədə milli məhkəmələr cavabdehlik daşıyırlar.[12] Ədalət mühakiməsinə çatım sahəsində dövlətlərin əməl etməli olduqları müvafiq standartlar sonrakı fəsillərdə təqdim edilir.

AİHK-da yer alan hüquqların əhatə dairəsi heç də həmişə iştirakçı dövlətlərin əraziləri ilə məhdudlaşmır; müstəsna hallarda onlar bu dövlətlərin ərazisi xaricinə

Rəsmi Nərşlər Bürosu, səh. 9.
8 Aİ (2012), Fundamental hüquqlar haqqında Avropa İttifaqı Xartiyası, 52-ci maddə (3-cü bənd), OJ 2012 C 326. Həmçinin bax: Fundamental hüquqlar haqqında Xartiyaya dair izahatlar, OJ 2007 C 303/17.
9 Avropa Şurası, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya, CETS No. 5, 1950. Həmçinin bax: Avropa Şurası, Avropa Sosial Xartiyası, CETS No. 35, 18 oktyabr 1961-ci il; bu Xartiya sosial və iqtisadi hüquqlara riayət edilməsinin monitorinqini nəzərdə tutur; və Avropa Şurası, Avropa Sosial Xartiyası (yenilənmiş versiya), CETS No. 163, 3 may 1996-cı il.
10 Həmçinin iştirakçı dövlətlər də bir-birinə qarşı şikayət ərizələri verə bilərlər.
11 AİHM, Er və başqaları Türkiyəyə qarşı, ərizə № 23016/04, 31 iyul 2012-ci il, 57-ci bənd.
12 AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il, 140-cı bənd.

şamil oluna bilər, bu xüsusən dövlətin rəsmi şəxslərinin xaricdə fərdlərin üzərində "faktiki nəzarət və hakimiyyət" səlahiyyətlərini həyata keçirdikləri hallara aiddir. [13]

AİHK-ın 46-cı maddəsinə əsasən, AİHM-dəki məhkəmə icraatına cəlb olunan iştirakçı dövlətlər onun yekun qərarını icra etməyə borcludurlar.

## Fundamental hüquqlar haqqında Aİ Xartiyası

Avropa İttifaqı unikal hüquq sisteminə malikdir. Aİ qanunvericiliyi üzv dövlətlərin hüquq sistemlərinin tərkib hissəsidir.[14] Həmin qanunvericiliyə aşağıdakılar daxildir: əsas (birinci dərəcəli) qanunvericilik (bu qanunvericiliyin normalarına Aİ çərçivəsindəki müqavilələrdə, eləcə də Fundamental hüquqlar haqqında Aİ Xartiyasında rast gəlmək olar); əlavə (ikinci dərəcəli) qanunvericilik, məsələn, tənzimləyici aktlar, direktivlər və qərarlar; və məcburi hüquqi qüvvəyə malik olmayan aktlar, məsələn, rəylər və tövsiyələr.[15]

Aİ qanunvericiliyinin yerinə yetirilməsi və icrasının təmin edilməsi ilk növbədə milli səviyyədə baş verir. Avropa İttifaqı haqqında müqavilənin ("Aİ haqqında müqavilə") 4-cü maddəsinin 3-cü bəndi Aİ-yə üzv olan dövlətlərdən tələb edir ki, Aİ qanunvericiliyindən irəli gələn öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün müvafiq tədbirlər görsünlər. Bu, səmimi əməkdaşlıq prinsipinin tələbidir. Bundan əlavə, Aİ haqqında müqavilənin 19-cu maddəsi üzv dövlətlərdən tələb edir ki, Aİ qanunvericiliyinin əhatə etdiyi sahələrdə səmərəli hüquqi müdafiəni təmin edən kifayət qədər hüquqi müdafiə vasitələrini təmin etsinlər.

Beləliklə, milli məhkəmələr Avropa İttifaqı qanunvericiliyinin əsas təminatçılarıdır, amma onun ardıcıl tətbiq edilməsini təmin etmək məqsədi ilə onlar AİƏM-ə sorğu ilə müraciət edə bilərlər ki, ilkin qərar proseduru vasitəsilə şərh məsələlərinə dair qərar çıxarsın.[16] Bu, milli məhkəmələrlə AİƏM arasında dialoqun yaranmasına şərait yaradır. AİƏM əsas hüquqlarla bağlı dəqiq öhdəlikləri özündə ehtiva edən Aİ-nin unikal hüquq sisteminin keşikçisidir. Fərdlər bu və ya digər hərəkətlərin və ya qərarların ləğv edilməsi məqsədi ilə Avropa İttifaqının qanunvericilik normalarının (əsas hüquqlarla bağlı məsələlər də daxil olmaqla) qanuniliyi məsələsinə baxılması üçün müraciət edə bilərlər, amma bu cür müraciətlərin edilməsinin şərtləri məhdudlaşdırıcı xarakterlidir. Bir qayda olaraq fərdlər qaldırdıqları məsələdə "birbaşa və fərdi maraqlarının" olduğunu sübut etməlidirlər.[17] AİƏM-in bildirdiyinə

13 AİHM, Əl-Skeyni və başqaları Birləşmiş Krallığa qarşı [BP], ərizə № 55721/07, 7 iyul 2011-ci il, 133–137-ci bəndlər.
14 AİƏM, C-6/64, Flaminio Costa v. E.N.E.L., 15 iyul 1964-cü il. [Qeyd: Avropa İttifaqı Ədalət Məhkəməsinin baxdığı işlərin adları orijinal dildə verilir.]
15 Avropa İttifaqının fəaliyyəti haqqında müqavilə (Aİ-nin fəaliyyəti haqqında müqavilə), 288-ci maddə, OJ 2012 C 326.
16 Yenə orada. 267-ci maddə.
17 Aİ-nin fəaliyyəti haqqında müqavilə, 263-cü maddə (4-cü bənd). Hüquq sisteminin bu sahəsinin mürəkkəbliyinə əyani misal olaraq bu işə bax: AİƏM, C 583/11 P, Inuit Tapiriit Kanatami and others v.

görə, Aİ qurumlarının hərəkət və ya qərarları üzərində məhkəmə nəzarətinin olmasını nəzərdə tutan bu sistem dolğun sistemdir. [18]

Beləliklə, Aİ qanunvericiliyinə əsasən, fərdlərin öz hüquqlarının təmin edilməsinə milli məhkəmələrdə nail olmaq imkanına malik olmaları da vacibdir. İlk vaxtlar Avropa Birliyi müqavilələrində əsas hüquqlar barədə bir söz deyilmirdi. Əvəzində, əsas insan hüquqlarının qorunması Aİ qanunvericiliyinin AİHK-dan və üzv dövlətlərin konstitusiya ənənələrindən qaynaqlanan ümumi prinsipləri kimi AİƏM-in presedent hüququnda öz əksini tapmışdı.[19] AİƏM tərəfindən bu prinsiplər Aİ-nin qanunverici və inzibati tədbirlərinin qanuniliyi, eləcə də Aİ qanunvericiliyini tətbiq edərkən üzv dövlətlər tərəfindən qəbul edilən tədbirlərin Aİ qanunvericiliyinə uyğunluğu yoxlanılarkən tətbiq edilir. Ədalət mühakiməsi üçün müraciət etmək hüququ nəzərdən keçirilərkən bu ümumi prinsiplərə dair pesedent hüququ aktuallıq kəsb edir və praktiki hüquqşünaslar üçün faydalı ola bilər.

Əsas hüquq və azadlıqlar indi Fundamental hüquqlar haqqında Avropa Xartiyasında öz əksini tapıb və bu sənəd 2009-cu ilin dekabrından Aİ-nin əsas qanunvericilik aktı qismində məcburi hüquqi qüvvəyə malikdir.[20] Xartiyaya iqtisadi, sosial və mədəni hüquqlar daxildir. Bəzi hallarda Xartiyada "hüquqlar" əvəzinə "prinsiplər" (məsələn, 23-cü maddədə yer alan qadınlar və kişilər arasında bərabərlik prinsipi) termini işlənir. Fundamental hüquqlar haqqında Aİ Xartiyasına əsasən, bu və ya digər müddəalar "prinsiplər" kimi təsnifləşdirilirsə, milli məhkəmələr onlardan yalnız üzv dövlətin Aİ qanunvericiliyinin tətbiqinə yönələn hərəkətlərinin qanuniliyi məsələsini şərh etmək və bu məsələyə dair qərar çıxarmaq üçün istifadə edə bilərlər.[21]

51-ci maddəyə əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyası Aİ təsisatlarına və orqanlarına məhdudiyyətsiz tətbiq edilir,[22] üzv dövlətlərə isə "onlar İttifaqın qanunvericiliyini icra etdikləri zaman" tətbiq edilir. Fundamental hüquqlar haqqında Aİ Xartiyasına dair izahatlarda deyilir ki, Xartiyanın müddəaları üzv dövlətlərə yalnız onların hərəkətləri "Aİ qanunvericiliyinin tətbiq dairəsində" olduğu zaman tətbiq edilir. AİƏM təsdiq edib ki, yuxarıda qeyd edilən "icra etdikləri zaman" və "tətbiq dairəsində olduğu zaman" anlayışları eyni məna daşıyır.[23] Bu elə hallara aiddir ki, bu zaman üzv dövlətlər, məsələn, Avropa İttifaqının direktivlərini və tənzimləyici

European Parliament and Council of the European Union, 3 oktyabr 2013-cü il.

18 Yenə orada, konkret olaraq 92-ci bənd.

19 Aİ haqqında müqavilə, 6-cı maddənin 3-cü bəndi (6-cı maddənin keçmiş 2-ci bəndi).

20 Fundamental hüquqlar haqqında Avropa İttifaqı Xartiyası, OJ 2012 C326. bax: Aİ haqqında müqavilə, 6-cı maddə (1-ci bənd).

21 Bax: Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 52-ci maddəsi (5-ci bənd) və "Fundamental hüquqlar haqqında Xartiyaya dair izahatlar"da təqdim edilən (məhdud xarakterli) tövsiyələr. Həmçinin bax: AİƏM, C-176/12, Association de médiation sociale v. Union locale des syndicats CGT and Others, 15 yanvar 2014-cü il, 45-49-cu bəndlər. Müqayisə üçün bax: AİƏM, C-555/07, Kücükdeveci v. Swedex Gmbh & Co. KG, 19 yanvar 2010-cu il.

22 Fundamental hüquqlar haqqında Avropa İttifaqının Xartiyası, 51-ci maddə.

23 AİƏM, C-617/10, Åklagaren v. Hans Åkerberg Fransson, 7 may 2013-cü il, 17-21-ci bəndlər.

aktlarını icra edirlər.[24] Lakin Aİ-nin bütün üzv dövlətləri həm də AİHK-ın iştirakçı dövlətləridirlər. Bu isə o deməkdir ki, hətta onlara Fundamental hüquqlar haqqında Aİ Xartiyası tətbiq edilməsə belə, AİHK tətbiq edilə bilər. Bundan əlavə, Avropa İttifaqının AİHK-a qoşulması barədə davam edən danışıqlar ədalət mühakiməsinə çatım sahəsinə də təsir göstərə bilər.[25]

## AŞ hüququnda və Aİ hüququnda nəzərdə tutulmuş ədalət mühakiməsinə çatım hüquqları arasındakı əlaqə

Bu sxemdə AŞ hüququnda və Aİ hüququnda nəzərdə tutulmuş ədalət mühakiməsinə çatım hüquqlarının hüquqi bazasının qısa icmalı verilir. Sxemdə ədalət mühakiməsinə çatımın iki mühüm komponenti (ədalətli məhkəmə araşdırması hüququ və səmərəli hüquqi müdafiə vasitələri hüququ) vurğulanır və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının təmin etdiyi müdafiə AİHK-ın təmin etdiyi müdafiə müqayisə olunur. Bu müqayisə bu məlumat kitabının bütün mətni boyunca aparılacaq.

**Sxem: AŞ hüququnda və Aİ hüququnda nəzərdə tutulmuş ədalət mühakiməsinə çatım hüquqları**




Sxemdən göründüyü kimi, AİHK-ın 6-cı maddəsinin tətbiq dairəsi məhduddur və o, yalnız daxili qanunvericilikdə müəyyən edilmiş cinayət ittihamlarına və

24 AİƏM, C-206/13, Cruciano Siragusa/Regione Sicilia v. Soprintendenza Beni Culturali e Ambientali di Palermo, 6 mart 2014-cü il, 24-25-ci bəndlər.
25 AİHK-a qoşulma təklifi barədə AİƏM-in rəyi üçün bax: Məhkəmənin 2/13 saylı rəyi, 18 dekabr 2014-cü il.

mülki hüquq və vəzifələrə şamil olunur (2.1-ci bölmə.). Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi onun qədər məhdud xarakterli deyil və Aİ qanunvericiliyində müəyyən edilmiş bütün hüquq və azadlıqlara şamil olunur ki, buraya həm də müəyyən əlavə iqtisadi, sosial və mədəni hüquqlar daxildir. Lakin bu maddələrin hansı hallara tətbiq edilməsi məsələsində mühüm fərq var. AİHK-ın 6-cı maddəsi "cinayət ittihamları və mülki hüquq və vəzifələr" anlayışının əhatə etdiyi bütün hallara şamil olunur. Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi isə yalnız elə hallara aiddir ki, bu zaman üzv dövlətlər Aİ qanunvericiliyini tətbiq edirlər, məsələn, insan alverinə qarşı direktivi yerinə yetirirlər. Beləliklə, bu maddə əhatəliliyi daha az olan müdafiə sistemi yaratmış olur.

AİHK-ın 13-cü maddəsi AİHK-da nəzərdə tutulmuş hüquqların iddia edilən pozuntuları ilə əlaqədar olaraq dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələri hüququnu təsbit edir. Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulmuş səmərəli hüquqi müdafiə vasitələri hüququ Aİ qanunvericiliyi ilə təmin edilən bütün hüquq və azadlıqlara şamil olunur: o, Xartiyaya daxil edilmiş hüquqların pozuntuları ilə məhdudlaşmır. 47-ci maddə həmçinin birmənalı olaraq "məhkəmə" qarşısında hüquqi müdafiə vasitəsinə çatımı təmin edir ki, bununla da daha geniş müdafiə təqdim etmiş olur. Qeyd etmək vacibdir ki, Aİ-yə üzv olan dövlətlərə münasibətdə Fundamental hüquqlar haqqında Aİ Xartiyasının tətbiq edilmədiyi hallarda AİHK tətbiq edilə bilər, belə ki, Aİ-nin 28 üzv dövlətinin hamısı həm də AİHK-ın iştirakçı dövlətləridir.

Sistemlər fərqli olsa da, həm AŞ, həm də Aİ hüququ ilə təmin edilən səmərəli hüquqi müdafiə vasitələri hüququnun və ədalətli məhkəmə araşdırması hüququnun ilk növbədə bu iki sənədin müvafiq tətbiq dairəsinə və AİƏM və AİHM tərəfindən müəyyən edilmiş müvafiq qaydalara və şərtlərə uyğun olaraq milli səviyyədə təmin edilməsi tələb olunur. Fundamental hüquqlar haqqında Aİ Xartiyasında yer alan bir çox hüquqlar həmin sənəddə AİHK-dakı hüquqlara oxşar şəkildə qeyd edilib. Avropa İnsan Hüquqları Məhkəməsi insan eyni şəkildə təsvir edilir. Xartiyanın 52-ci maddəsinin 3-cü bəndi təsdiqləyir ki, Xartiyadakı hüquqlarla AİHK-dakı hüquqlar üst-üstə düşdüyü hallarda bu hüquqların mənası və tətbiq dairəsi eynidir, hərçənd ki, Xartiyada onların daha geniş müdafiəsi təmin oluna bilər.[26] Bu isə o deməkdir ki, bu hüquqlar üst-üstə düşdüyü hallarda AİHM-in presedent hüququ Xartiyada yer alan hüquqların şərhi üçün əhəmiyyət kəsb edir.

26 Fundamental hüquqlar haqqında Xartiyaya dair izahatlar, OJ 2007 C303/17.

# 2

# Müstəqil və qərəzsiz məhkəmə və digər orqanlar vasitəsilə işin ədalətli və açıq araşdırılması hüququ



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Ədalət mühakiməsinə çatım | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>AİƏM, Birləşdirilmiş işlər C-128/09 – C-131/09, Antoine Boxus v. Région wallonne, 2011 | **Məhkəmələrə müraciət imkanı** | AİHK, 6-cı maddə (1-ci bənd)<br><br>AİHK, 7 saylı Protokol<br><br>AİHM, Qolder Birləşmiş Krallığa qarşı, ərizə № 4451/70, 1975 |
| AİƏM, C-363/11, Epitropos tou Elegktikou Synedriou sto Ypourgeio Politismou kai Tourismou v. Ypourgeio Politismou kai Tourismou - Ypiresia Dimosionomikou Elenchou, 2012<br><br>AİƏM, C-394/11, Valeri Hariev Belov v. CHEZ Elektro Balgaria AD and others (Bulgaria and the European Commission intervening), 2013 | **“Məhkəmə” termininin anlayışı** | AİHM, “Yulius Kloyber Şlaxtxof GmbH” və başqaları Avstriyaya qarşı, ərizələr № 21565/07 və s., 2013 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Məhkəmələrin müstəqilliyi və qərəzsizliyi | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə<br>AİƏM, C-506/04, Graham J. Wilson v. Ordre des avocats du barreau de Luxembourg, 2006<br>AİƏM, Birləşdirilmiş işlər C-341/06 və C-342/06, Chronopost SA and La Poste v. Union française de l'express (UFEX) and Others, 2008 | **Müstəqillik və qərəzsizlik** | AİHK, 6-cı maddə (1-ci bənd)<br>AİHM, Maktuf və Damyanoviç Bosniya və Herseqovinaya qarşı, ərizələr № 2312/08 və 34179/08, 2013<br>AİHM, İbrahim Gürkan Türkiyəyə qarşı, ərizə № 10987/10, 2012 |
| Ədalətli və açıq məhkəmə araşdırması | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə<br>Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında direktiv (2012/13/EU)<br>Şifahi və yazılı tərcümə hüququ haqqında direktiv (2010/64/EU)<br>Vəkillə təmin edilmək hüququ haqqında direktiv (2013/48/EU) | **Ədalətli məhkəmə araşdırması** | AİHK, 6-cı maddə (1-ci bənd)<br>AİHM,Ujukauskas Litvaya qarşı, ərizə № 16965/04, 2010 |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə | **Açıq məhkəmə araşdırması** | AİHK, 6-cı maddə (1-ci bənd)<br>AİHM, Xrabrova Rusiyaya qarşı, ərizə № 18498/04, 2012 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Ədalət mühakiməsinə çatımın digər formaları | | |
| | **Qeyri-məhkəmə orqanları** | |
| AİƏM, Birləşdirilmiş işlər C-317/08, C-318/08, C-319/08 və C-320/08, Rosalba Alassini and Others v. Telecom Italia SpA, 2010<br><br>Mediasiya haqqında direktiv (2008/52/EC)<br><br>İstehlakçıların mübahisələrinin alternativ həlli haqqında direktiv (2013/11/EU)<br><br>İstehlakçıların mübahisələrinin onlayn rejimində həlli haqqında reqlament (№ 524/2013)<br><br>Qurbanların hüquqları haqqında direktiv (2012/29/EU) | **Mübahisələrin alternativ həlli** | AİHM, Suda Çex Respublikasına qarşı, ərizə № 1643/06, 2010<br><br>Qadınlara qarşı və ailədaxili zorakılığın qarşısının alınması və onlarla mübarizə aparılması haqqında AŞ Konvensiyası (İstanbul Konvensiyası) |

Bu fəsildə məhkəməyə müraciət hüququ barədə ümumi məlumat təqdim edilir, bu hüquq ədalətli məhkəmə araşdırması hüququndan irəli gəlir (AŞ və Aİ hüququnda "məhkəmə" termini ingiliscə "tribunal" kimi qeyd edilir). Bu fəsildə həmçinin "məhkəmə" termininin anlayışı tədqiq edilir. Müvafiq tələblər, o cümlədən müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ədalətli və açıq məhkəmə araşdırması hüququnun əsas aspektləri müzakirə olunur. Həmçinin ədalət mühakiməsinə çatımın qeyri-məhkəmə formaları, o cümlədən qeyri-məhkəmə orqanları və mübahisələrin alternativ həlli metodları nəzərdən keçirilir.

# 2.1. Məhkəmələr vasitəsilə ədalət mühakiməsinə çatım

## Əsas məqamlar

- AİHK-ın 6-cı maddəsi və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi ədalətli məhkəmə araşdırması hüququnu təmin edir.
- AİHM qərarlarında bildirib ki, ədalətli məhkəmə araşdırması hüququ məhkəməyə müraciət hüququnu özündə ehtiva edir. 6-cı maddə daxili qanunvericilikdə müəyyən edilmiş cinayət ittihamlarına və mülki hüquq və vəzifələrlə bağlı mübahisələrə tətbiq edilir.
- Xartiyanın 47-ci maddəsi məhkəmələrə müraciət hüququnu əhatə edir. Onun tətbiqi təkcə cinayət ittihamları və mülki hüquq və vəzifələrlə məhdudlaşmır; amma bununla belə, ölkədaxili səviyyədə Xartiya yalnız üzv dövlətlərin Aİ qanunvericiliyini tətbiq etdikləri (və ya bu qanunvericilik üzrə öhdəliklərindən geri çəkildikləri) hallara şamil olunur.
- Həm AŞ hüququnda, həm də Aİ hüququnda "məhkəmə" terminini bildirmək üçün ingiliscə "court" sözündən daha çox "tribunal" sözü işlənir, lakin bunlar ekvivalent terminlərdir. Məhkəmə orqanı məhkəmə funksiyalarına malik olmalı, icrası məcburi olan qərarlar qəbul etmək səlahiyyətinə malik olmalı və AİHM və AİƏM tərəfindən formalaşdırılmış digər meyarlara cavab verməlidir, o cümlədən müstəqil və qərəzsiz olmalıdır. AİHM və AİƏM hər hansı orqanın məhkəmə hesab edilmək üçün müvafiq tələblərə cavab verib-vermədiyini müəyyənləşdirməkdən ötrü müvafiq prinsiplər müəyyən ediblər.
- Məhkəməyə müraciət hüququ mütləq (qeyri-məhdud) hüquq deyil. O, məhdudlaşdırıla bilər, amma məhdudiyyətlər bu hüququn mahiyyətinə xələl gətirməməlidir.

### 2.1.1. Məhkəməyə müraciət hüququ

Həm AŞ hüququna, həm də Aİ hüququna əsasən məhkəməyə müraciət hüququ o deməkdir ki, məhkəmələr əlçatan olmalıdır. Əlçatanlıq müvafiq yurisdiksiyalı məhkəmələrin mövcudluğunu, tərcümənin əlçatan olmasını, informasiyalara çıxışın və məhkəmə qərarları ilə tanışlıq imkanının olmasını özündə ehtiva edə bilər. O həmçinin məhkəmənin yerinin coğrafi baxımdan uzaqlığını özündə ehtiva edə bilər, belə ki, məhkəmənin yerləşdiyi yerin uzaqlığı prosesdə ərizəçilərin səmərəli iştirakına əngəl törədə bilər [27] (həmçinin əlillər barəsindəki 8.1-ci bölməyə bax).

27 AİƏM, C-567/13, Nóra Baczó and János István Vizsnyiczai v. Raiffeisen Bank Zrt, 12 fevral 2015-ci il, 56-57-ci bəndlər. Həmçinin bax: AİƏM, C-413/12, Asociación de Consumidores Independientes de

Məhkəmələrin qanunsuz praktikaya qarşı müdafiəni təmin etdiklərini və qanunun aliliyini qoruduqlarını nəzərə alsaq, məhkəməyə müraciət hüququ ədalət mühakiməsinə çatımın mühüm elementidir.[28] AŞ hüququna əsasən, AİHK-ın 6-cı maddəsi (1-ci bənd) tələb edir ki: "hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna" malik olmalıdır. Məhkəməyə müraciət imkanının olması ədalətli məhkəmə araşdırması hüququndan irəli gəlir, çünki bu hüquq mübahisələrin məhkəmələr tərəfindən həllini nəzərdə tutur. Dövlətlər müəyyən növ məhkəmələri, məsələn, apellyasiya məhkəmələrini yaratmağa borclu deyillər. Lakin dövlət belə məhkəmələri yaradıbsa, o halda 6-cı maddə onlara şamil olunur. [29]

Nümunə: Qolder Birləşmiş Krallığa qarşı məhkəmə işində[30] ərizəçi onu həbsxanadakı qiyamda iştirak etməkdə ittiham edən həbsxana əməkdaşının ona böhtan atdığını bildirərək həmin əməkdaşa qarşı məhkəmə prosesinə başlamaq istəyən məhbus idi. Onun vəkildən məsləhət almasına icazə verilməmişdi ki, bu da onun iddia etdiyinə görə məhkəmələrdə iş qaldırmasına əngəl törətmişdi.

AİHM qərara aldı ki, 6-cı maddə məhkəmə prosesində tərəflərin sərəncamında olan prosessual təminatları müəyyən edir. Məhkəməyə müraciət etmək imkanı mövcud olmasaydı, onlar mənasız olardı. Beləliklə, məhkəməyə müraciət hüququ AİHK-ın 6-cı maddəsində (1-ci bənd) nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması hüququndan irəli gəlir.

AİHK-a əsasən, hüquqlar "nəzəri və xəyali" deyil, "praktiki və səmərəli" olmalıdır. [31] Məhkəməyə müraciət hüququnun səmərəli olması üçün dövlətlər fərdlərə hüquqi yardımı, tərcümə xidmətini və ya digər praktiki dəstəyi təmin etmək öhdəliyi daşıya bilərlər ki, məhkəmə prosesi onlar üçün əlçatan olsun (hüquqi yardım barəsindəki 3-cü fəslə və hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ barəsindəki 4-cü fəslə bax).

---

Castilla y León v. Anuntis Segundamano España SL, 5 dekabr 2013-cü il, 41-ci bənd. Həmçinin əlavə məlumat üçün bax: Avropa Şurası, Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) (2013), Keyfiyyətli ədliyyə sistemi çərçivəsində ədalət mühakiməsinə çıxışa yardım üçün məhkəmə sxemlərinin yaradılmasına dair rəhbər prinsiplər, 21 iyun 2013-cü il; Avropa Şurası, CEPEJ (2014), Məhkəmə binalarının təşkilinə və əlçatanlığına dair rəhbər prinsiplər, 12 dekabr 2014-cü il; Avropa Şurası, CEPEJ (2008), Ədalət mühakiməsinin və məhkəmələrin keyfiyyətinin artırılması üçün yoxlanış vərəqəsi, 3 iyul 2008-ci il – misal üçün həmin mənbədə tərcümənin əlçatan olması, informasiyalara çıxışın və məhkəmə qərarları ilə tanışlıq imkanının olması məsələlərinin yer aldığı 19-25-ci səhifələrə bax.

28 AİHM, Beleş və başqaları Çex Respublikasına qarşı, ərizə № 47273/99, 12 noyabr 2002-ci il.

29 AİHM, Xalfaui Fransaya qarşı, ərizə № 34791/97, 14 dekabr 1999-cu il, 37-ci bənd.

30 AİHM, Qolder Birləşmiş Krallığa qarşı, ərizə № 4451/70, 21 fevral 1975-ci il. Cinayət işlərində məhkəməyə müraciət hüququ üçün, məsələn, bu işə bax: AİHM, Yanoseviç İsveçə qarşı, ərizə № 34619/97, 23 iyul 2002-ci il, 80-ci bənd.

31 AİHM, Artiko İtaliyaya qarşı, ərizə № 6694/74, 13 may 1980-ci il, 33-cü bənd.

AİHK-ın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət hüququ ərizəçiyə qarşı "cinayət ittihamlarına" aid işlərlə və ya "mülki hüquq və vəzifələrə" aid mübahisələrlə məhdudlaşır. Bu terminlərin hər ikisi milli hüquq sistemlərində hansı kateqoriyaların tətbiq edilməsindən asılı olmayaraq müstəqil məna daşıyır.[32]

"Cinayət ittihamının" mövcudluğunu müəyyənləşdirərkən aşağıdakı meyarlar nəzərə alınmalıdır:

- hüquq pozuntusunun ölkədaxili hüquq sistemindəki təsnifatı;
- hüquq pozuntusunun xarakteri;
- cəzanın potensial xarakteri və ağırlığı.[33]

Bunlar məcmu halında deyil, alternativ qaydada götürülən meyarlardır.[34] Lakin ayrıca bir meyar barəsində dəqiq nəticəyə gəlmək mümkün deyilsə, məcmu (ümumi) yanaşma zəruri ola bilər.[35] Dövlətlər cinayət hüququ, inzibati hüquq və ya intizam hüququ arasında fərq qoya bilərlər, amma bu fərq 6-cı maddənin predmet və məqsədinə təsir göstərmir.[36] Cinayət cəzaları adətən cəzalandırıcı xarakter daşıyır.[37] Bununla belə, cəzanın ağır olmaması onu "mahiyyətinə görə cinayət cəzası" olmaqdan məhrum etmir.[38] Qərar qəbul etməzdən əvvəl müvafiq meyarları tətbiq etmək lazımdır.

Qeyri-cinayət proseslərinə AİHK-ın 6-cı maddəsinin tətbiq edilə bilməsi üçün ölkədaxili qanunvericilikdə müəyyən edilmiş mülki hüquq və ya vəzifə ilə bağlı mübahisə mövcud olmalıdır, həmin mülki hüququn AİHK-la qorunub-qorunmaması əhəmiyyət daşımır. Mübahisə həqiqi və ciddi xarakter daşımalı və prosesin nəticəsi həmin hüquq üçün birbaşa həlledici əhəmiyyət daşımalıdır.[39] Müəyyən işlərdə AİHM müxtəlif məhkəmə proseslərinin mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsinə aid olmadığını qərara alıb, buraya vergilərlə bağlı qeyri-cinayət xarakterli məhkəmə prosesi;[40] əcnəbilərin ölkəyə daxil olması, orada qalması və deportasiya olunması barədə qərarlar;[41] və seçkidə namizəd qismində iştirak etmək hüququ ilə bağlı məhkəmə prosesi daxildir.[42]

---

32 Cinayət ittihamları ilə əlaqədar bax: AİHM, Engel və başqaları Niderlanda qarşı, ərizələr № 5100/71, 5101/71, 5102/71, 5354/72 və 5370/72, 8 iyun 1976-cı il, 81-ci bənd. Mülki hüquq və vəzifələrlə əlaqədar bax: AİHM, Köniq Almaniyaya qarşı, ərizə 6232/73, 28 iyun 1978-ci il, 88-89-ci bəndlər.

33 AİHM, Engel və başqaları Niderlanda qarşı, ərizələr № 5100/71, 5101/71, 5102/71, 5354/72 və 5370/72, 8 iyun 1976-cı il, 81-85-ci bəndlər.

34 AİHM, Ziliberberq Moldovaya qarşı, ərizə № 61821/00, 1 fevral 2005-ci il, 31-ci bənd.

35 AİHM, Eze və Konnors Birləşmiş Krallığa qarşı [BP], ərizələr № 39665/98 və 40086/98, 9 oktyabr 2003-cü il, 86-cı bənd.

36 AİHM, Veber İsveçrəyə qarşı, ərizə № 11034/84, 22 may 1990-cı il, 30-cu bənd.

37 AİHM, Öztürk Almaniyaya qarşı, ərizə № 8544/79, 21 fevral 1984-cü il, 53-cü bənd.

38 Yenə orada, 54-cü bənd.

39 AİHM, Bulua Lüksemburqa qarşı [BP], ərizə № 37575/04, 3 aprel 2012-ci il, 90-cı bənd.

40 AİHM, Ferrazzini İtaliyaya qarşı [BP], ərizə № 44759/98, 12 iyul 2001-ci il, 29-cu bənd.

41 AİHM, Maauyya Fransaya qarşı [BP], ərizə № 39652/98, 5 oktyabr 2000-ci il, 40-cı bənd.

42 AİHM, Pyer-Bloş Fransaya qarşı, ərizə № 24194/94, 21 oktyabr 1997-ci il, 49-52-ci bəndlər.

Məhkəməyə müraciət hüququ mütləq (qeyri-məhdud) hüquq deyil. O məhdudlaşdırıla bilər. Məsələn, işə baxılmasının ağlabatan müddət ilə məhdudlaşdırılması ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə kömək edə bilər. Bundan əlavə, məhkəmə rüsumlarının ödənilməsi tələbi əsassız iddia ərizələrinin verilməsini aradan qaldıra bilər, yaxud bu tələbə büdcə mülahizələri ilə haqq qazandırmaq olar.[43] Lakin məhdudiyyətlər "hüququn mahiyyətinə" xələl gətirməməlidir.[44] Məsələn, məhkəmə icraatında uzunmüddətli fasilənin olması məhkəməyə müraciət hüququna xələl gətirə bilər, çünki bu, fərdin mübahisənin "həllinə" nail olmasına əngəl törətmiş olur.[45] Məqbul sayıla bilən məhdudiyyətlər daha sonra 6-cı fəsildə müzakirə olunur.

**Aİ hüququna gəlincə,** Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində deyilir: "Hər kəs öncədən qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Hər kəs hüquqi məsləhətlər almaq, müdafiə olunmaq və təmsil edilmək imkanına malik olmalıdır".[46] 47-ci maddə Aİ hüququndan irəli gələn bütün hüquq və azadlıqlara şamil olunur; Xartiyaya dair izahatlarda təsdiq edilir ki, bu maddədəki hüquqlar AİHK-ın 6-cı maddəsində (1-ci bənd) yer alan hüquqlarla əsasən üst-üstə düşür, amma 6-cı maddənin tətbiq dairəsini mülki hüquq və vəzifələrlə məhdudlaşdıran norma bu maddədə yoxdur.[47] Beləliklə, 47-ci maddə AİHK-ın 6-ci maddəsində təqdim edilən müdafiəni ən azı Aİ hüququndan irəli gələn bütün hüquq və azadlıqlara münasibətdə təmin edir.[48] Bu birbaşa əlaqə o deməkdir ki, əgər başqa hal nəzərdə tutulmayıbsa, AŞ hüququ ilə tənzimlənən hallar Aİ hüququ üçün də aktual ola bilər. Lakin 1-ci fəsildə qeyd edildiyi kimi, Fundamental hüquqlar haqqında Aİ Xartiyası ölkədaxili səviyyədə yalnız üzv dövlətlərin Aİ qanunvericiliyini tətbiq etdikləri (və ya bu qanunvericilik üzrə öhdəliklərindən geri çəkildikləri) hallara şamil olunur.[49]

Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində Aİ-nin belə bir hüquqi prinsipi təsbit olunub ki, üzv dövlətlər fərdin İttifaq qanunvericiliyindən irəli gələn hüquqlarının (Xartiyada yer alan hüquqlar da daxil olmaqla) səmərəli məhkəmə müdafiəsini təmin etməlidirlər. Bu isə o deməkdir ki, məhkəməyə müraciət hüququ Aİ qanunvericiliyi ilə təmin edilən hüquq və azadlıqlardan söhbət getdiyi hər bir hala şamil olunur. Aİ qanunvericiliyində müəyyən edilmiş hüquq

43 AİHM, Eşinqdeyn Birləşmiş Krallığa qarşı, ərizə № 8225/78, 28 may 1985-ci il, 57-ci bənd.
44 Yenə orada
45 AİHM, Kutiç Xorvatiyaya qarşı, ərizə № 48778/99, 1 mart 2002-ci il, 25-ci bənd.
46 Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi həmçinin AİƏM-in özü tərəfindən təqdim edilən məhkəmə müdafiəsi üçün aktuallıq kəsb edir.
47 AİƏM, C 619/10,Trade Agency Ltd v. Seramico Investments Ltd, 6 sentyabr 2012-ci il, 52-ci bənd.
48 AİƏM, C-199/11, Europese Gemeenschap v. Otis NV and Others, 6 noyabr 2012-ci il, 47-ci bənd.
49 6-cı maddənin məhdud tətbiq dairəsi ilə bağlı, məsələn, bu işlərə bax: AİHM, Maauyya Fransaya qarşı [BP], ərizə № 39652/98, 5 oktyabr 2000-ci il. 47-ci maddənin tətbiq dairəsi ilə bağlı bu işə bax: AİƏM, C-370/12, Thomas Pringle v. Government of Ireland, Ireland and the Attorney General, 27 noyabr 2012-ci il, 178-182-ci bəndlər.

və azadlıqlara riayət edilməsini təmin edən hüquqi müdafiə vasitələri və hüquqi prosedurlar sistemini yaratmaq vəzifəsi Aİ-yə üzv olan dövlətlərin üzərinə düşür. [50] Milli qanunvericilik bu hüquqların məhkəmə qaydasında səmərəli müdafiəsinə xələl gətirməməlidir.[51]

Nümunə: *Boxus v. Région wallonne* məhkəmə işində[52] Valloniya parlamenti tərəfindən qəbul edilən və məhkəmə nəzarəti qaydasında mahiyyəti üzrə yenidən baxılması mümkünsüz olan qanunvericilik aktı (dekret) vasitəsilə layihənin icrasına icazə verildikdən sonra Belçika məhkəməsi "Ətraf mühitə təsirlərin qiymətləndirilməsi haqqında direktiv"lə bağlı məsələ qaldırmışdı.

AİƏM təsdiq etdi ki, ayrı-ayrı prosessual hüquqların məhkəmə qaydasında səmərəli müdafiəsini təmin etmək üçün həmin qanunvericilik aktının qəbulu üzərində nəzarət səlahiyyətinin olması zəruri idi, baxmayaraq ki, bu səlahiyyət milli qanunvericilikdə nəzərdə tutulmamışdı.

AŞ hüququnda olduğu kimi, Aİ qanunvericiliyində də məhkəməyə müraciət hüququ mütləq (qeyri-məhdud) hüquq deyil. O, ədalət mühakiməsinin səmərəli şəkildə həyata keçirilməsini təmin etməyə yönələn milli prosedurlar vasitəsilə məhdudlaşdırıla bilər. Məqbul sayıla bilən məhdudiyyətlər daha sonra 6-cı fəsildə müzakirə olunur.

Transsərhəd situasiyalarında məhkəmələrə müraciət imkanlarını asanlaşdırmaq üçün beynəlxalq xüsusi hüquq sisteminə aid olan ikinci dərəcəli bir neçə qanunvericilik aktları qəbul edilib ki, bunda da məqsəd belə situasiyalarda hansı üzv dövlətin məhkəmələrinin mülki hüquqi mübahisəni həll etmək səlahiyyətinə malik olduğunun müəyyənləşdirilməsinə kömək etməkdir. Bu aktlar mülki hüquq sahəsinə aid işlərin hansı məhkəmənin yurisdiksiyasına aid olması, bu işlərə hansı qanunvericiliyin tətbiq edilməli olması, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi kimi məsələləri əhatə edir; aşağıdakılar buna misal ola bilər: mülki və kommersiya hüququna, ailə-nikah hüququna və valideynlərin məsuliyyətinə aid işlərdə məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi, həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi (həmçinin 6.3-cü bölməyə bax).[53]

---

50 AİƏM, C-432/05, Unibet (London) Ltd and Unibet (International) Ltd v. Justitiekanslern, 13 mart 2007-ci il, 37-42-ci bəndlər.

51 AİƏM, C-279/09, DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland, 22 dekabr 2010-cu il, 59-cu bənd.

52 AİƏM, birləşdirilmiş işlər, C-128/09 – C-131/09, C-134/09 və C-135/09, Antoine Boxus, Willy Roua, Guido Durlet and Others, Paul Fastrez, Henriette Fastrez, Philippe Daras, Association des riverains et habitants des communes proches de l'aéroport BSCA (Brussels South Charleroi Airport) (ARACh), Bernard Page, Léon L'Hoir, Nadine Dartois v. Région wallonne, 18 oktyabr 2011-ci il, 49-57-ci bəndlər.

53 "Mülki və kommersiya hüququ işlərində məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi, həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 22 dekabr 2000-ci il tarixli (EC) 44/2001 saylı Reqlamenti, OJ 2001 L 12; "Mülki və kommersiya hüququ işlərində məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi, həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 12 dekabr 2012-ci il tarixli (EU) 1215/201q saylı Reqlamenti (yenilənmiş versiya), OJ 2012

## 2.1.2. "Məhkəmə" termininin anlayışı

Həm AŞ hüququnda, həm də Aİ hüququnda "məhkəmə"ni bildirən termin kimi "court" sözündən daha çox "tribunal" sözü işlənir. "Məhkəmə" ("tribunal") sözü müstəqil (avtonom) məna daşıyır və AİHM və AİƏM tərəfindən tətbiq edilən ardıcıl prinsiplər hansı orqanın məhkəmə hesab edilməli olduğunu müəyyənləşdirir.

AŞ hüququna əsasən, məhkəmə orqanı özünün məhkəmə funksiyası ilə xarakterizə olunur. [54] Onun "klassik tipli" məhkəmə olması vacib deyil. [55] Məhkəmə məhdud sayda konkret məsələlərin (məsələn, kompensasiya məsələsinin) həlli üçün yaradılmış orqan ola bilər, bu şərtlə ki, o, lazımi təminatları təmin etməlidir.[56]

Nümunə: *"Yulius Kloyber Şlaxtxof GmbH" və başqaları Avstriyaya qarşı* məhkəmə işində[57] ərizəçi şirkətlər mal-qaranın və donuzların kəsimini həyata keçirirdilər və bunun üçün milli kənd təsərrüfatı marketinqi qurumuna (AMA) kənd təsərrüfatı marketinqi vergilərini ödəməli idilər. AMA ödəniş tapşırığı sənədini təqdim etmiş və orada göstərilən ödənişin edilməməsinə görə cərimə tətbiq etmişdi. Ərizəçilər bu qərardan apellyasiya şikayəti verərək şifahi dinləmələrin keçirilməsini tələb etmişdilər. Apellyasiya orqanı qismində hərəkət edən federal nazir dinləmə keçirmədən onların şikayətlərini rədd etmişdi. Ərizəçilər şikayət etdilər ki, onların işi məhkəmə orqanı tərəfindən həll olunmayıb.

AİHM bir daha bildirdi ki, məhkəmə orqanı özünün məhkəmə funksiyası ilə xarakterizə olunur, yəni qanunvericiliyi tətbiq etməklə və orada nəzərdə tutulan qaydada iş üzrə icraatı həyata keçirməklə səlahiyyəti daxilində olan məsələləri həll edir. Məhkəmə üçün müəyyən edilən digər tələblər bunlardır: müstəqillik, qərəzsizlik, məhkəmə orqanının üzvlərinin səlahiyyət müddəti və prosessual təminatların mövcudluğu – həmin təminatların bir neçəsi 6-cı maddənin mətnində yer alıb. Məhkəmə qərara aldı ki, nə AMA, nə də nazir məhkəmə orqanı hesab edilə bilməz və bu işdə 6-cı maddə (1-ci bənd) pozulub.

---

L 351 (Danimarka bu versiyanı təsdiqləməyib); "Vərəsəlik məsələlərində məhkəmə yurisdiksiyası, tətbiq edilə bilən qanunvericilik, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi və autentik sənədlərin qəbulu və icrası və Avropa vərəsəlik şəhadətnaməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının (EU) 650/2012 saylı Reqlamenti, OJ 2012 L 201/107; Ailə-nikah hüququna və valideynlərin məsuliyyətinə aid işlərdə məhkəmə yurisdiksiyası, tətbiq edilə bilən qanunvericilik, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə Aİ Şurasının (EC) 2201/2003 saylı Reqlamenti, 27 noyabr 2003-cü il, OJ 2003 L 338/1; yaxud Aliment öhdəlikləri ilə əlaqədar işlərdə məhkəmə yurisdiksiyası, tətbiq edilə bilən qanunvericilik, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi və əməkdaşlıq barədə Aİ Şurasının (EC) 4/2009 saylı Reqlamenti, 18 dekabr 2003-cü il, OJ 2009L 7/1.

54 AİHM, Belilos İsveçrəyə qarşı, ərizə № 10328/83, 29 aprel 1988-ci il, 64-cü bənd.

55 AİHM, Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il, 76-cı bənd.

56 AİHM, Belilos İsveçrəyə qarşı, ərizə № 10328/83, 29 aprel 1988-ci il, 64-cü bənd.

57 AİHM, "Yulius Kloyber Şlaxtxof GmbH" və başqaları Avstriyaya qarşı, ərizələr № 21565/07, 21572/07, 21575/07 və 21580/07, 4 aprel 2013-cü il.

Müvafiq təminatlara bunlar daxildir:

- icrası məcburi olan qərarlar qəbul etmək səlahiyyətinə malik olmaq;[58]
- prosedurları nəzərdə tutulan qaydada həyata keçirdikdən sonra qanunvericilik normaları əsasında səlahiyyəti daxilində olan işlər üzrə qərarlar vermək;[59]
- icraatındakı işi həll etmək üçün tam yurisdiksiyaya malik olmaq;[60]
- müstəqil və qərəzsiz olmaq (2.2-ci bölməyə bax).

Məhkəmələr "qanun əsasında yaradılmalıdır". Bu o deməkdir ki, dövlətlər milli məhkəmələrin yaradılmasını və funksiyalarının həyata keçirilməsini müəyyən edən konkret qanunlar qəbul etməyə borcludurlar. Bu, məhkəmə fəaliyyətlərinin daimiliyini tələb edir ki, bununla da tərəflər arasındakı razılaşma əsasında fəaliyyət göstərərək məhkəmə funksiyasını yerinə yetirən orqanlar bu halda istisna olunur. Bununla belə, məhdud sayda müəyyən işlərin həlli üçün yaradılmış orqan məhkəmə sayıla bilər, bu şərtlə ki, o, lazımi təminatları təmin etməlidir.[61] Əgər inzibati orqan 6-cı maddədə (1-ci bənddə) yer alan təminatları təmin etmirsə, onları təmin edən məhkəmə orqanına inzibati orqanın qərarından şikayət etmək hüququ mövcud olmalıdır.[62]

Hər hansı orqan məhkəmə funksiyalarından başqa digər funksiyaları (məsələn, inzibati, intizam və ya məşvərətçi funksiyalarını) da yerinə yetirirsə, yenə də məhkəmə sayıla bilər, amma məhkəmə və icra hakimiyyəti funksiyalarının hər ikisini yerinə yetirməməlidir.[63] Bundan əlavə, məhkəmələrin üzvləri arasında qeyri-hüquqşünaslar və ya qeyri-məhkəmə funksiyalarını yerinə yetirən şəxslər ola bilər, bu şərtlə ki, onlar müstəqillik və qərəzsizlik tələblərinə cavab verməlidirlər.[64] Nəticə etibarı ilə hər hansı orqanı məhkəmə hesab edib-etməmək barədə qərar vermək işin faktlarından asılıdır. Belə qərar yuxarıda qeyd edilən prinsipləri tətbiq etməklə qəbul edilir. Məsələn, yalnız məsləhət rəyləri qəbul edən orqana[65] məhkəmə anlayışı şamil olunmur, amma müəyyən məsələlərin həlli üçün lazımi təminatları təmin edən arbitraj orqanı məhkəmə sayıla bilər.[66] Ədalət mühakiməsinə çatımın digər formalarının əlavə müzakirəsi üçün 2.4-cü bölməyə bax.

---

58 AİHM, Bentem Niderlanda qarşı, ərizə № 8848/80, 23 oktyabr 1985-ci il, 40 və 43-cü bəndlər.
59 AİHM, Sramek Avstriyaya qarşı, ərizə № 8790/79, 22 oktyabr 1984-cü il, 36-cı bənd.
60 AİHM, Qalina Kostova Bolqarıstana qarşı, ərizə № 36181/05, 12 noyabr 2013-cü il, 59-cu bənd.
61 AİHM, Litqou və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 9006/80, 9262/81, 9263/81, 9265/81, 9266/81, 9313/81 və 9405/81, 8 iyul 1986-cı il, 201-ci bənd.
62 AİHM, Alber və Le Kont Belçikaya qarşı, ərizələr № 7299/75 və 7496/76, 10 fevral 1983-cü il.
63 AİHM, Bentem Niderlanda qarşı, ərizə № 8848/80, 23 oktyabr 1985-ci il, 43-cü bənd.
64 AİHM, Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il, 81-ci bənd. Məhkəmədə qeyri-hüquqşünas hakimlərin iştriakı ilə bağlı bu işədə bax: AİHM, İbrahim Gürkan Türkiyəyə qarşı, ərizə № 10987/10, 3 iyul 2012-ci il, 18-ci bənd.
65 AİHM, Bentem Niderlanda qarşı, ərizə № 8848/80, 23 oktyabr 1985-ci il.
66 AİHM, Litqou və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 9006/80, 9262/81, 9263/81, 9265/81, 9266/81, 9313/81 və 9405/81, 8 iyul 1986-cı il.

Aİ qanunvericiliyinə əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi məhkəmə vasitəsilə ədalətli məhkəmə araşdırması hüququnu təmin edir. AİƏM "məhkəmə" termininin mənasına aydınlıq gətirərkən bildirib ki, müəyyən orqanın məhkəmə hesab edilməli olub-olmadığı barədə qərar həmin orqanın ilkin qərar çıxarılması üçün AİƏM-ə müraciət etmək səlahiyyətinə malik olub-olmaması nəzərə alınmaqla verilir, milli məhkəmələr və tribunallar bu cür müraciəti edə bilərlər (ədalət mühakiməsinə çatım barəsindəki 1-ci fəslə bax).[67] Bu baxımdan işi ilkin qərar üçün AİƏM-ə təqdim edən orqanın məhkəmə sayılması üçün həmin orqan:

- qanun əsasında yaradılmalı;
- daimi orqan olmalı;
- müstəqil və qərəzsiz olmalı (aşağıya bax);
- çəkişmə xarakterli prosedurları özündə ehtiva etməli;
- iş üzərində məcburi yurisdiksiyaya malik olmalı;
- qanunvericilik normalarını tətbiq etməlidir.[68]

Bu orqandakı prosedurlar məhkəmə qərarı xarakteri daşıyan qərarların çıxarılması ilə nəticələnməlidir. [69]

Nümunə: *"Epitropos tou Elegktikou Synedriou sto Ypourgio Politismou kai Tourismouv. Ypourgeio Politismou kai Tourismou - Ypiresia Dimosionomikou Elenchou"* məhkəmə işində[70] ərizəçi (*Elegktiko Synedrio – Yunanıstan Auditorlar Məhkəməsi*) dövlət sektoru işçilərinin həmkarlar ittifaqının işləri ilə məşğul olmaq üçün məzuniyyət götürmələrinə icazə verən milli hüquq normalarının Aİ qanunvericiliyinə uyğunluğu məsələsini qaldırmışdı. Bu işdə AİƏM Elegktiko Synedrio-nun Aİ-nin fəaliyyəti haqqında müqavilənin 267-ci maddəsində nəzərə tutulmuş məhkəmə orqanı olub-olmadığını nəzərdən keçirməli idi.

AİƏM qərara aldı ki, bu orqan məhkəmə deyil, çünki: i) onun nazirliklə əlaqəliliyi vardı, bu isə o demək idi ki, o, baxılan məsələdə neytral üçüncü tərəf qismində hərəkət edə bilməzdi; ii) bəlli idi ki, onun səlahiyyəti dövlət xərclərinin auditi ilə məhdudlaşır və bu və ya digər işləri həll etmək onun səlahiyyətinə aid deyil; iii)

67 Aİ-nin fəaliyyəti haqqında müqavilə, 267-ci maddə. Həmçinin bax: AİƏM, Milli məhkəmələrin ilkin qərar üçün müraciətlərinə dair məlumatlandırıcı qeydlər, 5 dekabr 2009-cu il, OJ C 2009 C 297/01, 9-cu bənd (bu sənəddə təsdiq edilir ki, "Avropa İttifaqı Ədalət Məhkəməsi tərəfindən "məhkəmə" və ya "tribunal" statusu Avropa İttifaqı qanunvericiliyinin müstəqil konsepsiyası kimi şərh edilib").

68 AİƏM, C-54/96, Dorsch Consult Ingenieurgesellschaft mbH v. Bundesbaugesellschaft Berlin mbH, 17 sentyabr 1997-ci il, 23-cü bənd.

69 AİƏM, C-443/09, Camera di Commercio, Industria, Artigianato e Agricoltura (CCIAA) di Cosenza v. Grillo Star Srl., 19 aprel 2012-ci il, 20-21-ci bəndlər.

70 AİƏM, C-363/11, Epitropos tou Elegktikou Synedriou sto Ypourgio Politismou kai Tourismou v. Ypourgeio Politismou kai Tourismou - Ypiresia Dimosionomikou Elenchou, 19 dekabr 2012-ci il, 19-31-ci bəndlər.

onun qərarı qanuni qüvvəyə minən yekun qərar (ret judicata) xarakteri daşımırdı və onun apardığı icraat məhkəmə qərarı xarakteri daşıyan qərarın qəbulu ilə nəticələnmirdi; və iv) xərclərdən faydalanan tərəf Elegktiko Synedrio-nun apardığı icraatın iştirakçısı deyildi.

AŞ hüququnda olduğu kimi Aİ hüququnda da arbitraj orqanları bir qayda olaraq məhkəmə hesab edilmir, çünki onların apardığı icraat fakultativ xarakter daşıyır və orqanların prosedurlarında dövlət orqanları iştirak etmirlər (ədalət mühakiməsinə çatımın digər formaları barəsindəki 2.4-cü bölməyə bax).[71]

Nümunə: *Valeri Hariev Belov v. CHEZ Elektro Balgaria AD and others məhkəmə* işində[72] (Bolqarıstan və Avropa İttifaqı Komissiyası üçüncü tərəf qismində bu işə qatılmışdılar) Bolqarıstanın Ayrı-seçkiliyə Qarşı Müdafiə Komissiyası (KZD) Aİ qanunvericiliyinin ayrı-seçkiliyə və istehlakçıların müdafiəsinə dair ayrı-ayrı normaları ilə bağlı ilkin qərarın qəbulu üçün AİƏM-ə müraciət etmişdi.

AİƏM təsdiq etdi ki, bu və ya digər dövlət orqanı məhkəmə funksiyalarını yetirən yetirdiyi zaman Aİ-nin fəaliyyəti haqqında müqavilənin 267-ci maddəsində nəzərə tutulmuş məhkəmə və ya tribunal kimi təsnifləşdirilə bilər, amma digər funksiyaları, məsələn, inzibati xarakterli funksiyaları yetirən yetirdiyi zaman bu cür təsnifləşdirilə bilməz. Müvafiq olaraq, ilkin qərar üçün AİƏM-ə müraciət edərkən bu orqanın konkret olaraq hansı qisimdə hərəkət etdiyini müəyyənləşdirmək lazım idi. Bu işdə aşağıdakı müxtəlif amillər həmin orqanın apardığı icraatın məhkəmə xarakteri daşıyan qərarın qəbul edilməsi məqsədini daşıdığı barədə iddianın AİƏM tərəfindən rədd edilməsi ilə nəticələndi: KZD öz təşəbbüsü ilə işin icraatını apara bilərdi; onun geniş istintaq səlahiyyətləri vardı; KZD öz təşəbbüsü ilə müxtəlif şəxsləri prosesdə iştiraka cəlb etmək səlahiyyətinə malik idi; onun qərarından apellyasiya şikayəti verildiyi təqdirdə KZD məhkəmə prosesində cavabdeh qismində çıxış edə bilərdi; və KZD öz qərarlarını ləğv edə bilərdi.

71 AİƏM, C-125/04, Guy Denuit and Betty Cordenier v. Transorient - Mosaïque Voyages et Culture SA., 27 yanvar 2005-ci il, 13-cü bənd. Arbitraj orqanının məhkəmə hesab edildiyi iş üçün bax: AİƏM, C-555/13, Merck Canada Inc. v. Accord Healthcare Ltd and Others, 13 fevral 2014-cü il, 18-25-ci bəndlər.

72 AİƏM, C-394/11, Valeri Hariev Belov v. CHEZ Elektro Balgaria AD and others (Bulgaria and the European Commission intervening), 31 yanvar 2013-cü il, 26-cı bənd.

## 2.2. Məhkəmələrin müstəqilliyi və qərəzsizliyi

### Əsas məqamlar

- AŞ hüququ və Aİ hüququ məhkəmələrin müstəqil və qərəzsiz olmasını tələb edir.
- AİƏM və AİHM neytrallığın təmin edilməsi üçün zəruri olan müstəqillik barədə ətraflı qaydalar müəyyən ediblər. Bu qaydalar məhkəmə üzvlərinin təyin olunması qaydasına, onların səlahiyyət müddətinə və kənar təzyiqlərə qarşı təminatların mövcudluğuna aiddir.
- Əks hal sübuta yetirilməyibsə, məhkəmə qərəzsiz sayılır. Qərəzlilik subyektiv (hakimin şəxsi qərəzliliyi formasında) və ya obyektiv (qərəzliliyin zahiri təzahürləri formasında) ola bilər. Subyektiv qərəzliliyi sübut etmək çətindir.

Müstəqillik və qərəzsizlik çox vaxt birlikdə yoxlanılır və bir-biri ilə sıx bağlıdır ki, bu da onları fərqləndirməyi çətinləşdirə bilər.[73] Hər halda müstəqillik bir qayda olaraq məhkəmənin strukturuna aid olduğu halda, qərəzsizlik qərar qəbul edən şəxsin fərdi xarakteristikasını əks etdirir.[74]

### Müstəqillik

AŞ hüququna əsasən, AİHK-ın 6-cı maddəsinə dair presedent hüququnda məhkəmə hakimiyyətinin müstəqilliyinə dair ətraflı qaydalar nəzərdə tutulub ki, bunlar da onu xarici təzyiqlərdən qorumaq və neytrallıq təmin etmək üçün nəzərdə tutulub.[75] Bu qaydalar məhkəmə üzvlərinin təyin olunması qaydasını, səlahiyyət müddətini və kənar təzyiqlərə qarşı təminatların mövcudluğunu əhatə edir. [76]

Nümunə: *Maktuf və Damyanoviç Bosniya və Herseqovinaya qarşı* məhkəmə işində[77] hər iki ərizəçi hərbi cinayətlərə görə Bosniya və Herseqovina Məhkəməsi (Dövlət Məhkəməsi) tərəfindən məhkum edilmişdilər. Dövlət Məhkəməsi beynəlxalq və milli hakimlərdən ibarət idi və hərbi cinayətlərə dair işlər üzrə

73 Misal üçün bax: AİHM, Findli Birləşmiş Krallığa qarşı, ərizə № 22107/93, 25 fevral 1997-ci il, 73-cü bənd.
74 AİHM, Parlov-Tkalčić Xorvatiyaya qarşı, ərizə № 24810/06, 22 dekabr 2009-cu il, 86-87-ci bəndlər.
75 Səlahiyyətli müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ədalətli və açıq məhkəmə araşdırması hüququ ilə bağlı əlavə təfsilatlar üçün bax: BMT, İnsan Hüquqları Komitəsi (İHK) (2007), 32 saylı ümumi şərh, 23 avqust 2007-ci il, 19-23-cü bəndlər.
76 AİHM, Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il, 78-ci bənd.
77 AİHM, Maktuf və Damyanoviç Bosniya və Herseqovinaya qarşı, ərizələr № 2312/08 və 34179/08, 18 iyul 2013-cü il, 48-53-cü bəndlər.

qərar qəbul etmək səlahiyyətinə malik idi. Birinci ərizəçi iddia etdi ki, Dövlət Məhkəməsi müstəqil deyil, çünki onun üzvlərinin ikisi iki il müddətinə Bosniya və Herseqovinanın Yüksək Nümayəndəsinin İdarəsi tərəfindən təyin olunur və yenidən təyin olunmaq hüququna malikdir.

AİHM bu arqumenti rədd etdi. O, Dövlət Məhkəməsinin beynəlxalq hakimlərinin Bosniya və Herseqovinanın siyasi orqanlarından, işdəki tərəflərdən və Yüksək Nümayəndə təsisatından müstəqil olduqlarına şübhə ilə yanaşmaq üçün heç bir əsas olmadığını müəyyən etdi. Onların bu vəzifəyə təyinatı Dövlət Məhkəməsinin hərbi cinayətlər üzrə palatalarının müstəqilliyini möhkəmləndirmək və məhkəmə sisteminə ictimaiyyətin inamını bərpa etmək niyyətindən irəli gəlirdi. Həmin hakimlər müvafiq olaraq öz ölkələrinin peşəkarları arasından seçilmişdilər ki, bu da kənar təzyiqlərə qarşı əlavə təminat təşkil edirdi. Bu işdə AİHK-ın 6-cı maddəsi pozulmamışdı.

Hakimlər icra hakimiyyəti orqanı tərəfindən təyin oluna bilərlər, lakin qanunvericilik onların öz vəzifələrini necə yerinə yetirməli olduqları barədə həmin orqandan təlimat almamalarını təmin etməlidir.[78] Məhkəmənin məcburi hüquqi qüvvəyə malik olan və icrası məcburi olan yekun qərarlarına müdaxilə edilməməlidir.[79]

Hakimlərin təyinat müddətinin nə qədər olması da onların müstəqilliyinə kömək edir. Məhkəmə üzvlərinin bu vəzifəyə ömürlük təyin olunması vacib deyil. Ən əsası odur ki, onların səlahiyyət müddəti sabit olmalı və bu müddət kənar müdaxilələrdən azad olmalıdır. Ən azı, məhkəmənin üzvləri səlahiyyət müddəti ərzində vəzifədən xaric olunmalarına qarşı müdafiə edilməlidirlər.[80] Vəzifədən xaric olunmağa qarşı adekvat təminatların olmaması məhkəmələrin müstəqilliyinə xələl gətirir.[81]

Müstəqilliyin zahiri əlamətləri (təzahürləri) müstəqilliyin olmamasının müəyyənləşdirilməsində önəmlidir, amma həlledici amil deyil.[82] Konkret məhkəmənin müstəqil və ya qərəzsiz olmasına şübhə ilə yanaşmaq üçün əsaslı səbəb olub-olmadığını müəyyənləşdirərkən prosesdəki tərəflərin rəyləri önəmlidir, amma həlledici deyil. Şübhələr obyektiv əsasa malik olmalıdır.[83] Məsələn, icarə müqaviləsinə yenidən baxılması barədə iddianı araşdıran məhkəmənin üzvü olan iki qeyri-hüquqşünas hakim icarənin davam etdirilməsində marağı olan assosiasiyalar tərəfindən təyin edilmişdi və qərəzsizlik məsələləri ilə bağlı ərizəçinin narahatlığı əsaslı idi.[84]

78 AİHM, Bomartan Fransaya qarşı, ərizə № 15287/89, 24 noyabr 1994-cü il, 38-ci bənd.

79 AİHM, DRAFT - OVA a.s. Slovakiyaya qarşı, ərizə № 72493/10, 9 iyun 2015-ci il, 80-86-cı bəndlər.

80 AİHM, Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il, 80-ci bənd.

81 AİHM, Henrik Urban və Rışard Urban Polşaya qarşı, ərizə № 23614/08, 30 noyabr 2010-cu il, 49-53-cü bəndlər. Həmçinin bax: Avropa Şurası, Avropa Hakinlərinin Məşvərət Şurası (AHMŞ) (2001), Məhkəmə hakimiyyətinin müstəqilliyi və hakimlərin dəyişməzliyi ilə bağlı standartlara dair 1 saylı rəy, 23 noyabr 2001-ci il.

82 AİHM, Campbell and Fell v. the United Kingdom, Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il, 81-ci bənd.

83 AİHM, Fruni Slovakiyaya qarşı, ərizə № 8014/07, 21 iyun 2011-ci il, 141-ci bənd.

84 AİHM, Lanqborger İsveçə qarşı, ərizə № 11179/84, 22 iyun 1989-cu il, 35-ci bənd.

Aİ hüququna əsasən, müstəqillik tələbi məhkəmənin üzərinə qərar qəbul edən üçüncü tərəf qismində hərəkət etmək vəzifəsi qoyur, elə bir tərəf ki, inzibati orqanlardan və iş üzrə tərəflərdən müstəqil olsun.[85]

Nümunə: *Graham J. Wilson v. Ordre des avocats du barreau de Luxembourg* məhkəmə işində[86] cənab Uilson milli məhkəmələrdə iş qaldıraraq iddia etmişdi ki, dil tələbini tətbiq etməklə Lüksemburq vəkillərin peşə ixtisası əldə etdiyi dövlətdə deyil, digər üzv dövlətlərdə peşə fəaliyyətləri üçün qeydiyyata alınmaları barədə 98/5/EC saylı direktivin icra edilməsinə qarşı ədalətsiz maneələr yaradıb.[87] Həmin tələbə əsasən, vəkil Vəkillər Şurası tərəfindən keçirilən şifahi dinləmədə iştirak etməli idi. Cənab Uilson iştirakdan imtina etmiş və nəticədə Vəkillər Şurası onu qeydə almaqdan imtina etmişdi. O, yalnız Lüksemburq vətəndaşı olan vəkillərdən təşkil edilmiş İntizam və İnzibati İşlər Komitəsinə bu qərardan şikayət etdi. İnzibati məhkəmə ilkin qərar çıxarılması üçün AİƏM-ə belə bir sorğu ilə müraciət etdi ki, İntizam və İnzibati İşlər Komitəsi kimi apellyasiya orqanı daxili qanunvericiliyə əsasən direktivin 9-cu maddəsində nəzərdə tutulmuş hüquqi müdafiə vasitəsi təşkil edən məhkəmə və ya tribunal sayıla bilərmi?

AİƏM bildirdi ki, məhkəmə işini həll etmək vəzifəsindən irəli gələn müstəqillik şərti o deməkdir ki, məhkəmə etiraz edilən qərarı qəbul etmiş orqana münasibətdə neytral üçüncü tərəf qismində hərəkət etməlidir. Həmçinin müstəqilliyin iki digər aspekti də vardır: i) məhkəmə kənar müdaxilə və ya təzyiqlərdən azad olmalı; və ii) "daxilən qərəzsiz" olmalıdır ki, prosesdəki tərəflər bərabər vəziyyətdə olsunlar.[88]

## Qərəzsizlik

AŞ hüququna və Aİ hüququna əsasən, qərəzsizlik müstəqilliklə sıx qarşılıqlı əlaqəlidir. O, qərar qəbul edənin mübahisələri həll edərkən obyektiv və qərəzsiz olmasını tələb edir.

85 AİƏM,C-24/92, Pierre Corbiau v. Administration des contributions, 30 mart 1993-cü il, 15-ci bənd.

86 AİƏM, C-506/04, Graham J. Wilson v. Ordre des avocats du barreau de Luxembourg, 19 sentyabr 2006-cı il, 47-53-cü bəndlər.

87 Vəkillərin peşə ixtisası əldə etdiyi dövlətdə deyil, digər üzv dövlətdə daimi əsasda peşə fəaliyyətləri ilə məşğul olmasını asanlaşdırmaq üçün Avropa İttifaqı Parlamenti və Şurası tərəfindən 16 fevral 1998-ci ildə qəbul edilmiş 98/5/EC saylı direktiv, OJ 1998 L 77.

88 Kənar təzyiqlərlə bağlı bax: AİƏM, C 103/97, Josef Köllensperger GmbH & Co. KG and Atzwanger AG v. Gemeindeverband Bezirkskrankenhaus Schwaz, 4 fevral 1999-cu il, 21-ci bənd (məhkəmə üzvlərinin vəzifədən çıxarılmnasının şərtləri hüquqa zidd təzyiqlərə qarşı təminat baxımından olduqca qeyri-müəyyən idi). Daxilən qərəzsizliklə bağlı bax: AİƏM, C-407/98, Katarina Abrahamsson and Leif Anderson v. Elisabet Fogelqvist, 6 iyul 2000-ci il, 32-ci bənd (dövlətin konstitusiyasında obtektiv qərəzsizliyin qorunmasına dair müddəalar vardı).

Nümunə: *İbrahim Gürkan v. Türkiyəyə qarşı* məhkəmə işində[89] hərbi cinayət məhkəməsi ərizəçini bilərəkdən rəisin əmrinə tabe olmamağa görə iki il yarım müddətinə azadlıqdan məhrum etmişdi. Məhkəmənin tərkibi hüquqi təhsili olmayan bir hərbçidən və iki hərbi hakimdən ibarət idi.

AİHM bildirdi ki, qeyri-hüquqşünas hakimlərin prosesdə iştirakı heç də 6-cı maddəyə zidd deyil və hərbçinin hüquqşünas ixtisasının olmaması onun müstəqilliyinə və ya qərəzsizliyinə mane olmur. Lakin hərbçi orduda qalaraq qulluq edirdi və hərbi nizam-intizama tabe idi. O, bu prosesə rəisləri tərəfindən təyin olunmuşdu və onun müstəqilliyinin iki hərbi hakimlə eyni konstitusion təminatları yox idi. Buna görə də hərbi cinayət məhkəməsi müstəqil və qərəzsiz sayıla bilməzdi.

Qərəzsizliyin iki elementi var:

- konkret hakimin şəxsi tərəfkeşliyi və ya qərəzliliyi ilə bağlı subyektiv element;
- qərəzliliyin zahiri əlamətləri (təzahürləri) kimi məsələlərlə bağlı obyektiv element.[90]

Əks hal sübuta yetirilməyibsə, belə hesab edilir ki, məhkəmə şəxsi qərəzlilikdən azaddır.[91] Subyektiv qərəzliliyin sübut edilməsi üçün konkret hakimin konkret işlə bağlı müəyyən şəxsi düşüncələrinin müəyyənləşdirilməsi tələb olunur, bunu etmək isə çox çətindir. Subyektiv qərəzliliyin nümunələrinə aşağıdakılar aiddir: hakimin düşmənçiliyini və ya bədxah mövqeyini göstərən əlamətlər, yaxud hakimin şəxsi səbəblərdən məhkəmə işinin ona tapşırılmasını təşkil etdiyini göstərən sübut.[92] Buna görə də hakimin qərəzsiz olmadığının iddia edildiyi halların böyük əksəriyyətində obyektiv qərəzsizlik meyarı yoxlanılır, həmin meyar hakimin qərəzsizliyi ilə bağlı hər hansı haqlı şübhəni istisna edən yetərli təminatların olub-olmadığının müəyyənləşdirilməsini nəzərdə tutur.[93] Obyektiv qərəzsizliyin olmamasının nümunələrinə aşağıdakılar aiddir: qarşı tərəfin vəkili ilə hakim arasında sıx ailə bağlarının olması,[94] yaxud hakimlə prosesdəki digər tərəf arasında peşə əlaqələrinin olması.[95] Obyektiv qərəzsizlik həm də o deməkdir ki, qərəzsizliklə bağlı hər hansı haqlı şübhələri istisna edən yetərli təminatlar mövcuddur.[96] Sadəcə olaraq məhkəmənin eyni qərarı qəbul edərkən iki funksiyanı (məşvərətçi və məhkəmə funksiyalarını) yerinə yetirməsi onun struktur baxımından qərəzsizliyinə

89 AİHM, İbrahim Gürkan Türkiyəyə qarşı, ərizə № 10987/10, 3 iyul 2012-ci il, 19-cu bənd.
90 Həmçinin bax: Avropa Şurası, AHMŞ (2002), Hakimlərin etikasına və məsuliyyətinə dair 3 saylı rəy, 19 noyabr 2002-ci il.
91 AİHM, Kiprianu Kiprə qarşı [BP], ərizə № 73797/01, 15 dekabr 2005-ci il, 119-cu bənd.
92 AİHM, Moris Fransaya qarşı [BP], ərizə № 29369/10, 23 aprel 2015-ci il, 74-cü bənd.
93 Yenə orada, 119-cu bənd. Həmçinin bax: AİHM, Qotren və başqaları Fransaya qarşı, ərizə № 21257/93, 20 may 1998-ci il, 58-ci bənd.
94 AİHM, Mikallef Maltaya qarşı [BP], ərizə № 17056/06, 15 oktyabr 2009-cu il, 102-ci bənd.
95 AİHM, Peskador Valero İspaniyaya qarşı, ərizə № 62435/00, 17 iyun 2003-cü il, 27-28-ci bəndlər.
96 AİHM, Fey Avstriyaya qarşı, ərizə № 14396/88, 24 fevral 1993-cü il, 28-ci bənd.

şübhə yarada bilər.[97] Bundan başqa, məhkəmənin apardığı məşvərətlərdə hökumət rəsmisinin iştirakı da 6-cı maddənin pozuntusu hesab edilir.[98] Qərəzliliyə yol verildiyi barədə vəsatətlərə baxarkən məhkəmələr tərəfindən tətbiq edilən prosedurların özü də qərəzlilikdən azad olmalıdır (məsələn, qərəzlilikdə təqsirləndirilən hakimə qarşı şikayətə mahiyyəti üzrə baxılmasını həmin hakimə həvalə etmək olmaz).[99]

Qərəzsizliyin tələb olunan iki aspekti ilə, yəni subyektiv və obyektiv qərəzsizliklə bağlı AİHM-in presedent hüququnda bərqərar olmuş prinsiplər Aİ qanunvericiliyində ardıcıl olaraq rəhbər tutulur. Müstəqillik qərəzsizliyin zəruri ilkin şərti sayılır və bu və ya digər orqanın təşkili və üzvlərinin statusu məsələsində adekvat qaydaların olması tələb olunur. [100]

Nümunə: *Chronopost SA and La Poste v. Union française de l'express* məhkəmə işi[101] infrastruktur məsələsində köməkliyin dövlət yardımı olduğu barədə iddiaya aid idi. İş iki dəfə Birinci İnstansiya Məhkəməsinin (BİM) icraatına verilmiş, onun tərkibi müxtəlif hakimlərdən təşkil olunmuşdu, amma məruzəçi hakim eyni idi. İkinci prosesdəki dinləmədə BİM ilk prosesdəki qərarını təsdiq etdi, yəni həmin köməkliyin dövlət yardımı olduğunu bildirdi. Şikayətçilər iddia etdilər ki, ikinci prosesdə BIM qərəzsiz məhkəmə deyildi, çünki məruzəçi hakim eyni idi və qərar qərəzliliklə çıxarılmışdı.

AİƏM qərəzsizliyin meyarını aşağıdakı kimi müəyyən etdi: i) məhkəmənin üzvləri subyektiv cəhətdən qərəzsiz olmalıdırlar, yəni onların heç biri tərəfkeşlik və ya şəxsi qərəzlilik nümayiş etdirməməlidir (əks sübutlar olmadıqda hesab edilir ki, şəxsi qərəzlilik yoxdur); və ii) məhkəmə obyektiv cəhətdən qərəzsiz olmalı, bunun üçün hər hansı haqlı şübhəni istisna edən yetərli təminatlara malik olmalıdır. Bu işdə AİƏM qərəzlilik iddiasını rədd etdi. Faktlar məhkəmə palatasının təşkilinin qanunsuz olduğunu sübuta yetirmədi.

97 AİHM, Fey Avstriyaya qarşı, ərizə № 14396/88, 24 fevral 1993-cü il, 28-ci bənd.
98 AİHM, Martini Fransaya qarşı [BP], ərizə № 58675/00, 12 aprel 2006-cı il, 53-55-ci bəndlər.
99 AİHM, A.K. Lixtenşteynə qarşı, ərizə № 38191/12, 9 iyul 2015-ci il.
100 AİƏM, C-506/04, Graham J. Wilson v. Ordre des avocats du barreau de Luxembourg, 19 sentyabr 2006-cı il, 53-cü bənd.
101 AİƏM, Birləşdirilmiş işlər C-341/06 P və C-342/06 P, Chronopost SA and La Poste v. Union française de l'express (UFEX) and Others, 1 iyul 2008-ci il, 54-cü bənd.

# 2.3. Ədalətli və açıq məhkəmə araşdırması nədir?

## Əsas məqamlar

- Ədalət mühakiməsinə çatım prosessual baxımdan ədalətli və açıq məhkəmə iclasının keçirilməsini tələb edir.
- Ədalətli və açıq məhkəmə araşdırması hüququ AİHK-ın 6-cı maddəsində (1-ci bənd) və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində təsbit olunub. Bundan əlavə, cinayət prosesində ədalətli məhkəmə araşdırmasının konkret təminatlarını AİHK-ın 6-cı maddəsində (2-ci və 3-cü bəndlər) və Xartiyanın 48-ci maddəsində tapmaq olar.
- Ədalətli məhkəmə araşdırması hüququ mahiyyət etibarı ilə tərəflərin bərabərliyi hüququnu, prosesin çəkişmə xarakteri daşıması hüququnu və əsaslandırılmış qərarın çıxarılması hüququnu, eləcə də yekun qərarın icrasının təmin edilməsi hüququnu özündə ehtiva edir.
- Açıq məhkəmə araşdırması məhkəmə hakimiyyəti üzərində nəzarəti təmin edir. Açıq məhkəmə araşdırması hüququ həmçinin şəxsin məhkəmə iclasında iştirak etmək və sübutları dinləmək hüququna malik olmasını tələb edir.

AŞ hüququna əsasən, AİHK-ın 6-cı maddəsində nəzərdə tutulmuş ədalətli və açıq məhkəmə araşdırması hüququ cinayət ittihamlarına aid işlərə və mülki hüquq və vəzifələrlə bağlı mübahisələrə şamil olunur (2.1-ci bölməyə bax). Aİ qanunvericiliyinə gəlincə, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsinə əsasən bu hüquq Aİ qanunvericiliyindən irəli gələn bütün hüquq və azadlıqlarla bağlı icraatlara şamil olunur.

Ədalətli məhkəmə araşdırması hüququna aid presedent hüququ çox genişdir. Bu bölmədə bu hüququn bir neçə əsas xüsusiyyətləri müzakirə olunur ki, buraya tərəflərin bərabərliyi hüququ, prosesin çəkişmə xarakteri daşıması hüququ və əsaslandırılmış qərarın çıxarılması hüququ daxildir. 1-ci fəsildə qeyd edildiyi kimi, AİHM-in presedent hüququ Xartiyadakı hüquqların şərhi üçün, əgər bu hüquqlar AİHK-dakılarla üst-üstə düşürsə, aktuallıq kəsb edir. Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi ədalətli və açıq məhkəmə araşdırması məsələsində AİHK-ın 6-cı maddəsinin ekvivalentidir.

### 2.3.1. Ədalətli məhkəmə araşdırması

AŞ hüququna əsasən, məhkəmə araşdırmasının ədalətli hesab edilib-edilməməsi işin bütün faktlarından, o cümlədən şəxsin ədalət mühakiməsinə çatım imkanına

malik olmasından asılıdır. Bunun üçün iş bütövlükdə (yəni icraatın başlanmasından tutmuş apellyasiya şikayəti üzrə yekun qərarın qəbuluna qədər, həmçinin cinayət işlərində polis tərəfindən dindirilmə də buraya daxildir) nəzərdən keçirilməlidir. [102]AİHK-ın 6-cı maddəsi həmçinin məhkəmə qərarlarının icrasına da şamil olunur, ona görə ki, nəticə etibarı ilə şəxs prosesin sonunda məhkəmə qərarının icrasına nail ola bilməzsə, ədalətli məhkəmə araşdırması hüququ çox az dəyərə malik olar.[103]

## Perspektivli praktika

**Məhkəmədə müştərək iştirak vasitəsilə ədalətli məhkəmə araşdırmasının təmin edilməsi**

Taraskonda (Fransa) uşaqların onlara aid işlərdə iştirak imkanlarını gücləndirmək üçün "məhkəmədə müştərək iştirak" adlandırılan xüsusi praktika formalaşdırılıb. O, mülki proses çərçivəsində hakimlər tərəfindən keçirilən dinləmələrdə sosial işçilərin uşaqlarla birlikdə iştirakına imkan yaradır. Sosial işçinin iştirakı uşaqların öz rəylərini ifadə etmələrinə kömək edir. O həmçinin uşaqlar üçün rahat mühit yaradır. Bu praktika həm də uşaqların cavablarının iki nöqteyi-nəzərdən (hakimin və sosial işçinin nöqteti-nəzərindən) şərh olunmasını təmin edir ki, bununla da dinləmə daha ədalətli olur. Bu layihə "Ədalət mühakiməsinin büllur tərəzisi – 2012" mükafatı ilə əlaqədar olaraq xüsusi qeyd edilib.

*Mənbə: Ədalət mühakiməsinin büllur tərəzisi mükafatı – 2012, Avropa Şurası və Avropa İttifaqı Komissiyası tərəfindən birgə təşkil edilən mükafatlandırma.*

AŞ hüququna və Aİ hüququna əsasən, ədalətli məhkəmə araşdırması hüququnun əsas tələblərindən biri "tərəflərin bərabərliyidir". Tərəflərin bərabərliyi onu nəzərdə tutur ki, tərəflərin hər biri digər tərəfi əlverişsiz vəziyyətə salmayan şərtlər altında iş üzrə mövqeyini təqdim etmək üçün ağlabatan imkana malik olmalıdır. Tərəflər üçün bərabər şərtlərin olmaması ilə bağlı hər hansı şikayət "bütövlükdə 6-cı maddənin (1-ci bənd) işığında nəzərdən keçirilir, çünki tərəflərin bərabərliyi prinsipi daha geniş anlayış olan ədalətli məhkəmə araşdırmasının xüsusiyyətlərindən yalnız biridir, sonuncuya həmçinin prosesin çəkişmə xarakteri daşımasını tələb edən təməl hüquq da daxildir".[104] AİƏM də bu prinsipin izahını analoji qaydada verib.[105]

Cinayət işlərində tərəflərin bərabərliyi prinsipi 6-cı maddədə (3(d) bəndində) yer alan konkret müdafiə hüquqları vasitəsilə, yəni şəxsin "əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə

102 AİHM, Edvards Birləşmiş Krallığa qarşı, ərizə № 13071/87, 16 dekabr 1992-ci il, 34-cü bənd.
103 AİHM, Hornsbi Yunanıstana qarşı, ərizə № 18357/91, 19 mart 1997-ci il, 40-cı bənd. Həmçinin bax: BMT, İHK (2005), İş № 823/1998, Çernin Çex Respublikasına qarşı, 29 mart 2005-ci il (bu işdə qərara alındı ki, qərarların icrasında hərəkətsizlik və həddən artıq yubanmalar MSHBP-nin 14-cü maddəsini pozur).
104 AİHM, Ruis-Mateos İspaniyaya qarşı, ərizə №. 12952/87, 23 iyun 1993-cü il, 63-cü bənd; həmçinin bax: 63-68-ci bəndlər.
105 AiƏM, C-199/11, Europese Gemeenschap v. Otis NV and Others, 6 noyabr 2012-ci il, 71-ci bənd.

ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidləri çağırmaq və dindirilmələrinə nail olmaq" hüququ vasitəsilə təmin edilir. AİHK-ın 6-cı maddəsində (2-ci və 3-cü bəndlər) və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 48-ci maddəsində cinayət işlərində ədalətli məhkəmə araşdırmasının digər konkret təminatları öz əksini tapıb. Buraya aşağıdakılar daxildir: şəxsin ona qarşı irəli sürülən ittihamın xarakteri və əsasları haqqında başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq hüququ və öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ.

Aİ qanunvericiliyinə əsasən, ikinci dərəcəli qanunvericilikdə ədalətli məhkəmə araşdırması hüquqlarının təfsilatları əks olunur. Məsələn, "Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında 2012/13/EU saylı direktiv"də müəyyən edilir ki, üzv dövlətlər şübhəli və təqsirləndirilən şəxsləri vəkillə təmin edilmək və susmaq hüququ barəsində məlumatlandırmalıdırlar.[106] Direktivə əsasən, tutulmuş şübhəli və təqsirləndirilən şəxslərə "hüquqları barədə yazılı məlumat" təqdim edilməli, orada onların əlavə hüquqları haqqında informasiyalar, o cümlədən öz işlərinə aid olan və səlahiyyətli orqanların sərəncamında olan sənədlərlə (məsələn, sübutlarla) tanış olmaq hüququ və təcili tibbi yardım almaq hüququ barədə məlumatlar yer almalıdır. Direktiv cinayət prosesi çərçivəsində şübhəli və təqsirləndirilən şəxslərin prosessual hüquqlarının qorunmasını gücləndirməyə yönələn Aİ-nin "yol xəritəsinin" tərkib hissəsidir.[107] Yol xəritəsi Avropa İttifaqında həyata keçirilən cinayət proseslərində fərdlərin hüquqlarının müdafiəsini gücləndirmək, Aİ-yə üzv olan dövlətlərin hər birinin cinayət ədliyyəsi sisteminə qarşılıqlı inamı təmin etmək və onların məhkəmə orqanları arasında əməkdaşlığı təşviq etmək üçün qəbul edilib. Yol xəritəsi həmçinin "Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında direktiv"i,[108] "Cinayət prosesində və Avropa həbs orderi üzrə icraatda vəkillə təmin edilmək hüququ haqqında direktiv"i ,[109] "Şübhəli və ya təqsirləndirilən şəxslərin hüquqi yardım almaq hüququ haqqında Aİ Komissiyasının Tövsiyəsi"ni[110] və "Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında Aİ Komissiyasının Tövsiyəsi"ni[111] özündə

106 "Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında" Avropa İttifaqı Parlamentinin və Şurasının 22 may 2012-ci il tarixli 2012/13/EU saylı direktivi, OJ 2012 L 142.

107 "Cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxslərin prosessual hüquqlarının qorunmasının gücləndirilməsi üçün yol xəritəsinə dair" Avropa İttifaqı Şurasının 30 noyabr 2009-cu il tarixli qətnaməsi, OJ 2009 C 295.

108 "Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında" Avropa İttifaqı Parlamentinin və Şurasının 20 oktyabr 2010-cu il tarixli 2010/64/EU saylı direktivi, OJ 2010 L 280.

109 "Cinayət prosesində və Avropa həbs orderi üzrə icraatda vəkillə təmin edilmək hüququ və azadlıqdan məhrum edilmə barədə üçüncü tərəfin məlumatlandırılması və azadlıqdan məhrum edilmə müddətində üçüncü şəxslərlə və konsulluq orqanları ilə təmasda olmaq hüququ haqqında" Avropa İttifaqı Parlamentinin və Şurasının 22 oktyabr 2013-cü il tarixli 2013/48/EU saylı direktivi, OJ 2013 L 294/1. Birləşmiş Krallıq və İrlandiya bu direktivə qoşulmayıblar, o həmçinin Danimarkaya tətbiq edilmir.

110 Avropa Komissiyası (2013), Cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxslərin hüquqi yardım almaq hüququ haqqında 27 November 2013-cü il tarixli Tövsiyə, OJ 2013 C 378.

111 Avropa Komissiyası (2013), Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən

ehtiva edir. Həmçinin "Cinayət prosesində şübhəli və ya təqsirləndirilən uşaqlar üçün prosessual təminatlar haqqında direktiv"in[112] və "Avropa həbs orderi üzrə icraatda müvəqqəti hüquqi yardım və hüquqi yardım haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının direktivi"nin[113] qəbul edilməsi barədə təkliflər verilib.

Həm AŞ, həm də Aİ hüququna əsasən, ədalətli məhkəmə araşdırması hüququnun digər mühüm komponenti çəkişmə xarakterli məhkəmə icraatı hüququdur.[114] Bu hüququn tələbləri qeyri-cinayət və cinayət işlərində prinsipcə eynidir.[115] Praktikada çəkişmə xarakterli məhkəmə icraatı hüququ aşağıdakıları özündə ehtiva edir:

- məhkəmənin qərarına təsir göstərmək üçün təqdim edilən bütün sübutlar barəsində məlumat almaq və onlara dair qeydlərini bildirmək hüququ; [116]
- məhkəmənin sərəncamındakı sübutlarla tanış olmaq üçün kifayət qədər vaxt malik olmaq hüququ; [117]
- sübutları təqdim etmək hüququ.[118]

Məhkəmələr tətbiq edilən prosedurların bütövlükdə çəkişmə xarakterli məhkəmə icraatı hüququnun tələblərinə uyğun olub-olmadığını nəzərdən keçirməlidirlər.[119]

Nümunə: *Ujukauskas Litvaya qarşı* məhkəmə işində[120] Litvanın dövlət orqanları ərizəçinin odlu silah lisenziyasını ləğv etmişdilər, çünki polisdə olan məlumatda ərizəçinin cəmiyyət üçün təhlükə yarada biləcəyi iddia edilirdi. Ondan tələb olundu ki, ödəniş müqabilində silahını polisə təhvil versin. O, adının polisin əməliyyat sənədlərinə daxil edilməsindən məhkəməyə şikayət etdi, amma bu şikayəti polis tərəfindən təqdim edilmiş məxfi materiallar əsasında rədd edildi. Həmin məxfi materiallardakı informasiya ərizəçiyə açıqlanmadı.

İşin materiallarındakı məxfi məlumatlar ərizəçinin işi üçün həlledici əhəmiyyətə

---

şəxslər üçün prosessual təminatlar haqqında 27 noyabr 2013-cü il tarixli Tövsiyə, OJ 2013 378.

112 Avropa Komissiyası (2013), "Cinayət prosesində şübhəli və ya təqsirləndirilən uşaqlar üçün prosessual təminatlar haqqında" Avropa İttifaqı Parlamentinin və Şurasının direktivi barədə təklif, COM(2013)822.

113 Avropa Komissiyası (2013), "Avropa həbs orderi üzrə icraatda müvəqqəti hüquqi yardım və hüquqi yardım haqqında" Avropa İttifaqı Parlamentinin və Şurasının direktivi barədə təklif, COM(2013)824.

114 AİHM, Ruis-Mateos İspaniyaya qarşı, ərizə № 12952/87, 23 iyun 1993-cü il, 63-cü bənd; AİƏM, C-300/11, ZZ v. Secretary of State for the Home Department, 4 iyun 2013-cü il, 55-ci bənd. Cinayət prosesi ilə əlaqədar olaraq bu işə bax: AİHM, Brandştetter Avstriyaya qarşı, ərizələr № 11170/84, 12876/87 və 13468/87, 28 avqust 1991-ci il, 66-67-ci bəndlər.

115 AİHM, Verner Avstriyaya qarşı, ərizə № 21835/93, 24 noyabr 1997-ci il, 66-cı bənd.

116 AİHM, Vermülen Belçikaya qarşı [BP], ərizə № 19075/91, 20 fevral 1996-cı il, 33-cü bənd.

117 AİHM, Krçmar və başqaları Çex Respublikasına qarşı, ərizə № 35376/973 mart 2000-ci il, 42-ci bənd.

118 AİHM, "Klinik dez Akasia" və başqaları Fransaya qarşı, ərizələr № 65399/01, 65406/01, 65405/01 və 65407/01, 13 oktyabr 2005-ci il, 37-ci bənd.

119 AİHM, Rou və Devis Birləşmiş Krallığa qarşı [BP], ərizə № 28901/95, 16 fevral 2000-ci il, 62-ci bənd.

120 AİHM, Ujukauskas Litvaya qarşı, ərizə № 16965/04, 6 iyul 20100-cu il, 45-51-ci bəndlər.

malik idi, çünki hakimlər onun cinayət fəaliyyətlərində iştirak edib-etmədiyini müəyyənləşdirmək üçün onları nəzərdən keçirməli idilər. Polisin materialları ərizəçinin cəmiyyətə təhlükə yaratdığı barədə iddianın yeganə sübutu idi. Ərizəçinin ona qarşı sübut barədə məlumatlandırılmadığını və (polisdən fərqli olaraq) qarşı tərəfin ittihamına cavab vermək imkanına malik olmadığını nəzərə alsaq, məhkəmə prosesi çəkişmə xarakterli məhkəmə icraatı və ya tərəflərin bərabərliyi tələblərinə cavab vermir və ərizəçinin maraqlarının müdafiəsi üçün adekvat təminatları özündə ehtiva etmirdi. AİHM müəyyən etdi ki, bu, AİHK-ın 6-cı maddəsinin pozuntusudur.

Əsaslandırılmış qərar çıxarılması hüququ ədalətli məhkəmə araşdırması hüququnun digər mühüm aspektidir.[121] Əsaslandırılmış qərar iş üzrə dinləmənin düzgün aparıldığını göstərir və tərəflərə qərardan lazımi qaydada və səmərəli şəkildə şikayət etmək imkanı verir.[122] Məhkəmələrin qərarda hər bir arqumentə ətraflı cavab vermələri tələb olunmur, qərarı əsaslandırmaq vəzifəsi qərarın xarakterindən və işin hallarından asılı olaraq fərqlənir.[123] Andlılar məhkəməsi tərəfindən aparılan cinayət proseslərində müttəhimin nə üçün təqsirkar hesab edilməsini başa düşə bilməsi üçün kifayət qədər təminatlar yer almalıdır. Bu təminatlar aşağıdakıları özündə ehtiva edə bilər:  andlıların hakim tərəfindən hüquqi məsələlərlə və ya sübutlarla bağlı təlimatlandırılması, hakim tərəfindən andlılara dəqiq, birmənalı sualların verilməsi.[124]

Mülki prosesdə məhkəmələr qərarlarını yetərincə əsaslandırmağa borcludur ki, fərdlər səmərəli şəkildə apellyasiya şikayəti təqdim edə bilsinlər.[125] Apellyasiya məhkəməsi aşağı məhkəmənin qeyri-adekvat əsaslandırmasını düzəldə bilər. Apellyasiya orqanı tərəfindən aşağı orqanın qərarındakı əsaslandırmanın sadəcə olaraq təsdiqlənməsi prinsipcə məqbul hesab edilə bilər. Lakin apellyasiya ərizəsinin əsasını təşkil edən şikayət aşağı məhkəmənin əsaslandırmasının qeyri-adekvat olması barəsindədirsə, o zaman əsaslandırmanın sadəcə təsdiqlənməsi yetərli hesab edilmir.[126]  Apellyasiya məhkəməsinin gətirdiyi əsaslarda həll edilməli məsələnin mahiyyəti elə əks etdirilməlidir ki, bu məhkəmənin qərarı onun rolunu adekvat şəkildə əks etdirmiş olsun.[127]

121  Bax: Avropa Şurası, AHMŞ (2008), “Məhkəmə qərarlarının keyfiyyətinə” dair 11 saylı rəy, 18 dekabr 2008-ci il.

122  AİHM, Hacianastassiu Yunanıstana qarşı, ərizə № 12945/87, 16 dekabr 1992-ci il, 33-cü bənd. Müqayisə üçün bax: AİHM, Yodko Litvaya qarşı (qərardad), ərizə № 39350/98, 7 sentyabr 1999-cu il. Aİ hüququ ilə əlaqədar bax: AİƏM, C 619/10, Trade Agency Ltd v. Seramico Investments Ltd, 6 sentyabr 2012-ci il, 53-cü bənd.

123  AİHM, Qarsiya Ruis İspaniyaya  qarşı [BP], ərizə № 30544/96, 21 yanvar 1999-cu il, 26-cı bənd.

124  AİHM, Taske Belçikaya qarşı [BP], ərizə № 926/05, 16 noyabr 2010-cu il, 93-100-cü bəndlər.

125  AİHM, Suominen Finlandiyaya qaeşı, ərizə №  37801/97, 1 iyul 2003-cü il, 36-38-ci bəndlər.

126  AİHM, Hirvisaari Finlandiyaya qarşı, ərizə 49684/99, 27 sentyabr 2001-ci il, 32-ci bənd.

127  AİHM, Hirvisaari Finlandiyaya qarşı, ərizə 49684/99, 27 sentyabr 2001-ci il, 32-ci bənd.

## Apellyasiya hüququ

AŞ hüququna əsasən, AİHK-ın 7 saylı Protokolunda (o yalnız iştirakçı dövlətlər üçün məcburi qüvvəyə malikdir) konkret olaraq cinayət işləri üzrə şikayət (apellyasiya) hüququ müəyyən edilsə də,[128] AİHK cinayət işləri üzrə şikayət hüququna təminat vermir. Bununla belə, AİHM təsdiq edib ki, milli hüquqda mülki və ya cinayət icraatı çərçivəsində apellyasiya prosesi nəzərdə tutulubsa, 6-cı maddə həmin prosesə şamil olunur.[129] Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasında konkret olaraq apellyasiya hüququ nəzərdə tutulmayıb, lakin 47-ci maddənin şərhi zamanı AİHM-in presedent hüququ nəzərə alınmalıdır.

## 2.3.2. Açıq məhkəmə araşdırması

AŞ və Aİ hüququna əsasən, ədalət mühakiməsinə çatım anlayışı açıq məhkəmə araşdırması hüququnu özündə ehtiva edir. Ədalət mühakiməsinin göz önündə və şəffaf şəkildə həyata keçirilməsi məhkəmələrə inamın artmasına kömək edir.[130] Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi AİHK-ın 6-cı maddəsinin ekvivalentidir.

Ədalətli məhkəmə araşdırması hüququndan irəli gələn hüquqlardan biri şifahi dinləmə (şifahi məhkəmə iclası) hüququdur.[131] Məsələn, cinayət prosesində təqsirləndirilən şəxs bir qayda olaraq birinci instansiya məhkəməsindəki dinləmədə iştirak etmək hüququna malikdir.[132] Şifahi dinləmə hüququ önəmlidir, şəxs məhkəmə iclasında iştirak etməsə, AİHK-ın 6-cı maddəsində (3-cü bənd) nəzərdə tutulmuş digər hüquqlarını həyata keçirə bilməz. Lakin müttəhimin apellyasiya məhkəməsinin iclasındakı iştirakı birinci instansiya məhkəməsinin iclasındakı iştirakı ilə eyni dərəcədə mühüm əhəmiyyət daşımır. 6-cı maddənin apellyasiya məhkəmələrindəki icraatlara tətbiqi qaydası müvafiq icraatların spesifik xüsusiyyətlərindən asılıdır və bu zaman ölkədaxili hüquq sistemində müəyyən edilən icraatlar bütöv halda götürülməli və apellyasiya məhkəməsinin həmin sistemdəki rolu nəzərə alınmalıdır.[133] Bundan başqa, şifahi dinləmə hüququ mütləq (qeyri-məhdud) hüquq

128 Avropa Şurası, AİHK-ın 7 saylı Protokolu, CETS No.117, 1984, mad. 2.
129 Misal üçün bax: AİHM, Monnell və Morris Birləşmiş Krallığa qarşı, ərizələr № 9562/81 və 9818/82, 2 mart 1987-ci il, 54-cü bənd.
130 AİHM, Pretto İtaliyaya qarşı, ərizə № 7984/77, 8 dekabr 1983-cü il, 21-ci bənd.
131 AİHM, Alan Yakobsson (№ 2) İsveçə qarşı, ərizə № 16970/90, 19 fevral 1998-ci il, 46-cı bənd. Həmçinin bax: AİƏM, C-399/11, Stefano Melloni v. Ministerio Fiscal, 26 fevral 2013-cü il, 49-cu bənd.
132 AİHM, Tirs və başqaları San-Marinoya qarşı, ərizələr № 24954/94, 24971/94, 24972/94, 25 iyul 2000-ci il, 94-cü bənd; AİHM, Yussila Finlandiyaya qarşı [BP], ərizə № 73053/01, 23 noyabr 2006-cı il, 40-cı bənd.
133 AİHM, Kremtsov Avstriyaya qarşı, ərizə № 12350/86, 21 sentyabr 1993-cü il, 58-59-cu bəndlər; AİHM, Hermi İtaliyaya qarşı [BP], ərizə № 18114/02, 18 oktyabr 2006-cı il, 60-cı bənd. Müttəhimin iştirakı olmadan keçirilən məhkəmə iclasları ilə əlaqədar bax: Avropa İttifaqı Şurası (2009), Şuranın 2009/299/JHA saylı Çərçivə qərarı, 26 fevral 2009-cu il – bu qərarla 2002/584/JHA, 2005/214/JHA, 2006/783/JHA, 2008/909/JHA və 2008/947/JHA saylı çərçivə qərarlarına dəyişikliklər edilərək şəxslərin

deyil və məhkəmə tərəfindən həll edilməli olan məsələlərin xarakterindən asılı olaraq bəzi hallarda bu cür dinləmənin keçirilməməsinə haqq qazandırmaq olar.[134] Məsələn, sübutların həqiqətə uyğunluğuna və ya faktlara hər hansı etiraz yoxdursa, yəni sübutların şifahi təqdimatını və ya şahidlərin çarpaz dindirilməsini zəruri edən hal mövcud deyilsə, şifahi dinləmənin keçirilməsi tələb olunmaya bilər.[135] Cinayət işi üzrə birinci instansiya məhkəməsinin iclası müttəhimin iştirakı olmadan keçirilirsə və müttəhim bu iclasdan xəbərsizdirsə, həmin iclasdan xəbər tutan kimi onun məhkəmə tərəfindən işə mahiyyəti üzrə yenidən baxılaraq ittihamlarla bağlı yenidən qərar çıxarılmasına nail olmaq hüququ var. Mülki proseslərdə məhdud xarakterli hüquqi məsələlərin qaldırıldığı hallarda,[136] yaxud iş yalnız hüquqi və ya texniki xarakterli məsələlərə aid olduğu hallarda[137] prosesin şifahi dinləmə keçirilmədən aparılması mümkündür. Bununla belə, prinsipcə şəxs onun işinə baxan ilk və yeganə məhkəmə orqanı tərəfindən açıq və şifahi dinləmə keçirilməsi hüququna malikdir.[138]

AİHK-ın 6-cı maddəsində (1-ci bənd) aşağıdakı hallarda mətbuatın və ictimaiyyətin məhkəmə iclasına buraxılmamasına birmənalı olaraq icazə verilir:

- demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları bunu tələb etdikdə;
- yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə; yaxud
- aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi hallarda.

Peşə fəaliyyətləri ilə bağlı konfidensiallığın qorunmasının zəruriliyi də məhdudiyyətlərin tətbiqinə haqq qazandıra bilər.[139] Bu cür hallarda uşaqların müdafiəsi birmənalı olaraq təmin edilir və onların müdafiəsinin zəruriliyi ilə əlaqədar olaraq bir sıra məhkəmə icraatlarının açıq keçirilməməsi mümkündür.[140]

Nümunə: *Xrabrova Rusiyaya qarşı* məhkəmə işində[141] ərizəçi 2002-ci ilin fevralında dərs zamanı şagirdlə mübahisə nəticəsində işdən azad edilənə qədər Moskvada müəllim işləyirdi. O, məktəbə qarşı mülki iddia qaldıraraq kompensasiya ödənilməsini və işə bərpa olunmasını tələb etdi və sonradan AİHM-ə şikayət etdi ki, proses ədalətsiz aparılıb. O, xüsusən ölkədaxili məhkəmənin işdə iştirak edən

prosessual hüquqları genişləndirilib və maraqlı şəxsin məhkəmə iclasında olmadığı zaman qəbul edilmiş qərarların qarşılıqlı tanınması prinsipinin tətbiqi dəstəklənib, OJ 2009 L 81/24.

134 AİHM, Kremtsov Avstriyaya qarşı, ərizə № 12350/86, 21 sentyabr 1993-cü il, 59-cu bənd.

135 AİHM, Yussila Finlandiyaya qarşı [BP], ərizə № 73053/01, 23 noyabr 2006-cı il, 41-42 və 47-48-ci bəndlər.

136 AİHM, Valova, Slezak və Slezak v. Slovakiyaya qarşı, ərizə № 44925/98, 1 iyun 2004-cü il, 65-68-ci bəndlər.

137 AİHM, Koottyummel Avstriyaya qarşı, ərizə № 49616/06, 10 dekabr 2009-cu il, 19-cu bənd.

138 AİHM, Bekker Avstriyaya qarşı, ərizə № 19844/08, 11 iyun 2015-ci il, 39-cu bənd.

139 AİHM, Dyenne Fransaya qarşı, ərizə № 18160/91, 26 sentyabr 1995-ci il, 34-35-ci bəndlər.

140 AİHM, B. və P. Birləşmiş Krallığa qarşı, ərizələr № 36337/97 və 35974/97, 24 aprel 2001-ci il, 37-38-ci bəndlər.

141 AİHM, Xrabrova Rusiyaya qarşı, ərizə № 18498/04, 2 oktyabr 2012-ci il, 50-53-cü bəndlər.

yetkinlik yaşına çatmayanların maraqları naminə açıq dinləmə keçirməməsindən şikayət etdi.

AİHM milli məhkəmələrin dinləmələri qapalı keçirmək üçün gətirdiyi əsasları qeyri-müəyyən hesab etdi. Həmin əsaslandırmalarda bildirilirdi ki, açıq dinləmə qeyri-müəyyən sayda yetkinlik yaşına çatmayanların təlim-tərbiyəsinə mənfi təsir göstərə bilər. Məhkəmə bildirdi ki, daxili məhkəmələr ədalət mühakiməsinin ictimai nəzarətdən kənar saxlanmasına haqq qazandırmaq üçün yetərli əsaslar gətirməli idilər, belə ki, həmin nəzarət özbaşınalıqlara qarşı mühüm təminatdır. Amma indiki halda onlar bunu lazımi qaydada etməmişdilər. Sonradan apellyasiya instansiyası məhkəməsində keçirilmiş açıq dinləmə bu pozuntunu düzəltməmişdi, çünki bu dinləmə zəruri olan məsələləri əhatə etmirdi; konkret olaraq, apellyasiya məhkəməsi şahidləri yenidən dinləməmişdi. Avropa Məhkəməsi müəyyən etdi ki, bu, AİHK-ın 6-cı maddəsində nəzərdə tutulmuş açıq dinləmə hüququnu pozub.

Şəxs açıq dinləmə hüququndan imtina edə bilər; imtina könüllü və birmənalı şəkildə edilməli və mühüm ictimai maraqlara zidd olmamalıdır. Məsələn, təqsirləndirilən şəxs məhkəmə iclasının tarixi və yeri barəsində məlumatlandırıldığı halda məhkəmə iclasına gəlməyibsə, yaxud müdafiəçiyə həmin iclasda onu təmsil etmək səlahiyyəti veribsə, həmin iclasın onun iştirakı olmadan keçirilməsi pozuntu təşkil etmir.[142]

142 AİHM, Hakansson və Sturesson İsveçə qarşı, ərizə № 11855/85, 21 fevral 1990-cı il, 66-cı bənd; AİƏM, C-399/11, Stefano Melloni v. Ministerio Fiscal, 26 fevral 2013-cü il, 49-cu bənd.

## 2.4. Ədalət mühakiməsinə çatımın digər formaları

### Əsas məqamlar

- Ədalət mühakiməsinə çatım mexanizmləri qeyri-məhkəmə orqanlarını, məsələn, insan hüquqlarının müdafiəsi üzrə mili təsisatları, hüquq bərabərliyi məsələləri ilə məşğul olan qurumları, məlumatların qorunmasını təmin edən dövlət orqanlarını və ya ombudsman təsisatlarını özündə ehtiva edə bilər.
- İnzibati orqanlar və qeyri-məhkəmə orqanları hüquqi müdafiə vasitələrinə çatımın tezləşdirilməsini və ya kollektiv kompensasiyalara nail olunmasını təmin etməklə ədalət mühakiməsinə çatımı daha yaxşı təmin edə bilərlər. Lakin onlar məhkəməyə müraciət hüququnu aradan qaldıra bilməzlər və ümumiyyətlə onların üzərində məhkəmə nəzarəti olmalıdırlar.
- Mübahisələrin alternativ həlli prosedurları, məsələn, mediasiya və arbitraj prosesi rəsmi məhkəmə prosedurları vasitəsilə ədalət mühakiməsinə çatımı alternativlərini təşkil edir.
- Əgər qanun tərəflərin üzərinə arbitraja müraciət etmək vəzifəsi qoyursa, arbitraj məhkəməsi AİHK-ın 6-cı maddəsinin və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsinin tələblərinə cavab verməlidir.
- Aİ mübahisələrin alternativ həlli yollarından istifadəni qanunvericilik vasitəsilə, məsələn, "Mediasiya haqqında Aİ direktivi" vasitəsilə və istehlakçıların müdafiəsi üzrə müxtəlif təşəbbüslər vasitəsilə təşviq edir.

### 2.4.1. Qeyri-məhkəmə orqanları

Bir çox məhkəmə sistemlərində iş yükünün çoxalması baş verir və məhkəmələrə çatım bahalı ola bilər. Ədalət mühakiməsinə çatım məsələsinə daha geniş prizmadan baxsaq, o, məhkəmələrlə yanaşı qeyri-məhkəmə orqanlarını əhatə edir.[143] Bura aşağıdakıları aid etmək olar: hüquq bərabərliyi məsələləri ilə məşğul olan qurumlar, ayrı-seçkilik məsələləri ilə məşğul olan inzibati qurumlar və qeyri-məhkəmə təsisatları, insan hüquqlarının müdafiəsi üzrə milli təsisatlar (İHMMT-lər), ombudsman təsisatları, məlumatların qorunmasını təmin edən dövlət orqanları, əmək müfəttişlikləri və ixtisaslaşmış tribunallar.[144] Aİ-yə üzv olan dövlətlər Aİ qanunvericiliyinin konkret tələblərinə uyğun olaraq bu qurumların bəzilərini yaradıblar, məsələn, "İrqi bərbərlik haqında direktiv" əsasında irqi və

143 FRA (2012), Hüquqların həyata keçirilməsi: Avropa İttifaqındakı əsas hüquqların mənzərəsi, Lüksemburq, Aİ-nin Rəsmi Nəşrlər Bürosu.

144 Bax: BMT, Baş Assambleya (1993), İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə milli təsisatlara dair A/RES/48/134 saylı qətnamə, 20 dekabr 1993-cü il (Paris prinsipləri), Əlavə.

ya etnik bərabərlik və gender bərabərliyi məsələləri ilə məşğul olan orqanlar,[145] habelə “Məlumatların qorunması haqqında direktiv” əsasında milli məlumatların qorunması ilə məşğul olan dövlət orqanları yaradılıb.[146]

Qeyri-məhkəmə orqanları tərəfindən aparılan və çox zaman mediasiya formasında həyata keçirilən kvazi-məhkəmə prosedurları (mübahisələrin alternativ həllinə dair 2.4.2-ci bölməyə bax) iddiaçılar üçün daha sürətli, formalizmin daha az olduğu və daha ucuz alternativləri təmin edə bilər. Lakin qeyri-məhkəmə orqanlarının əksəriyyəti icrası məcburi olan qərarlar qəbul etmək səlahiyyətinə malik deyillər (istisnalar sırasına məlumatların qorunmasını təmin edən orqanlar və hüquq bərabərliyi məsələləri ilə məşğul olan bəzi qurumlar daxildir) və onların kompensasiya təyin etmə səlahiyyətləri bir qayda olaraq məhduddur.

AİHM bildirib ki, daxili qanunvericiliyə əsasən qeyri-məhkəmə orqanı açıq-aydın məhkəmə funksiyalarını yerinə yetirirsə və AİHK-ın 6-cı maddəsinin tələb etdiyi qərəzsizlik və müstəqillik kimi şərtləri təmin edirsə, məhkəmə hesab edilə bilər (2.1.2-ci bölməyə bölməyə bax).[147] Əgər təmin etmirsə, onda qeyri-məhkəmə orqanının üzərində tam yurisdiksiyaya malik olan və 6-cı maddənin tələblərinə cavab verən məhkəmə orqanının nəzarəti olmalıdır.[148]

İnzibati orqanlar və qeyri-məhkəmə orqanları həmçinin kollektiv kompensasiyalar üçün müraciətləri və ya kollektiv şikayətləri qəbul etməklə ədalət mühakiməsinə çatım imkanlarını genişləndirə bilərlər. Bu, şikayətçilərə eyni işlə bağlı bir çox fərdi şikayətlərin vahid məhkəmə işində birləşdirilməsinə nail olmağa və bu yolla qüvvələrini birləşdirmələrinə imkan verir.[149] Bu, QHT-lər kimi təşkilatların müxtəlif şəxslərin adından şikayətlər təqdim etmələrinə imkan yaradır.

145 İrqi və ya etnik mənsubyyətindən asılı olmayaraq insanlarla bərabər rəftar prinsipinin tətbiqi haqqında Avropa İttifaqı Şurasının 29 iyun 2000-ci il tarixli 2000/43/EC saylı direktivi, OJ 2000 L 180 (İrqi bərabərlik haqqında direktiv).

146 Fərdi məlumatların emalı və sərbəst yayılması ilə bağlı fərdlərin müdafiəsi haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 95/46/EC saylı direktivi, OJ 1995 L 281 (Məlumatların qorunması haqqında direktiv).

147 AİHM, Aleksandr Volkov Ukraynaya qarşı, ərizə № 21722/11, 9 yanvar 2013-cü il, 88-91-ci bəndlər.

148 AİHM, Zumtobel Avstriyaya qarşı, ərizə № 12235/86, 21 sentyabr 1993-cü il, 29-32-ci bəndlər.

149 Avropa İttifaqı Komissiyası (2013), İttifaq qanunvericiliyi əsasında verilən hüquqların pozuntuları ilə bağlı üzv dövlətlərdə qadağanedici və kompensasiyaedici kollektiv hüquqi müdafiə mexanizmlərinə dair ümumi prinsiplər haqqında 11 iyun 2013-cü il tarixli Tövsiyə, OJ 2013 L 201. Həmçinin bax: Avropa İttifaqı Parlamenti, Daxili siyasət məsələləri üzrə Baş direktorluq, (2011), Aİ-yə üzv olan dövlətlərdə mövcud olan kollektiv hüquqi müdafiə mexanizmlərinin icmalı, Brüssel, iyul 2011-ci il.

**Perspektivli praktika**

**Ayrı-seçkiliyə dair işlərdə ədalət mühakiməsinə çatım imkanının yaxşılaşdırılması**

İtaliyada irqi və ya etnik mənşə ilə əlaqədar ayrı-seçkilik məsələlərinə baxan bərabərlik məsələləri üzrə orqan (İrqi ayrı-seçkiliyə qarşı milli idarə) yerli hakimiyyət orqanları və QHT-lərlə birlikdə bəzi yerlərdə ayrı-seçkilik əleyhinə idarələr və koordinasiya məntəqələri yaradıb. Bundan əlavə, milli və regional səviyyələrdə cinsi zəmində ayrı-seçkilik məsələləri ilə məşğul olan bərabərlik məsələləri üzrə müşavirlər mövcuddur; onlara həvalə olunan vəzifə şikayətləri qəbul etmək, məsləhətlər vermək və mediasiya xidmətləri təklif etməkdən ibarətdir. Onlar ayrı-seçkilik hallarında faktların müəyyənləşdirilməsi üçün araşdırma aparmaq səlahiyyətinə malik olan əmək müfəttişləri ilə əməkdaşlıq edirlər. Onlar həmçinin ayrıca zərərçəkəni müəyyənləşdirməyin mümkünsüz olduğu kollektiv xarakterli məhkəmə işlərində maraqlı tərəf kimi çıxış edə bilərlər.

*Mənbə: FRA(2012), Aİ-də ayrı-seçkilik hallarında ədalət mühakiməsinə çatım – Bərabərliyə şərait yaratmaq üçün addımlar, səh. 28.*

## 2.4.2. Mübahisələrin alternativ həlli

Mübahisələrin alternativ həlli (MAH) dedikdə mübahisələrin məhkəmədənkənar həllinə imkan yaradan prosedurlar (məsələn, mediasiya və arbitraj) nəzərdə tutulur.[150] MAH prosedurları məhkəmələrin iş yükünü azaltmaqla və fərdlərə mübahisələri maddi cəhətdən daha sərfəli şəkildə həll etmək imkanı yaratmaqla ədalət mühakiməsinin səmərəliliyinin artıra bilər.[151] Daha az xərclər hesabına başa gəlmələrindən əlavə, onlar həm də prosedurların müddətini və yaratdığı stressi azaltmaqla fərdlərə fayda gətirə bilər. Avropa ölkələrində MAH-ın tarixi və istifadəsi fərqlidir. 2.4.1-ci bənddə bölmədə adı çəkilən məhkəmədənkənar orqanların bəziləri tez-tez MAH prosedurlarından istifadə edirlər.

150 Misal üçün bax: Avropa Komissiyası (2011), Avropa İttifaqında kommersiya əqdləri və praktikaları ilə bağlı mübahisələrin həlli vasitəsi qismində mübahisələrin alternativ həllindən istifadəyə dair məlumatlandırıcı sənəd, 6-cı bənd.

151 Avropa Şurası, AHMŞ (2014), Hesabat: "Avropa məhkəmə sistemləri –2014-cü il buraxılışı (2012-ci ilin məlumatları): ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti", 6-cı fəsil; həmin mənbəyə AİHM-in bu iş üzrə qərarında istinad edilib: Momçiloviç Xorvatiyaya qarşı, ərizə № 11239/11, 26 mart 2015-ci il, 33-cü bənd.

**Perspektivli praktika**

**Ailə hüququ prosedurlarında arbitrajdan istifadə**

Bir çox ölkələr ailə məsələləri ilə bağlı mübahisələri məhkəməyə üz tutmaqdan daha çox, mediasiya vasitəsilə həll etməyi faydalı hesab edirlər. Xorvatiyada boşanma və uşaq üzərində qəyyumluqla bağlı mübahisələrin iştirakçısı olan valideynlərin mediasiyanı sınaqdan keçirməsi məcburidir. Mediasiyanı Sosial təminat mərkəzlərindən olan psixoloqlar həyata keçirirlər.

Mediasiya bəzən başqa funksiyalarla kombinə olunur. Məsələn, Estoniyada uşağa yardım üzrə mütəxəssis məhkəmə araşdırmasının ilk mərhələlərində valideynlərə mediasiya vasitəsilə kömək edir. Almaniyada uşaqın hüquqi nümayəndəsi valideynlərə mediasiya yardımı göstərir.

*Mənbə: FRA (2015), Uşağın maraqlarını önə çəkən ədalət mühakiməsi – Aİ-yə üzv olan 10 dövlətdə mülki və cinayət mühakimə icraatlarında uşaqların iştirakı ilə bağlı perspektivlər və peşəkarların təcrübələri, səh. 47.*

Avropa Şurası çərçivəsində mülki məhkəmə prosesi kontekstində mediasiyaya belə anlayış verilir: mediasiya mübahisələrin elə bir həlli prosesidir ki, bu zaman tərəflər mediatorun (vasitəçinin) köməyi ilə razılığa gəlmək üçün danışıqlar aparırlar.[152] Cinayət prosesi kontekstində mediasiyaya belə anlayış verilir: bu elə bir prosesdir ki, qərəzsiz mediator (hər iki tərəfin razılığı ilə) zərərçəkənin və hüquqpozanın cinayətdən irəli gələn məsələlərin həllində aktiv iştirak etmələrinə kömək edir.[153] Arbitraj elə bir prosesdir ki, burada ən azı bir nəfər (arbitr) arbitraj sazişinin tərəflərinin ona təqdim etdiyi mübahisə ilə bağlı məcburi hüquqi qüvvəyə malik qərar çıxarmalıdır.[154] Qeyd etmək lazımdır ki, yekun arbitraj qərarının icra edilməməsi AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozuntusunu təşkil edə bilər.[155]

---

152 Avropa Şurası, Nazirlər Komitəsi (2002), Mülki işlərdə mediasiyaya dair üzv dövlətlərə Rec(2002)10 saylı Tövsiyə, 18 sentyabr 2002-ci il, 1-ci prinsip. Həmçinin bax: Avropa Şurası, Nazirlər Komitəsi (1998), Ailə mediasiyasına dair Rec(98)1 saylı Tövsiyə, 21 yanvar 1998-ci il; Avropa Şurası, Nazirlər Komitəsi (2001), İnzibati orqanlarla özəl tərəflər arasında məhkəmə prosesinin alternativlərinə dair Üzv dövlətlərə Rec(2001)9 saylı Tövsiyə, 5 sentyabr 2001-ci il; Avropa Şurası, AHMŞ (2007), Avropa Şurasının mediasiya ilə bağlı tövsiyələrinin təsirinin qiymətləndirilməsi üzrə təhlil; Avropa Şurası, AHMŞ (2007), İnzibati orqanlarla özəl tərəflər arasında məhkəmə prosesinin alternativlərinə dair mövcud tövsiyələrin daha yaxşı icrası üçün rəhbər prinsiplər.

153 Avropa Şurası, Nazirlər Komitəsi (1999), Cinayət işlərində mediasiyaya dair üzv dövlətlərə Rec(99)19 saylı Tövsiyə, 15 sentyabr 1999-cu il.

154 Avropa Şurası, Korrupsiyaya görə cinayət məsuliyyətinə dair Konvensiyanın Əlavə Protokolu, CETS No. 191, 2003, mad. 1. Bu Konvensiya bir çox dövlətlər tərəfindən ratifikasiya olunmayıb. Həmçinin bax: BMT, BMT-nin Beynəlxalq Ticarət Hüququ Komisisyası (UNCITRAL) (1985), Beynəlxalq ticarət arbitrajı haqqında UNCITRAL-ın nümunəvi qanunu, 11 dekabr 1985-ci il (2006-cı ildə bu sənədə dəyişikliklər edilib).

155 AİHM, "Ricent Kompani" Ukraynaya qarşı, ərizə № 773/03, 3 aprel 2008-ci il, 60-cı bənd.

Nümunə: *Suda Çex Respublikasına qarşı* məhkəmə işində[156] ərizəçi açıq səhmdar cəmiyyətində (C.) azlıqda olan səhm sahiblərindən idi. 2003-cü ilin noyabrında şirkətin ümumi yığıncağının səs çoxluğu ilə qəbul etdiyi qərara əsasən, C. ləğvetmə prosesi olmadan qapadılmalı və onun aktivləri əsas səhmdara (E.) təhvil verilməli idi. Ərizəçi də daxil olmaqla azlıqda olan səhmdarların səhmlərinin alış dəyəri müqavilə ilə müəyyənləşdirildi. Müqavilənin arbitraj barəsindəki maddəsində nəzərdə tutulmuşdu ki, alış dəyərinə yenidən baxılması adi məhkəmə icraatında deyil, arbitrajda baxılacaq məsələdir; C. və E. arasında işin arbitraja verilməsi barədə saziş bağlandı. Ərizəçi alış dəyərinə yenidən baxılması və onun etibarsız elan edilməsi üçün milli səviyyədə müxtəlif məhkəmə prosedurlarından istifadə etdi, amma cəhdləri uğursuz oldu.

AİHM qərara aldı ki, mübahisələrin həlli barədə razılaşmada məhkəməyə müraciət hüququndan imtina kifayət qədər aydın şəkildə nəzərdə tutulmuşdu və əgər tərəflər arbitraja müraciət etməli olsaydılar, arbitraj məhkəməsi 6-cı maddənin tələblərinə cavab verməli idi. Məhkəmə 6-cı maddənin (1-ci bənd) pozulduğunu müəyyən etdi, belə ki, arbitraj proseduru iki əsas tələbə cavab vermirdi: i) arbitraj barəsindəki maddə məhdud məsuliyyətli cəmiyyətin siyahısındakı arbitrlərə qərar qəbul etmək səlahiyyəti verirdi, amma bu, qanun əsasında yaradılmış arbitraj məhkəməsi deyildi; və ii) arbitraj proseduru açıq dinləmə keçirilməsinə imkan vermirdi, halbuki ərizəçi hər hansı formada bu hüququndan imtina etməmişdi.

Aİ qanunvericiliyinə əsasən, mediasiya elə bir strukturlaşdırılmış prosesdir ki, burada mübahisə tərəfləri könüllü olaraq mediatorun köməyi ilə mübahisənin həlli üçün razılığa gəlməyə cəhd edirlər.[157] Aİ MAH-ın təşviqi üçün bir neçə sənəd qəbul edib. Məsələn, "Mediasiya haqqında" Aİ direktivi müəyyən mülki və kommersiya işləri üzrə transsərhəd mübahisələri ilə bağlı mediasiyadan istifadəni dəstəkləyir.[158] Bu direktiv gəlir və gömrük məsələlərinə və ya inzibati məsələlərə, yaxud da dövlətin məsuliyyətinə aid məsələlərə tətbiq edilmir; o həmçinin əmək və ya ailə hüququ münasibətlərinə də tətbiq edilmir, belə ki, qüvvədə olan qanunvericiliyə əsasən tərəflər bu sahələrdə, məsələn, vətəndaşlıq vəziyyətinə aid məsələlərdə öz hüquq və vəzifələri barədə qərar verməkdə sərbəst deyillər. Bu direktiv tərəfləri mediasiyadan istifadə etməyə məcbur etmir: onun məqsədi MAH prosedurlarından istifadəni asanlaşdırmaq mübahisələrin mediasyia vasitəsilə dostcasına həllinə

156 AİHM, Suda Çex Respublikasına qarşı, ərizə № 1643/06, 28 oktyabr 2010-cu il.

157 Mülki və kommersiya hüququ işlərində mediasiyanın müəyyən aspektləri haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2008-ci il tarixli 2008/52/EC saylı direktivi (Mediasiya haqqında direktiv), OJ 2008 L 136, mad. 3. Bu Direktiv Danimarkaya şamil olunmur.

158 Yenə orada. 2-ci maddəyə (1-ci bənd) əsasən, "transsəsrhəd mübahisəsi" dedikdə elə mübahisə nəzərdə tutulur ki, aşağıdakı tarixlərdən birində tərəflərdən ən azı birinin daimi yaşayış yeri və ya adətən olduğu yer digər tərəfin dövlətindən fərqli olan üzv dövlətin ərazisində olur: i) mübahisə yarandıqdan sonra tərəflərin mediasiyadan istifadəyə etməyə razılaşdıqları tarixdə; ii) məhkəmənin tərəflərə mediasiyadan istifadə etmək barədə təklif və ya göstəriş verdiyi tarixdə; yaxud iii) milli qanunvericiliyə əsasən tərəflərin mediasiyadan istifadə etməyə borclu olduqları tarixdə.

şərait yaratmaqdır.[159] Direktiv həmçinin mediasiya və məhkəmə icraatı arasında balanslaşdırılmış münasibətləri təmin etmək məqsədini daşıyır və təsdiq edir ki, onun müddəaları mübahisə tərəflərinin məhkəmə sistemlərinə müraciət etmək hüququnun qarşısını almır.[160]

Aİ həmçinin istehlakçıların hüquqlarının müdafiəsi sahəsində MAH prosedurlarına dair qanunvericilik müddəaları qəbul edib.[161] İstehlakçıların mübahisələrinin alternativ həllinə dair direktiv və reqlament üzv dövlətlərdən tələb edir ki, istehlakçıların qaldırdığı mübahisələrin səmərəli və tez həllinə imkan verən sistemləri yaratsınlar və inkişaf etdirsinlər.[162] Direktiv milli səviyyədə MAH prosedurlarını həyata keçirmək üçün direktivin tələblərinə cavab verən qurumların siyahısının tutulması və monitorinq edilməsi məqsədi ilə müvafiq dövlət orqanlarının təyin olunmasının təmin edilməsinə yönəlib. MAH prosedurlarını həyata keçirən həmin qurumların daim yenilənən İnternet saytları olmalı və onlar xidmətlərini ödənişsiz və ya nominal qiymətlə təklif etməlidirlər. Üzv dövlətlərin 2015-ci ilin iyulunadək bu direktivi öz qanunvericiliklərinə daxil etmələri tələb olunur.

Reqlament isə müqavilə münasibətlərindən irəli gələn mübahisələrin məhkəmədənkənar qaydada, məsələn, elektron mediasiya vasitəsilə həlli üçün interaktiv onlayn portalın (mübahisələrin onlayn həlli (MOH) platformasının) yaradılmasını tələb edir. Reqlament ölkədaxili və transsərhəd mübahisələrinin iştirakçısı olan istehlakçılara və treyderlərə tətbiq edilir, habelə treyderlər tərəfindən istehlakçılara qarşı qaldırılmış müəyyən mübahisələrə də şamil olunur. Aİ istehlakçıları öz mübahisələrini onlayn rejimində qaldırdıqda MAH prosedurlarını həyata keçirən və mübahisələrin həllində onlara kömək edə biləcək milli qurumlarla İnternet vasitəsilə əlaqələndirilirlər.[163] Üzv dövlətlər MOH platforması vasitəsilə qaldırılan mübahisələrin həllinə yardım üçün müvafiq qurumların əlaqə məlumatlarını Aİ Komissiyasına təqdim etməlidirlər. Onlayn treyderlər mübahisələrin alternativ həlli variantı barədə istehlakçıları məlumatlandırmalı və öz saytlarında MOH platformasına giriş üçün linki təqdim etməlidirlər. Bu mexanizm 2016-cı ilin yanvarında qüvvəyə minəcək. Elektron ədalət mühakiməsi ilə bağlı digər

159 Yenə orada. 1-ci maddə. Direktivin təsirləri barədə müzakirə üçün bax: Avropa İttifaqı Parlamenti (2014), Mediasiya haqqında direktivin “yenidən işə salınması”: onun tətbiqinin məhdud təsirinin səbəblərinin təhlil edilməsi və Aİ-də mediasiya proseslərinin sayının artırılması üçün təbirlərin təklif olunması, Brüssel, Avropa İttifaqı.

160 Yenə orada., mad. 5 (2).

161 Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 38-ci maddəsində deyilir ki, “İttifaqın siyasəti istehlakçıların yüksək səviyyəli müdafiəsini təmin etməlidir”.

162 Bax: İstehlakçıların mübahisələrinin alternativ həlli barəsində olan və (EC) 2006/2004 saylı reqlamentə və 2009/22/EC saylı direktivə dəyişikliklər edən Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2013-cü il tarixli 2013/11/EU saylı direktivi, OJ L 165 (İstehlaçkıların mübahisələrinin alternativ həlli haqqında direktiv); və İstehlakçıların mübahisələrinin onlayn həlli barəsində olan və (EC) 2006/2004 saylı reqlamentə və 2009/22/EC saylı direktivə dəyişikliklər edən Avropa İttifaqı Parlamentinin və Şurasının (EU) 21 may 2103-cü il tarixli 524/2013 saylı reqlamenti, OJ L 165 (İstehlakçıların mübahisələrinin onlayn həlli haqqında reqlament).

163 Bax: İstehlakçıların mübahisələrinin onlayn həlli haqqında reqlament.

təşəbbüslər 8.5-ci bölmədə müzakirə olunur.

Məsrəflərə və vaxta qənaət edən mexanizm qismində mediasiyanın artan populyarlığı bəzi dövlətləri məcburi mexanizmlər tətbiq etməyə sövq edib. Aşağıdakı işdə bu məcburi mexanizmlərin məhkəmə vasitəsilə səmərəli müdafiənin təmin edilməsi prinsipinə uyğun olmasının AİƏM tərəfindən necə təsdiqləndiyi göstərilir.

Nümunə: *Rosalba Alassini v. Telecom Italia SpA* məhkəmə işində AİƏM ilkin qərarın qəbulu üçün İskya şəhərinin magistrat məhk[164]əməsi tərəfindən ona birgə halda təqdim edilmiş dörd sorğunu nəzərdən keçirdi, həmin sorğular milli məhkəmələrin icraatına qəbul edilməsi mümkün olan mübahisənin məhkəmədənkənar həllinə cəhd etməyi müəyyən hallarda məcburi şərt kimi nəzərdə tutan müddəalarla əlaqədar idi. Həmin müddəalar “Elektron kommunikasiya şəbəkələri və xidmətləri ilə bağlı universal xidmət və istifadəçilərin hüquqları haqqında” 2002/22/EC saylı direktiv ölkə qanunvericiliyinə daxil edildikdən sonra qüvvəyə minmişdi. Magistrat Məhkəməsi AİƏM-ə sual vermişdi ki, məhkəmə vasitəsilə səmərəli müdafiə prinsipi məcburi mediasiyanın qarşısını alırmı?

AİƏM bu qənaətə gəldi ki, məhkəmə vasitəsilə səmərəli müdafiə prinsipi məcburi mediasiyanın qarşısını almır, bu şərtlə ki, həmin mediasiya aşağıdakı tələblərə cavab verməlidir: i) mediasiya proseduru məcburi qüvvəyə malik qərarın qəbulu ilə nəticələnməməli; ii) o, sonradan qaldırıla biləcək məhkəmə işinin başlanmasının əhəmiyyətli dərəcədə yubanmasına səbəb olmamalı; iii) alternativ həll (mediasiya) proseduru aparılarkən iddia müddətinin axımı dayandırılmalı; iv) mediasiya tərəflər üçün xərclərə səbəb olmamalı (yaxud çox aşağı xərclərə səbəb olmalı); v) elektron vasitələr həll prosedurunun qiymətləndirilməsi üçün yeganə vasitə olmamalı; vi) müstəsna hallarda müvəqqəti tədbirlərin tətbiqi mümkün olmalıdır.

Mübahisələrin alternativ həlli mexanizmlərindən cinayət hüququ sahəsində də istifadə edilə bilər. AŞ-nin tövsiyəsində cinayət işlərində mediasiyadan istifadəyə dair təlimatlar verilir.[165] Mediasiya barədə razılığa gəlməzdən əvvəl tərəflər öz hüquqları, mediasiya prosesinin xarakteri və verdikləri qərarın mümkün nəticələri barədə tam məlumatlandırılmalıdırlar.[166] Nə zərərçəkən, nə də hüquqpozan hüquqa zidd vasitələrlə (məsələn, prokuror tərəfindən buna məcbur edilmə yolu ilə, yaxud vəkilin hüquqi məsləhətinin olmaması səbəbindən) mediasiyanı qəbul etməyə məcbur edilməməlidir.[167] Məsələn, “Qadınlara qarşı və ailədaxili zorakılığın qarşısının alınması və onlarla mübarizə aparılması haqqında” Avropa Şurasının

164 AİƏM, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, 18 mart 2010-cu il, 67-ci bənd.

165 Avropa Şurası, Nazirlər Komitəsi (1999), Cinayət işlərində mediasiyaya dair üzv dövlətlərə Rec(99)19 saylı Tövsiyə, 15 sentyabr 1999-cu il.

166 Yenə orada, 10-cu bənd.

167 Yenə orada, 11-ci bənd.

Konvensiyası mübahisələrin məcburi alternativ həllini, o cümlədən bu sahədə mediasiya və barışdırma prosedurlarını qadağan edir.[168]

Aİ qanunvericiliyinə əsasən, "Qurbanların hüquqları haqqında" direktivdə bərpaedici (restitusion) ədalət mühakiməsi kontekstində qurbanların təmin edilməli olan hüquqları öz əksini tapıb.[169] Cinayət qurbanlarının (zərərçəkənlərin) hüquqları daha sonra 8.2-ci bölmədə müzakirə olunur.

168 Avropa Şurası, Qadınlara qarşı və ailədaxili zorakılığın qarşısının alınması və onlarla mübarizə aparılması haqqında Konvensiya (İstanbul Konvensiyası), CETS No. 210, 2011-ci il.

169 Cinayət qurbanlarının hüquqları, dəstəklənməsi və müdafiəsi ilə bağlı minimal standartların müəyyən edilməsi və Aİ Şurasının 2001/220/JHA saylı Çərçivə qərarının əvəzlənməsi haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 25 oktyabr 2012-ci il tarixli 2012/29/EU saylı direktivi, OJ 2012 L 315, mad. 12. Bax: AİƏM, Birləşdirilmiş işlər C-483/09 və C-1/10, Criminal proceedings against Magatte Gueye and Valentin Salmerón Sánchez, 15 sentyabr 2011-ci il, 74-cü bənd və AİƏM, C-205/09, Criminal proceedings against Emil Eredics and Mária Vassné Sápi, 21 oktyabr 2010-cu il, 40-cı bənd. Həmçinin bax: BMT, İqtisadi və sosial məsələlər departamenti, Qadınların vəziyyətinin yaxşılaşdırılması bölməsi (DAW) (2009), Qadınlar barəsində zorakılığa qarşı mübarizə haqqında qanunvericiliyə dair məlumat kitabı, Nyu-York, Birləşmiş Millətlər Təşkilatı.

# 3 Hüquqi yardım



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Qeyri-cinayət prosesində hüquqi yardım | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>AİƏM, C 279/09, DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland, 2010<br><br>Hüquqi yardım haqqında direktiv (2002/8/EC)<br><br>604/2013 saylı reqlament, 27-ci maddə (5 və 6-cı bəndlər) | **Tətbiq dairəsi** | AİHK, 6-cı maddə (1-ci bənd)<br><br>AİHM, Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 1979<br><br>Hüquqi yardım barədə vəsatətlərin ötürülməsinə dair Avropa Sazişi, CETS No. 92, 1977 |
| | **Şəxsin maddi vəziyyətinin və şikayətinin mahiyyətinin yoxlanılması** | AİHM, Makvikar Birləşmiş Krallığa qarşı, ərizə № 46311/99, 2002 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Cinayət prosesində hüquqi yardım | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (2-co bənd) (təqsirsizlik prezumpsiyası və müdafiə hüququ) | **Tətbiq dairəsi** | AİHK, 6-cı maddə (3(c) bəndi) |
| | **Şəxsin maddi vəziyyətinin yoxlanılması** | AİHM, Tsonyo Tsonev Bolqarıstana qarşı (№ 2), ərizə № 2376/03, 2010<br>AİHM, Tualib Yunanıstana qarşı, ərizə № 24294/94, 1998 |
| | **Ədalət mühakiməsinin maraqlarının yoxlanılması** | AİHM, Zdravko Stanev Bolqarıstana qarşı, ərizə № 32238/04, 2012 |

Hüquqi yardıma çatım AİHK-ın 6-cı maddəsində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulan ədalətli məhkəmə araşdırması hüququnun mühüm tərkib hissəsidir. Hüquqi yardım almaq hüququ məhkəmə işlərinin xərclərini, məsələn, məhkəmə rüsumlarını və ya hüquqi təmsilçiliyin xərclərini ödəmək üçün yetərincə maddi vəsaiti olmayanların ədalət mühakiməsinə faktiki çatımını təmin edir (hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ 4-cü fəsildə təhlil olunur).

AŞ və Aİ hüququnda hüquqi yardımın konkret forması müəyyən edilməyib; dövlətlər bu məsələdə hüquqi öhdəliklərini necə yerinə yetirmək barədə qərar verməkdə sərbəstdirlər. Nəticədə hüquqi yardım sistemləri çox zaman bir-birindən xeyli fərqlənir.[170] Məsələn, hüquqi yardım vəkilin pulsuz təmsilçiliyindən və ya yardımından və həmçinin (və yaxud) məhkəmə rüsumları da daxil olmaqla prosesin xərclərinin ödənişindən azad edilməkdən ibarət ola bilər.[171] Bu tədbirlər əlavə yardım sistemləri ilə, məsələn, pulsuz hüquqi yardım xidmətləri, hüquqi məsləhət mərkəzləri və ya hüquqi məsrəflərin sığortası xidmətləri ilə paralel mövcud ola bilər, sonuncular dövlət tərəfindən maliyyələşdirilə, yaxud özəl sektor və ya QHT-lər tərəfindən idarə oluna bilər.[172] Bu fəsildə qeyri-cinayət prosesində ( 3.1-ci bölmə) və cinayət prosesində (3.2-ci bölmə) hüquqi yardım ayrı-ayrılıqda nəzərdən keçirilir, çünki bu proseslərdə tətbiq edilən hüquqlar fərqlənir.

170 AİHM, Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 oktyabr 1979-cu il, 26-cı bənd.
171 AİƏM, C 279/09, DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland, 22 dekabr 2010-cu il, 48-ci bənd.
172 FRA (2011), Avropada ədalət mühakiməsinə çatım: problemlərin və imkanların icmalı, səh. 47.

## 3.1. Qeyri-cinayət prosesində hüquqi yardım

### Əsas məqamlar

- AİHK-ın 6-cı maddəsi (1-ci bənd) və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi mülki prosesdə hüquqi yardım almaq hüququnu təmin edir. Bu, fərdlərin maddi imkanlarından asılı olmayaraq ədalət mühakiməsinə çatımına imkan yaradır.
- Bir qayda olaraq, hüquqi yardım göstərilməsi şəxsin maddi vəziyyətinin və şikayətinin mahiyyətinin yoxlanılmasının nəticəsindən asılıdır. Dövlətlər aşağıdakıları nəzərə alaraq hüquqi yardım göstərilməsinin ədalət mühakiməsinin marağına uyğun olub-olmadığına dair qərar verə bilərlər: işin şəxs üçün əhəmiyyəti; işin mürəkkəbliyi; və şəxsin özü-özünü təmsil etmək iqtidarında olması.
- AŞ və Aİ hüququna əsasən, hüquqi şəxslərə (məsələn, şirkətlərə) hüquqi yardım göstərilməsi prinsipcə mümkünsüz deyil, lakin bu zaman müvafiq milli hüquq normaları və müvafiq hüquqi şəxsin konkret situasiyası nəzərə alınmalıdır.

### 3.1.1. Tətbiq dairəsi

AŞ və Aİ hüququna əsasən, məhkəməyə müraciət hüququ (bu, ədalətli məhkəmə araşdırması hüququndan irəli gələn hüquqdur) maddi imkanlarından asılı olmayaraq bütün şəxslər üçün real olmalıdır. Bu, məhkəmə proseslərinə bərabər əsasda çıxışı təmin etmək üçün dövlətlər tərəfindən addımlar atılmasını, məsələn, müvafiq hüquqi yardım sistemlərinin yaradılmasını tələb edir.[173] Hüquqi yardım həm də ədalət mühakiməsinin həyata keçirilməsinə yardımçı ola bilər, belə ki, nümayəndə ilə təmsil olunmayan proses iştirakçıları çox zaman prosessual normalardan xəbərsiz olur və prosesdə məhkəmələrin onlara xeyli köməklik göstərməsi tələb olunur, bu isə prosesdə yubanmalara səbəb ola bilər.

173 Avropa Şurası, Nazirlər Komitəsi (1978), Hüquqi yardım və məsləhət haqqında 78(8) saylı qətnamə, 2 mart 1978-ci il.

## Perspektivli praktika

**Həssas durumda olan qruplara hüquqi yardım göstərilməsi**

Macarıstanda qaraçıların pulsuz hüquqi yardıma çatımını təmin etmək üçün 2001-ci ildən etibarən Ədliyyə və Hüquq Mühafizə Nazirliyi yanında Qaraçılara qarşı ayrı-seçkilik əleyhinə mübarizə şəbəkəsi xidməti (*Roma Anti-diszkriminációs Ügyfélszolgálati Hálózat*) fəaliyyət göstərir. Şəbəkənin işində iştirak edən vəkillər müvəkkillərinin qaraçı mənşəli olması səbəbindən hüquqlarının pozulduğu işlərdə pulsuz hüquqi yardım göstərirlər (hüquqi məsləhətlər verir, hüquqi sənədlər tərtib edir, məhkəmədə iş qaldırır və müvəkkillərini məhkəmədə təmsil edirlər). Nazirlik şəbəkənin işi üçün tələb olunan maliyyə vəsaitlərini (vəkillərin qonorarlarını) və məhkəmələrdə qaldırılan işlərin xərclərini ödəyir.

*Mənbə: FRA (2011), Avropada ədalət mühakiməsinə çatım: problemlərin və imkanların icmalı, səh. 50.*

Şəxs Yüksək Məhkəmədə iş qaldırdığı zaman prosessual normalarda və məhkəmənin istiqamətləndirici göstərişlərində yer alan təlimatlar müəyyən hüquqi məsləhət və yardımlarla birlikdə onun iş üzrə mövqeyini müdafiə edə bilməsi kifayət edirsə, o halda onun məhkəmələrə müraciət etmək üçün səmərəli imkana malik olduğunu hesab etmək olar.[174] Məhkəmələrə müraciət etmək üçün səmərəli imkanın təmin edilməsindən ötrü nələrin tələb olunması konkret işin (özü-özünü təmsil etmə hüququ ilə bağlı 4.3-cü bölməyə bax) faktlarından asılıdır.

AŞ hüququna əsasən, mülki hüquq və vəzifələrlə əlaqədar olan bütün məhkəmə proseslərində (bu məsələ ilə bağlı anlayış üçün 2.1-ci bölməyə bax) hüquqi yardım göstərmək öhdəliyi mövcud deyil.[175] Ərizəçinin vəkilin yardımı ilə təmin edilməməsi, əgər həmin yardım hüquqi təmsilçiliyin məcburiliyi və ya işlə əlaqədar prosedurun xüsusilə mürəkkəbliyi səbəbindən məhkəməyə real çatım imkanının mövcudluğu üçün zəruri olarsa, AİHK-ın 6-cı maddəsini poza bilər.[176] Hüquq sistemlərində hansı hallarda mülki işlərdə hüquqi yardımın göstərilməli olduğunu müəyyənləşdirən seçim prosedurları nəzərdə tutula bilər, amma bu prosedurlar əsassız və qeyri-mütənasib şəkildə, yaxud məhkəməyə müraciət hüququnun mahiyyətinə xələl gətirən tərzdə tətbiq edilməməlidir. Məsələn, apellyasiya şikayətinin təqdim edildiyi zaman əsassız sayılması səbəbindən hüquqi yardım göstərməkdən imtina edilməsi bəzi hallarda ərizəçinin məhkəməyə müraciət hüququnun mahiyyətinə xələl gətirə bilər.[177]

174 AİHM, A. Birləşmiş Krallığa qarşı, ərizə № 35373/97, 17 dekabr 2002-ci il, 97-ci bənd.
175 AİHM, Del Sol Fransaya qarşı, ərizə № 46800/99, 26 fevral 2002-ci il, 20-ci bənd.
176 AİHM, P., C. və S. Birləşmiş Krallığa qarşı, ərizə № 56547/00, 16 iyul 2002-ci il, 88-91-ci bəndlər.
177 AİHM, Aerts v. Belgium, ərizə № 25357/94, 30 iyul 1998-ci il. Bu qərardan Belçika qanunvericilikdə dəyişiklik edərək şikayətlərin açıq-aydın əsassız sayılması səbəbindən hüquqi yardım göstərməkdən imtina edilməsi hallarını məhdudlaşdırdı.

Nümunə: *Eyri İrlandiyaya qarşı* məhkəmə işində[178]ərizəçi ərindən məhkəmə qaydasında ayrılmaq istəyirdi, amma məhkəmə qərarının qəbuluna nail ola bilmirdi, çünki pulsuz hüquqi yardım olmadan vəkil tutmaq imkanına malik deyildi.

AİHM təsdiq etdi ki, AİHK-ın 6-cı maddəsində (1-ci bənd) mülki məhkəmə icraatında hüquqi yardım birmənalı şəkildə nəzərdə tutulmasa da, məhkəməyə faktiki çatım hüququnun təmin edilməsi üçün hüquqi yardım zəruri olduğu hallarda dövlətlər onu təmin etmək öhdəliyi daşıya bilərlər. Bu heç də mülki hüquq və vəzifələrə aid olan bütün işlərə şamil edilmir. Hər bir işin xüsusi hallarından çox şey asılıdır. Hazırkı işdə hüquqi yardımın göstərilməsinin lehinə dəlalət edən müvafiq amillər bunlar idi: prosedurun və hüquqi məsələlərin mürəkkəbliyi; ekspert rəyi və şahidlərin ifadələri vasitəsilə faktları müəyyənləşdirməyin zəruriliyi; və işin emosional çalarlı ailə-nikah mübahisəsinə aid olması. Məhkəmə AİHK-ın 6-cı maddəsinin pozulduğunu müəyyən etdi.

AŞ hüququna əsasən, hüquqi şəxslərə (məsələn, şirkətlərə) hüquqi yardım göstərilməsi prinsipcə mümkünsüz deyil, lakin bu zaman müvafiq milli hüquq normaları və müvafiq hüquqi şəxsin konkret situasiyası nəzərə alınmalıdır. AİHM qeyd edib ki, bu məsələ ilə bağlı dövlətlər arasında "konsensus, yaxud hətta vahid tendensiya" yoxdur.[179] Hüquqi yardım sisteminin yalnız qeyri-kommersiya hüquqi şəxsləri üçün əlçatan olması, əgər bu məhdudiyyət obyektiv və ağlabatan əsasa söykənirsə (məsələn, kommersiya şirkətlərinin məhkəmə xərclərini öz vergi öhdəliklərinin məbləğindən çıxa bilmələrinə imkan yaradılırsa), ədalət mühakiməsinə çatım hüququnu pozmur.[180]

Eləcə də AŞ hüququna əsasən, "Hüquqi yardım barədə vəsatətlərin ötürülməsinə dair" Avropa sazişi adətən yaşadığı yer iştirakçı dövlətlərdən birinin ərazisində olan şəxsin digər iştirakçı dövlətin ərazisində mülki, kommersiya və ya inzibati işlərdə hüquqi yardım üçün müraciət etməsinə imkan yaradır.[181]

Aİ qanunvericiliyinə əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulur ki, ədalət mühakiməsinə səmərəli çatımın təmin edilməsi üçün zəruri olarsa, yetərincə vəsaiti olmayanların hüquqi yardım almaq hüququ təmin edilməlidir. 47-ci maddə Aİ qanunvericiliyindən irəli gələn bütün hüquq və azadlıqlarla bağlı məhkəmə proseslərinə şamil olunur. Xartiyaya dair izahatlarda təsdiq edilir ki, hüquqi yardımın olmaması "səmərəli hüquqi müdafiə vasitəsinə çatımın təmin edilməsini mümkünsüz edərsə", həmin yardım

178 AİHM, Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 okttabr 1979-cu il, 26-cı bənd.
179 AİHM, "Qranos Orqanikos Nasionales S.A." Almaniyaya qarşı, ərizə № 19508/07, 22 mart 2012-ci il, 47 və 53-cü bəndlər.
180 AİHM, "VP Diffuzion Şarl" Fransaya qarşı, ərizə № 14565/04, 26 avqust 2008-ci il.
181 Avropa Şurası, Hüquqi yardım barədə vəsatətlərin ötürülməsinə dair Avropa Sazişi, CETS No. 92, 1977.

göstərilməlidir.[182] Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 52-ci maddəsinə (3-cü bənd) dair izahatlarda təsdiq edilir ki, 47-ci maddə AİHK-ın 6-cı maddəsinin ekvivalentidir. Bu birbaşa əlaqə o deməkdir ki, AŞ hüququnda qeyd edilən hallar Aİ hüququ üçün də aktuallıq kəsb edir (1-ci fəslə bax).[183]

Hüquqi yardım göstərilməsinin konkret şərtlərinin məhkəməyə müraciət hüququna münasibətdə ədalətsiz məhdudiyyət təşkil edib-etmədiyini müəyyənləşdirmək vəzifəsi milli məhkəmələrin üzərinə düşür.[184] Məhdudiyyətlər bu hüququn özünə "qeyri-mütənasib və dözülməz müdaxilə" təşkil etməməlidir (qanuni məhdudiyyətlərlə bağlı 6-cı fəslə bax).[185]

Nümunə: *DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland*[186] məhkəmə işində enerji təchizatı şirkəti DEB iki direktivin icrasının ləngidilməsinə görə Almaniya dövlətinə qarşı iddia qaldırmaq niyyətində idi və iddia edirdi ki, bu onun maliyyə itkilərinə səbəb olub.[187] O bildirmişdi ki, itkilər səbəbindən qüvvədə olan Prosessual Məcəllə ilə tələb olunan məhkəmə rüsumlarını və ya vəkil qonorarlarını ödəməyə vəsaiti yoxdur. Proses iştirakçılarından tələb olunurdu ki, hüquqi təmsilçilik məsələsini həll etsinlər, amma hüquqi şəxslər üçün hüquqi yardım yalnız "müstəsna hallarda" nəzərdə tutulurdu. Almaniya məhkəməsi işi AİƏM-ə göndərdi.

AİƏM bu halla bağlı AİHM-in presedent hüququnu nəzərdən keçirdi. O qeyd etdi ki, hüquqi şəxslərə hüquqi yardım göstərilməsi prinsipcə mümkünsüz deyil, lakin bu zaman müvafiq milli hüquq normaları və müvafiq hüquqi şəxsin konkret situasiyası nəzərə alınmalıdır. Hüquqi yardım üçün müraciətləri qiymətləndirərkən milli məhkəmələr aşağıdakıları nəzərə almalıdırlar: i) məhkəmə çəkişməsinin predmeti; ii) ərizəçinin işi udması perspektivinin ağlabatan olub-olmaması; iii) işin ərizəçi üçün nə dərəcədə önəmli olması; iv) mövcud qanunvericilik və prosedurların mürəkkəbliyi; v) ərizəçinin özü-özünü səmərəli şəkildə təmsil etmək iqtidarında olub-olmaması; və vi) məhkəmə prosesinin xərclərinin məhkəmələrə müraciət imkanına dəfedilməz maneə yaradıb-yaratmaması. Konkret olaraq hüquqi şəxslərə gəlincə, məhkəmələr aşağıdakıları nəzərə ala bilərlər: i) sözügedən hüquqi şəxsin təşkilati-hüquqi forması və kommersiya və

182 Fundamental hüquqlar haqqında Aİ Xartiyasına dair izahatlar, OJ 2007 C303/17.
183 Fundamental hüquqlar haqqında Aİ Xartiyası, mad. 52 (3). Həmçinin bax: AİƏM, C 619/10, Trade Agency Ltd v. Seramico Investments Ltd, 6 sentyabr 2012-ci il, 52-ci bənd.
184 AİƏM, C-156/12, GREP GmbH v. Freistaat Bayern, 13 iyun 2012-ci il.
185 Müdafiə hüquqlarının məhdudlaşdırılması ilə bağlı bax: AİƏM, C-418/11, Texdata Software GmbH, 26 sentyabr 2013-cü il, 84-cü bənd. Həmçinin bax: Fundamental hüquqlar haqqında Aİ Xartiyası, mad. 52 (1).
186 AİƏM, C 279/09, DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland, 22 dekabr 2010-cü il, 52-54 və 62-ci bəndlər.
187 Daxili təbii qaz bazarı üçün ümumi qaydalar haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 22 iyun 1998-ci il tarixli 98/30/EC saylı direktivi, OJ 1998 L 204; və Daxili təbii qaz bazarı üçün ümumi qaydalar barəsində olan və 98/30/EC saylı direktivi ləğv edən Avropa İttifaqı Parlamentinin və Şurasının 26 iyun 2003-cü il tarixli 2003/55/EC saylı direktivi, OJ 2003 L 176.

ya qeyri-kommersiya qurumu olması; ii) tərəfdaşlarının və ya səhmdarlarının maliyyə imkanları; və iii) həmin tərəfdaşların və ya səhmdarların məhkəmə prosesinə başlamaq üçün zəruri olan məbləğləri əldə etmək iqtidarına olub-olmaması. Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində təsbit edilmiş məhkəmə vasitəsilə səmərəli müdafiə prinsipinə əsasən, hüquqi şəxslərin hüquqi yardım alması mümkünsüz deyil.

Aİ hüququna əsasən, ikinci dərəcəli xüsusi qanunvericilikdə transsərhəd xarakterli mülki işlərdə hüquqi yardıma dair standartlar müəyyən edilir.[188] Məsələn, Hüquqi yardım haqqında direktivdə belə bir prinsip müəyyən edilir ki, qanunda nəzərdə tutulmuş hüquqlarını müdafiə etmək üçün kifayət qədər vəsaiti olmayan şəxslər lazımi hüquqi yardım almaq hüququna malikdirlər.[189] Direktivdə lazımi hüquqi yardım üçün hansı xidmətlərin göstərilməli olduğu qeyd edilir: məsələn, məhkəməyəqədər məsləhət alma, məhkəmədə hüquqi yardım və təmsilçilik, habelə məhkəmə xərclərindən azad edilmə (yaxud həmi xərclərin ödənilməsinə köməklik göstərilməsi), o cümlədən işin transsərhəd xarakteri ilə əlaqədar xərclərdən azad edilmə. Aİ qanunvericiliyində həmçinin sığınacaq məsələləri ilə bağlı hüquqi məsləhət və hüquqi yardım haqqında konkret müddəalar öz əksini tapıb.[190] Məhkəmə vasitəsilə səmərəli müdafiəsi prinsipi üzv dövlətlərdən tələb edir ki, Aİ-nin bu sənədlərinin məqsədlərinin həyata keçirilməsini təmin etsinlər.

188 Həmçinin bax: also Aİ Şurasının 2003/8/EC saylı direktivi əsasında hüquqi yardım barədə vəsatətlərin ötürülməsi üçün formanın yaradılması haqqında Aİ Komissiyasının 26 avqust 2005-ci il tarixli 2005/630/EC saylı qərarı, OJ 2005 L 225; və Transsərhəəd mübahisələri üzrə hüquqi yardımla bağlı minimal ümumi qaydaları müəyyən etməklə bu cür mübahisələrdə ədalət mühakiməsinə çatım imkanlarını yaxşılaşdırmaq məqsədi ilə Aİ Şurasının 2003/8/EC saylı direktivi əsasında hüquqi yardım barədə vəsatətlərin ötürülməsi üçün formanın yaradılması haqqında Aİ Komissiyasının 9 noyabr 2004-cü il tarixli 2004/844/EC saylı qərarı (C(2004) 4285 saylı sənəd əsasında bildiriş), OJ 2004 L 365.

189 Transsərhəd mübahisələri üzrə hüquqi yardımla bağlı minimal ümumi qaydaları müəyyən etməklə bu cür mübahisələrdə ədalət mühakiməsinə çatım imkanlarının yaxşılaşdırılması haqqında Aİ Şurasının 27 yanvar 2003-cü il tarixli 2002/8/EC saylı direktivi, OJ 2003 L 026.

190 Üzv dövlətlərdə qaçqın statusunun verilməsi və geri alınması üçün proesedurlara dair minimum standartlar haqqında Aİ Şurasının 1 dekabr 2005-ci il tarixli 2005/85/EC saylı direktivi, OJ 2005 L 326 (Sığınacaq prosedurları haqqında direktiv), 10 və 15-ci maddələr; Beynəlxalq himayənin təyin olunması və geri götürülməsi üçün ümumi prosedurlar haqqında Aİ Parlamentinin və Şurasının 26 iyun 2013-cü il tarixli 2013/32/EU saylı direktivi, OJ 2013 L 180 (Yenilənmiş prosedurlar haqqında direktiv), 8, 12, 20 və 21-ci maddələr; və Üçüncü ölkənin vətəndaşı və ya vətəndaşlığı olmayan şəxs tərəfindən üzv dövlətlərdən birinin ərazisində təqdim edilmiş beynəlxlaq himayə üçün müraciətə baxılmasına görə cavabdeh olan üzv dövlətin məyyənləşdirilməsi üçün meyarların və mexanizmlərin müəyyən edilməsi barədə Aİ Parlamentinin və Şurasının 26 iyun 2013-cü il tarixli 604/2013 saylı reqlamenti (yenilənmiş versiya), OJ 2013 L 180/31, mad. 27 (5) və (6). Həmçinin bax: FRA (2014), Sığınacaq, sərhəd və immiqrasiya məsələləri üzrə Avropa hüququna dair məlumat kitabı, Lüksemburq, Rəsmi Nəşrlər Bürosu, səh. 113-114.

## 3.1.2. Şəxsin maddi vəziyyətinin və şikayətinin mahiyyətinin yoxlanılması

Şəxsin maddi vəziyyətinin yoxlanılması ilə əlaqədar olaraq AİHM bildirib ki, ərizəçinin gəlirləri maliyyə meyarlarında müəyyən edilən səviyyədən artıq olduğuna görə ərizəçi hüquqi yardım sisteminin tətbiq dairəsindən kənarda qalıbsa, bu halda 6-cı maddənin (1-ci bənd) pozuntusu baş vermir bu şərtlə ki, ona hüquqi yardım göstərilməməsi məhkəməyə müraciət hüququnun mahiyyətinə xələl gətirmiş olmasın.[191]

Dövlətlər yardım göstərilən şəxslə qarşı tərəfin imkanlarının tam bərabərliyini təmin edəcək miqdarda dövlət vəsaiti sərf etməyə borclu deyillər, bu şərtlə ki, "tərəflərin hər birinə iş üzrə mövqeyini müdafiə etmək üçün onu digər tərəfin qarşısında əlverişsiz vəziyyətə salmayan şərtlər altında ağlabatan imkan yaradılmış olsun".[192]

Eləcə də şikayətin mahiyyəti ilə əlaqədar olaraq hüquqi yardım göstərməkdən imtina edilməsi işi udmaq üçün yetərincə perspektivin olmaması, yaxud şikayətin əsassız və ya qeyri-ciddi xarakter daşıması səbəbindən baş veribsə (məsələn, iddia sadəcə olaraq qarşı tərəfi narahat etmək üçün qaldırılıbsa), bu imtina qanuni hesab edilə bilər.[193] Özbaşınalıqlara yol verilməməsi üçün hüquqi yardım sistemi çərçivəsində şikayəçilərin yardımlardan faydalana biləcəyi işlərin seçilməsindən ötrü ədalətli mexanizm yaradılmalıdır.[194] AİHK-ın tələblərinə cavab verən sistemləri yaratmaq vəzifəsi dövlətlərin üzərinə düşür.[195] Hüquqi yardım üçün müraciətlə bağlı rəsmi qərar qəbul edilməməsi 6-cı maddənin (1-ci bənd) pozuntusunu təşkil edə bilər.[196]

AŞ və Aİ hüququna əsasən, ədalət mühakiməsinin maraqlarının şəxsə hüquqi yardım göstərilməsini tələb edib-etməməsi aşağıdakı amillərdən asılıdır:

- işin şəxs üçün əhmiyyəti;
- işin mürəkkəbliyi;
- şəxsin özü-özünü təmsil etmək iqtidarında olub-olmaması.

Məsələn, prosedurların, yaxud işin hüquqi və ya faktoloji məsələlərinin mürəkkəbliyi hüquqi yardıma ehtiyac yarada bilər. Həmçinin hüquqi yardımın olmaması ərizəçilərin məhkəməyə müraciət etmək hüququnun "mahiyyətinə" xələl gətirərsə, həmin yardım tələb oluna bilər. (praktiki və səmərəli hüquqi yardımla bağlı 4.1.2-

---

191 AİHM, Qleyzer Birləşmiş Krallığa qarşı, ərizə № 32346/96, 19 sentyabr 2000-ci il, 99-cu bənd. Həmçinin bax: AİHM, Santambrocio İtaliyaya qarşı, ərizə № 61945/00, 21 sentyabr 2004-cü il, 58-ci bənd (bu işdə hüquqi təmsilçilik üçün ərizəçinin ailəsi tərəfidnən ödəniş edilmişdi).
192 AİHM, Stil və Morris Birləşmiş Krallığa qarşı, ərizə № 68416/01, 15 fevral 2005-ci il, 62-ci bənd.
193 AİHM, Staroşşik Polşaya qarşı, ərizə № 59519/00, 22 mart 2007-ci il, 129-cu bənd. Həmçinin bax: AİHM, Stil və Morris Birləşmiş Krallığa qarşı, ərizə № 68416/01, 15 fevral 2005-ci il, 62-ci bənd.
194 AİHM, Qnaore Fransaya qarşı, ərizə № 40031/98, 19 sentyabr 2000-ci il, 41-ci bənd.
195 AİHM, Syalkovska Polşaya qarşı, ərizə № 8932/05, 22 mart 2007-ci il, 107-ci bənd.
196 AİHM, A.B. Slovakiyaya qarşı, ərizə № 41784/98, 4 mart 2003-cü il, 61-63-cü bəndlər.

ci bölməyə bax).[197] AİHM həmçinin hüquqi təmsilçiliklə bağlı qanunla müəyyən edilmiş tələbləri nəzərə alır.[198]

Hər bir işin konkret halları önəmlidir. Əsas meyar şəxsin "vəkilin yardımı olmadan öz işini lazımi və qənaətbəxş şəkildə müdafiə etmək iqtidarında olub-olmamasından" ibarətdir.[199] Məsələn, şəxs üçün xüsusi əhəmiyyət kəsb edən işlərdə (məsələn, uşaqları ilə təmasda olmasına aid işlərdə) və xüsusən şəxs həssas durumdadırsa (məsələn, psixi sağlamlığında problemlər varsa) hüquqi yardım tələb oluna bilər.[200] Hüquqi yardım həmçinin təcrübəli vəkil tərəfindən davamlı təmsilçilik tələb edən mürəkkəb məhkəmə işlərində məcburi ola bilər.[201] Həmçinin tərəflərin hüquqi yardıma çatım imkanları arasında böyük fərq olduqda (məsələn, tərəflərdən biri çoxmillətli korporasiyaları idarə edirsə) AİHK-ın 6-cı maddəsinin tələbləri pozula bilər.[202]

Nümunə: *Makvikar Birləşmiş Krallığa qarşı* məhkəmə işində[203] ərizəçi məşhur idmançının dopinqdən istifadə etdiyini bildirən məqalə dərc etmişdi. İdmançı böhtanla bağlı məhkəmə iddiası qaldırdı. Nümayəndə ilə təmsil olunmayan ərizəçi işi uduzdu və onun üzərinə məhkəmə xərclərini ödəmək vəzifəsi qoyuldu. O, AİHM-ə şikayət edərək bildirdi ki, hüquqi yardımın onun üçün əlçatan olmaması onun məhkəməyə müraciət etmək hüququnu pozub. O, prosesdə cavabdeh idi, buna görə də hüquqi yardım məsələsi prosesin ədalətliliyi ilə əlaqədar məsələ idi.

AİHM qərara aldı ki, hüquqi təmsilçiliyin tələb olunub-olunmaması işin xüsusi hallarından və konkret olaraq şəxsin vəkilin yardımı olmadan öz işini lazımi və qənaətbəxş şəkildə müdafiə etmək iqtidarında olub-olmamasından asılıdır. Bu işdə cavabdehə tətbiq edilmiş prinsiplər Eyri İrlandiyaya qarşı məhkəmə işində tətbiq edilənlərlə eyni idi. Böhtanla bağlı məhkəmə iddiası Yüksək Məhkəmədə kifayət qədər zəngin və tanınmış şəxs tərəfindən qaldırılmışdı. İki həftə ərzində davam etmiş məhkəmə araşdırmasında ərizəçidən tələb olunurdu ki, şahidləri çağırsın və sübutları nəzərdən keçirsin. Digər tərəfdən, o, məhkəmədə inandırıcı arqumentlər irəli sürmək üçün kifayət qədər savadlı və təcrübəli jurnalist idi. Belə olan halda Məhkəmə AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozulmadığını müəyyən etdi.

197 AİHM, Miroslav Ojexovski Polşaya qarşı, ərizə № 13526/07, 13 yanvar 2009-cu il, 22-ci i bənd.
198 AİHM, Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 oktyabr 1979-cu il, 26-cı bənd.
199 AİHM, Makvikar Birləşmiş Krallığa qarşı, ərizə № 46311/99, 7 may 2002-ci il, 48-ci bənd.
200 AİHM, Nenov Bolqarıstana qarşı, ərizə № 33738/02, 16 iyul 2009-cu il, 52-ci bənd.
201 AİHM, Stil və Morris Birləşmiş Krallığa qarşı, ərizə № 68416/01, 15 fevral 2005-ci il, 69-cu bənd.
202 Yenə orada.
203 AİHM, Makvikar Birləşmiş Krallığa qarşı, ərizə № 46311/99, 7 may 2002-ci il, 48-53-cü bəndlər.

**Perspektivli praktika**

**Ədalət mühakiməsinə çatımın təmini üçün onlayn rejimində hüquqi yardımın təklif edilməsi**

İspaniyada İspaniya Vəkillər Kollegiyalarının Baş Şurası ərizəçilərin vahid portala giriş vasitəsilə məhkəmə xərclərinin ödənişində və vəkil təyin olunmasında məhkəmələrin yardımı üçün müraciət etmələrinə imkan yaradan sistemi uğurla tətbiq edib. Bu, ərizəçiləri müraciətlərini əsaslandırmaq üçün müxtəlif sənədləri toplamaq işindən azad edir və müraciətlərinə baxılması üçün vaxtı xeyli dərəcədə azaldır.

*Mənbə: Ədalət mühakiməsinin büllur tərəzisi mükafatı – 2014, Avropa Şurası və Avropa İttifaqı Komissiyası tərəfindən birgə təşkil edilən mükafatlandırma.*

# 3.2. Cinayət prosesində hüquqi yardım

## Əsas məqamlar

- Cinayət prosesində hüquqi yardım almaq hüququ AİHK-ın 6-cı maddəsi (3(c) bəndi) və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 48-ci maddəsi (2-ci bənd) ilə təmin olunur.
- Hüquqi yardımın təyin edilməsi şəxsin maddi vəziyyətindən və şikayətinin mahiyyətindən (ədalət mühakiməsinin maraqlarından) asılıdır.
- Fərdlər kifayət qədər vəsaitə malik olmadıqlarını sübut etməlidirlər. “Kifayət qədər vəsait” termininin anlayışı müəyyən edilməyib. Təqsirləndirilən və ya şübhəli şəxs vəsaitinin olmadığını sübut etmək vəzifəsini daşıyır.
- “Ədalət mühakiməsinin maraqlarının” yoxlanılması aşağıdakıları özündə ehtiva edir: cinayət hüquq pozuntusunun ağırlıq dərəcəsinin; işin mürəkkəbliyinin; və müttəhimin fərdi situasiyasının nəzərdən keçirilməsi. Söhbət azadlıqdan məhrum edilməkdən getdiyi hallarda ədalət mühakiməsinin maraqları hüquqi təmsilçiliyin olmasını tələb edir.

### 3.2.1. Tətbiq dairəsi

AŞ hüququna əsasən, cinayət prosesində hüquqi yardım almaq hüququ konkret olaraq AİHK-ın 6-cı maddəsində (3(c) bəndi) nəzərdə tutulub. Həmin maddədə deyilir ki, cinayət törətməkdə ittiham olunan hər kəs (cinayət ittihamının anlayışı üçün 2.1-ci bölməyə bax) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün “vəsaiti kifayət etmədiyi” zaman (bunun üçün “ərizəçinin maddi vəziyyəti” müəyyənləşdirilir), “ədalət mühakiməsinin maraqları” tələb etdikdə (bunun üçün “ədalət mühakiməsinin maraqları” müəyyənləşdirilir) belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir. Vəkillə təmin edilmək hüququ polis tərəfindən dindirilməkdən tutmuş apellyasiya icraatına qədər prosesin bütün mərhələlərinə şamil olunur (hüquqi yardım almaq hüququnun tətbiq dairəsi ilə bağlı 4.2.1-ci bölməyə bax).[204]

AİHK-ın 6-cı maddəsində (3(c) bəndi) həmçinin şəxsin özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək hüququ nəzərdə tutulur və ədalət mühakiməsinin maraqları tələb etdikdə bu hüquq məhdudlaşdırıla bilər (şəxsin özünün seçdiyi müdafiəçinin yardımından istifadə etmək hüququ ilə bağlı 4.2.3-cü bölməyə bax). Bu isə o deməkdir ki, məhkəmənin ödənişsiz əsasda təyin etdiyi vəkili seçmək hüququ mütləq (qeyri-məhdud) hüquq deyil. Ödənişsiz əsasda təyin edilmiş vəkilin

204 AİHM, Salduz Türkiyəyə qarşı [BP], ərizə № 36391/02, 27 noyabr 2008-ci il.

dəyişdirilməsi üçün müraciət edən şəxs vəkilin öz işini qənaətbəxş şəkildə yerinə yetirmədiyini sübut etməlidir.[205] Xüsusi prosedurlar zamanı bu cür prosedurlar üzrə ixtisaslaşmış vəkillərin tələb olunması vəkili seçmək hüququna qoyulan məqbul məhdudiyyətlər sırasına daxildir.[206]

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi ilə qorunan hüquqlardan əlavə, onun 48-ci maddəsi (2-ci bənd) ittiham olunan hər kəsin müdafiə hüquqlarına hörmət edilməsini təmin edir. Xartiyaya dair izahatlarda təsdiq edilir ki, 48-ci maddənin 2-ci bəndi AİHK-ın 6-cı maddəsinin 3-cü bəndi ilə eyni mənanı daşıyır. [207] Buna görə də AİHM-in aşağıda qeyd edilən presedent hüququ 48-ci maddənin məqsədləri üçün aktuallıq kəsb edir. Aİ-nin ikinci dərəcəli qanunvericiliyinə gəlincə, Avropa İttifaqının Şurası cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxslərin prosessual hüquqlarının qorunmasını Aİ qanunvericiliyi vasitəsilə gücləndirməyə razılıq verib.[208] Buraya *"Azadlıqdan məhrum edilmiş şübhəli və ya təqsirləndirilən şəxslər üçün müvəqqəti hüquqi yardım və Avropa həbs orderi üzrə icraatda hüquqi yardım haqqında direktiv barədə təklif"* daxildir.[209] Bu direktivlə Aİ-yə üzv olan dövlətlərin üzərinə azadlıqdan məhrum edilmiş şəxsləri dindirilmədən əvvəl yubanmadan hüquqi yardımla təmin etmək öhdəliyi qoyulmuş olacaq. Müvəqqəti yardım şəxsin hüquqi yardım almaq hüququna malik olub-olmaması müəyyənləşdirilənə qədər tətbiq ediləcək. Həmçinin Aİ Komissiyası "Şübhəli və ya təqsirləndirilən şəxslərin hüquqi yardım almaq hüququ haqqında tövsiyə" qəbul edib.[210] Bu Tövsiyədə şəxsin maddi vəziyyətinin və şikayətinin mahiyyətinin yoxlanılmasına, habelə hüquqi yardımın keyfiyyətinə və səmərəliliyinə dair məcburi xarakter daşımayan təlimatlar təqdim edilir.

## 3.2.2. Şəxsin maddi vəziyyətinin yoxlanılması

AİHM "kifayət qədər vəsait" termininin anlayışını verməyib. Müttəhimin maddi vəziyyətinin ona hüquqi yardım təyin edilməsinə əsas verib-vermədiyini müəyyənləşdirmək üçün hər bir işin xüsusi halları nəzərə alınır. Təqsirləndirilən və ya şübhəli şəxs yetərli vəsaitinin olmadığını sübut etmək vəzifəsini daşıyır.[211] Lakin bunun üçün şübhələri bütünlüklə aradan qaldıran sübutun olması vacib deyil.[212] Bütün sübutlar, o cümlədən ərizəçinin vəziyyəti ilə bağlı dəlillər (məsələn,

205 AİHM, Lagerblom İsveçə qarşı, ərizə № 26891/95, 14 yanvar 2003-cü il, 60-cı bənd.
206 Misal üçün bax: AİHM, Meftah və başqaları Fransaya qarşı [BP], ərizələr № 32911/96, 35237/97 və 34595/97, 26 iyul 2002-ci il, 47-ci bənd.
207 Fundamental hüquqlar haqqında Aİ Xartiyasına dair izahatlar, OJ 2007 C303/17.
208 Stokholm Proqramı, OJ 2010 C 115.
209 Bax: Avropa İttifaqı Komissiyası (2013), Azadlıqdan məhrum edilmiş şübhəli və ya təqsirləndirilən şəxslər üçün müvəqqəti hüquqi yardım və Avropa həbs orderi üzrə icraatda hüquqi yardım haqqında direktiv barədə təklif, COM(2013) 824, yekun variant, Brüssel.
210 Bax: Avropa İttifaqı Komissiyası, Cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxslərin hüquqi yardım almaq hüququ haqqında 27 noyabr 2013-cü il tarixli tövsiyə, OJ 013 C 378.
211 AİHM, Kruassan Almaniyaya qarşı, ərizə № 13611/88, 25 sentyabr 1992-ci il, 37-ci bənd.
212 AİHM, Pakelli Almaniyaya qarşı, ərizə № 8398/78, 25 aprel 1983-cü il, 34-cü bənd.

onun bu və ya digər vaxtda həbsdə olub-olmaması), şəxsin özü tərəfindən təqdim edilən məlumatlar və ərizəçinin dəlillərinə zidd olan hər hansı dəlillər nəzərdən keçirilməlidir.[213]

Bu məsələnin müəyyənləşdirilməsi milli məhkəmələrin üzərinə düşür, onlar sübutları 6-cı maddənin (1-ci bənd) tələblərinə uyğun olaraq qiymətləndirməlidirlər.[214]

Nümunə: *Tsonyo Tsonev Bolqarıstana qarşı* (№ 2) məhkəmə işində[215] ərizəçi bədən xəsarəti yetirdiyinə və başqasının evinə qanunsuz daxil olduğuna görə məhkum edilmişdi. O, 18 ay müddətinə azadlıqdan məhrum edilmişdi. Ərizəçi, Ali Kassasiya Məhkəməsinə şikayəti ilə bağlı ona vəkil təyin olunması üçün vəsatət vermişdi, amma bu vəsatət konkret səbəb göstərilmədən rədd edilmişdi. Ərizəçi şikayət etdi ki, bu onun ədalətli məhkəmə araşdırması hüquqlarını pozub.

AİHM qeyd etdi ki, ərizəçinin hüquqi yardım üçün ödəmiş etməyə kifayət qədər vəsaitinin olub-olmadığını qiymətləndirmək çətindir. Bununla belə, o bildirdi ki, müəyyən əlamətlər onun yetərli vəsaitinin olmadığını düşünməyə əsas verir: birinci, əvvəlki məhkəmə icraatında ərizəçiyə vəkil təyin edilmişdi; və ikincisi, ərizəçi açıq-aydın bildirmişdi ki, vəkil tutmağa imkanı yoxdur. Məhkəmə bunun əksinə dəlalət edən aydın əlamətlərin olmadığını nəzərə alaraq qərara aldı ki, ərizəçi vəkillə təmsil olunması üçün ödəniş etməkdən ötrü kifayət qədər vəsaitə malik deyildi. O, bu qənaətə gəldi ki, bu işdə AİHK-ın 6-cı maddəsi (1-ci və 3-cü bəndlər) pozulub.

Nümunə: *Tualib Yunanıstana qarşı* məhkəmə işində[216] ərizəçi üç il müddətinə azadlıqdan məhrum edilmiş, birinci instansiyada məhkəmə tərəfindən təyin olunmuş vəkil vasitəsilə, apellyasiya instansiyasında isə humanitar təşkilat vasitəsilə təmsil olunmuşdu. Bu amillər onun hüquqi yardımın haqqını ödəmək üçün maddi vəsaitinin olmadığını göstərən "ciddi əlamətlər" idi. Kassasiya Məhkəməsinə şikayəti üzrə icraatda dövlətin onu vəkilin yardımı ilə təmin etməməsi onun AİHK-ın 6-cı maddəsi ilə təmin edilən hüquqlarını pozmuşdu.

### 3.2.3. Ədalət mühakiməsinin maraqlarının yoxlanılması

"Ədalət mühakiməsinin maraqlarının" (işin mahiyyətinin) şəxsə hüquqi yardım göstərilməsini tələb edib-etmədiyini müəyyənləşdirərkən aşağıdakı üç amili nəzərə almaq lazımdır:

- hüquq pozuntusunun ciddiliyi və potensial cəzanın ağırlıq dərəcəsi;
- işin mürəkkəbliyi;

213 Yenə orada.
214 AİHM, R. D. Polşaya qarşı, ərizələr № 29692/96 və 34612/97, 18 dekabr 2001-ci il, 45-ci bənd.
215 AİHM, Tsonyo Tsonev Bolqarıstana qarşı (№ 2), ərizə № 2376/03, 14 yanvar 2010-cu il.
216 AİHM, Tualib Yunanıstana qarşı, ərizə № 24294/94, 9 iyun 1998-ci il, 51-ci bənd.

- müttəhimin sosial vəziyyəti və fərdi situasiyası.[217]

Hər üç amil nəzərdən keçirilməlidir, amma onların hamısının birlikdə mövcud olması vacib deyil; onlardan hər hansı birinin mövcudluğu hüquqi yardımın təyin edilməsi üçün əsas ola bilər.

Nümunə: *Zdravko Stanev Bolqarıstana qarşı* məhkəmə işində[218] ərizəçi işsiz idi. O şikayət etmişdi ki, mülki iddia il əlaqədar işdə sənədləri saxtalaşdırdığına görə barəsində keçirilmiş cinayət prosesində onu hüquqi yardımla təmin etməkdən imtina edilib. O, cinayətə görə məhkum edilmiş və 250 avro məbləğində cərimələnmişdi. Həmçinin qərar çıxarılmışdı ki, o, ziyanın kompensasiyası üçün 8.000 avro ödəməlidir.

AİHM qeyd etdi ki, ərizəçi əvvəlcə azadlıqdan məhrumetmə cəzası ilə üzləşmək təhlükəsi altında idi; belə cəza təyin edilməsə də, ziyanın kompensasiyasının məbləği onun maddi vəziyyəti baxımından böyük məbləğ idi. Ərizəçi ali təhsilli idi, amma hüquqi təhsili yox idi. Məhkəmə prosesi həddən artıq mürəkkəb deyildi, amma sübutların qəbuledənliyi məsələsinə dair qaydaları, prosessual normaları və cinayətkar niyyət anlayışını özündə ehtiva edirdi. Bundan əlavə, ərizəçinin ittiham edildiyi cinayət əməli məhkəmə hakimiyyətinin yüksək vəzifəli nümayəndəsinə etimadı və Bolqarıstanda məhkəmə prosesinin dürüstlüyünü şübhə altına alırdı. Şübhəsiz ki, ərizəçinin iş üzrə mövqeyini ixtisaslı vəkil daha düzgün müdafiə edə və ittiham tərəfinin irəli sürdüyü arqumentləri daha səmərəli şəkildə təkzib edə bilərdi. Son nəticədə Məhkəmə AİHK-ın 6-cı maddəsinin (3(c) bəndi) pozulduğunu müəyyən etdi.

Təqsirləndirilən və ya şübhəli şəxsin fərdi durumu önəmlidir. Ədalət mühakiməsinin maraqlarının yoxlanılması göstərir ki, həssas durumda olan şəxslər, məsələn, uşaqlar, psixi sağlamlıq problemləri olan şəxslər və qaçqınlar üçün pulsuz hüquqi yardım tələb oluna bilər.[219] “Proses ərizəçi üçün açıq-aydın arzuolunmaz nəticələr doğura bilərsə” və iş mürəkkəbdirsə, hüquqi yardım təyin edilməlidir.[220] Hətta ərizəçilər prosesin gedişatını başa düşən təhsilli şəxslər olsalar belə, önəmli məsələ ondan ibarətdir ki, onlar özlərini həqiqətən vəkilsiz müdafiə edə bilərlərmi?[221] Ərizəçilər hüquqi yardımın olmamasının onların müdafiəsinə “faktiki zərər” yetirdiyini sübut etməyə borclu deyillər; onlar onu yalnız sübut etməlidirlər ki, “işin konkret halları baxımından” vəkilin iştirakının onlara kömək edə biləcəyi “inandırıcı” görünür.[222]

Söhbət şəxsin azadlığından gedirsə, prinsipcə ədalət mühakiməsinin maraqları onun vəkillə təmsil olunmasını tələb edir.[223] Hətta azadlıqdan məhrumetmə yalnız

217 AİHM, Karanta İsveçrəyə qarşı, ərizə № 12744/87, 24 may 1991-ci il.
218 AİHM, Zdravko Stanev Bolqarıstana qarşı, ərizə № 32238/04, 6 noyabr 2012-ci il, 40-cı bənd.
219 AİHM, Karanta İsveçrəyə qarşı, ərizə № 12744/87, 24 may 1991-ci il, 32-36-cı bəndlər.
220 AİHM, Fam Hoanq Fransaya qarşı, ərizə № 13191/87, 25 sentyabr 1992-ci il, 40-41-ci bəndlər.
221 AİHM, Zdravko Stanev Bolqarıstana qarşı, ərizə № 32238/04, 6 noyabr 2012-ci il, 40-cı bənd.
222 AİHM, Artiko İtaliyaya qarşı, ərizə № 6694/74, 13 may 1980-ci il, 34-35-ci bəndlər.
223 AİHM, Benhem Birləşmiş Krallığa qarşı [BP], ərizə № 19380/92, 10 iyun 1996-cı il, 61-ci bənd.

ehtimal formasında olsa belə, bu öhdəlik yaranmış olur.[224]

Cinayət işi üzrə apellyasiya icraatı mərhələsində aşağıdakı amillər ədalət mühakiməsinin maraqlarının yoxlanılması üçün mühüm əhəmiyyət kəsb edir:

- prosesin xarakteri;
- vəkillə təmsil olunmayan şikayətçinin konkret hüquqi arqument irəli sürmək iqtidarında olub-olmaması;
- aşağı məhkəmələr tərəfindən təyin olunmuş cəzanın ağırlıq dərəcəsi.

Apellyasiya dinləmələrində mühüm hüquqi məsələlər meydana çıxdıqda pulsuz hüquqi yardım tələb olunur.[225] Apellyasiya şikayətində mürəkkəb və mühüm məsələnin qaldırıldığı aydın olan kimi ədalət mühakiməsinin maraqları naminə ərizəçiyə hüquqi yardım göstərilməlidir.[226] Bununla belə, AİHM bildirib ki, ədalət mühakiməsinin maraqları iş üzrə birinci instansiya məhkəməsindəki məhkəmə araşdırması AİHK-ın 6-cı maddəsinə uyğun olaraq ədalətli şəkildə aparıldıqdan sonra işi udmaq şansı olmayan məhkumun apellyasiya şikayəti vermək istədiyi hər bir halda avtomatik olaraq hüquqi yardım təyin olunmasını tələb etmir.[227]

Nəhayət, qeyd etmək lazımdır ki, sadəcə olaraq hüquqi yardımın göstərilməsi o demək deyil ki, həmin yardım səmərəli olacaq. Məsələn, təyin olunmuş vəkil xəstələnə və ya vəzifələrini lazımınca yerinə yetirməyə bilər.[228] Dövlət hüquqi yardım məqsədləri üçün təyin olunmuş vəkilin yol verdiyi hər bir nöqsana görə məsuliyyət daşıya bilməz. Lakin hüquqi yardım üçün təyin olunmuş vəkil praktiki və səmərəli müdafiəni hazırlamağı açıq-aydın yerinə yetirmirsə, bu hal 6-cı maddənin tələblərini poza bilər.[229] Daha sonra bu məsələ hüquqi məsləhət almaq, müdafİə edilmək və təmsil olunmaq hüququ barəsindəki 4-cü fəsildə nəzərdən keçirilir.

224 Misal üçün bax: AİHM, Karanta İsveçrəyə qarşı, ərizə № 12744/87, 24 may 1991-ci il, 33-cü bənd; AİHM, Perks və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 25277/94, 25279/94, 25280/94, 25282/94, 25285/94, 28048/95, 28192/95 və 28456/95, 12 oktyabr 1999-cu il.
225 AİHM, Pakelli Almaniyaya qarşı, ərizə № 8398/78, 25 aprel 1983-cü il, 36-38-ci bəndlər.
226 AİHM, Qrancer Birləşmiş Krallığa qarşı, ərizə № 11932/86, 28 mart 1990-cı il, 47-ci bənd.
227 AİHM, Monnell və Morris Birləşmiş Krallığa qarşı, ərizələr № 9562/81 və 9818/82, 2 mart 1987-ci il, 67-ci bənd.
228 AİHM, Artiko v. Italy, ərizə № 6694/74, 13 may 1980-ci il.
229 AİHM, Çekalla Portuqaliyaya qarşı, ərizə № 38830/97, 10 oktyabr 2002-ci il, 63-66-cı bəndlər.

# 4

# Hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Qeyri-cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ) və 48-ci maddənin 2-ci bəndi (təqsirsizlik prezumpsiyası və müdafiə hüququ) | **Tətbiq dairəsi** | AİHK, 6-cı maddənin 1-ci bəndi və 6-cı maddənin 3(b) və 3(c) bəndləri |
| | **Məhkəməyə çatım üçün “praktiki və səmərəli” imkanın olması** | AİHM, Bertutsi Fransaya qarşı, ərizə № 36378/97, 2003<br>AİHM, Anqhel İtaliyaya qarşı, ərizə № 5968/09, 2013 |
| Cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ | | |
| Cinayət prosesində vəkillə təmin edilmək hüququ haqqında 2013/48/EU saylı direktiv | **Tətbiq dairəsi** | AİHM, Salduz Türkiyəyə qarşı [BP], ərizə № 36391/02, 2008 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Cinayət prosesində vəkillə təmin edilmək hüququ haqqında 2013/48/EU saylı direktiv, 3-cü maddə (3(b) bəndi | **Hüquqi yardımın keyfiyyəti** | AİHM, Aras Türkiyəyə qarşı (№ 2), ərizə № 15065/07, 2014 |
| | **Şəxsin özünün seçdiyi vəkilin yardımından istifadə etməsi** | AİHM, Lagerblom İsveçə qarşı, ərizə № 26891/95, 2003 |
| Fundamental hüquqlar haqqında Xartiya, 48-ci maddə (2-ci bənd)<br><br>Cinayət prosesində vəkillə təmin edilmək hüququ haqqında 2013/48/EU saylı direktiv, 3-cü maddənin 1-ci və 3(a) bəndləri və 4-cü maddə<br><br>Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında 2012/13/EU saylı direktiv<br><br>Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında 2010/64/EU saylı direktiv, 2-ci maddə (2-ci bənd) | **Şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olması** | AİHK, 6-cı maddə (3(b) bəndi)<br><br>AİHM, Lants Avstriyaya qarşı, ərizə № 24430/94, 2002 |
| Cinayət prosesində vəkillə təmin edilmək hüququ haqqında 2013/48/EU saylı direktiv, 9-cu maddə | **Hüquqlardan imtina** | AİHM, Pişşalnikov Rusiyaya qarşı, ərizə № 7025/04, 2009 |
| Özü-özünü təmsil etmək hüququ | | |
| | **Tətbiq dairəsi** | AİHK, 6-cı maddə (3(c) bəndi)<br><br>AİHM, Qalstyan Ermənistana qarşı, ərizə № 26986/03, 2007 |

Bu fəsildə qeyri-cinayət prosesində (4.1-ci bölmə) və cinayət prosesində (4.2-ci bölmə) hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ barəsində AŞ və Aİ hüququnun müddəalarının qısa icmalı verilir.[230] Bu hüququn tətbiq dairəsi hüquqi yardımın səmərəli olması tələbi ilə birlikdə nəzərdən keçirilir. Cinayət prosesi çərçivəsində həmçinin bu hüquqdan irəli gələn və onunla əlaqəli olan əlavə hüquqlar, məsələn, şəxsin özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək hüququ (4.2.3-cü bölmə) və öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ (4.2.4-cü bölmə) tədqiq edilir. Bu fəsildə həmçinin hüquqi yardım hüququndan imtina edilməsinin hansı hallarda mümkün olmasından (4.2.5-ci bölmə) və özü-özünü təmsil etmək hüququnun tətbiq dairəsindən (4.3-cü bölmə) bəhs edilir.

## 4.1. Qeyri-cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ

### Əsas məqamlar

- AİHK-ın 6-cı maddəsində cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ birmənalı olaraq təmin edilir, amma qeyri-cinayət prosesi üçün bu hüquq nəzərdə tutulmur. Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində bu hüquq birmənalı olaraq yalnız üzv dövlətlərin Aİ qanunvericiliyini həyata keçirdikləri (və ya öhdəliklərindən geri çəkildikləri) hallar üçün nəzərdə tutulub.
- Qeyri-cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ mütləq (qeyri-məhdud) hüquq deyil və ona ağlabatan məhdudiyyətlər tətbiq edilə bilər. Qeyri-cinayət prosesində hüquqi təmsilçiliyin zəruri olub-olmaması hər bir işin konkret hallarından – xüsusən işin xarakterindən və ərizəçinin bioqrafiyasından, təcrübəsindən və baş verənlərə emosional münasibətinin səviyyəsindən asılıdır.

### 4.1.1. Tətbiq dairəsi

Hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ məhkəmə araşdırmasının ədalətli keçirilməsində və hüquqlarını həyata keçirməkdə fərdlərə kömək edir. Qeyri-cinayət prosesində ədalətli məhkəmə araşdırması hüququ məhkəməyə müraciət hüququnu (2.1.1-ci bölməyə bax) özündə ehtiva edir. Fərdlər məhkəmələrə çatım imkanının təmin edilməsi və ədalətli məhkəmə araşdırmasının keçirilməsi üçün vəkilin onları təmsil etməsini və ya onlara yardım göstərməsini

230 Sığınacaq və qayıdış prosedurları çərçivəsində hüquqi yardım ilə əlaqədar bu mənbəyə bax: FRA (2014), Sığınacaq, sərhəd və immiqrasiya məsələləri üzrə Avropa hüququna dair məlumat kitabı, səh. 113–114. Cinayət mühakimə icraatında uşaqların vəkilin yardımı üçün müraciət etmək hüququ və alternativ icraat (qeyri-məhkəmə icraatı) ilə əlaqədar bu mənbəyə bax: FRA (2015), Uşaq hüquqları ilə bağlı Avropa hüququna dair məlumat kitabı, Lüksemburq, Rəsmi Nəşrlər Bürosu, səh. 195–218.

tələb edə bilərlər və müvafiq olaraq, dövlətlərin üzərinə bunu təmin etmək öhdəliyi qoyula bilər.[231]

## Perspektivli praktika

**Hüquqi məsləhətlərin müxtəlif formalarının təklif edilməsi**

Wikivorce portalı ildə 50.000-dən artıq insanı pulsuz məsləhət və yardımla təmin edir, bu isə o deməkdir ki, o, Birləşmiş Krallıqda hər 3 boşanma işindən birində insanlara yardım göstərir. O, dünyada boşanma işləri üzrə insanlara yardım göstərən ən iri onlayn resursdur, 100.000-dən artıq qeydiyyatdan keçmiş üzvü var. Bu, mükafata layiq görülmüş sosial təşəbbüs olmaqla könüllülər tərəfindən həyata keçirilir, hökumət tərəfindən sponsor yardımı alır və xeyriyyə təşkilatları tərəfindən maliyyələşdirilir. O, aşağıdakılar da daxil olmaqla hüquqi xidmətlərin müxtəlif formalarını təklif edir: müzakirə forumu; boşanma, mediasiya, maliyyə məsələləri, uşaqla görüş məsələsi və yaşayış yeri ilə bağlı pulsuz təlimatlar; boşanmaya dair təlimat kitabı "Do İt Yourself" ("Bunu özün et"); həftənin yeddi günü açıq olan telefonla yardım xətti vasitəsilə ekspert məsləhəti; və dərhal yardım göstərilməsi üçün onlayn söhbətləşmə (chat (çat)) imkanı.

*Bax: www.wikivorce.com/divorce. Aşağıdakı mənbədə həmin portala istinad edilib: Smit, R. (2014), Aşağı gəlirli insanlara hüquqi xidmətlərin rəqəmsal formada təqdim edilməsi – Hüquq Maarifçiliyi Fondu, (The Legal Education Foundation).*

AŞ hüququna əsasən, "mülki hüquq və ya vəzifələrlə" əlaqədar mübahisələrdə (bu məsələ ilə bağlı anlayış üçün 2.1-ci bölməyə bax) bu tələblər AİHK-ın 6-cı maddəsindən (1-ci bənd) irəli gəlir.[232] Onlar 6-cı maddənin şamil olunduğu məhkəmə proseslərinin istənilən mərhələsində – məhkəmə işinin qaldırılmasından tutmuş məhkəmə qərarının icrasına qədər istənilən vaxt meydana çıxa bilər. 6-cı maddə apellyasiya hüququnu təmin etməsə də, apellyasiya icraatlarının mövcud olduğu hallarda onlara tətbiq edilir.[233] Bu isə o deməkdir ki, hüquqi yardım almaq hüququ apellyasiya icraatına da şamil olunur.

Aİ hüququna əsasən, hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində xüsusi olaraq əks olunub. Bu hüquq həmçinin AİƏM-in presdent hüququnda Aİ qanunvericiliyini ümumi prinsipi kimi tanınır.[234] AİHK-ın 6-cı maddəsi ilə Xartiyanın 47-ci maddəsi arasındakı əlaqə barədə əlavə məlumat üçün 1-ci fəsildəki sxemə bax.

AŞ və Aİ hüququna əsasən, bu hüquq mütləq (qeyri-məhdud) hüquq deyil və ona ağlabatan məhdudiyyətlər tətbiq edilə bilər (6-cı fəslə bax).

231 AİHM, Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 oktyabr 1979-cu il, 26-cı bənd.
232 AİHM, Rinqayzen Avstriyaya qarşı, ərizə № 2614/65, 16 iyul 1971-ci il, 94-cü bənd.
233 AİHM, T. Birləşmiş Krallığa qarşı [BP], ərizə № 24724/94, 16 dekabr 1999-cu il; və V. Birləşmiş Krallığa qarşı [BP], ərizə № 24888/94, 16 dekabr 1999-cü il.
234 AİƏM, C-305/05, Ordre des barreaux francophones et germanophone and others v. Conseil des ministres, 26 iyun 2007-ci il, 31-ci bənd.

### 4.1.2. Praktiki və səmərəli hüquqi yardım

AŞ hüququna əsasən, 6-cı maddə (1-ci bənd) əsasında dövlətlərin üzərinə məhkəməyə faktiki çatım imkanını təmin etmək üçün vəkilin yardımını təmin etmək vəzifəsi qoyula bilər. Bu baxımdan hüquqi məsləhətlərin və hüquqi yardımın təmin edilməsi AİHM-in presedent hüququnda bir-biri ilə sıx əlaqəlidir.[235] 6-cı maddənin qeyri-cinayət prosesində hüquqi təmsilçiliyin təmin olunmasını tələb edib-etməməsi hər bir işin konkret hallarından asılıdır.[236] Konkret olaraq, Məhkəmə şəxsin iş üzrə mövqeyini vəkilin köməyi olmadan lazımi və qənaətbəxş şəkildə təqdim etmək iqtidarında olub-olmadığını nəzərə alır.[237] İşin xarakteri, eləcə də ərizəçinin bioqrafiyası, təcrübəsi və baş verənlərə emosional münasibətinin səviyyəsi hüquqi yardım məsələlərini həll edərkən Məhkəmənin nəzərə aldığı mühüm məsələlərdir.[238]

Nümunə: *Bertutsi Fransaya qarşı* məhkəmə işində[239] ərizəçi ona dəymiş ziyana görə vəkilə qarşı iddia qaldırması üçün hüquqi yardımla təmin edilmişdi. Lakin onun işinə təyin olunmuş hər üç vəkil ərizəçinin məhkəməyə vermək istədiyi vəkillə şəxsi əlaqələri olduğuna görə həmin işdən kənarlaşdırılmalarını istəmişdilər.

AİHM qərara aldı ki, ərizəçinin hüquqşünasa qarşı məhkəmə prosesində özü-özünü təmsil etməsinə icazə vermiş məhkəmə onun öz hüquqlarından səmərəli şəkildə istifadə etməsinə imkan verən şərtlər altında məhkəməyə çatım imkanını həyata keçirməsinə şərait yaratmayıb ki, bununla da AİHK-ın 6-cı maddəsi (1-ci bənd) pozulmuş olub.

Dövlətlər 6-cı maddədə müəyyən edilmiş hüquqlardan "real və səmərəli" istifadəni təmin etmək üçün lazımi səyləri göstərməlidirlər.[240]

Nümunə: *Anqhel İtaliyaya qarşı* məhkəmə işində[241] ərizəçi "Beynəlxalq uşaq oğurluğunun mülki aspektləri haqqında Haaqa Konvensiyası"na uyğun olaraq Rumıniyanın ədliyyə nazirindən xahiş etmişdi ki, anası tərəfindən İtaliyaya aparılmış oğlunun geri qaytarılmasını təmin etməkdə ona kömək etsin. Nəticədə prokuror İtaliya məhkəməsində uşağın qaytarılması üzrə iş qaldırdı, həmin məhkəmə isə qərara aldı ki, uşaq ölkədən qanunsuz çıxarılmayıb. Ərizəçi bu qərardan apellyasiya şikayəti verməyin qaydasını öyrənmək üçün müraciət etdi, amma ona apellyasiya proseduru haqqında dəfələrlə natamam və ya qeyri-dəqiq informasiya verildiyinə görə o, müəyyən olunmuş müddət ərzində apellyasiya şikayəti verə bilmədi.

235 AİHM, Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 oktyabr 1979-cu il, 26-cı bənd.
236 AİHM, Stil və Morris Birləşmiş Krallığa qarşı, ərizə № 68416/01, 15 fevral 2005-ci il, 61-ci bənd.
237 AİHM, Makvikar Birləşmiş Krallığa qarşı, ərizə № 46311/99, 7 may 2002-ci il, 48-ci bənd.
238 Yenə orada, 49-52-ci bəndlər.
239 AİHM, Bertutsi Fransaya qarşı, ərizə № 36378/97, 13 fevral 2003-cü il, 31-ci bənd.
240 AİHM, Staroşşik Polşaya qarşı, ərizə № 59519/00, 22 mart 2007-ci il, 128-ci bənd.
241 AİHM, Anqhel İtaliyaya qarşı, ərizə № 5968/09, 25 iyun 2013-cü il, 64-cü bənd.

AİHM yekdilliklə qərara aldı ki, 6-cı maddənin tələbləri pozulub. İtaliyanın dövlət orqanlarının lazımi və dəqiq məlumatları verməkdə yubanmaları və üstəlik prosesdə praktiki və səmərəli təmsilçiliyin olmaması ərizəçinin məhkəməyə müraciət hüququnun mahiyyətinə xələl gətirmişdi.

Aİ hüququna uyğun olaraq, AİƏM baxdığı işlərin birində şəxsin özünə vəkil seçmək hüququnu məhkəmə xərclərinin sığortalanması barədə direktivin kontekstində nəzərdən keçirdi və bu zaman əsas hüquqlara dair şərh vermədi və bu məsələ ilə bağlı 47-ci maddənin tətbiq dairəsini müzakirə etmədi.[242] Lakin Fundamental hüquqlar haqqında Aİ Xartiyasının qəbulundan əvvəl AİƏM müəyyən etmişdi ki, vəkillə təmsil olunmaq hüququ və vəkillərlə müştəriləri arasında əlaqələrin konfidensial xarakterinin qorunması hüququ Aİ-nin hüquq sisteminin fundamental tərkib hissəsidir və ibtidai araşdırma mərhələsindən başlayaraq bu hüquqlara hörmət edilməlidir.[243] Bundan başqa, artıq qeyd edildiyi kimi, AİHM-in presedent hüququ 47-ci maddənin tətbiq dairəsinin şərhi üçün aktuallıq kəsb edir. (1-ci fəsildəki sxemə bax).

242 Bax: AİƏM, C-442/12, Jan Sneller v. DAS Nederlandse Rechtsbijstand Verzekeringsmaatschappij NV, 7 noyabr 2013-cü il – bu iş aşağıdakı direktivlə əlaqədardır: Qanunlarn, reqlamentlərin və inzibati müddəaların koordinasiyası haqqında 22 iyun 1987-ci il tarixli 87/344/EEC saylı direktiv, OJ 1987 L 185, mad. 4 (1).
243 AİƏM, Birləşdirilmiş işlər C-46/87 və C-227/88, Hoechst AG v. Commission of the European Communities, 21 sentyabr 1989-cü il, 15-ci bənd.

# 4.2. Cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ

## Əsas məqamlar

- AİHK-ın 6-cı maddəsi (3(c) bəndi) və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 48-ci maddəsi (2-ci bənd) cinayət işlərində hüquqi yardım almaq hüququnu birmənalı olaraq təmin edir.
- AİHK-ın 6-cı maddəsinin 3(b) bəndi şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququnu təsbit edir. Bu hüquq 6-cı maddəsinin 3(c) bəndində yer alan hüquqla sıx əlaqəlidir, belə ki, hüquqi yardım almaq hüququnun səmərəli olması üçün kifayət qədər vaxt və imkan tələb olunur.
- Hüquqi yardım almaq hüququ polis araşdırmasından tutmuş apellyasiya icraatının yekunlaşmasına qədər bütün məhkəmə prosesinə şamil olunur. Prosesin erkən mərhələlərində vəkilə çatım imkanının olması xüsusilə vacibdir.
- Bu hüquqa məhdudiyyətlər tətbiq edilə bilər, bu şərtlə ki, məhdudiyyətlər hüququnun mahiyyətinə gətirməsin.
- Hüquqi yardım almaq hüququ sadəcə vəkilin prosesdə iştirakını deyil, səmərəli təmsilçiliyin təmin olunmasını tələb edir.
- Bu hüquqdan imtina: i) birmənalı şəkildə bəyan edilməli; ii) bu hüququn mühümlüyünə mütənasib olan minimum təminatlar mövcud olmalı; iii) imtina könüllü olmalı; və iv) bilərəkdən və düşünülmüş şəkildə edilməlidir. Həmçinin sübut edilməlidir ki, müttəhim bu davranışının nəticələrini məntiqlə öncədən görmək iqtidarındadır.

### 4.2.1. Tətbiq dairəsi

AŞ hüququna əsasən, AİHK-ın 6-cı maddəsində (3(c) bəndi) nəzərdə tutulur ki, cinayət törətməkdə ittiham olunan hər kəs “şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək” hüququna malikdir (cinayət ittihamı ilə bağlı anlayış üçün 2.1-ci bölməyə bax). Beləliklə, cinayət törətməkdə ittiham olunan şəxs özü-özünü  müdafiə etmək və ya vəkillə təmsil olunmaq arasında seçim etmək imkanına malikdir. Lakin özü-özünü təmsil etmək hüququ ədalət mühakiməsinin maraqları naminə məhdudlaşdırıla bilər (4.3-cü bölməyə bax). Hüquqi məsləhət almaq hüququ hüquqi yardım almaq hüququ ilə (hüquqi yardım almaq hüququ barəsindəki 3.2.1-ci bölməyə bax), habelə AİHK-ın 6-cı maddəsinin 3(b) bəndində

nəzərdə tutulmuş öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ ilə əlaqəlidir. Sadə dildə desək, müttəhim hüquqi məsləhət almaq və müdafiəsini lazımi qaydada hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmazsa, hüquqi yardım səmərəli ola bilməz (4.2.4-cü bölməyə bax).[244]

Dövlətlər öz məhkəmə sistemlərində hüquqi yardım almaq hüququnu necə təmin etmək məsələsində seçim sərbəstliyinə malikdirlər.[245] Hüquqi yardım bir çox formalarda ola bilər (məsələn, dindirmə zamanı məsləhət vermə, məhkəmədə təmsil etmə və apellyasiya şikayətlərinin hazırlanması), özü də bu hüquq bütün prosesə şamil olunur.[246] Cinayət prosesinin erkən mərhələlərində vəkilin yardımından istifadə etmək hüququ xüsusilə vacibdir, belə ki, təqsirləndirilən və ya şübhəli şəxsin susması onun əleyhinə nəticələr çıxarılmasına səbəb ola bilər.[247] Erkən mərhələlərdə vəkilin yardımından istifadə etmək imkanının olması hər hansı dindirmə baş verməzdən əvvəl vəkillə təklikdə məsləhətləşmək hüququnu özündə ehtiva edir.[248]

Nümunə: S*alduz Türkiyəyə qarşı* məhkəmə işində[249] ərizəçi qanunsuz təşkilata, yəni PKK-ya (Kürdüstan Fəhlə Partiyası) dəstək üçün keçirilmiş icazəsiz nümayişdə iştirak etdiyinə görə məhkum olunmuşdu. O, vəkilin yardımından istifadə etmək imkanına malik olmamış və polis təcridxanasında dindirilmə zamanı təqsirini etiraf edən ifadələr vermişdi. O, sonradan ifadələrindən imtina etmişdi. Daxili məhkəmə onu məhkum edərkən ilkin ifadələrinə istinad etmişdi.

AİHM təsdiq etdi ki, ədalətli məhkəmə araşdırması hüququnun “praktiki və səmərəli” olması üçün polis tərəfindən ilk dindirilmədən başlayaraq vəkilin yardımından istifadə imkanı yaradılmalıdır. Məhkəmə qeyd etdi ki, şübhəli şəxslər istintaq mərhələsində xüsusilə həssas durumda olurlar və bu zaman toplanmış sübutlar onların işinin nəticəsini müəyyənləşdirə bilər. Vəkilin yardımından erkən mərhələdə istifadə imkanı şəxsi öz əleyhinə ifadə verməkdən qoruyur və qəddar rəftara qarşı fundamental təminat təşkil edir. Bu hüquqdan hər hansı istisna birmənalı olaraq məhdud xarakter daşımalı və müəyyən müddətlə məhdudlaşmalıdır. Hətta məhdudiyyətlər üçün əsaslı səbəblər meydana çıxdıqda belə, onlar təqsirləndirilən şəxsin hüquqlarını lüzumsuz dərəcədə məhdudlaşdırmamalıdır. Ərizəçinin işinə gəlincə, polis təcridxanasında saxlanılarkən onun vəkilinin olmaması onun müdafiə hüquqlarına sonradan düzəldilməsi mümkün olmayan mənfi təsir göstərmişdi ki, bu da 6-cı maddənin 1-ci bəndi ilə əlaqəli şəkildə götürülmüş 6-cı maddənin 3(c) bəndinin pozuntusu idi.

244 AİHM, Qoddi İtaliyaya qarşı, ərizə № 8966/80, 9 aprel 1984-cü il, 31-ci bənd.
245 AİHM, Karanta İsveçrəyə qarşı, ərizə № 12744/87, 24 may 1991-ci il, 30-cu bənd.
246 AİHM, Salduz Türkiyəyə qarşı [BP], ərizə № 36391/02, 27 noyabr 2008-ci il; həmçinin bax: AİHM, Yevgeni Petrenko Ukraynaya qarşı, ərizə №; 55749/08, 29 yanvar 2015-ci il, 89-cu bənd.
247 AİHM, Con Mürrey Birləşmiş Krallığa qarşı [BP], ərizə № 18731/91, 8 fevral 1996-cı il, 66-cı bənd.
248 AİHM, A.T. Lüksemburqa qarşı, ərizə № 30460/13, 9 aprel 2015-ci il, 86-cı bənd.
249 AİHM, Salduz Türkiyəyə qarşı [BP], ərizə № 36391/02, 27 noyabr 2008-ci il, 54-62-ci bəndlər.

Vəkilin yarımından istifadə üçün səmərəli və praktiki imkan yaradılmalıdır. Məsələn, polis təcridxanasında olan şəxslər rəsmən özlərinin müdafiə hüquqları ilə, o cümlədən müəyyən şərtlərlə pulsuz hüquqi yardım almaq hüququ ilə tanış edilməli, həmçinin polis onların müdafiəçi ilə təmasa girməsi və ünsiyyətdə olması üçün onları praktiki vasitələrlə təmin etməlidir (həmçinin 4.2.4-cü bölməyə bax). Əgər qanunlar cinayətdə ittiham olunan şəxslərin polis təcridxanasında saxlanıldıqları müddətdə hüquqi yardım almalarının qarşısını sistematik olaraq alırsa, hətta cinayətdə ittiham olunan şəxslər susduqları halda belə, 6-cı maddə pozulmuş olur.[250] Polis tərəfindən dindirilmənin ilkin mərhələlərində hüquqi yardım almaq hüququna qoyulan qanuni məhdudiyyətlər qiymətləndirilərkən onların bütövlükdə ədalətli məhkəmə araşdırması hüququna təsiri nəzərə alınmalıdır.[251]

Vəkillə konfidensial şəraitdə danışmaq hüququ da məhdudlaşdırıla bilər, amma belə məhdudiyyətlər üçün əsaslı səbəblərin göstərilməsi tələb olunur.[252] Bu, hüquqi yardım almaq hüququnun xüsusilə mühüm tərkib hissəsidir, belə ki, məsləhətləşmək və konfidensial təlimatlar almaq imkanı olmasa bu hüquq öz faydasının çox hissəsini itirmiş olar.[253] AİHM ardıcıl olaraq bildirib ki, bu hüququn təmin edilməməsi üçün "əsaslı səbəblər" tələb olunur; məsələn, ərizəçi cinayətkar dəstənin üzvü olmaqda şübhəli bilinirsə və onun vəkili ilə təmaslarının müşahidə altında olması dəstənin digər üzvlərini yaxalamaq üçün zəruridirsə, bu cür müşahidəyə haqq qazandırmaq olar. [254]

> Nümunə: *Lants Avstriyaya qarşı* məhkəmə işində[255] ərizəçi dələduzluqda şübhəli bilinərək müvəqqəti saxlanılmışdı. İbtidai həbsdə olduğu zaman vəkili ilə təmasları müşahidə altında idi, çünki ərizəçinin şahidlərə təsir göstərmək və ya sübutedici sənədləri məhv etmək riski aradan qalxmamışdı. O, şikayət etdi ki, bu onun müdafiə hüquqlarını pozub.
>
> AİHM AİHK-ın 6-cı maddəsinin 3(b) və (c) bəndlərinin pozulduğunu müəyyən etdi. Üçüncü şəxsin eşidə bilmədiyi şəraitdə müdafiəçi ilə ünsiyyətdə olmaq hüququ demokratik cəmiyyətdə ədalətli məhkəmə araşdırmasının əsas tələblərinin tərkib hissəsidir. Vəkil müdafiə etdiyi şəxslə məşvərət aparmaq imkanına malik deyilsə, vəkilin yardımı faydasının çox hissəsini itirir və səmərəsiz olur. İşin istintaqını aparan hakim tərəfindən müşahidənin aparılması təqsirləndirilən şəxsin müdafiə hüquqlarına ciddi müdaxilə idi və buna haqq qazandırmaq üçün əsaslı səbəblər tələb olunurdu.

250 AİHM, Dayanan Türkiyəyə qarşı, ərizə № 7377/03, 13 oktyabr 2009-cu il, 33-cü bənd.
251 AİHM, Pişşalnikov Rusiyaya qarşı, ərizə № 7025/04, 24 sentyabr 2009-cu il, 67-ci bənd.
252 AİHM, Saxnovski Rusiyaya qarşı [BP], ərizə № 21272/03, 2 noyabr 2010-cu il, 97-ci bənd.
253 AİHM, S. İsveçrəyə qarşı, ərizələr № 12629/87 və 13965/88, 28 noyabr 1991-ci il, 48-ci bənd. Həmçinin bax: AİHM, Brennan Birləşmiş Krallığa qarşı, ərizə № 39846/98, 16 oktyabr 2001-ci il, 58-63-cü bəndlər.
254 AİHM, Georq Kempers Avstriyaya qarşı, ərizə № 21842/93. Komissiyanın 14 fevral 1998-ci ildə qəbul edilmiş məruzəsi.
255 AİHM, Lants Avstriyaya qarşı, ərizə № 24430/94, 31 yanvar 2002-ci il, 50-52-ci bəndlər.

Aİ hüququna əsasən, cinayət prosesində hüquqi yardım almaq hüququ Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 48-ci maddəsində (2-ci bənd) təsbit olunub. Bu, cinayətdə ittiham olunan hər kəsin müdafiə hüquqlarına hörmət edilməsini təmin edir. AŞ hüququnda olduğu kimi Aİ qanunvericiliyində də bu hüquq mütləq (qeyri-məhdud) deyil. Bununla belə, o, ədalətli məhkəmə araşdırmasının əsas elementlərindən biri kimi tanınır;[256] prosesə təyin olunmuş vəkillər müdafiə etdikləri şəxslərin müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmalıdırlar (4.2.4-cü bölməyə bax).

Nümunə: *Ordre des barreaux francophones et germanophone and Others v. Conseil des ministres*[257] məhkəmə işində AİƏM qeyd etdi ki, vəkillər müvafiq hüquqi məsləhətlərin verilməsi zamanı əldə etdikləri məlumatları dövlət orqanlarına ötürmək yolu ilə həmin orqanlarla əməkdaşlıq etmək vəzifəsini daşıyarlarsa, müdafiə etdikləri şəxslərə məsləhətlər vermək, onları müdafiə və təmsil etmək vəzifəsini qənaətbəxş şəkildə yerinə yetirə bilməzlər.

Cinayət prosesində hüquqi yardım almaq hüququ həmçinin Aİ-nin ikinci dərəcəli qanunvericiliyində – “Cinayət prosesində və Avropa həbs orderi üzrə icraatda vəkillə təmin edilmək hüququ haqqında direktiv”də[258] təsbit olunub və AİHM tərəfindən bu direktivə istinad edilib.[259] Direktivin məqsədi cinayət prosesində və Avropa həbs orderi üzrə icraatda təqsirləndirilən və ya şübhəli şəxslərin hüquqları ilə bağlı minimum qaydaları müəyyən etməkdir. Bu direktivin müddəaları cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxslərə “cinayət törətməkdə şübhəli və ya təqsirli bilindikləri barədə üzv dövlətin səlahiyyətli orqanları tərəfindən rəsmi bildirişlə və ya digər formada məlumatlandırıldıqları andan” başlayaraq “prosesin yekunlaşdığı” anadək (yəni cinayətlə bağlı yekun qərarın qəbul edildiyi, o cümlədən cəzanın təyin olunduğu və apellyasiya icraatının yekunlaşdığı anadək) şamil olunur.[260] Direktiv həmçinin öncə şübhəli bilinməyən, amma dindirmənin gedişində şübhəli şəxsə çevrilən şəxslərə də şamil olunur.[261] Lakin azadlıqdan məhrum edilməyən şəxslərə fərqli standartlar şamil olunur; onlar öz seçdikləri vəkillə təmasda olmaqda, ondan məsləhət və ya yardım almaqda sərbəstdirlər, amma üzv dövlətlər onların vəkilin yardımı ilə təmin edilməsi üçün “aktiv addımlar atmağa” borclu deyillər.[262] Direktiv

256 AİƏM, C-7/98, Dieter Krombach v. André Bamberski, 28 mart 2000-ci il, 39-cu bənd.
257 AİƏM, C-305/05, Ordre des barreaux francophones et germanophone and Others v. Conseil des ministres, 26 iyun 2007-ci il, 32-ci bənd.
258 Cinayət prosesində və Avropa həbs orderi üzrə icraatda vəkillə təmin edilmək hüququ və azadlıqdan məhrum edilmə barədə üçüncü tərəfin məlumatlandırılması və azadlıqdan məhrum edilmə müddətində üçüncü şəxslərlə və konsulluq orqanları ilə təmasda olmaq hüququ haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 22 oktyabr 2013-cü il tarixli 2013/48/EU saylı direktivi, OJ 2013 L 294/1. Birləşmiş Krallıq və İrlandiya bu direktivə qoşulmayıblar, o həmçinin Danimarkaya tətbiq edilmir.
259 AİHM, A.T. Lüksemburqa qarşı, ərizə № 30460/13, 9 aprel 2015-ci il, 38-ci bənd.
260 2013/48/EU saylı direktiv, mad. 2 (1).
261 Yenə orada, mad. 2 (3).
262 2013/48/EU saylı direktivin deklarativ hissəsinin 27-ci bəndi.

həmçinin Avropa həbs orderi üzrə icraat çərçivəsində müdafiəni təmin edir.[263] Faktiki olaraq, "xırda hüquq pozuntuları" onun tətbiq dairəsi xaricindədir.[264]

Aİ və AŞ hüququna əsasən, hüquqi yardıma çatım əldə etmək hüququ həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün, məsələn, əlillər, miqrantlar və uşaqlar üçün xüsusilə vacibdir.[265] Dövlətlər onların prosesin gedişatını başa düşmələri və prosesdə səmərəli şəkildə iştirak etmələri üçün əlavə tədbirlər görməlidirlər ki, onlar deyilənlərin "ümumi məğzini" (zərurət olduqda tərcüməçinin, vəkilin, sosial işçinin və ya dostunun köməyi ilə) anlaya bilsinlər.[266] Həmçinin onlar hadisələrə dair öz versiyalarını vəkillərinə izah etmək imkanına malik olmalıdırlar. Dövlətlər onların keçirdiyi qorxu hissini mümkün qədər azaltmalı və uşaqların araşdırmanın xarakteri barədə geniş təsəvvürə malik olmalarını və söhbətin nədən getdiyini başa düşmələrini təmin etməlidirlər. Onlar uşaqların və həssas durumda olan digər şəxslərin hüquqi yardım almaq hüququ barədə məlumatlandırılmalarını təmin etməlidirlər (həmçinin əlillərlə bağlı 8.1-ci bölməyə bax).[267] Məhkəmədə müttəhimlər ittiham tərəfinin şahidlərinin dediklərini izləmək və hər hansı ifadə ilə razılaşmadıqlarını qeyd etmək imkanına malik olmalıdırlar.[268]

Cinayətlərdə təqsirləndirilən və ya şübhəli bilinən uşaqlar üçün prosessual təminatlar haqqında Aİ direktivinin layihəsində cinayət prosesi çərçivəsində təqsirləndirilən və ya şübhəli bilinən uşaqlar üçün vəkilin yardımının məcburi olması təklif edilir.[269] Həmçinin Avropa Komissiyası "Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında tövsiyə" qəbul edib, bu sənəddə tövsiyə edilir ki, prosesin gedişatını başa düşməyən şübhəli və ya təqsirləndirilən şəxslərin vəkilin yardımından istifadə etmək hüququndan imtina etmələrinə icazə verilməsin (hüquqlardan imtina barədə 4.2.5-ci bölməyə bax).[270]

## 4.2.2. Hüquqi yardımın keyfiyyəti

Hüquqi yardım almaq hüququ səmərəli hüquqi yardım və təmsilçilik hüququnu

263 Yenə orada, mad. 10.
264 Yenə orada, mad. 2 (4).
265 Bax: FRA (2015), Uşağın maraqlarını önə çəkən ədalət mühakiməsi – Aİ-yə üzv olan 10 dövlətdə mülki və cinayət mühakimə icraatlarında uşaqların iştirakı ilə bağlı perspektivlər və peşəkarların təcrübələri. Həmçinin bax: FRA (2015), Uşaq hüquqları ilə bağlı Avropa hüququna dair məlumat kitabı, səh. 195–218.
266 AİHM, S.C. Birləşmiş Krallığa qarşı, ərizə № 60958/00, 15 iyun 2004-cü il, 29-cu bənd.
267 AİHM, Panovits Kiprə qarşı, ərizə № 4268/04, 11 dekabr 2008-ci il, 67-ci bənd. Həmçinin əlillərlə bağlı bu mənbəyə bax: AİHK, mad. 5 (4), və AİHM, Medyeri Almaniyaya qarşı, ərizə № 13770/88, 12 may 1992-ci il, 27-ci bənd.
268 AİHM, S.C. Birləşmiş Krallığa qarşı, ərizə № 60958/00, 15 iyun 2004-cü il, 29-cu bənd.
269 Cinayət prosesi çərçivəsində şübhəli və ya təqsirli bilinən uşaqlar üçün prosessual təminatlar haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının direktivinə dair təklif, COM(2013) 822/2, mad.6.
270 Avropa Komissiyası (2013), Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında 27 noyabr 2013-cü il tarixli Tövsiyə, OJ 2013 C378.

nəzərdə tutur.[271] Şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarına hörmət edilməsini təmin etmək üçün müdaxilə imkanına malik olmayan vəkilin prosesdə iştirakının şübhəli və ya təqsirləndirilən şəxsə heç bir faydası yoxdur.[272]

Nümunə: *Aras Türkiyəyə qarşı* (№ 2) məhkəmə işində[273] ərizəçi ağırlaşdırıcı hallarla dələduzluqda şübhəli bilinərək həbs edilmişdi. O, vəkilin iştirakı olmadan polis tərəfindən dindirilmiş və bu cinayətlə əlaqədar ifadələr vermişdi. Sonra o, prokurorun yanına gətirilmiş və polisə verdiyi ifadəni vəkilin iştirakı olmadan təkrarlamışdı. Ərizəçi işin istintaqını aparan hakimin yanına gətirildikdə hakim ərizəçinin vəkilinin dinləmə otağına daxil olmasına icazə vermiş, amma onun çıxış etməsinə və ya ərizəçi ilə məsləhətləşməsinə icazə verilməmişdi.

AİHM bildirdi ki, vəkilin "sadəcə iştirakı" 6-cı maddənin 3(c) bəndində nəzərdə tutulmuş hüququn səmərəli olması üçün yetərli deyil. Ərizəçi ilk dindirmədən etibarən vəkillə görüşmək imkanına malik olmalı idi. Ərizəçinin vəkilinin dinləmə otağında passiv iştirakı onun yardımının AİHK-ın standartlarına uyğun hesab edilməsi üçün yetərli sayıla bilməzdi.

AŞ hüququna əsasən, müdafiəni necə həyata keçirmək təqsirləndirilən və ya şübhəli şəxslə onun vəkili arasında olan məsələdir, amma müvafiq dövlət orqanlar vəkilin davranışında "açıq-aydın nöqsan" olduğu barədə məlumat alarlarsa, tədbir görməlidirlər.[274] Bu öhdəlik yalnız o zaman yaranır ki, vəkil tərəfindən səmərəli təmsilçiliyin təmin edilməməsi "açıq-aydın baş vermiş olsun və ya bu hal [dövlətin] diqqətinə yetərincə çatdırılmış olsun".[275] Məsələn, apellyasiya şikayətinin qəbul olunmayan elan edilməsi vəkilin hərəkətsizliyi səbəbindən baş verərsə, bu, praktiki və səmərəli müdafiə hüququnun pozuntusunu təşkil edə bilər.[276] Yalnız dövlət orqanlarının təqsiri ucbatından baş verən nöqsanlar 6-cı maddənin 3(c) bəndinin pozulmasına gətirib çıxara bilər.[277] Məsələn, dövlət vəkilin təqsirləndirilən şəxsin maraqları naminə hərəkət etmədiyindən xəbər tutub tədbir görmədiyi halda dövlətin məsuliyyəti yarana bilər.[278] Lakin prosesin ədalətliliyi məsələsində ciddi nöqsanlar olsa belə, ərizəçi bu məsələni apellyasiya instansiyasında qaldırmadığı təqdirdə pozuntu müəyyən edilməyə bilər.[279]

Aİ hüququna əsasən, vəkillə təmin edilmək hüququ haqqında direktivdə təsdiq edilir ki, şübhəli və ya təqsirləndirilən şəxs vəkilinin "icraatda olması və səmərəli

271 AİHM, İmbroşşia İsveçrəyə qarşı, ərizə № 13972/88, 24 noyabr 1993-cü il, 43-cü bənd.
272 AİHM, Aras Türkiyəyə qarşı (№ 2), ərizə № 15065/07, 18 noyabr 2014-cü il, 40-cı bənd.
273 Yenə orada.
274 AİHM, Daud Portuqaliyaya qarşı, ərizə № 22600/93, 21 aprel 1998-ci il, 42-ci bənd.
275 AİHM, İmbroşşia İsveçrəyə qarşı, ərizə № 13972/88, 24 noyabr 1993-cü il, 41-ci bənd.
276 AİHM, Çekalla Portuqaliyaya qarşı, ərizə № 38830/97, 10 oktyabr 2002-ci il, 63-65-ci bəndlər; AİHM, Vamvakas Yunanıstana qarşı (№ 2), ərizə № 2870/11, 9 aprel 2015-ci il, 39-43-cü bəndlər.
277 AİHM, Tripodi İtaliyaya qarşı, ərizə № 13743/88, 22 fevral 1994-cü il, 30-cu bənd.
278 AİHM, Artiko İtaliyaya qarşı, ərizə № 6694/74, 13 may 1980-ci il, 33-cü bənd.
279 AİHM, Tualib Yunanıstana qarşı, ərizə № 24294/94, 9 iyun 1998-ci il.

iştirak etməsi" hüququna malikdir.[280] Vəkil "milli qanunvericilikdə nəzərdə tutulan prosedurlara uyğun olaraq" prosesdə iştirak etməlidir, "bu şərtlə ki, həmin prosedurlar müvafiq hüququn səmərəli şəkildə həyata keçirilməsinə və mahiyyətinə xələl gətirməsin".[281]

### 4.2.3. Şəxsin özünün seçdiyi müdafiəçinin hüquqi yardımı

Vəkil ilə müdafiə etdiyi şəxs arasında etimad münasibətinin mühümlüyünə baxmayaraq, şəxsin öz seçdiyi vəkilin yardımından istifadə etmək hüququ mütləq (qeyri-məhdud) hüquq deyil. Söhbət pulsuz hüquqi yardımdan getdikdə həmin hüquq hökmən tənzimlənməlidir, çünki bu cür hüquqi yardımın meyarlarına və maliyyələşdirilməsinə dövlət nəzarət edir (hüquqi yardımla bağlı həmçinin 3-cü fəslə bax).[282] Bu hüquqa həmçinin peşə fəaliyyətini tənzimləməyən normalar vasitəsilə məhdudiyyətlər tətbiq edilə bilər; məsələn, müxtəlif səviyyəli məhkəmə instansiyaları üçün müxtəlif səviyyəli ixtisas dərəcələri tələb oluna bilər.

Nümunə: *Lagerblom İsveçə qarşı* məhkəmə işində[283] ərizəçi hüquqi yardım göstərmək üçün təyin olunmuş vəkilin dəyişdirilməsi üçün vəsatət vermişdi. O, fin dilində danışa bilən vəkil istəyirdi. Daxili məhkəmələr onun vəsatətini rədd etmişdilər. O, iddia etdi ki, bu, AİHK-ın 6-cı maddəsinin 3(c) bəndini pozub.

AİHM qeyd etdi ki, 6-cı maddənin 3(c) bəndi təqsirləndirilən şəxsə "özünün seçdiyi" vəkil vasitəsilə müdafiə olunmaq hüququ verir, amma bu hüquq mütləq (qeyri-məhdud) sayıla bilməz. Müdafiəçi təyin edərkən məhkəmələr təqsirləndirilən şəxsin istəklərini nəzərə almalıdırlar, amma ədalət mühakiməsinin maraqlarının bunu nəzərə almamağı tələb etdiyini göstərən münasib və yetərli əsaslar olarsa, onun istəyi nəzərə alınmaya bilər. Ərizəçi vəkili ilə ünsiyyətdə olmaq üçün İsveç dilini kifayət qədər bilirdi və öz məhkəmə prosesində səmərəli şəkildə iştirak etmək iqtidarında idi. Məhkəmələr onun seçdiyi vəkili prosesə təyin etməkdən imtina etmək hüququna malik idilər. Bu işdə AİHK-ın 6-cı maddəsinin pozuntusu yox idi.

İşdə ciddi və mürəkkəb ittihamlar mövcud olarsa, ümumi sahələr üzrə ixtisaslaşan vəkillərin əvəzinə prosesə hüququn xüsusi sahəsi üzrə ixtisaslaşmış vəkillərin təyin edilməsi ədalət mühakiməsinin maraqlarına xidmət edə bilər.[284] Bundan əlavə, prosesin xüsusi xarakteri də xüsusi sahə üzrə ixtisaslaşmış vəkillərin istifadə edilməsinə haqq qazandıra bilər.[285]

280 2013/48/EU saylı direktiv, mad. 3 (3) (b).
281 Yenə orada.
282 Yenə orada.
283 AİHM, Lagerblom İsveçə qarşı, ərizə № 26891/95, 14 yanvar 2003-cü il.
284 AİHM, Mayzit Rusiyaya qarşı, ərizə № 63378/00, 20 yanvar 2005-ci il, 70-71-ci bəndlər.
285 AİHM, Meftah və başqaları Fransaya qarşı [BP], ərizələr № 32911/96, 35237/97 və 34595/97, 26 iyul 2002-ci il, 47-ci bənd.

### 4.2.4. Şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olması

AŞ və Aİ hüququna əsasən, təqsirləndirilən və ya şübhəli şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ var. Çünki elə hallar ola bilər ki, vəkilin müdafiə etdiyi şəxslə görüşmə və ya ünsiyyətdə olma şəraiti onun səmərəli hüquqi yardım göstərmək imkanına əngəl törədə bilər. Bu hüquq AİHK-ın 6-cı maddəsinin 3(b) bəndində təsbit olunub və həmçinin Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 48-ci maddəsinin 2-ci bəndində yer alan müdafiə hüquqlarına daxildir.

AŞ hüququna əsasən, səmərəli hüquqi yardım almaq hüququ işin materialları ilə tanışlığa buraxılmanı da nəzərdə tutur.[286] Həmin materiallara işin müvafiq hüquqi xarakteristikasını müəyyənləşdirmək üçün faydalı ola biləcək bütün sənədlər daxildir.

Vaxtın və imkanların yetərli olub-olmaması hər bir konkret işin hallarının işığında qiymətləndirilir.[287] Prosesin ağlabatan müddətdə keçirilməsinin təmin edilməsi ilə (prosesin müddəti ilə bağlı 7-cu fəslə bax) şəxsin öz müdafiəsini hazırlaması və həyata keçirməsi üçün kifayət qədər vaxt verilməsi arasında balansa nail olunmalıdır. Burada diqqət yetirilməli məsələ ondan ibarətdir ki, bu məsələdə hər hansı çətinliklərin olması bütövlükdə ədalətli məhkəmə araşdırması hüququna mənfi təsir göstərirmi?[288] Məsələn, cinayətdə ittiham olunan şəxs ilə vəkil arasında məsləhətləşmələrə vaxt verilməməsi 6-cı maddənin 3(b) bəndinin pozuntusu sayıla bilər, çünki bunsuz vəkil cinayətdə ittiham olunan şəxsə lazımi şəkildə kömək edə bilməz.[289]

Aİ hüququna əsasən, bir neçə direktivlə Aİ-yə üzv olan dövlətlərin üzərinə xüsusi öhdəliklər qoyulub (ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı 2.3.1-ci bəndə bax).[290] Məsələn, vəkillə təmin edilmək hüququ haqqında direktivin 3-cü maddəsinin 1-ci bəndi vəkilin yardımından istifadə etmənin elə vaxtda və qaydada təmin olunmasını tələb edir ki, müvafiq şəxslər öz müdafiə hüquqlarını səmərəli şəkildə həyata keçirə bilsinlər. 3-cü maddənin 3-cü bəndi şübhəli və ya təqsirləndirilən şəxslərə onları təmsil edən vəkillə konfidensial şəraitdə görüşmək və ünsiyyətdə olmaq hüququ verir. 3-cü maddənin 4-cü bəndi şübhəli və ya

286 AİHM, Dayanan Türkiyəyə qarşı, ərizə № 7377/03, 13 oktyabr 2009-cu il.
287 AİHM, İqlin Ukraynaya qarşı, ərizə № 39908/05, 12 yanvar 2012-ci il, 65-ci bənd.
288 AİHM, Öcalan Türkiyəyə qarşı [BP], ərizə № 46221/99, 12 may 2005-ci il, 148-ci bənd.
289 AİHM, Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il, 99-cu bənd.
290 Cinayət prosesində və Avropa həbs orderi üzrə icraatda vəkillə təmin edilmək hüququ və azadlıqdan məhrum edilmə barədə üçüncü tərəfin məlumatlandırılması və azadlıqdan məhrum edilmə müddətində üçüncü şəxslərlə və konsulluq orqanları ilə təmasda olmaq hüququ haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 22 oktyabr 2013-cü il tarixli 2013/48/EU saylı direktivi, OJ 2013 L 294/1. Birləşmiş Krallıq və İrlandiya bu direktivə qoşulmayıblar, o həmçinin Danimarkaya tətbiq edilmir.

təqsirləndirilən şəxslərə onların vəkillə təmin olunmaq imkanlarını asanlaşdıran ümumi məlumatların verilməsini Aİ-yə üzv olan dövlətlərdən tələb edir.[291]

Bundan əlavə, "Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında direktiv" cinayət prosesində şübhəli və təqsirləndirilən şəxsləri onların hüquqları barədə, o cümlədən öz müdafiələrini hazırlamaq üçün işin materialları ilə tanış olmaq hüququ haqqında məlumatlandırmaq öhdəliyini müəyyən edir. [292]

Nəhayət, "Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında direktiv"in 2-ci maddəsinin 2-ci bəndi şübhəli və ya təqsirləndirilən şəxslərin cinayət prosesi zamanı hər hansı dindirmə aparılarkən və ya məhkəmə iclası keçirilərkən, yaxud aprellyasiya şikayəti verilərkən və ya digər prosessual hərəkətlər edilərkən öz vəkilləri ilə birbaşa ünsiyyətdə ola bilmələri üçün şifahi tərcümə ilə təmin olunmalarını tələb edir.

## 4.2.5. Hüquqlardan imtina

Hüquqi yardım almaq hüququ o qədər mühüm əhəmiyyət daşıyır, təqsirləndirilən və ya şübhəli şəxs bu hüquqdan yalnız məhdud hallarda imtina edə bilər.[293] AİHM bu hüquqdan imtinanı ciddi surətdə məhdudlaşdırıb və imtina hallarında müvafiq təminatların olmasının vacibliyini vurğulayıb.

Nümunə: *Pişşalnikov Rusiyaya qarşı* məhkəmə işində[294] ərizəçi ağırlaşdırıcı hallarla soyğunçuluqda şübhəli bilinərək saxlanılmışdı. O, vəkilin iştirakı olmadan dindirilmiş və cinayətkar fəaliyyətlərdə iştirakını etiraf etmişdi. Sonrakı prosedurlar zamanı o, hüquqi yardımdan imtina etmişdi. Sonradan ona ödənişsiz əsasda vəkil təyin olunmuşdu. Vəkilin iştirakı ilə dindirilərkən o, ifadələrindən imtina etmişdi. O, saxlanıldığı zaman verdiyi ifadələr əsasında müxtəlif cinayətlərə görə məhkum olunmuşdu.

AİHM qeyd etdi ki, vəkili olmayan təqsirləndirilən şəxsin hüquqları barədə məlumatlandırılmaq şansı daha az olur; nəticədə onun hüquqlarına riayət edilməsi şansı da az olur. Bununla belə, fərdlər ədalətli məhkəmə araşdırmasının təminatlarından könüllü istəkləri əsasında birbaşa və ya dolayısı ilə imtina edə bilərlər. Bu halda müvafiq təminatların səmərəliliyi üçün bu imtina: i) birmənalı şəkildə bəyan edilməli; ii) bu hüququn mühümlüyünə mütənasib olan minimum təminatlar mövcud olmalı; iii) imtina könüllü olmalı; iv) bilərəkdən və düşünülmüş şəkildə edilməli; və v) əgər imtina barədə nəticə təqsirləndirilən şəxsin davranışı əsasında çıxarılırsa, sübut edilməlidir ki, o, bu davranışının nəticələrini məntiqlə öncədən görmək iqtidarında olub.

291 Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 22 may 2012-ci il tarixli 2012/13/EU saylı direktivi, OJ 2012 L142.

292 Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 20 oktyabr 2010-ci il tarixli 2010/64/EU saylı direktivi, OJ 2010 L 280.

293 AİHM, A.T. Lüksemburqa qarşı, ərizə № 30460/13, 9 aprel 2015-ci il, 59-cu bənd. Bu iş vəkillə təmin edilmək hüququ haqqında direktivlə əlaqədar idi.

294 AİHM, Pişşalnikov Rusiyaya qarşı, ərizə № 7025/04, 24 sentyabr 2009-cu il, 77-78-ci bəndlər.

Bu işdə Məhkəmə hesab etdi ki, ərizəçi vəkilin yardımı olmadan dindirilməsinin nəticələrini, çətin ki, məntiqlə öncədən qiymətləndirə bilərdi. O, AİHK-ın 6-cı maddəsinin pozulduğunu müəyyən etdi, çünki hüquqlardan imtina etibarlı sayıla bilməzdi.

Şübhəli və ya təqsirləndirilən şəxsin vəkilə lazımi təlimatlar verməkdən imtina etməsi əsasında onun hüquqlarından imtina etdiyi barədə nəticə çıxarmaq düzgün deyil.[295] Bundan əlavə, cinayətdə ittiham olunan şəxs müstəntiqlərin suallarına yalnız susmaq hüququ ona xatırladıldıqdan sonra cavab verməyə başılayıbsa, bu, onun hüquqularından imtina etməsi kimi başa düşülə bilməz.[296] Təqsirləndirilən və ya şübhəli şəxslərin öz müdafiə hüquqlarından tam xəbərdar olmalarını və konkret situasiyada hüquqlarından imtina etmələrinin nəticələrini mümkün qədər qiymətləndirə bilmələrini təmin etmək üçün ağlabatan addımlar atılmalıdır.[297] Cinayətdə ittiham olunan və vəkilin iştirakı olmadan dindirilən şəxs tərcüməçinin köməyi olmadan dindirilməsinin nəticələrini məntiqi olaraq qiymətləndirə bilməzsə, bu həm də 6-cı maddənin 3(c) bəndinin pozuntusu olacaq.[298] Dövlətlər həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslərin, məsələn, əlillərin və uşaqların hüquqlarının qorunması üçün əlavə tədbirlər görməlidirlər, məsələn, üçüncü tərəfləri bu şəxslərin müdafiəsinə cəlb etməklə bunu etmək olar (8-ci fəslə bax).[299]

Aİ hüququna əsasən, “Cinayət prosesində vəkillə təmin edilmək hüququ haqqında direktiv”in 9-cu maddəsi hüquqlardan imtinanın etibarlı sayılmasının üç şərtini müəyyən edir:

i) şübhəli və ya təqsirləndirilən şəxs müvafiq hüququn məzmunu və həmin hüquqdan imtina etmənin mümkün nəticələri barədə şifahi və ya yazılı şəkildə, sadə və başa düşülən dildə dəqiq və yetərli məlumatla təmin edilməlidir;

ii) imtina könüllü və birmənalı şəkildə bildirilməlidir;

iii) o, Aİ-yə üzv olam dövlətin qanunvericiliyinə uyğun olaraq qeydə alınmalıdır.[300]

295 AİHM, Saxnovski Rusiyaya qarşı, ərizə № 21272/03, 2 noyabr 2010-cu il, 89-93-cü bəndlər.
296 AİHM, Pişşalnikov Rusiyaya qarşı, ərizə № 7025/04, 24 sentyabr 2009-cu il, 79-cu bənd
297 AİHM, Panovits Kiprə qarşı, ərizə № 4268/04, 11 dekabr 2008-ci il, 68-ci bənd.
298 AİHM, Şaman Türkiyəyə qarşı, ərizə № 35292/05, 5 aprel 2011-ci il, 35-ci bənd.
299 AİHM, Panovits Kiprə qarşı, ərizə № 4268/04, 11 dekabr 2008-ci il, 67-68-ci bəndlər. Həmçinin bax: Avropa Komissiyası (2013), Cinayət prosesi çərçivəsində şübhəli və ya təqsirli bilinən uşaqlar üçün prosessual təminatlar haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının direktivinə dair təklif, COM(2013) 822/2; Avropa Komissiyası (2013), Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında 27 noyabr 2013-cü il tarixli Tövsiyə, OJ 2013 C378; və FRA (2015), Uşağın maraqlarını önə çəkən ədalət mühakiməsi – Aİ-yə üzv olan 10 dövlətdə mülki və cinayət mühakimə ictraatlarında uşaqların iştirakı ilə bağlı perspektivlər və peşəkarların təcrübələri.
300 Bax: 2013/48/EU saylı direktiv.

Lakin qeyd etmək lazımdır ki, Cinayət prosesində şübhəli və ya təqsirləndirilən uşaqlar üçün prosessual təminatlar haqqında direktivin layihəsi"nə əsasən, uşaqlar vəkillə təmin edilmək hüququndan imtina edə bilməzlər.[301] Bundan başqa, "Həssas durumda olan şəxslər üçün prosessual təminatlar haqqında" Avropa Komissiyasının Tövsiyəsində tövsiyə edilir ki, həssas durumda olan şəxslərin vəkillə təmin edilmək hüququndan imtina etmələrinə yol verilməməlidir.[302]

## 4.3. Özü-özünü təmsil etmək hüququ

### Əsas məqamlar

- Cinayət və qeyri-cinayət proseslərində şəxs özü-özünü təmsil edə bilər, lakin ədalət mühakiməsinin maraqlarının bunun əksini tələb etdiyi hallar, məsələn, ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi üçün təqsirləndirilən və ya şübhəli şəxsin hüquqlarının müdafiəçi tərəfindən qorunmasının və ya onun hüquqi nümayəndə ilə təmsil olunmasının tələb olunduğu hallar istisna təşkil edir.
- Ədalət mühakiməsinin maraqlarının vəkilin məcburi qaydada təyin olunmasını tələb edib-etmədiyinin müəyyənləşdirilməsində daxili məhkəmələr müəyyən qiymətləndirmə sərbəstliyinə malikdirlər.

**Perspektivli praktika**

**Özü-özünü təmsil edən proses iştirakçılarına yardım**

Birləşmiş Krallıqda Fərdi Dəstək Bölməsi (FDB) məhkəmə prosesində vəkillə təmsil olunmadan iştirak edən tərəflərə yardım edir. FDB İngiltərə və Uelsdə mülki və ailə işləri üzrə məhkəmə və tribunallardakı icraatda vəkillə təmsil olunmadan iştirak edən insanları müvafiq təlim alan və pulsuz yardım göstərən könüllülərlə təmin edir. FDB bu şəxslərə məhkəmədə baş verənlərlə bağlı praktiki təlimatlar verir; formaların doldurulmasında kömək edir və ya məhkəməyədək onları müşayiət edir; və həmçinin emosional və mənəvi dəstək verir. O, məhkəmə iclaslarında vəkilin və ya hüquqi nümayəndənin xidmətlərini göstərmir. Bununla belə, o, bu şəxslərlə bu hüquqi xidmətləri göstərən orqanlar arasında əlaqə yarada bilər.

*Mənbə: https://www.thepsu.org/*

301 Avropa Komissiyası (2013), "Cinayət prosesində şübhəli və ya təqsirləndirilən uşaqlar üçün prosessual təminatlar haqqında" Avropa İttifaqı Parlamentinin və Şurasının direktivi barədə təklif, mad 6
302 Avropa Komissiyası (2013), Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında tövsiyə, 11-ci bənd.

Qeyd edildi ki, əgər bu, fərdlərin məhkəməyə praktiki və səmərəli çatımının təmin edilməsi üçün zəruri olarsa, onlar qeyri-cinayət prosesində vəkillə təmsil olunmaq hüququna malikdirlər. AİHK-ın 6-cı maddəsinin 3(c) bəndi cinayətdə ittiham olunan şəxsə cinayət prosesində vəkillə təmsil olunmaqla iştirak etmək və ya özü-özünü təmsil etmək hüququ verir.

Şəxsin özü-özünü təmsil etməsinə icazə verilir, lakin ədalət mühakiməsinin maraqlarının bunun əksini tələb etdiyi hallar, məsələn, ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi üçün təqsirləndirilən və ya şübhəli şəxsin hüquqlarının müdafiəçi tərəfindən qorunmasının və ya onun hüquqi nümayəndə ilə təmsil olunmasının tələb olunduğu hallar istisna təşkil edir. Məsələn, bəzi milli qanunlar müttəhimin prosesin yalnız müəyyən mərhələlərində və ya apellyasiya icraatında təmsil olunmasını tələb edir.

Qeyri-cinayət prosesində özü-özünü təmsil etmək hüququ mütləq (qeyri-məhdud) hüquq deyil.[303] Ədalət mühakiməsinin maraqlarının vəkilin məcburi qaydada təyin olunmasını tələb edib-etmədiyinin müəyyənləşdirilməsində daxili məhkəmələr müəyyən qiymətləndirmə sərbəstliyinə malikdirlər.[304]

Məsələn, məhkəməyə qarşı hörmətsizliyin qarşısını almaq, həssas durumda olan şahidləri mənəvi travmadan qorumaq və şübhəli və ya təqsirləndirilən şəxslərin davamlı olaraq prosesə mane olmasının qarşısını almaq üçün bu hüquqa məhdudiyyətlər qoyula bilər.[305] Bu məsələdə istənilən diskresion səlahiyyətdən mütənasib şəkildə istifadə edilməli və məhdudiyyətlər ehtiyatlı şəkildə tətbiq edilməlidir.[306]

Nümunə: *Qalstyan Ermənistana qarşı* məhkəmə işində[307] ərizəçi həbs edilmiş, hüquqları barədə məlumatlandırılmış və vəkildən aydın şəkildə imtina etmişdi.

AİHM qeyd etdi ki, 6-cı maddənin 3(c) bəndi təqsirləndirilən şəxsə özünü "şəxsən və ya vəkilin yardımı ilə" müdafiə etmək arasında seçim etmək imkanı verir. Beləliklə, özü-özünü təmsil etməyə o halda icazə verilir ki, ədalət mühakiməsinin maraqları bunun əksini tələb etməsin. Ərizəçinin işində onun özü-özünü təmsil etmək seçimini etməsinin hər hansı təhdidin və ya fiziki zorakılığın, yaxud vəkildən imtina etməsi üçün "aldadılmasının" nəticəsi olduğunu göstərən heç bir sübut yox idi. Vəkillə təmsil olunmaması ərizəçinin öz seçimi idi; bunla görə də dövlət onun vəkillə təmsil olunmamasına görə məsuliyyət daşıya bilməzdi. Bu işdə AİHK-ın 6-cı maddəsinin pozuntusu yox idi.

303 AİHM, Filis Yunanıstana qarşı, ərizə № 16598/90, 1 iyul 1992-ci il. Həmçinin bax: AİƏM, C-399/11, Stefano Melloni v. Ministerio Fiscal, 26 fevral 2013-cü il, 49-52-ci bəndlər.
304 AİHM, Korreyya di Matuş Portuqaliyaya qarşı, ərizə № 48188/99, 15 noyabr 2001-ci il. Həmçinin bax: AİHM, Kruassan Almaniyaya qarşı, ərizə № 13611/88, 25 sentyabr 1992-ci il.
305 Yenə orada, 12-13-cü bəndlər.
306 Yenə orada, 18-ci bənd.
307 AİHM, Qalstyan Ermənistana qarşı, ərizə № 26986/03, 15 noyabr 2007-ci il, 91-ci bənd.

Təqsirləndirilən və ya şübhəli şəxs vəkilin yardımından istifadə etmək hüququndan biləkdən imtina edərsə, o zaman lazımi prosessual addımları atmaq vəzifəsi, məsələn, apellyasiya şikayəti üçün məhkəmə qərarının surəti tələb olunduğu təqdirdə həmin surəti almaq vəzifəsi onun öz öhdəsinə düşür.[308]

308 AİHM, Melen Fransaya qarşı, ərizə № 12914/87, 22 iyun 1993-cü il, 25-ci bənd.

# 5

# Səmərəli hüquqi müdafiə vasitələri hüququ



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Səmərəli hüquqi müdafiə vasitəsi nədir? | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>AİƏM, C 583/11 P, Inuit Tapiriit Kanatami and Others v. European Parliament and Council of the European Union, 2013<br><br>AİƏM, T-49/07, Sofiane Fahas v. Council of the European Union, 2010 | **Substantiv tələblər** | AİHK, 13-cü maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>AİHM, Makfarleyn İrlandiyaya qarşı [BP], ərizə № 31333/06, 2010<br><br>AİHM, Rotaru Rumıniyaya qarşı [BP], ərizə № 28341/95, 2000<br><br>AİHM, Yaraşonen Türkiyəyə qarşı, ərizə № 72710/11, 2014 |
| AİƏM, C-69/10, Brahim Samba Diouf v. Ministre du Travail, de l'Emploi et de l'Immigration, 2011 | **İnstitusional tələblər** | AİHM, Ramires Sançes Fransaya qarşı [BP], ərizə № 59450/00, 2006 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Examples of specific remedies | | |
| AİƏM, Birləşdirilmiş işlər C-6/90 və C-9/90, Andrea Francovich and Danila Bonifaci and others v. Italian Republic, 1991<br>İrqi bərabərlik haqqında direktiv (2000/43/EC), 15-ci maddə | **Kompensasiya** | AİHM, Ananyev və başqaları Rusiyaya qarşı, ərizələr № 42525/07 və 60800/08, 2012 |
| AİƏM, Birləşdirilmiş işlər C-65/09 və C-87/09, Weber and Putz, 2011<br>İstehlak mallarının satışı haqqında direktiv (1999/44/EC), 3-cü maddə, 2 və 3-cü bəndlər<br>Kompleks turizm haqqında direktiv (90/314/EEC), 4-cü maddə, 6 və 7-ci bəndlər | **Konkret hərəkətlərin icrasının təmin edilməsi** | |
| Fundamental hüquqlar haqqında Xartiya, 52 -ci maddənin 1-ci bəndi (tətbiq dairəsi)<br>AİƏM, C-314/12, UPC Telekabel Wien GmbH, 2014 | **Məhkəmə əmrləri** | AİHK, 10-cu maddə (ifadə azadlığı)<br>AİHM, Broza Almaniyaya qarşı, ərizə № 5709/09, 2014 |

Bu fəsildə və kitabın qalan hissəsində əsas diqqət AİHM və AİƏM-in timsalında təmin edilən hüquqi müdafiə vasitələrindən daha çox, ölkədaxili hüquqi müdafiə vasitələrinə yönələcək. Əvvəlcə bu fəsildə səmərəli hüquqi müdafiə vasitəsinin təmin edilməsi üçün prosessual və institusional tələblər əks olunur. Daha sonra, hüquqi müdafiə vasitələrinin konkret növlərinə aid nümunələr gətirilir. Hüquqi müdafiə vasitələrinin bir çox növləri pozulmuş hüquqların bərpası üçün səmərəli vasitə təşkil edə bilər. Bu fəsildə sadalanan hüquqi müdafiə vasitələri (kompensasiya, konkret hərəkətlərin icrasının təmin edilməsi və məhkəmə əmrləri) nümunə xarakteri daşıyır və hüquqi müdafiə vasitələrinin tam siyahısı deyil.

## 5.1. Səmərəli hüquqi müdafiə vasitəsi nədir?

### Əsas məqamlar

- AİHK-ın 13-cü maddəsi və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi səmərəli hüquqi müdafiə vasitələri hüququnu təmin edir. Bu hüquq ədalət mühakiməsinə çatımın mühüm komponentidir. O, fərdlərə pozulmuş hüquqlarının kompensasiyasına nail olmaq imkanı verir. Müxtəlif növ pozuntuları müxtəlif növ hüquqi müdafiə vasitələri kompensasiya edə bilər.
- “Hüquqi müdafiə vasitəsi” termininin anlayışı nə AİHK-da, nə də Fundamental hüquqlar haqqında Aİ Xartiyasında verilir. Hüquqi müdafiə vasitəsi üçün qoyulan əsas tələb onun həm praktikada, həm də qanunvericilik sistemində “səmərəli” olmasıdır. Hüquqi müdafiə vasitəsinin forması ilə bağlı tələb yoxdur və dövlətlər bu məsələdə müəyyən sərbəstliyə malikdirlər. Hüquqi müdafiə vasitələrinin səmərəli olub-olmadığı barədə qərar verərkən həmin vasitələr ümumilikdə (məcmu halında) nəzərdən keçirilməlidir.
- AİHK-ın 13-cü maddəsinin və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsinin tətbiq dairələri müxtəlifdir. 13-cü maddə AİHK-da nəzərdə tutulmuş hüquqların pozuntularına dair “əsaslı iddialarla” əlaqədar olaraq şəxsə “dövlət orqanında səmərəli hüquqi müdafiə vasitəsi” ilə təmin olunmasını tələb etmək hüququ verir.
- Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi Aİ qanunvericiliyindən irəli gələn hüquqların səmərəli məhkəmə müdafiəsini tələb edir. Onun müddəaları AİHK-ın 13-cü maddəsinə əsaslanır, lakin daha geniş müdafiəni təmin edir. 47-ci maddə məhkəmə orqanında hüquqi müdafiə vasitəsi ilə təmin edilmək hüququnu nəzərdə tutur və Aİ qanunvericiliyində yer alan bütün hüquq və azadlıqlara şamil olunur. Onun tətbiq dairəsi təkcə Xartiyada yer alan hüquqlarla məhdudlaşmır.
- Bütövlükdə Aİ qanunvericiliyinə əsasən, hüquqi müdafiə vasitələri həmçinin ekvivalentlik prinsipinə cavab verməlidir. Bu isə o deməkdir ki, Aİ qanunvericilindən irəli gələn iddialarla bağlı şərtlər milli qanunvericilikdən irəli gələn analoji iddialarla bağlı şərtlərdən az əlverişli ola bilməz.

Hüquqi müdafiə vasitəsinin səmərəli olması üçün o, 5.1.1 və 5.1.2.-ci bölmələrdə qeyd edilən konkret substantiv, prosessual və institusional tələblərə cavab verməlidir. Qeyd etmək lazımdır ki, AŞ və Aİ hüququnda nəzərdə tutulmuş tələblər bir qədər fərqlənir.

### 5.1.1. Səmərəli hüquqi müdafiə vasitəsi ilə bağlı substantiv və prosessual tələblər

Fərdlər onların pozulmuş insan hüquqlarının kompensasiya olunması hüququna malikdirlər. Bu o deməkdir ki, onlar hüquqi müdafiə vasitəsinə çatım imkanına malik olmalıdırlar. Müxtəlif növ hüquqi müdafiə vasitələri müxtəlif növ pozuntuları kompensasiya edə bilər (5.2-ci bölməyə bax).

"Hüquqi müdafiə vasitəsi" termininin anlayışı nə AŞ hüququnda, nə də Aİ hüququnda verilib. Səmərəli hüquqi müdafiə vasitələri hüququ AİHK-ın 13-cü maddəsində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində təsbit olunub. Ona həmçinin beynəlxalq sənədlərdə, məsələn, İnsan hüquqları haqqında Ümumi Bəyannamənin (İHÜB) 8-ci maddəsində və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP) 2-ci maddəsinin 3-cü bəndində rast gəlmək olar. [309]

AŞ hüququna əsasən, AİHK-ın 13-cü maddəsi Konvensiyada təsbit olunmuş hüquqlarının iddia edilən pozuntularından şikayət etmək istəyən fərdləri müdafiə ilə təmin edir. 13-cü maddədə deyilir: "Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanında səmərəli hüquqi müdafiə vasitəsi ilə təmin edilmək hüququna malikdir".

> Nümunə: *Rotaru Rumıniyaya qarşı* məhkəmə işində[310] ərizəçi kommunist rejimi dövründə tələbə olduğu zaman yazdığı məktublar əsasında təhqiramiz davranışa görə məhkum edildiyi barədə Rumıniya Kəşfiyyat Xidməti tərəfindən məxfi qaydada toplanmış düzgün olmayan məlumatların saxlanmasından və istifadə olunmasından şikayət etmişdi. O, həmin məlumatların məhv edilməsinə və ya onlara düzəliş edilməsinə nail ola bilmirdi və iddia edirdi ki, bu, 13-cü maddənin pozuntusudur.
>
> AİHM təsdiq etdi ki, 13-cü maddə AİHK-da yer alan hüquq və azadlıqların qorunmasının təmin edilməsi üçün milli səviyyədə hüquqi müdafiə vasitəsinin olmasını təmin edir və bu vasitə həm praktikada, həm də qanunvericilik sistemində səmərəli olmalıdır. Nəzərdən keçirilən dövrdə ərizəçinin şikayəti ilə bağlı Rumıniyada bu cür hüquqi müdafiə vasitəsi mövcud deyildi, bu isə AİHK-ın 13-cü maddəsinin pozuntusunu təşkil edirdi.

13-cü maddə AİHK-da nəzərdə tutulmuş bir və ya daha artıq hüquqlarının

309 Nəzərə almaq lazımdır ki, MSHBP-nin 2-ci maddəsinin 3(b) bəndində nəzərdə tutulur ki, hüquqi müdafiə vasitələri hüququ "səlahiyyətli məhkəmə, inzibati və qanunverici hakimiyyət orqanları tərəfindən və yaxud dövlətin hüquq sistemində nəzərdə tutulan digər səlahiyyətli orqan tərəfindən müəyyən edilməlidir". Tutulmuş şəxslər üçün xüsusi müdafiəni nəzərdə tutan müddəaları həmçinin AİHK-ın 5-ci maddəsinin 4-cü bəndində tapmaq olar, həmin bənd habeas corpus hüququnu (həbsin qanuniliyi məsələsinə məhkəmə tərəfindən təxirə salınmadan baxılması hüququnu) təmin edir. Həmçinin bax: Fundamental hüquqlar haqqında Aİ Xartiyası, mad. 6; və MSHBP, mad. 9 (4).

310 AİHM, Rotaru Rumıniyaya qarşı [BP], ərizə № 28341/95, 4 may 2000-ci il, 67-ci bənd.

pozuntularına dair əsaslı iddialarla əlaqədar olaraq fərdlərə dövlət orqanında səmərəli hüquqi müdafiə vasitəsi ilə təmin olunmalarını tələb etmək hüququ verir.[311] Beləliklə, 13-cü maddə AİHK-da nəzərə tutulan müddəaların substantiv pozuntuları barədə iddialara şamil olunur. Bu maddə fərdlərin AİHM-ə müraciət etməzdən əvvəl ölkədaxili hüquqi müdafiə vasitələrini tükəndirmələrini tələb edən 35-ci maddənin müddəalarını gücləndirir və hüquqların müdafiəsinin ilk növbədə milli səviyyədə təmin olunmasını tələb edən əlavə təminat rolunu oynayır.[312]

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində deyilir: "İttifaq qanunvericiliyi ilə təmin edilən hüquq və azadlıqları pozulmuş hər kəs, bu maddədə nəzərdə tutulan şərtlərə riayət edilməsi şərti ilə, səmərəli məhkəmə müdafiəsi ilə təmin edilmək hüququna malikdir". Hazırda Xartiya Aİ-nin əsas qanunvericiliyinin tərkib hissəsidir, amma 47-ci maddə həm də Aİ-nin mövcud presedent hüququnu özündə əks etdirir, bu isə faydalı presedent təşkil edə bilər.[313]

Səmərəli hüquqi müdafiə vasitələri hüququ uzun müddətdir ki, qanunun aliliyinə əsaslanan Aİ-nin hüquq sisteminin əsas elementidir.[314] Həmçinin AİƏM səmərəli məhkəmə müdafiəsi hüququnu nəzərdə tutan Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsinin AİHK-ın 6-cı və 13-cü maddələri ilə sıx əlaqəli olduğunu vurğulayıb.

Nümunə: *Sofiane Fahas v. Council of the European Union*[315] məhkəmə işində Almaniyada yaşayan Əlcəzair vətəndaşı olan ərizəçi Aİ Şurasının qərarları ilə qəbul edilən, terrorizmlə mübarizəyə yönələn bir neçə məhdudlaşdırıcı tədbirin ləğv olunması üçün müraciət etmişdi.

AİƏM bir daha bildirdi ki, "AİHK-ın 6-cı və 13-cü maddələrində təsbit olunan və Fundamental hüquqlar haqqında Avropa İttifaqı Xartiyasının 47-ci maddəsində bir daha təsdiqlənən səmərəli məhkəmə müdafiəsi prinsipi Birlik qanunvericiliyinin ümumi prinsipidir və üzv dövlətlərin ümumi konstitusiya ənənələrindən irəli gəlir".

Fundamental hüquqlar haqqında Aİ Xartiyasına dair izahatlar təsdiq edir ki, 47-ci maddədə nəzərdə tutulmuş hüquqi müdafiə vasitələri hüququ barədə müddəalar "AİHK-ın 13-cü maddəsinə əsaslanır". AİHM-in presedent hüququ səmərəli hüquqi müdafiə vasitələri hüququnun mənasının şərhi üçün vacibdir. Lakin Xartiyanın 47-

311 AİHM, Klass və başqaları Almaniyaya qarşı, ərizə № 5029/71, 6 sentyabr 1978-ci il, 64-cü bənd.
312 AİHM, Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il, 152-ci bənd.
313 AİƏM, Birləşdirilmiş işlər C-402/05 P və C-415/05 P, Yassin Abdullah Kadi and Al Barakaat International Foundation v. Council of the European Union and Commission of the European Communities, 3 sentyabr 2008-ci il, 335-ci bənd.
314 AİƏM, C-294/83, Parti écologiste "Les Verts" v. European Parliament, 23 aprel 1986-cı il; AİƏM, C-50/00 P,Unión de Pequeños Agricultores v. Council, 25 iyul 2002-ci il; AİƏM, C-222/84, Marguerite Johnston v. Chief Constable of the Royal Ulster Constabulary, 15 may 1986-cı il.
315 AİƏM, T-49/07, Sofiane Fahas v. Council of the European Union, 7 dekabr 2010-cu il.

ci maddəsi ilə AİHK-ın 6-cı maddəsinin müvafiq tətbiq dairələri arasında mühüm fərqlər var (1-ci fəsildəki sxemə bax).

AŞ və Aİ hüququna əsasən, nə Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi, nə də AİHK-ın 13-cü maddəsi təmin edilməli olan hüquqi müdafiə vasitəsinin hər hansı konkret formada olmasını tələb etmir. Əsas tələb ondan ibarətdir ki, həmin vasitə "praktikada və qanunvericilik sistemində səmərəli olmalıdır".[316] Hüquqi müdafiə vasitəsinin səmərəliliyi prosesin əlverişli nəticə ilə yekunlaşacağına olan əminlikdən asılı deyil.[317] Hüquqi müdafiə vasitəsinin tələb olunan növü hər bir işin hallarından asılıdır.

AŞ hüququnda hüquqi müdafiə vasitəsinin səmərəliliyinin müəyyənləşdirilməsinin bəzi prinsipləri formalaşıb. Məsələn, səmərəli hüquqi müdafiə vasitəsi:

- əlçatan olmalı;
- ərizəçinin şikayətləri ilə bağlı kompensasiyanı təmin etməyə qadir olmalı;
- ağlabatan uğur perspektivinə malik olmalıdır.[318]

Nümunə: *Makfarleyn İrlandiyaya qarşı* məhkəmə işində[319] ərizəçi 1998-ci ildə Şimali İrlandiyada həbsdən azad edildikdən sonra həbsə alınmışdı. O, İrlandiya Respublikasında 1983-cü ildə törədilmiş cinayətlərdə ittiham olunurdu və girov müqabilində şərti azadlığa buraxılmışdı. O, cinayət təqibinin dayandırılması üçün iki vəsatət vermiş və belə əsas gətirmişdi ki, sübut təşkil edən barmaq izlərinin orijinalının itirilməsi və prosesin yubadılması onun ədalətli məhkəmə araşdırması hüququna sonradan düzəldilməsi mümkün olmayan zərər yetirib. Hər iki vəsatət rədd edilmişdi. 2008-ci ilin iyununda ərizəçiyə bəraət verildi.

AİHM təklif olunan hüquqi müdafiə vasitəsinin (konstitusion hüququn pozulmasından irəli gələn ziyanla bağlı məhkəmə işinin qaldırılması) səmərəliliyinə aşağıdakı səbəblərə görə şübhə etdi: i) təklif olunan konstitusion hüquqi müdafiə vasitəsinin əlçatanlığı ilə bağlı ciddi qeyri-müəyyənlik vardı, baxmayaraq ki, nəzəri cəhətdən bu vasitə təxminən 25 il idi ki, mövcud idi, ondan heç vaxt istifadə edilməmişdi; ii) təklif olunan hüquqi müdafiə vasitəsi mümkün məhkəmə immuniteti səbəbindən bu işin faktları üçün keçərli deyildi; və iii) bu, prosessual baxımdan mürəkkəb vasitə idi və prosesdə ləngimələrə və məsrəflərə səbəb ola bilərdi. Buna görə də Məhkəmə AİHK-ın 6-cı maddəsinin 1-ci bəndi (icraatın uzun sürməsi) ilə əlaqəli şəkildə götürülmüş 13-cü maddənin pozulduğunu müəyyən etdi.

316 AİƏM, T-49/07, Sofiane Fahas v. Council of the European Union, 7 dekabr 2010-cu il.
317 AİHM, M.S.S. Belçikaya və Yunanıstana qarşı [BP], ərizə № 30696/09, 21 yanvar 2011-ci il, 288-ci bənd.
318 AİHM, Vuçkoviç və başqaları Serbiyaya qarşı [BP], ərizə № 17153/11 və 29 digər iş, 25 mart 2014-cü il, 71 və 74-cü bəndlər.
319 AİHM, Makfarleyn İrlandiyaya qarşı [BP], ərizə № 31333/06, 10 sentyabr 2010-cu il.

Aİ hüququna əsasən, AİƏM təsdiq edib ki, üzv dövlətlər İttifaq qanunvericiliyinin əhatə etdiyi sahələrə aid hüquqların səmərəli məhkəmə müdafiəsini təmin etmək üçün yetərli olan hüquqi müdafiə vasitələrinin mövcudluğunu təmin etmək öhdəliyini daşıyırlar. Bu, səmərəlilik və ekvivalentlik prinsiplərinə əsaslanır. Səmərəlilik prinsipi tələb edir ki, daxili qanunvericilik Aİ qanunvericiliyində nəzərdə tutulmuş hüquqların müdafiəsinin təmin edilməsini mümkünsüz və ya həddən artıq çətin hala gətirməməlidir.[320] Ekvivalentlik prinsipi tələb edir ki, Aİ qanunvericilindən irəli gələn iddialarla bağlı şərtlər milli qanunvericilikdən irəli gələn analoji iddialarla bağlı şərtlərdən az əlverişli ola bilməz.

Beləliklə, Aİ hüququna əsasən, üzv dövlətlər Aİ qanunvericiliyi ilə təmin edilən səmərəli məhkəmə müdafiəsi hüququna riayət edilməsini təmin etmək üçün hüquqi müdafiə vasitələri sistemlərini və müvafiq prosedurları yaratmaqdan ibarət hüquqi öhdəlik daşıyırlar.[321] Aİ qanunvericiliyinin səmərəliliyinə xələl gətirən milli hüquq normaları və ya məhkəmə praktikaları buna əngəl törədə bilər.[322] Milli hüquq normasının səmərəlilik prinsipinə uyğun olub-olmaması "həmin normanın müxtəlif milli instansiyalarda aparılan prosedurdakı rolu, bütövlükdə götürülmüş prosedurun gedişatı və özəl xüsusiyyətləri əsasında təhlil edilməlidir".[323] Səmərəli müdafiənin mövcud olub-olmadığının müəyyənləşdirilməsi üçün tərəflərin mövqeyi və işin halları nəzərə alınmalıdır.[324]

Nümunə: *Inuit Tapiriit Kanatami and Others v. Parliament and the Council*[325] məhkəmə işində AİƏM Aİ-nin daxili bazarlarında suiti məhsullarının satışını qadağan edən reqlamentə etiraz edən suiti ovçularının verdiyi şikayətin məhkəmə aidiyyəti məsələsini nəzərdən keçirdi.

AİƏM Aİ-də məhkəmə müdafiəsi sistemini nəzərdən keçirdi. O bildirdi ki, Aİ müqavilələri milli məhkəmələrdə yeni hüquqi müdafiə vasitələri yaratmır

320 AİƏM, C-33/76, Rewe-Zentralfinanz eG and Rewe-Zentral AG v. Landwirtschaftskammer für das Saarland, 16 dekabr 1976-cı il. Ən son dövrün nümunələri üçün bax: AİƏM, C-415/11, Mohamed Aziz v. Caixa d´Estalvis de Catalunya, Tarragona i Manresa (Catalunyacaixa), 14 mart 2013-cü il, 50-ci bənd; və AİƏM, Birləşdirilmiş işlər C-482/13, C-484/13, C-485/13, C-487/13, Unicaja Banco SA v. José Hidalgo Rueda and Others, Caixabank SA v. Manuel María Rueda Ledesma and Others, Caixabank SA v. José Labella Crespo and Others and Caixabank SA v. Alberto Galán Luna and Others, 21 yanvar 2015-ci il.
321 Aİ haqqında müqavilə, maddələr 4 (3-cü bənd) və 19. Bax: AİƏM, C-50/00 P, Unión de Pequeños Agricultores v. Council of the European Union, 25 iyul 2002-ci il, 39-41-ci bəndlər. Həmçinin bax: AİƏM, T-461/08, Evropaïki Dynamiki — Proigmena Systimata Tilepikoinonion Pliroforikis kai Tilematikis AE v.European Investment Bank (EIB), 20 sentyabr 2011-ci il, 46-cı bənd.
322 AİƏM, C-213/89, The Queen v. Secretary of State for Transport, ex parte: FactortameLtd and Others, 19 iyun 1990-cı il, 20-ci bənd.
323 AİƏM, C-312/93, Peterbroeck, Van Campenhout & Cie SCS v. Belgian State, 14 dekabr 1995-ci il, 14-cü bənd. Ən son dövrün işi üçün bax: AİƏM, C-249/11, Hristo Byankov v. Glaven sekretar na Ministerstvo na vatreshnite raboti, 4 oktyabr 2012-ci il, 75-ci bənd.
324 AİƏM, C-169/14, Juan Carlos Sánchez Morcillo and María del Carmen Abril García v. Banco Bilbao Vizcaya Argentaria SA, 17 iyul 2014-cü il, 43-51-ci bəndlər.
325 AİƏM, C 583/11 P, Inuit Tapiriit Kanatami and Others v. European Parliament and Council of the European Union, 3 oktyabr 2013-cü il, 102-103-cü bəndlər.

və hər hansı məsələni tənzimləyən heç bir Aİ norması yoxdursa, o zaman hüquqların qorunması üçün qaldırılan məhkəmə iddialarının hansı prosessual normalarla tənzimləndiyinə dair qərarı hər bir üzv dövlət öz daxili hüquqi sistemi əsasında verməlidir. Üzv dövlətlər bu normaları müəyyən edərkən səmərəlilik və ekvivalentlik prinsiplərinə lazımi diqqət yetirməlidirlər. AİƏM qərara aldı ki, suiti ovçularının sözügedən normaların ləğv olunması üçün qaldırdıqları iddia bilavasitə heç bir məhkəmənin yurisdiksiyasına aid deyildi.

Araşdırılan hüququn xarakteri dövlət tərəfindən təmin edilməli olan hüquqi müdafiə vasitəsinin növü üçün əhəmiyyət daşıyır.[326] AŞ hüququna əsasən, məsələn, AİHK-ın 2-ci maddəsinin pozuntuları ilə əlaqədar olaraq prinsipcə maddi və mənəvi ziyana görə kompensasiya təyin edilməlidir. Maddi ziyan dəqiq hesablana biləcək itkiləri bildirir. Mənəvi ziyanı, məsələn, mənəvi ağrıları və iztirabları isə dəqiq hesablamaq mümkün deyil. Hüquqi müdafiə vasitəsinin səmərəli kompensasiya vasitəsi olub-olmadığımı nəzərdən keçirərkən daxili qanunvericilikdə nəzərdə tutulmuş bütün hüquqi müdafiə vasitələrinin məcmusu nəzərə alına bilər.[327] Şəxs AİHK-da nəzərdə tutulmuş hüququn pozulmasına görə hüquqi müdafiə vasitəsinə müraciət edirsə və həmin hüquq 6-cı maddədə nəzərdə tutulmuş “mülki hüquqdursa”, o zaman 6-cı maddənin 1-ci bəndinin təminatları bu hala bu və ya digər dərəcədə şamil olunur.[328]

Dövlətlərdən səmərəli hüquqi müdafiəsi vasitəsinin mövcudluğunu sübut etmələri tələb oluna bilər, məsələn, onlar həmin vasitədən uğurla istifadə edildiyi analoji işləri sübut qismində göstərə bilərlər.[329]

Nümunə: *Yaraşonen Türkiyəyə qarşı* məhkəmə işində[330] çeçen mənşəli Rusiya vətəndaşı Rusiyanın təhlükəsizlik qüvvələri tərəfindən qardaşının qətlə yetirildiyi iddia edildikdən sonra Türkiyəyə qaçmışdı. Türkiyəyə gəldikdən sonra o, ölkəyə qanunsuz daxil olduğuna görə həbs edilmişdi. O, sığınacaq üçün vəsatət verdiyinə baxmayaraq həbsdə saxlanılmış və ona tibbi yardım göstərilməmişdi. Sonradan onun sığınacaq üçün vəsatəti təmin edilmişdi. Ərizəçi qanunsuz olaraq saxlanmasından, saxlanma şəraitindən və AİHK-ın 3-cü maddəsinin pozuntusunun düzəldilməsi üçün 13-cü maddədə nəzərdə tutulmuş səmərəli ölkədaxili hüquqi müdafiə vasitəsinin olmamasından şikayət etdi.

AİHM qərara aldı ki, ərizəçinin ümumi məhkəmə nəzarəti qaydasında şikayətlər təqdim etmək imkanına malik olması yetərli deyil. Hökumət həbsə alınmış immiqrantın öz hüquqlarının müdafiəsini təmin etmək üçün ümumi məhkəmə nəzarəti prosedurlarından istifadə etmək imkanına malik olduğunu sübut edən

326 Bax: AİHM, Budayeva və başqaları Rusiyaya qarşı, ərizələr № 15339/02, 21166/02, 20058/02, 11673/02 və 15343/02, 20 mart 2008-ci il, 191-ci bənd.
327 AİHM, Di Souza Ribeyru Fransaya qarşı [BP], ərizə № 22689/07, 13 dekabr 2012-ci il, 79-cu bənd.
328 AİHM, Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il, 146-cı bənd.
329 Yenə orada, 159-cu bənd.
330 AİHM, Yaraşonen Türkiyəyə qarşı, ərizə № 72710/11, 24 iyun 2014-cü il, 63-66-cı bəndlər.

bircə qərar belə göstərə bilmədi. Belə sübut olmadığı halda ümumi hüquqi müdafiə vasitələrinin səmərəli qabaqlayıcı və (və ya) kompensasiyaedici vasitə təşkil etmək iqtidarında olması kifayət qədər dəqiqliklə sübuta yetirilməmiş hesab edildi. Məhkəmə AİHK-ın 3-cü maddəsi ilə əlaqəli şəkildə götürülmüş 13-cü maddəsinin pozulduğunu müəyyən etdi.

Dövlət ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi üçün səmərəli hüquqi müdafiə vasitələri hüququna ağlabatan məhdudiyyətlər tətbiq edə bilər (məsələn, iddia müddətləri ilə bağlı 6.2.4-cü bölməyə bax)[331]. Qanun əsasında yeni yaradılmış hüquqi müdafiə vasitəsinin səmərəli fəaliyyəti ilə bağlı şübhələr fərdin həmin vasitədən istifadə etməyə cəhd göstərməsinə mane olmamalıdır.[332] Avropa Şurası tövsiyə edib ki, yeni hüquqi müdafiə vasitələrini yaratmağı nəzərdə tutarkən dövlətlər (lazımi hallarda) sistem və ya struktur problemlərinin həlli üçün nəzərdə tutulan bu vasitələrin retroaktivi tətbiqini təmin etsinlər.[333]

## 5.1.2. Səmərəli hüquqi müdafiə vasitəsi ilə bağlı institusional tələblər

AŞ hüququna əsasən, AİHK-ın 13-cü maddəsi “dövlət orqanında” hüquqi müdafiə vasitəsi ilə təmin edilmək hüququnu nəzərdə tutur. Bu, məhkəmə orqanı olmaya da bilər, amma belə qəbul edilib ki, məhkəmə formasında hüquqi müdafiə vasitələri müstəqillik, qurbanlar və onların ailələri üçün əlçatanlıq və 13-cü maddənin tələblərinə uyğun olaraq kompensasiyanın təyin olunmasının təmin edilməsi tələblərinə ciddi surətdə cavab verir (bütövlükdə qeyri-məhkəmə orqanları barəsindəki 2.4.1-ci bölməyə bax).[334]

Hər hansı orqanın səmərəli təsirli hüquqi müdafiə vasitəsini təmin etmək iqtidarında olub-olmadığını müəyyənləşdirərkən işin faktları, nəzərdən keçirilən hüququn xarakteri və həmin orqanın səlahiyyətləri və təminatları nəzərə alınmalıdır.[335]

Nümunə: *Ramires Sançes Fransaya qarşı* məhkəmə işində[336] ərizəçi Fransada terror hücumlarına görə ömürlük azadlıqdan məhrum edilmişdi. O, səkkiz il iki ay idi ki, birnəfərlik kamerada saxlanılırdı və bunun səbəbi kimi onun təhlükəli olması, həbsxanada nizam-intizamın və təhlükəsizliyin qorunmasının zəruriliyi və

331 Bax: AİHM, Stabbinqs və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 22083/93 və 22095/93, 22 oktyabr 1996-cı il.
332 AİHM, Krasuski Polşaya qarşı, ərizə № 61444/00, 14 iyun 2005-ci il, 71-ci bənd.
333 Avropa Şurası, Nazirlər Komitəsi (2010), Məhkəmə icraatının həddən artıq uzun sürməsinə qarşı səmərəli hüquqi müdafiə vasitələri ilə bağlı üzv dövlətlərə Rec(2010)3 saylı tövsiyə, 24 fevral 2010-cu il, 11-ci bənd.
334 AİHM, Z və başqaları Birləşmiş Krallığa qarşı [BP], ərizə № 29392/95, 10 may 2001-ci il, 110-cu bənd.
335 AİHM, Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il, 157-ci bənd. Son dövrə aid iş üçün bax: AİHM, Alişiç və başqaları Bosniya və Herseqovinaya, Xorvatiyaya, Serbiyaya, Sloveniyaya və keçmiş Yuqoslaviya Republikası Makedoniyaya qarşı [BP], ərizə № 60642/08, 16 iyul 2014-cü il, 131-136-cı bəndlər.
336 AİHM, Ramires Sançes Fransaya qarşı [BP], ərizə № 59450/00, 4 iyul 2006-cı il.

onun qaçmağa cəhd etməsi ehtimalı göstərilirdi. O, birnəfərlik kameraya salınması barədə qərarın ləğv edilməsi üçün inzibati məhkəməyə vəsatətlə müraciət etmişdi. Məhkəmə onun vəsatətini rədd edərək bu tədbirin həbsxananın daxili tədbiri olduğunu qeyd etmişdi, həmin dövrdə bu məsələnin baxılmaq üçün inzibati məhkəmələrə təqdim edilməsi nəzərdə tutulmamışdı.

AİHM bu qənaətə gəldi ki, 3-cü maddə pozulmayıb, amma 13-cü maddə pozulub, çünki Fransada ərizəçinin birnəfərlik kamerada saxlanma müddətinin uzadılması barədə qərardan şikayət edə bilməsi üçün hüquqi müdafiə vasitəsi mövcud deyildi. Məhkəmə qeyd etdi ki, birnəfərlik kamerada saxlanmanın həbsdə saxlanma şəraiti üçün ciddi nəticələr doğurduğunu nəzərə alsaq, məhkəmə orqanında səmərəli hüquqi müdafiə vasitəsinin təmin edilməsi önəmli idi.

AİHK-ın 13-cü maddəsində qeyd edilən dövlət orqanları müəyyən meyarlara cavab verməlidir. Onların institusional müstəqilliyi tələb olunur. Məsələn, şikayətləri araşdırma aparılması üçün polislərə qarşı şikayətlərə baxan orqana (müstəqil quruma) göndərib-göndərməmək məsələsi polis rəisinin səlahiyyətinə aiddirsə, bu hal tələb olunan müstəqillik standartlarına cavab vermir.[337] Həmçinin bu orqanın məcburi qüvvəyə malik qərarlar qəbul etmək səlahiyyətinə malik olması da vacibdir. Belə hesab edilir ki, bu cür səlahiyyəti olmayan orqan səmərəli hüquqi müdafiə vasitəsini təmin etmək iqtidarında deyil, bu sözlər xüsusən həmin orqanın prosessual təminatları, məsələn, vəkillə təmsil olunmaq hüququnu və ya qərarın ictimaiyyətə açıqlanması hüququnu təmin etmək iqtidarında olmadığı hallara aiddir.[338] Sırf siyasət mülahizələrindən asılı olan hüquqi müdafiə vasitəsi yetərli hesab olunmur.[339]

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi, 5.1.2-ci bölmədə qeyd edildiyi kimi, fərdlərə səmərəli hüquqi müdafiə vasitəsi üçün məhkəməyə müraciət etmək hüququ verir. “Məhkəmə” termininin mənası 2.1-ci bölmədə müzakirə olunur: o, qanun əsasında yaradılmalı; daimi orqan olmalı; müstəqil və qərəzsiz olmalı; çəkişmə xarakterli prosedurları özündə ehtiva etməli; iş üzərində məcburi yurisdiksiyaya malik olmalı; qanunvericilik normalarını tətbiq etməlidir.[340] Lakin məhkəmədə səmərəli hüquqi müdafiə vasitəsi ilə təmin edilmək hüququ qeyri-məhdud deyil.

Nümunə: *Brahim Samba Diouf v. Ministre du Travail, de l’Emploi et de l’Immigration*[341] məhkəmə işində cənab Diuf Lüksemburqda sığınacaq üçün

337 AİHM, Xan Birləşmiş Krallığa qarşı, ərizə № 35394/97, 12 may 2000-ci il, 47-ci bənd.
338 AİHM, Çahal Birləşmiş Krallığa qarşı, ərizə № 22414/93, 15 noyabr 1996-cı il, 154-cü bənd.
339 Məhbusların yazışmalarına nəzarət edilməsi barədə qərardan daxili işlər nazirinə verilən şikayət bu cür hüquqi müdafiə vasitəsinə misaldır. Bax: AİHM, Silver və başqaları Birləşmiş Krallğa qarşı, ərizələr № 5947/72, 6205/73, 7052/75, 7061/75, 7107/75, 7113/75 və 7136/75, 25 mart 1983-cü il, 116-cı bənd.
340 AİƏM, C-54/96, Dorsch Consult Ingenieurgesellschaft mbH v. Bundesbaugesellschaft Berlin mbH, 17 sentyabr 1997-ci il, 23-cü bənd.
341 AİƏM, C-69/10, Brahim Samba Diouf v. Ministre du Travail, de l’Emploi et de l’Immigration, 28 iyul 2011-ci il, 69-cu bənd.

müraciət edərək iddia etmişdi ki, Mavritaniyada köləlikdən qaçıb və keçmiş işəgötürəni tərəfindən təqib olunur. Onun şikayətinə sürətləndirilmiş icraat qaydasında baxıldı, şikayəti əsassız sayılaraq rədd edildi və ölkədən çıxarılması barədə qərar qəbul edildi. Ərizəçi bu qərarın İnzibati Məhkəmə tərəfindən ləğv edilməsi üçün müraciət etdi, həmin məhkəmə isə ilkin qərar üçün AİƏM-ə sorğu verdi. Sorğu belə idi ki, səmərəli hüquqi müdafiə vasitəsini təmin etmək öhdəliyi apellyasiya şikayətinin qarşısını alan milli qanunvericilik normalarının tətbiqini aradan qaldırırmı?

AİƏM bildirdi ki, məhkəmə orqanında səmərəli hüquqi müdafiəsi təmin edilməlidir, amma səmərəli məhkəmə müdafiəsi prinsipi bir neçə məhkəmə instansiyasına müraciət etmək imkanının təmin olunmasını tələb etmir. Beynəlxalq himayə üçün verilmiş vəsatətə sürətləndirilmiş icraat qaydasında baxılması barədə ilkin qərara məhkəmə nəzarəti qaydasında yenidən baxılması vacib deyil, bu şərtlə ki, bu qərar beynəlxalq himayəni təqdim etmək və ya bundan imtina etmək barədə yekun substantiv qərara məhkəmə tərəfindən yenidən baxılması prosesinin tərkib hissəsi olsun.

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi xüsusi növ işlərə baxılması üçün ayrıca nov məhkəmənin (məsələn, kənd təsərrüfatına yardımla bağlı işlərə baxan məhkəmənin) təyin edilməsinə mane olmur, bu şərtlə ki, bu hüquqların həyata keçirilməsi həddən artıq çətinləşdirilməməlidir (məsələn, ləngimələr səbəbindən). [342]

## 5.2. Xüsusi hüquqi müdafiə vasitələrinin nümunələri

Bu bölmədə hüquqi müdafiə vasitələrinin növlərinin bir neçə nümunəsi işıqlandırılır, amma onlar bütün növlərin tam siyahısını təşkil etmir. Digər nümunələrə restitusiya (şəxsdən alınmış hər hansı bir şeyi ona pul formasında və ya natural formada qaytarmaq öhdəliyi), yaxud dövlətin ərazisindən çıxarılmaya qarşı hüquqi müdafiə vasitələri (şəxsin konkret dövlətin ərazisindən xaric edilməsi səbəbindən baş verə biləcək insan hüquqlarının pozuntusunun qarşısının alınması üçün dayandırıcı qüvvəyə malik hüquqi müdafiə vasitəsi) daxildir. Bu nümunələr konkret substantiv hüquqlara (məsələn, mülkiyyət hüququna) və ya siyasi sahəyə (məsələn, sığınacaq və immiqrasiya məsələlərinə) aiddir və buna görə də bu fəslin mövzusundan kənardır. Məhkəmə qərarlarının icrasının gecikdirilməsindən irəli gələn hüquqi müdafiə vasitələri 5.2.1-ci bölmədə, məhkəmə icraatının həddən artıq uzun sürməsi ilə bağlı hüquqi müdafiə vasitələri isə 7.3-cü bölmədə müzakirə olunur.

342 AİƏM, C-93/12, ET Agrokonsulting-04-Velko Stoyanov v. Izpalnitelen direktor na Darzhaven fond Zemedelie - Razplashtatelna agentsia, 27 iyun 2013-cü il, 56-61-ci bəndlər.

## Əsas məqamlar

- Kompensasiya: Kompensasiyaedici hüquqi müdafiə vəsaitləri heç də həmişə səmərəli hüquqi müdafiə vasitəsi təşkil etmir, məsələn, müəyyən hallarda məhkəmə icraatının tezləşdirilməsi daha yaxşı variant ola bilər. AİƏM ziyanın kompensasiyasının ödənilməsi ilə bağlı dövlətin məsuliyyətinə dair prinsipləri formalaşdırıb. Ayrı-seçkiliyə dair konkret Aİ direktivlərində ziyanla bağlı maddələr var: məsələn, "İrqi bərabərlik haqqında direktiv"in 15-ci maddəsi.
- Konkret hərəkətlərin icrasının təmin edilməsi: Konkret hərəkətlərin icrasının təmin edilməsi məsələsində Avropa hüquq sistemləri arasında xeyli fərqlər var. Aİ qanunvericiliyində konkret sektorlar səviyyəsində konkret hərəkətlərin icrasının təmin edilməsinə aid qeyri-diskresion müddəalar müəyyən edilib.
- Məhkəmə əmrləri: AİHM və AİƏM qeyd ediblər ki, məhkəmə əmrlərinin qəbulu nəzərdən keçirilərkən ziddiyyətə girən hüquqların balanslaşdırılması və hər hansı məhdudiyyətin xarakteri və mütənasibliyi mühüm əhəmiyyət daşıyır. Müəyyən hüquqlar yalnız o halda məhdudlaşdırıla bilər ki, məhdudiyyət konkret meyarlara uyğun olsun.

### 5.2.1. Kompensasiya

Kompensasiya qanuni hüquqlarının pozulması nəticəsində şəxsə dəyən ziyanın əvəzinin ödənilməsi formasıdır. AŞ hüququna əsasən, bir qayda olaraq AİHK-ın pozuntularının düzəldilməsi üçün kompensasiyaedici hüquqi müdafiə vasitələri kifayət edir, lakin onlar hər bir situasiyada səmərəli hüquqi müdafiə vasitəsi təşkil etmir. Məsələn, pozuntu saxlanma şəraiti ilə əlaqədardırsa və ərizəçi hələ də həbsxanadırsa, ziyanın kompensasiyası yetərli olmaya bilər.[343] Bundan əlavə, məhkəmə qərarlarının icra edilmədiyi hallarda (6.3-cü bölməyə bax) kompensasiyaedici hüquqi müdafiə vasitələri yalnız aşağıdakı konkret şərtlərə cavab verdikləri təqdirdə məqsədəuyğun sayıla bilər:

- iddia tələbinə ağlabatan müddətdə baxılmalı;
- kompensasiya gecikdirilmədən ödənilməli;
- prosedur AİHK-ın 6-cı maddəsinin tələblərinə cavab verməli;
- tərəflər həddən artıq xərclərlə yüklənməməli;
- kompensasiyanın səviyyəsi analoji işlərdə AİHM tərəfindən təyin edilən məbləğlərlə müqayisədə əsassız dərəcədə aşağı olmamalıdır.

343 AİHM, Torrecani və başqaları İtaliyaya qarşı, ərizə № 43517/09, 8 yanvar 2013-cü il, 96-cı bənd.

Nümunə: *Burdov Rusiyaya qarşı* (№ 2) məhkəmə işində[344] ərizəçi Çernobılda fövqəladə əməliyyatlar zamanı yerinə yetirdiyi işə görə ona kompensasiyaların ödənilməsi barədə məhkəmə qərarlarının çıxarılmasına nail olmuşdu. Qərarların bəziləri illərlə icra edilməmiş qalırdı. Ərizəçinin əvvəlki işində AİHM AİHK-ın 6-cı maddəsinin və 1 saylı Protokolun 1-ci maddəsinin pozulduğunu müəyyən etmişdi. Məhkəmə qərarlarının icra edilməməsinə aid işlərin sayının çoxaldığını nəzərə alaraq, Məhkəmə öz təşəbbüsü ilə bu məsələni 13-cü maddəsi üzrə araşdırmağı qərara aldı.

Məhkəmə təsdiq etdi ki, məhkəmə qərarlarının icra edilməməsinə aid işlərdə məhkəmə qərarlarının vaxtında icra olunmasını təmin etməyə yönələn tədbirlər "böyük əhəmiyyət" kəsb edir. Bununla belə, sırf kompensasiya xarakterli hüquqi müdafiə vasitəsi aşağıdakı konkret tələblərə cavab verirsə, dövlətlər onu seçə bilərlər: iddia tələbinə ağlabatan müddətdə baxılmalı; kompensasiya gecikdirilmədən ödənilməli; prosessual qaydalar AİHK-ın 6-cı maddəsi ilə təmin edilən prinsiplərə uyğun olmalı; tərəflər həddən artıq xərclərlə yüklənməməli; kompensasiyanın səviyyəsi analoji işlərdə AİHM tərəfindən təyin edilən məbləğlərlə müqayisədə əsassız dərəcədə aşağı olmamalıdır. Ciddi, amma təkzib oluna bilən ehtimala əsasən, həddən artıq uzun sürən məhkəmə prosesləri mənəvi ziyana səbəb olur.

Bu işdə AİHM AİHK-ın 13-cü maddəsinin pozulduğunu müəyyən etdi, belə ki, məhkəmə qərarlarının uzun müddət icra edilməməsi ərizəçini hər hansı nov hüquqi müdafiə vasitəsindən məhrum etmişdi.

AİHM məhkəmə icraatının həddən artıq uzun sürməsi ilə əlaqədar kompensasiyaedici hüquqi müdafiə vasitəsinin səmərəliliyinin yoxlanılması üçün əsas meyarları müəyyənləşdirib (7.3-cü bölməyə bax).[345] Əgər kompensasiya pozuntunu düzəldən hüquqi müdafiə vasitəsi sayılarsa, məhkəmələr həddən artıq formalizmə yol verməməli, xüsusən ziyanın sübutunun təqdim edilməsinə münasibətdə formalizmdən qaçmalıdırlar.[346] Kompensasiya tələbinin araşdırılmasını tənzimləyən prosessual normalar AİHK-ın 6-cı maddəsində təsbit olunmuş ədalətlilik prinsipinə uyğun olmalıdır. Bu həm də onu nəzərdə tutur ki, işə ağlabatan müddətdə baxılmalı və məhkəmə xərclərini tənzimləyən normalar tərəflərin üzərinə həddindən artıq yük qoymamalıdır.

Nümunə: *Ananyev və başqaları Rusiyaya qarşı* məhkəmə işi[347] ərizəçilərin 2005-2008-ci illər arasında müxtəlif məhkəməyəqədər həbs yerlərində saxlanmaları ilə əlaqədar idi.

344 AİHM, Burdov Rusiyaya qarşı (№ 2), ərizə № 33509/04, 15 yanvar 2009-cu il, 98-100-cü bəndlər.
345 AİHM, Yuri Nikolayeviç İvanov Ukraynaya qarşı, ərizə № 40450/04, 15 oktyabr 2009-cu il, 65-ci bənd.
346 AİHM, Radkov Bolqarıstana qarşı (№ 2), ərizə № 18382/05, 10 fevral 2011-ci il, 38-40-cı bəndlər.
347 AİHM, Ananyev və başqaları Rusiyaya qarşı, ərizələr № 42525/07 və 60800/08, 10 yanvar 2012-ci il.

AİHM AİHK-ın 3-cü maddəsinin (qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması) və 13-cü maddəsinin pozulduğunu müəyyən etdi. Səmərəli hüquqi müdafiə vasitəsinə gəlincə, AİHM təsdiq etdi ki, dövlətlər səmərəli qabaqlayıcı və kompensasiyaedici ölkədaxili hüquqi müdafiə vasitələri yaratmalıdırlar. Məhkəmə həmçinin qeyd etdi ki, 3-cü maddənin pozuntusunu təşkil edən rəftara məruz qalan hər kəs pul kompensasiyası almaq hüququna malik olmalıdır və iddiaçıların üzərinə düşən sübutetmə yükü həddindən artıq olmamalıdır.

Təyin olunmuş kompensasiyanın verilməməsi və bu halın davam etməsi AİHK-ın 1 saylı Protokolunun 1-ci maddəsində nəzərdə tutulmuş ərizəçinin öz mülkiyyətindən maneəsiz istifadə hüququna müdaxilə təşkil edə bilər.[348] Mülkiyyətdən məhrumetmə ilə əlaqədar işlərdə mülkiyyətindən məhrum edilmiş istənilən şəxs, hətta "qanuni "ictimai maraqlar" mülkiyyətin tam bazar dəyərindən aşağı məbləğdə kompensasiya edilməsini tələb etsə" belə, prinsipcə "onun dəyərinə ağlabatan nisbətdə" kompensasiya almaq imkanına malik olmalıdır.[349]

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasında dövlətlərin üzərinə Aİ hüququndan irəli gələn hüquqların pozuntularını kompensasiya etmək kimi birbaşa öhdəlik qoyan müddəa yoxdur. Bununla belə, fərdlər Aİ hüququndan irəli gələn hüquqlara milli məhkəmələrdə istinad edə bilərlər və konkret hallarda üzv dövlətlər dəymiş ziyana məsuliyyət daşıya bilərlər.[350]

Nümunə: *Francovich and Bonifaci v. Italy*[351] məhkəmə işində "İşəgötürən müflisləşdiyi təqdirdə işçilərin müdafiəsi haqqında 80/987/EC saylı direktiv"ə əsasən cənab Frankoviçə və xanım Bonifatsiyə (və onların 33 həmkarına) onların müvafiq işəgötürənləri ləğv edildikdən sonra müəyyən məbləğdə pul ödənilməli idi. Direktivin müddəaları 1983-cü ilədək icra edilməli idi, amma İtaliya bunu yerinə yetirmədi; beş il ötsə də işçilərə heç bir məbləğ ödənilməmişdi. Şirkətin ləğvediciləri onlara məlumat vermişdilər ki, şirkətdə pul qalmayıb. Onlar dövlətə qarşı iddia qaldıraraq bildirdilər ki, direktivin icra edilməməsi səbəbindən məruz qaldıqları itkilərlə əlaqədar onlara dəymiş ziyana görə kompensasiya ödənilməlidir.

AİƏM təsdiq etdi ki, (o vaxt qüvvədə olan) "Avropa İqtisadi Birliyinin təsis edilməsi haqqında müqavilə" ilə həmin Birliyin öz hüquq sistemi yaradılmışdı və üzv dövlətlərin məhkəmələri həmin sistemin müddəalarını tətbiq etməyə borclu idilər. Bundan əlavə, müqavilədə fərdlərin, üzv dövlətlərin və Birlik təsisatlarının üzərinə dəqiq müəyyən edilmiş öhdəliklər qoymaqla Birlik qanunvericiliyi

348 AİHM, Kirilova və başqaları Bolqarıstana qarşı, ərizələr № 42908/98, 44038/98, 44816/98 və 7319/02, 9 iyun 2005-ci il, 123-124-ü bəndlər.

349 AİHM, Pinkova və Pink Çex Respublikasına qarşı, ərizə № 36548/97, 5 noyabr 2002-ci il, 53-cü bənd.

350 AİƏM, C-26/62, NV Algemene Transport- en Expeditie Onderneming van Gend & Loos v. Netherlands Inland Revenue Administration, 5 fevral 1963-cü il.

351 AİƏM, Birləşdirilmiş işlər C-6/90 və C-9/90, Andrea Francovich and Danila Bonifaci and Others v. Italian Republic, 19 noyabr 1991-ci il.

müvafiq hüquqların yaranmasına səbəb olmuşdu. Dövlətlərin təqsirkar olduğu Aİ qanunvericiliyinin pozuntuları səbəbindən fərdlərin məruz qaldığı itkilərə və ziyana görə dövlətlərin məsuliyyət daşıması prinsipi həmin "müqavilə sistemindən irəli gəlirdi".

Dövlətin təqsiri ucbatından Aİ müqavilələrinin pozuntuları baş verdikdə[352] və ya AİƏM-in presedent hüququna riayət edilmədikdə[353] dövlətin məsuliyyəti yaranır. İş Aİ qanunvericiliyindən irəli gələn hüquqlara aid olduğu halda fərdlərarası işlərdə də üzv dövlətin məsuliyyəti yarana bilər.[354]

Direktivin icra edilməməsi həmçinin dövlətin dəymiş ziyana görə məsuliyyətini doğura bilər. Məsuliyyətin yaranması üçün:

- direktiv fərdlərə müvafiq hüquqlar verməli;
- bu hüquqlar dəqiq müəyyən edilməli;
- üzv dövlətlər tərəfindən direktivin icra edilməməsi ilə fərdin məruz qaldığı itki arasında səbəb-nəticə əlaqəsi mövcud olmalıdır.

Bu prinsip üzv dövlətlərin mövcud milli qanunvericiliyə lazımi dəyişikliklər etmədiyi və ya direktivi düzgün tətbiq etmədiyi hallara da şamil olunur. O, həmçinin hər hansı dövlət orqanı tərəfindən (məhkəmə orqanı da daxil olmaqla) Aİ qanunvericiliyinin pozulduğu hallara şamil olunur.[355] Lakin belə hallarda sübut edilməlidir ki, qanunvericiliyin kifayət qədər ciddi pozuntusu baş verib. Qanunvericiliyin "kifayət qədər ciddi pozuntusunun" baş verib-vermədiyini müəyyənləşdirərkən aşağıdakı amillər nəzərə alınmalıdır:

- pozulmuş normanın aydın və dəqiq olması;
- həmin normanın üzv dövlətə verdiyi diskresion səlahiyyətin dərəcəsi;
- pozuntunun qəsdən törədilib-törədilməməsi;
- pozuntunun üzrlü səbəbdən törədilib-törədilməməsi;
- Aİ qurumunun tutduğu mövqeyin pozuntunun törədilməsinə nə dərəcədə şərait yaratması;
- üzv dövlətin Aİ qanunvericiliyinə zidd olan milli tədbirləri qəbul etməsi və ya qüvvədə saxlaması.[356]

352 AİƏM, Birləşdirilmiş işlər C-6/90 və C-9/90, Andrea Francovich and Danila Bonifaci and Others v. Italian Republic, 19 noyabr 1991-ci il.
353 AİƏM, Birləşdirilmiş işlər C-46/93 və C-48/93, Brasserie du Pêcheur SA v. Bundesrepublik Deutschland and The Queen v. Secretary of State for Transport, ex parte: Factortame Ltd and others, 5 mart 1996-cı il, 34-cü bənd.
354 Həmçinin bax: AİƏM, C-224/01, Gerhard Köbler v. Republik Österreich, 30 sentyabr 2003-cü il, 56-cı bənd.
355 AİƏM, C-453/99, Courage Ltd v. Bernard Crehan and Bernard Crehan v. Courage Ltd and Others, 20 sentyabr 2001-ci il.
356 AİƏM, Birləşdirilmiş işlər C-46/93 və C-48/93, Brasserie du Pêcheur SA v. Bundesrepublik

Aİ-nin ayrı-seçkiliyə dair konkret direktivlərində ziyan barəsində maddələr də var: məsələn, "İrqi bərabərlik haqqında direktiv"in 15-ci maddəsi.[357] Maliyyə kompensasiyası tədbirləri qəbul edildiyi hallarda onların məbləği adekvat olmalı və şəxsin məruz qaldığı itkiləri və ziyanı yetərincə kompensasiya etməlidir.[358] Həmçinin ödənilməli kompensasiya məbləğinin yuxarı həddi hüquqi müdafiə vasitəsini səmərəsiz etməməlidir.[359] Hüquqi müdafiə vasitələrinin təmin edilməsində ekvivalentlik prinsipinə riayət edilməlidir.[360]

## 5.2.2. Konkret hərəkətlərin icrasının təmin edilməsi

Konkret hərəkətlərin icrasının təmin edilməsi müqavilənin şərtlərinin yerinə yetirilməsinə yönəlir və müqavilə iştirakçısına müqavilə bağlandığı təqdirdə icra edilməli olan hərəkətlərin yerinə yetirilməsinə nail olmaq imkanı verir. Konkret hərəkətlərin icrasının təmin edilməsi məsələsində Avropa hüquq sistemləri arasında əhəmiyyətli fərqlər var.[361]

AŞ hüququnda konkret hərəkətlərin icrasının təmin edilməsi prinsipi konkret olaraq tanınmır.

Lakin Aİ hüququnda konkret sektorlar səviyyəsində konkret hərəkətlərin icrasına aid qeyri-diskresion müddəalar müəyyən edilib. Misal üçün 1999/44/EC saylı direktivin ("İstehlak mallarının satışı haqqında direktiv") 3-cü maddəsinin 2-ci və 3-cü bəndlərinə və 90/314/EEC saylı direktivin ("Kompleks turizm haqqında direktiv") 4-cü maddəsinin 6-cı və 7-ci bəndlərinə bax.[362]

*Veber və Putsun işində (Weber and Putz)*[363] Almaniya məhkəmələri ilkin qərar verilməsi üçün AİƏM-ə belə bir sorğu vermişdilər ki, 1999/44/EC saylı direktivin

Deutschland and The Queen v. Secretary of State for Transport, ex parte: Factortame Ltd and others, 5 mart 1996-cı il, 34-cü bənd.

357 İrqi və ya etnik mənsubiyyətindən asılı olmayaraq insanlarla bərabər rəftar prinsipinin tətbiqi haqqında Aİ Şurasının 29 iyun 2000-ci il tarixli 2000/43/EC saylı direktivi, OJ 2000 L 180 (İrqi bərabərlik haqqında direktiv).

358 AİƏM, C-271/91, M. Helen Marshall v. Southampton and South-West Hampshire Area Health Authority, 2 avqust 1993-cü il, 26-cı bənd.

359 AİƏM, C-180/95, Nils Draehmpaehl v. UraniaImmobilienservice OHG, 22 aprel 1997-ci il, 43-cü bənd.

360 AİƏM, C-78/98, Shirley Preston and Others v. Wolverhampton Healthcare NHS Trustand Others and Dorothy Fletcher and Others v. Midland Bank plc, 16 may 2000-ci il, 55-ci bənd.

361 Xüsusi hüquq prinsiplərinə dair ümumavropa bəyanatında bu məsələ ilə bağlı müəyyən təlimatlar verilir. Bu mənbəyə bax: Study Group on a European Civil Code and the Research Group on EC Private Law (2009), Principles, Definitions and Model Rules of European Private Law, Draft Common Frame of Reference (DCFR).

362 Misal üçün bax: İstehlak mallarının satışının müəyyən aspektləri və verilən təminatlar haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 25 may 1999-cu il tarixli 1999/44/EC saylı direktivi, OJ 1999 L 171; və Kompleks turizm, kompleks istirahət və kompleks turlar haqqında 13 iyun 1990-cı il tarixli 90/314/EEC saylı direktiv, OJ 1990 L 158.

363 AİƏM, Birləşdirilmiş işlər C-65/09 və C-87/09, Gebr.Weber GmbH v. Jürgen Wittmer and Ingrid Putz v. Medianess Electronics GmbH, 16 iyun 2011-ci il.

3-cü maddəsi müqavilə şərtlərinə cavab vermədiyi üçün qəbul edilməyən malların və onların əvəzlənməsi üçün təşkil edilən malların xərclərini satıcıların üzərinə qoyurmu?

AİƏM təsdiq etdi ki, direktiv pulsuz olaraq malların nöqsanlarının düzəldilməsini və ya onların əvəzlənməsini tələb edir, bu şərtlə ki, bunu etmək qeyri-mümkün və ya qeyri-mütənasib olmasın.

AİƏM həmçinin təsdiq etdi ki, satıcı malları müqaviləyə uyğun hala gətirmək öhdəliyi ilə bağlı maliyyə iddiası qaldıra bilməz. Məsələn, qüsurlu mallar əvəzlənənə qədər istehlakçı onlardan istifadə edibsə, satıcı buna görə ondan kompensasiya tələb edə bilməz.[364]

## 5.2.3. Məhkəmə əmrləri

Məhkəmə əmri hər hansı hərəkəti etmək və ya onu dayandırmaq barədə məhkəmə göstərişidir. Həm AŞ hüququ, həm də Aİ hüququ müxtəlif situasiyalarda məhkəmə əmrlərinin qəbuluna icazə verir. O, fərdi hüquqları qoruya, lakin həm də digər şəxslərin hüquqlarını məhdudlaşdıra bilər. Bu o deməkdir ki, mütənasibliyin və ədalətliliyin təmin edilməsi üçün məhkəmə əmrlərinin ciddi şəkildə balanslaşdırılması gərəkdir.[365]

AŞ hüququna əsasən, çox zaman məhkəmə əmrləri AİHK-ın 10-cu maddəsi ilə təmin edilən ifadə azadlığı hüququ ilə əlaqədar nəzərdən keçirilir.[366] Belə işlərdə Məhkəmə dəfələrlə bildirib ki, 10-cu maddə məlumatların dərc olunmasının məhdudlaşdırılmasını və ya yayılmasına qadağa qoyulmasını özü-özlüyündə qadağan etmir.[367] Bununla belə, bu cür məhdudiyyətlərin demokratik cəmiyyət üçün yaratdığı təhlükələr həmin məhdudiyyətlərin üzərində çox ciddi nəzarətin olmasını tələb edir. Şəxsin ifadə azadlığına müdaxilənin baş verdiyi hər hansı digər işlərdə olduğu kimi, AİHM-in vəzifəsi konkret işdə tətbiq edilən məhdudiyyətin qanunla nəzərdə tutulub-tutulmadığını, qanuni məqsəd daşıyıb-daşımadığını[368] və həmin məqsədə mütənasib olub-olmadığını araşdırmaqdır.

364 AİƏM, C-404/06, Quelle AG v. Bundesverband der Verbraucherzentralen und Verbraucherverbände, 17 aprel 2008-ci il, 41-43-cü bəndlər.

365 AİƏM, C-70/10, Scarlet Extended SA v. Société belge des auteurs, compositeurs et éditeurs SCRL (SABAM), 24 noyabr 2011-ci il, 49-cu bənd.

366 Milli səviyyəni aşan icraatlar zamanı AİHM-ə təqdim edilən, dövlətin ərazisindən çıxarılma və ya ekstradisiya barədə qərarın icrasının dayandırılması barədə xahişi özündə əks etdirən ərizələrə baxarkən AİHM müvəqqəti tədbir qəbul edərək ərizəyə Məhkəmə tərəfindən baxıldığı müddətdə ərizəçinin ölkədən çıxarılmasının və ya ekstradisiyasının dayandırılmasını müvafiq dövlətdən xahiş edə bilər. Misal üçün bax: AİHM, Abdollahi Türkiyəyə qarşı, ərizə № 23980/08, 3 noyabr 2009-cu il.

367 Misal üçün bax: AİHM, "Edisyon Plon" Fransaya qarşı, ərizə № 58148/00, 18 avqust 2004-cü il.

368 Bu məqsədlərə aşağıdakılar daxildir: milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları; iğtişaşın və ya cinayətin qarşısının alınması; sağlamlığın, yaxud mənəviyyatın mühafizəsi; digər şəxslərin nüfuz və ya hüquqlarının müdafiəsi; gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısının alınması; və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyinin təmin edilməsi.

İlkin bildiriş tələblərinə gəlincə, AİHK kütləvi informasiya vasitələrinin dərc edəcəkləri materiallarda adı hallanan şəxslərə bu barədə qabaqcadan məlumat vermələrini tələb etmir. Bu cür tələb ifadə azadlığına "çəkindirici təsir" göstərmək təhlükəsini doğurur, belə ki, bu halda fərdlər şəxsi həyatlarına hörmət hüququ kontekstində materialın dərcinin qarşısını alan məhkəmə əmrinin qəbulu üçün müraciət etmək imkanı əldə etmiş olarlar.[369]

Nümunə: *Broza Almaniyaya qarşı* məhkəmə işində[370] ərizəçi şikayət etmişdi ki, yerli seçkilərdə namizəd olan şəxsin neonasist təşkilatına "himayədarlıq" etdiyi barədə iddiaların yer aldığı bukletlərin yayılmasını qadağan edən məhkəmə əmri onun AİHK-ın 10-cu maddəsində nəzərdə tutulmuş ifadə azadlığı hüququnu pozub.

Seçkilərə hazırlıq dövründə bukletlər paylanmış və orada seçkili vəzifəyə namizədin yararlılığı barədə ərizəçinin fikirləri əks olunmuşdu. Buklet siyasi xarakter daşıdığına və ictimai maraq doğuran məsələyə aid olduğuna görə ərizəçinin ifadə azadlığına məhdudiyyətlərin tətbiqinə yol verilməsi ehtimalı az idi. Ərizəçinin fikirləri faktoloji əsaslardan məhrum deyildi, amma ölkədaxili məhkəmə qeyri-mütənasib dərəcədə yüksək sübutetmə standartı tətbiq edərək faktların təsdiqi üçün "inandırıcı sübut" tələb etmişdi. Ölkədaxili məhkəmə müvafiq maraqlar arasında ədalətli balansa riayət etməmiş və namizədin şəxsiyyəti ilə bağlı hüquqlarının müdafiəsi tələbatını ifadə azadlığı hüququndan üstün tutmaq üçün təxirəsalınmaz ictimai tələbatın olub-olmadığını müəyyənləşdirməmişdi. Buna görə də AİHM AİHK-ın 10-cu maddəsinin pozulduğunu müəyyən etdi.

Aİ hüququna əsasən, ifadə azadlığı hüququ Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 11-ci maddəsi ilə təmin edilir. Xartiyanın 52-ci maddəsində (1-ci bənd) Xartiya ilə təmin edilən hüquqlara tətbiq edilməsinə icazə verilən məhdudiyyətlər əks olunur və qeyd edilir ki, onlar:

- qanunla nəzərdə tutulmalı;
- hüquqların mahiyyətinə xələl gətirməməli;
- mütənasib olmalı;
- zəruri olmalı;
- Aİ tərəfindən tanınan ümumi maraqların məqsədlərinə, yaxud digər şəxslərin hüquq və azadlıqlarının qorunması tələbatına həqiqətən uyğun olmalıdır.

Nümunə: *UPCTelekabel v. Constantin Film*[371] məhkəmə işində film istehsalı şirkəti konkret İnternet saytında onun filmlərinin icazəsiz yayımlanmasını dayandırmağa

369 AİHM, Mosli Birləşmiş Krallığa qarşı, ərizə № 48009/08, 10 may 2011-ci il, 132-ci bənd.
370 AİHM, Broza Almaniyaya qarşı, ərizə № 5709/09, 17 aprel 2014-cü il.
371 AİƏM, C-314/12, UPC Telekabel Wien GmbH v. Constantin Film Verleih GmbH and Wega Filmproduktionsgesellschaft mbH, 27 mart 2014-cü il, 46-51-ci bəndlər.

cəhd etmişdi. İnternet xidmətlərinin provayderi (İXP) saytı bloklamaq barədə müraciəti təmin etməkdən imtina etmiş, buna görə də şirkət məhkəmələrin vasitəsilə müvafiq əmrin qəbuluna nail olmağa çalışmışdı.

AİƏM balansı təyin etmək məqsədi ilə müəlliflik hüququ sahibinin maraqları ilə İXP-nin öz biznesini həyata keçirmək azadlığı arasında müqayisə apardı. Üzv dövlətlər direktivi öz milli qanunvericiliklərinə daxil edərkən direktivin elə tərzdə şərh olunmasını təmin etməlidirlər ki, bu şərh Aİ-nin hüquq sistemi ilə qorunan təməl hüquqlar arasında ədalətli balansın gözlənilməsinə imkan versin. Üzv dövlətlər öz milli qanunvericiliklərini direktivə və təməl hüquqlara uyğun şəkildə şərh etməlidirlər. Bu işdə məhkəmə əmri biznesi həyata keçirmək azadlığını məhdudlaşdırmış, amma "bu azadlığın mahiyyətinə xələl gətirməmişdi".

# 6

# Ümumən ədalət mühakiməsinə çatıma qoyulan məhdudiyyətlər



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Qanuni məqsəd və mütənasiblik | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>Fundamental hüquqlar haqqında Xartiya, 48-ci maddə (təqsirsizlik prezumpsiyası və müdafiə hüququ)<br><br>Fundamental hüquqlar haqqında Xartiya, 52-ci maddə (1-ci bənd) (tətbiq dairəsi)<br><br>AİƏM, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, Rosalba Alassini and Others v. Telecom Italia SpA, 2010 | **İcazə verilən məhdudiyyətlər** | AİHK, 6-cı maddə (ədalətli məhkəmə araşdırması hüququ)<br><br>AİHK, 13-cü maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>AİHM, Harrison Makki Macarıstana qarşı, ərizə № 22840/07, 2014 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Yekun məhkəmə qərarına və ya qərardadına nail olmaq qarşısındakı məhdudiyyətlərin nümunələri | | |
| AİƏM, C-530/11, European Commission v. the United Kingdom of Great Britain and Northern Ireland, 2014 | **Məhkəmə rüsumları** | AİHM, Stankov Bolqarıstana qarşı, ərizə № 68490/01, 2007 |
| | **Həddən artıq formalizm** | AİHM, Puaro Fransaya qarşı, ərizə № 29938/07, 2011<br>AİHM, Maşireviç Serbiyaya qarşı, ərizə № 30671/08, 2014 |
| AİƏM, C-415/10, Galina Meister v. Speech Design Carrier Systems GmbH, 2012<br>İrqi bərabərlik haqqında direktiv (2000/43/EC), 8-ci maddə<br>Mallara və xidmətlərə çıxış əldə etməkdə və onların təchizatında kişilərə və qadınlara münasibətdə bərabər rəftar haqqında direktiv (2004/113/EC), 9-cu maddə<br>Gender bərabərliyi haqqında direktiv (2006/54/EC), 18-ci maddə<br>Məşğulluq sahəsində bərabər rəftar üçün ümumi sistemin müəyyən edilməsi haqqında direktiv (2000/78/EC), 10-cu maddə | **Sübutlarla bağlı maneələr** | AİHM, Kluvi Fransaya qarşı, ərizə № 30754/03, 2011 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| AİƏM, Birləşdirilmiş işlər C-89/10 və C-96/10, Q-Beef NV v. Belgische Staat and Frans Bosschaert v. Belgische Staat and Others, 2011 | **İddia müddətləri** | AİHM, Boqdel Litvaya qarşı, ərizə № 41248/06, 2013 |
| | **İddia müddətləri** | AİHM, C.G.I.L. və Kofferati (№ 2) İtaliyaya qarşı, ərizə № 2/08, 2010 |
| Yekun məhkəmə qərarlarının icrasının gecikdirilməsi | | |
| Aİ haqqında müqavilə, 4-cü maddə (3-cü bənd) və 19-cu maddə<br>Avropa icra vərəqəsi (Aİ Şurasının (EC) 805/2004 saylı Reqlamenti)<br>Brüssel reqlamenti (Aİ Şurasının (EC) 44/2001 saylı Reqlamenti)<br>1215/2012 saylı reqlament<br>650/2012/EU saylı reqlament<br>Aİ Şurasının 2201/2003 saylı reqlamenti<br>Aİ Şurasının 4/2009 saylı reqlamenti | | |

Bu fəsildə ədalət mühakiməsinə çatım hüququna qoyulan məhdudiyyətlər ətraflı nəzərdən keçirilir; bu fəsil həmçinin bu məlumat kitabında qeyd edilən bütün digər hüquqlar üçün də aktuallıq kəsb edir. Məhdudiyyətlərə o halda icazə verilir ki, onlar qanuni məqsəd daşısın, həmin məqsədə mütənasib olsun və tətbiq edildiyi hüququn mahiyyətinə xələl gətirməsin. 6.2-ci bölmədə AŞ və Aİ-də tətbiq edilən ümumi məhdudiyyətlərin nümunələri təqdim edilir. Bu məhdudiyyətlərin siyahısı nümunə xarakteri daşıyır və tam siyahı deyil. Buraya məhkəmə xərcləri, həddən artıq formalizm, sübutlarla bağlı maneələr, iddia müddətləri və immunitetlər daxildir. Sonuncu hissədə (6.3-cü bölmədə) ədalət mühakiməsinə çatımın məhdudlaşdırılmasının daha bir forması olan məhkəmə qərarlarının icrasının gecikdirilməsindən bəhs edilir. Orada həmçinin Aİ daxilində məhkəmə qərarlarının

icrasını asanlaşdırmağa yönələn hüquqi mexanizmlər nəzərdən keçirilir, məsələn, Avropa icra vərəqəsindən bəhs edilir.[372]

## 6.1. Qanuni məqsəd və mütənasiblik

### Əsas məqamlar

- Məhdudiyyətlərə o halda icazə verilir ki, onlar qanuni məqsəd daşısın və həmin məqsədə mütənasib olsun. Onlar hüququn mahiyyətinə xələl gətirməməlidir.
- Qanuni məqsədlərin nümunələri sırasına ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi (məsələn, məhkəmə xərclərinin tətbiqi) və söz azadlığının qorunması daxildir.
- Mütənasiblik qarşıya qoyulan məqsəd ilə istifadə edilən tədbirlər arasında ədalətli balansın gözlənilməsini tələb edir.

AİHK-ın 6-cı və 13-cü maddələrində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci və 48-ci maddələrində nəzərdə tutulan hüquqlar mütləq (qeyri-məhdud) deyil və müəyyən hallarda məhdudlaşdırıla bilər. Bundan əlavə, insan hüquqlarına dair beynəlxalq sənədlərin öhdəliklərdən geri çəkilmə barəsindəki müddəaları dövlətlərə imkan verir ki, müstəsna hallarda, məsələn, millətin həyatını təhdid edən fövqəladə vəziyyət dövründə (misal üçün AİHK-ın 15-ci maddəsinə bax) öhdəliklərində vəziyyətə uyğun dəyişiklik etsinlər.

AŞ hüququna əsasən, məhdudiyyətin qanuniliyini qiymətləndirərkən AİHM ədalət mühakiməsinə çatımın demokratik prinsip qismində vacibliyini nəzərə alır.[373] Qanuni məhdudiyyət:

- qanuni məqsəd daşımalı;
- həmin məqsədə mütənasib olmalı;
- hüququn mahiyyətinə xələl gətirməməlidir.

AİHK-ın 6-cı maddəsində "qanuni məqsəd" termininin anlayışı verilmir, amma AİHM-in presedent hüququnda qanuni məqsədlərə aid nümunələr təqdim edilir. Aşağıdakılar həmin nümunələrə aiddir: pasiyentlərin qayğısına qalmağa görə cavabdehlik daşıyan şəxsləri ədalətsiz olaraq məhkəmə çəkişməsinin təzyiqinə məruz qalmaqdan qorumaq,[374] ədalət mühakiməsinin lazımi qaydada həyata

372 Mübahisələndirilməyən iddialar üzrə Avropa icra vərəqəsinin tətbiqi haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 21 aprel 2004-cü il tarixli 805/2004 saylı reqlamenti, OJ 2004 L143. O, Danimarkaya şamil olunmur.
373 AİHM, Kiyevska Polşaya qarşı, ərizə № 73002/01, 6 sentyabr 2007-ci il, 46-cı bənd.
374 AİHM, Eşinqdeyn Birləşmiş Krallığa qarşı, ərizə № 8225/78, 28 may 1985-ci il, 57-ci il.

keçirilməsini təmin etmək[375] və deputatların söz azadlığını qorumaq və məhkəmə və qanunverici orqan arasında hakimiyyət bölgüsünü təmin etmək[376] məqsədi ilə məhkəməyə müraciət hüququna məhdudiyyətlərin qoyulması.

Mütənasiblik AİHM-in presedent hüququnun əsas prinsipdir. O, dövlətin qanuni məqsədləri ilə həmin məqsədlərə çatmaq üçün dövlətin istifadə etdiyi tədbirlər arasında ədalətli balansın gözlənilməsini tələb edir. Mütənasiblik həmçinin fərdi hüquqlarla ictimai maraqlar arasında ədalətli balansın gözlənilməsini tələb edir.[377] Hüquqa edilən müdaxilə nə qədər ciddidirsə, həmin müdaxilə üçün bir o qədər ciddi əsaslandırma tələb olunur.[378] Məsələn, işlərin birində şəxsin apellyasiya iclasına qədər həbsdə qalması məhkəməyə müraciət etmək hüququna qeyri-mütənasib müdaxilə hesab edildi.[379] Dövlət müdaxilənin mütənasib olduğunu əsaslandırmaq vəzifəsini daşıyır və nəzərə almalıdır ki, hüquqlara ən az müdaxilə təşkil edən tədbirdən istifadə etməlidir. [380]

Nümunə: *Harrison Makki Macarıstana qarşı* məhkəmə işində[381] vəkillə təmsil olunmuş ərizəçi dövlət ittihamçısına qarşı mülki iddia qaldıraraq bildirmişdi ki, cinayət prosesinin gedişində göndərilmiş məktubda onun barəsində yalan məlumatlar yer alıb. Budapeşt Regional Məhkəməsi onun nüfuzunun qorunması hüququnun pozulduğunu qərara almış, amma kompensasiya tələbini rədd edərək bildirmişdi ki, bu tələb şişirdilib və o, hər hansı faktiki ziyana məruz qaldığını sübut edə bilməyib. Ərizəçinin məhkəmə rüsumları qismində təxminən 2.900 avro ödəməsi barədə qərar çıxarılmışdı. Ərizəçi bu qərardan Budapeşt Apellyasiya Məhkəməsinə şikayət etmiş, o isə ərizəçinin məhkəmə rüsumlarını ödəməli olduğu barədə birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlamışdı, həmin məbləğ onun iddia tələblərinin təmin edilməyən hissəsinin faizi üzrə hesablanmışdı.

AİHM bir daha bildirdi ki, məhkəməyə müraciət hüququ mütləq (qeyri-məhdud) hüquq deyil və məhdudlaşdırıla bilər. Məhdudiyyətlər şəxsin məhkəməyə müraciət etmək imkanını bu hüquqa xələl gətirən tərzdə və ya dərəcədə məhdudlaşdırmamalı və ya azaltmamalıdır. Bu işdə Məhkəmə buna şübhə etmək üçün heç bir əsas görmədi ki, ərizəçi vəkilinin köməyi ilə iddia tələbinin "əsaslı" olub-olmadığını müəyyənləşdirə və beləliklə qaldırdığı iddia uğursuz olacağı təqdirdə iş üzrə ödəməli olacağı məhkəmə rüsumlarının məbləğini öncədən müəyyənləşdirə bilərdi. Məhkəmə rüsumlarının tətbiqinin daşıdığı məqsədlər

375 AİHM, Harrison Makki Macarıstana qarşı, ərizə № 22840/07, 3 iyun 2014-cü il.
376 AİHM, A. Birləşmiş Krallığa qarşı, ərizə № 35373/97, 17 dekabr 2002-ci il, 77-ci bənd.
377 Şahidlərin müdafiəsi ilə müdafiə hüquqları arasında balansın gözlənilməsinə misal olaraq bu işə bax: AİHM, Van Mexelen və başqaları Niderlanda qarşı, ərizələr № 21363/93, 21364/93, 21427/93 və 22056/93, 23 aprel 1997-ci il, 59-65-ci bəndlər.
378 Yenə orada, 60-cı bənd.
379 AİHM, Papon Fransaya qarşı (№ 2), ərizə № 54210/00, 25 iyul 2002-ci il, 100-cü bənd.
380 AİHM, "Sen-Pol Lüksemburq S.A." Lüksemburqa qarşı, ərizə № 26419/10, 18 aprel 2013-cü il, 44-cü bənd.
381 AİHM, Harrison Makki Macarıstana qarşı, ərizə № 22840/07, 3 iyun 2014-cü il.

ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi tələbinə uyğun idi və rüsum ödəmək tələbinin vicdanlı iddiaçılar üçün qeyri-mütənasib maliyyə yükü təşkil etməməsini təmin etmək üçün məhkəmə icraatında adekvat təminatlar vardı. Məhkəmə müəyyən etdi ki, AİHK-ın 6-cı maddəsi pozulmayıb.

Analoji yanaşma Aİ hüququnda da öz əksini tapıb. Məhdudiyyətlər mütənasib olmalı və hüququn mahiyyətinə xələl gətirməməlidir. Bu isə o deməkdir ki, məhdudiyyətlərin "İttifaq tərəfindən tanınan ümumi maraqların məqsədlərinə" uyğun olması onlar məqsədəuyğun və zəruri hüdudları aşmamalıdır.[382] Dövlət sərtlik dərəcəsi ən az olan tədbirdən istifadə etməlidir.[383]

Nümunə: *Rosalba Alassini v. Telecom Italia SpA* [384] məhkəmə işində AİƏM ilkin qərarın qəbulu üçün İskya şəhərinin Magistrat məhkəməsi tərəfindən ona birgə halda təqdim edilmiş dörd sorğunu nəzərdən keçirdi, həmin sorğular milli məhkəmələrin icraatına qəbul edilməsi mümkün olan mübahisənin məhkəmədənkənar həllinə cəhd etməyi müəyyən hallarda məcburi şərt kimi nəzərdə tutan müddəalarla əlaqədar idi. Həmin müddəalar "Elektron kommunikasiya şəbəkələri və xidmətləri ilə bağlı universal xidmət və istifadəçilərin hüquqları haqqında" 2002/22/EC saylı direktiv 7 mart 2002-ci ildə ölkə qanunvericiliyinə daxil edildikdən sonra qüvvəyə minmişdi.

AİƏM təsdiq etdi ki, ən fundamental hüquqlar belə "qeyri-məhdud hüquq" təşkil etmir və məhdudlaşdırıla bilər. O, AİHM-in presedent hüququna istinad edərək vurğuladı ki, məhdudiyyətlər ümumi maraqların məqsədlərinə uyğun olmalıdır. Onlar qeyri-mütənasib olmamalı və ya təmin edilən hüquqların mahiyyətinə xələl gətirməməlidir. Bu işdə nəzərdən keçirilən milli hüquq normalarının məqsədləri (mübahisələrin daha tez və daha az məsrəflərlə həll olunması və məhkəmə sisteminin üzərinə düşən yükün yüngülləşdirilməsi) qanuni idi və faktlar göstərirdi ki, məhkəmədənkənar həll prosedurunun tətbiqi qarşıya qoyulan məqsədlərə münasibətdə qeyri-mütənasib deyil.

382 Fundamental hüquqlar haqqında Aİ Xartiyasına dair izahatlarda təsdiq edilir ki, "İttifaq tərəfindən tanınan ümumi maraqlar dedikdə həm Avropa İttifaqı haqqında müqavilənin 3-cü maddəsində qeyd edilən məqsədlər, həm də Avropa İttifaqı haqqında müqavilənin konkret maddələri, məsələn, 4-cü maddəsi (1-ci bənd) ilə, habelə Avropa İttifaqının fəaliyyəti haqqında müqavilənin 35 (3-cü bənd), 36 və 346-cı maddələri ilə qorunan digər maraqlar nəzərdə tutulur". AİƏM, C-92/09 və C-93/09, Volker und Markus Schecke GbR and Hartmut Eifert v. Land Hessen, 9 noyabr 2010-cu il, 74-cü bənd.
383 Misal üçün, cəzalarla bağlı bu işə bax: C-443/13, Ute Reindl v. Bezirkshauptmannschaft Innsbruck, 13 noyabr 2014-cü il, 40-cı bənd.
384 AİƏM, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, 18 mart 2010-cu il, 63-65-ci bəndlər.

## 6.2. Yekun məhkəmə qərarına və ya qərardadına nail olmaq qarşısındakı məhdudiyyətlərin nümunələri

### Əsas məqamlar

- Məhkəmə rüsumları və məsrəfləri həddən artıq yüksək olarsa, bu, ədalət mühakiməsinə çatım hüququna qanunsuz məhdudiyyət təşkil edə bilər, çünki bu hal fərdləri məhkəməyə müraciət etmək hüququndan məhrum etmiş olar. Rüsumun məbləğinin münasibliyi hər bir işin faktlarından, o cümlədən ərizəçinin maddi imkanından asılıdır.
- Həddən artıq formalizm (prosessual normaların ciddi formalist şərhi) ərizəçiləri məhkəməyə müraciət hüququndan məhrum edə bilər.
- Yüksək sübutetmə standartı ədalət mühakiməsinə çatımın qarşısında maneələr yarada bilər. Faktlarla və ya hüquqi məsələlərlə bağlı ehtimallar (məsələn, ayrı-seçkilik barədə ehtimallar) fərdlərin iş üzrə mövqelərini müdafiə etmələrinə yardım göstərə bilər.
- İddia müddətləri qanuni məqsədə, məsələn, ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə və ya keçmiş iddialardan irəli gələn ədalətsizliklərin qarşısının alınmasına xidmət etməli və həmin qanuni məqsədə mütənasib olmalıdır.
- İmmunitetlər qanuni məqsədə, məsələn, deputatların və ya vəzifələrini icra edən dövlət qulluqçularının söz azadlığının müdafiəsinə xidmət edirsə, o zaman immunitetlərə yol verilə bilər.

Bu bölmədə AİHM və AİƏM-in qərarlarının predmeti olmuş bəzi məhdudiyyətlərdən bəhs edilir. Bəzi maneələr işin faktoloji hallarından (məsələn, prosesin gecikdirilməsi və ya həddən artıq formalizmə yol verilməsi), digərləri isə qanunvericilik normalarından (məsələn, iddia müddətləri, immunitetlər və sübutlarla bağlı maneələr) irəli gələn əngəllər kimi qeyd edilə bilər. Bu, maneələrin tam siyahısı deyil. Digər maneələr sırasına hüquqi status məsələsi (əlavə müzakirə üçün ətraf mühitin mühafizəsi hüququ ilə bağlı 8.4-cü bölməyə bax) və prosesin həddən artıq uzun sürməsi (7-ci bölməyə bax) daxildir.[385]

### 6.2.1. Məhkəmə rüsumları

Məhkəmə rüsumları ədalət mühakiməsinin səmərəli şəkildə həyata keçirilməsinə (məsələn, prosesdən sui-istifadə edənləri çəkindirməklə və ya inzibati xərcləri

385 FRA (2011), Avropada ədalət mühakiməsinə çatım: problemlərin və imkanların icmalı, səh. 38.

azaltmaqla) kömək edə bilər, lakin həm də ədalət mühakiməsinə çatımı məhdudlaşdıra bilər. Potensial iddiaçıların mülki iddia qaldırmasına əngəl törədən yüksək məhkəmə rüsumları AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozuntusunu təşkil edə bilər.[386]

AŞ və Aİ hüququna əsasən, məhkəmə rüsumlarının tətbiqi AİHK-ın 6-cı maddəsinə (1-ci bənd) və ya Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsinə avtomatik olaraq zidd hesab edilmir. Bununla belə, məhkəmə rüsumları həddən artıq yüksəkdirsə, bu, fərdləri məhkəməyə müraciət hüququndan məhrum edə bilər.[387] Məsələn, AİHM ərizəçinin aylıq gəlirinin təxminən dörd mislinə bərabər olan rüsumları qeydi-mütənasib hesab edib.[388]

Nümunə: *Stankov Bolqarıstana qarşı* məhkəmə işində[389] ərizəçi qanunsuz həbsinə görə dövlətə qarşı iddia qaldıraraq işi udmuş və dəymiş ziyana görə ona kompensasiya təyin olunmuşdu. Lakin ondan tələb olunurdu ki, dövlət tərəfindən ödəniləcək kompensasiyanın təxminən 90%-ini təşkil edən məbləğdə məhkəmə rüsumu ödəsin. Nəticədə ərizəçi faktiki olaraq kompensasiyadan məhrum olmuşdu, halbuki Bolqarıstan məhkəmələri onun kompensasiya hüququna malik olduğunu birmənalı şəkildə təsdiq etmişdilər.

AİHM qeyd etdi ki, dəymiş ziyana görə dövlətə qarşı başlanmış məhkəmə prosesində ödənilməli məhkəmə xərclərinə dair normalar tərəflərin üzərinə həddən artıq yük qoymamalıdır. Xərclər həddən artıq çox olmamalı və ya məhkəməyə müraciət etmək hüququna əsassız məhdudiyyət təşkil etməməlidir. Məhkəmə rüsumlarının tətbiqi ədalət mühakiməsinin lazımi qaydada aparılması tələbinə uyğun olsa da, bu işdə nisbətən yüksək və tamamilə dəyişməz olan məhkəmə rüsumları ərizəçinin məhkəməyə müraciət hüququna qeyri-mütənasib məhdudiyyət təşkil edirdi. Digər üzv dövlətlərdə bu məsələnin həlli üçün istifadə edilən müxtəlif prosessual üsullar, məsələn, ziyana görə dövlətə qarşı qaldırılan iddialarda məhkəmə rüsumlarının azaldılması və ya alınmaması, yaxud məhkəmə xərclərinin müəyyənləşdirilməsində məhkəmələrə diskresion səlahiyyət verilməsi bu işdə mövcud deyildi. Məhkəmə AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozulduğunu müəyyən etdi.

Aİ hüququnda məhkəmə xərcləri məsələsi Orxus Konvensiyasının tətbiqinə dair direktivə əsasən ədalət mühakiməsinə çatım hüququnun tələbləri baxımından nəzərdən keçirilib (ətraf mühitin mühafizəsi hüququ ilə bağlı 8.4-cü bölməyə bax).[390]

386 AİHM, Kreyts Polşaya qarşı, ərizə № 28249/95, 19 iyun 2001-ci il, 61-67-ci bəndlər.
387 AİHM, Perdiqanu Portuqaliyaya qarşı [BP], ərizə № 24768/06, 16 noyabr 2010-cü il, 74-cü bənd. Həmçinin bax: Birləşmiş Millətlər Təşkilatı (BMT), İnsan Hüquqları Komitəsi (İHK) (2008), İş № 1514/2006, Kazanova Fransaya qarşı, 28 oktyabr 2008-ci il, 11.3-cü bənd.
388 AİHM, Kiyevska Polşaya qarşı, ərizə № 73002/01, 6 sentyabr 2007-ci il, 47-ci bənd.
389 AİHM, Stankov Bolqarıstana qarşı, ərizə № 68490/01, 12 iyul 2007-ci il.
390 BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) (1998), Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Orxus Konvensiyası, 25 iyun 1998-ci il.

Nümunə: *European Commission v. the United Kingdom of Great Britain and Northern Ireland*[391] məhkəmə işində ətraf mühitin mühafizəsi üçün çalışan bir qrup QHT Avropa İttifaqı Komissiyasına şikayət ərizəsi təqdim edərək bildirmişdilər ki, məhkəmə iddialarının xərclərinin "həddən artıq baha" olması səbəbindən və konkret olaraq "məhkəmə xərclərini uduzan tərəfin ödəməsini" nəzərdə tutan, yəni qalib tərəfin məhkəmə xərclərini uduzan tərəfin ödəməsini tələb edən qaydanın tətbiqi ucbatından fərdlər və vətəndaş cəmiyyəti qrupları Birləşmiş Krallıq məhkəmələrində iş qaldırmaq imkanına malik deyillər. Onlar iddia edirdilər ki, bu, Orxus Konvensiyasının ədalət mühakiməsinə çatım barəsindəki müddəalarını (3-cü maddənin 7-ci bəndi və 4-cü maddənin 4-cü bəndi) pozur, halbuki həmin müddəalar, digər məsələlərlə yanaşı, məhkəmə prosedurlarının "həddən artıq bahalı" olmasını qadağan edir. Avropa İttifaqı Komissiyası işi AİƏM-in icraatına verdi.

AİƏM direktivdə "həddən artıq bahalı" deyilərkən nəyin nəzərdə tutulduğunu nəzərdən keçirdi. Bu qiymətləndirmə obyektiv və subyektiv qiymətləndirmənin aparılmasını tələb edirdi. Məhkəmə xərcləri "obyektiv baxımdan ağlabatan" olmalı, həm də müvafiq şəxsin maddi imkanlarının hüdudlarını aşmamalıdır. Xərclərin subyektiv baxımdan ağlabatan olub-olmadığını qiymətləndirərkən bir sıra amillər, o cümlədən aşağıdakılar nəzərə alına bilər: i) işi ağlabatan uğur perspektivinin olub-olmaması; ii) işin iddiaçı üçün və ətraf mühitin qorunması üçün nə dərəcədə əhəmiyyətli olması; və iii) hüquqi məsələlərin və müvafiq prosedurların mürəkkəbliyi. Bu qiymətləndirmə birinci və apellyasiya instansiyalarında fərqlənmir. Bu işdə Birləşmiş Krallıq direktivin müddəalarını ölkə qanunvericiliyinə lazımi şəkildə daxil edə bilməmişdi.

Məhkəmə xərclərinin şəxsi məhkəməyə müraciət etmək hüququndan məhrum edib-etmədiyini müəyyənləşdirərkən həmin xərclər işin konkret halları (o cümlədən ərizəçinin həmin xərcləri ödəmək imkanı) baxımından qiymətləndirilməlidir.[392] Qalib tərəfin məhkəmə xərclərini kompensasiya etməkdən imtina bu hüququ poza bilər.[393] Dövlətlər təmin etməlidir ki, ədalət mühakiməsinin maliyyələşdirilməsi tələbatı məhkəməyə müraciət hüququnun inkar edilməsinə səbəb olmasın. Çox zaman milli qanunvericilikdə məhkəmə xərclərinin qarşılanması məqsədi ilə hüquqi yardım almaq üçün müraciət etmək imkanı nəzərdə tutulur (hüquqi yardıma dair 3-cü fəslə bax). Sadələşdirilmiş prosedurlar da bu məsələyə kömək edə bilər; onlar xarakterlərinə görə 8.5-ci bölmədə müzakirə olunan "Kiçik məbləğli iddialar üzrə Avropa proseduru"na bənzəyə bilər və çox zaman ucuz və tez başa gəlir.

391 AİƏM, C-530/11, European Commission v. the United Kingdom of Great Britain and Northern Ireland, 13 fevral 2014-cü il. Həmçinin bax: AİƏM, C-260/11, The Queen, on the application of David Edwards and Lilian Pallikaropoulos v. Environment Agency and Others, 11 aprel 2013-cü il.

392 Həmçinin bax: AİHM, Tolstoy-Miloslavski Birləşmiş Krallığa qarşı, ərizə № 18139/91, 13 iyul 1995-ci il, 61-67-ci bəndlər (bu işdə qarşı tərəfin məhkəmə xərclərinin mümkün ödənişi ilə əlaqədar olaraq böyük məbləğdə zəmanət pulunun ödənilməsi tələbi əsaslı edildi, çünki apellyasiya şikayətinin təmin edilməsi ehtimalı az idi).

393 AİHM, Stankeviç Polşaya qarşı, ərizə № 46917/99, 6 aprel 2006-cı il, 60 və 75-ci bəndlər.

**Perspektivli praktika**

**Məhkəmə xərclərinin azaldılması və prosedurların sadələşdirilməsi**

Birləşmiş Krallıqda (İngiltərə və Uelsdə) hökumət kiçik məbləğli iddialarla bağlı uzun sürən və bahalı prosedurlar problemini həll etmək üçün pul tələbinə dair onlayn rejimində iddia qaldırma prosedurunu (MCOL) tətbiq etdi. İddia tələblərinin məbləği 100.000 funt sterlinqdən aşağı olmalı və iddialar İngiltərədə və ya Uelsdə ünvanı olan şəxsə qarşı qaldırılmalıdır.

*Mənbə: Avropa Şurası, CEPEJ (2014), Hesabat: "Avropa məhkəmə sistemləri – 2014-cü il nəşri (2012-ci lin məlumatları): ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti", səh. 260. Həmçinin bax: www.gov.uk/make-money-claim-online və www.inbrief.co.uk/preparing-for-trial/problems-with-small-claims.htm.*

## 6.2.2. Həddən artıq formalizm

Həddən artıq formalizm prosessual normaların ərizəçiləri məhkəməyə müraciət hüququndan məhrum edə biləcək olduqca ciddi formalist şərhini bildirir. Buraya iddia müddətlərinin, prosessual normaların və sübutetmə qaydalarının çox məhdud şərhi daxil edilə bilər.

Nümunə: *Puaro Fransaya qarşı* məhkəmə işində[394] əlil qadın olan ərizəçi yaşadığı əlillər evində cinsi zorakılığa məruz qaldığını və zorlandığını iddia edərək cinayət işi qaldırılması üçün şikayət ərizəsi vermişdi. 2002-ci ildə bu iddialarla bağlı məhkəmə işi açıldı və istintaq aparıldı. İşin istintaqını aparan hakim 2006-cı ildə ittihamlarda dəyişiklik edərək yalnız seksual zorakılıq ittihamını saxladı və təqsirləndirilən şəxsin işini baxılmaq üçün yerli cinayət məhkəməsinə verdi. Ərizəçi iddia edilən hərəkətlərin tövsifinin dəyişdirilməsindən və işin həmin məhkəməyə verilməsindən şikayət etdi, çünki o hesab edirdi ki, bu cinayətlər kifayət qədər ciddidir və onlara andlılar məhkəməsi tərəfindən baxılmalıdır. Onun şikayəti rədd edildi. Qərarda deyilirdi ki, onun apellyasiya şikayəti barədə bildirişində şikayətin dəqiq əsasları göstərilməyib. Belə olduqda ərizəçi bu qərardan hüquqi məsələlərlə əlaqədar şikayət verdi, amma şikayəti təmin edilmədi. Cinayəti törətmiş şəxs sonradan bəraət aldı. Ərizəçi iddia etdi ki, apellyasiya şikayətinin rədd edilməsi onu məhkəməyə müraciət etmək hüququndan məhrum edib.

AİHM qeyd etdi ki, formal olaraq Cinayət Prosessual Məcəlləsi ərizəçinin apellyasiya şikayətində həmin şikayətin əsaslarını dəqiq şəkildə göstərməsini tələb etmirdi. Həmin məcəllənin müvafiq norması yeganə norma idi ki, ərizəçinin işin istintaqını aparmış hakim tərəfindən işin sözügedən məhkəməyə verilməsindən şikayət etməsinə imkan verirdi. Məhkəmə qəbul etdi ki, milli hakimiyyət orqanları daxili qanunvericiliyi şərh etməkdə daha əlverişli vəziyyətdədirlər. Lakin, məhkəmə orqanları müvafiq prosessual normaları həddən artıq formalistcəsinə tətbiq

394 AİHM, Puaro Fransaya qarşı, ərizə № 29938/07, 15 dekabr 2011-ci il, 46-cı bənd.

etmiş və bununla da ərizəçinin məhkəməyə müraciət hüququnu pozmuşdular. Buna görə də Məhkəmə AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozulduğunu müəyyən etdi.

Formalizm məsələsi araşdırılarkən məhkəmənin rolu və kompensasiya üçün ərizəçinin sərəncamında alternativ imkanların olması əhəmiyyət kəsb edə bilər. Məsələn, məhkəmə inzibati qərarlara yenidən baxılması prosesində unikal rola malikdirsə, yəni həm birinci, həm də son instansiya məhkəməsi kimi çıxış edirsə, bu məhkəmədəki prosedurlar həddən artıq formal olmamalıdır, çünki bu, ərizəçini hüquqların bərpası imkanından məhrum etmiş olar.[395]

Konstitusiya məhkəmələri tərəfindən prosessual normaların həddən artıq məhdud çərçivəli şərhi ərizəçiləri məhkəməyə müraciət hüququndan məhrum edə bilər.[396] Məsələn, prosessual norma (misal üçün, iddia müddəti barədə norma) ərizəçinin qaldırdığı iddiaya mahiyyəti üzrə baxılmasının qarşısını alan tərzdə şərh edilirsə, bu, məhkəməyə müraciət hüququna xələl gətirir.[397]

Nümunə: *Maşireviç Serbiyaya qarşı* məhkəmə işində[398] vəkillik fəaliyyəti ilə məşğul olan ərizəçi bələdiyyə məhkəməsində mülki iddia qaldıraraq özəl sığorta şirkətinin hüquqi xidmət haqqında müqaviləyə uyğun olaraq xidmətin haqqını ödəməsini tələb etmişdi. Məhkəmə əvvəlcə xidmətin haqqının ödənilməsi barədə qərar çıxarmış, amma sığorta şirkətinin qarşılıqlı iddiasından sonra qərarı ləğv etmiş və müqaviləni etibarsız elan etmişdi. Apellyasiya məhkəməsi bu qərarı qüvvədə saxlamış və ərizəçi Ali Məhkəməyə hüquqi məsələlərlə bağlı şikayət etmişdi. Ali Məhkəmə şikayəti rədd edərək bildirmişdi ki, ərizəçi həmin şikayət ərizəsini təqdim etmək hüququna malik deyil, çünki Serbiya Mülki Prosessual Qanununun 84-cü maddəsinə əsasən hüquqi məsələlərlə bağlı şikayət şəxsən iddiaçı tərəfindən deyil, yalnız prokuror tərəfindən verilə bilər. Ali Məhkəmə bildirmişdi ki, bu Qanuna əsasən prosesdəki tərəflər, hətta özləri vəkil olsalar belə, hüquqi məsələlərlə bağlı şəxsən şikayət etmək hüququnu itiriblər.

AİHM qərara aldı ki, prosessual normanın bu cür məhdud çərçivəli şərhi məhkəməyə müraciət etmək hüququna xələl gətirib. Məhkəmə bildirdi ki, bu cür işlərdə onun rolu onu müəyyənləşdirməkdən ibarətdir ki, müvafiq prosessual normaların məqsədi ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsini və hüquqi müəyyənlik prinsipini təmin etməkdirmi? Ali Məhkəmənin sözügedən normaya verdiyi şərh bu məqsədlərə xidmət etmirdi və ərizəçini iddialarına

395 Misal üçün bax: AİHM, "Sotiris ənd Nikos Kutras Atti" Yunanıstana qarşı, ərizə № 39442/98, 16 noyabr 2000-ci il, 22-ci bənd; and AİHM, Şulgin Ukraynaya qarşı, ərizə № 29912/05, 8 dekabr 2011-ci il, 65-ci bənd.

396 AİHM, Beleş və başqaları Çex Respublikasına qarşı, ərizə № 47273/99, 12 noyabr 2002-ci il, 69-cu bənd.

397 AİHM, Miraqal Eskolano və başqaları İspaniyaya qarşı, ərizələr № 38366/97, 38688/97, 40777/98, 40843/98, 41015/98, 41400/98, 41446/98, 41484/98, 41487/98 və 41509/98, 25 may 2000-ci il, 33 və 36-cı bəndlər.

398 AİHM, Maşireviç Serbiyaya qarşı, ərizə № 30671/08, 11 fevral 2014-cü il.

mahiyyəti üzrə tam baxılması imkanından məhrum etmişdi. Buna görə də Məhkəmə AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozulduğunu müəyyən etdi.

Həddən artıq formalizm həmçinin o halda baş verir ki, məhkəmə faktoloji məsələlərə (məsələn, ərizəçinin qanunsuz rezident statusuna) həddindən artıq önəm verir və onları ərizəçilərin təməl hüquqları ilə (məsələn, onların 8-ci maddədə nəzərdə tutulmuş ailə həyatına hörmət hüququ ilə) lazımi qaydada balanslaşdırmır.[399] Öz qiymətləndirmələrini daim təhlil etmək praktikası məhkəmələrə müraciət hüququna xələl gətirən praktikalara yol verməməkdə məhkəmələrə köməklik göstərə bilər.

**Perspektivli praktika**

**Həddən artıq formalizmi azaltmaqla ədalət mühakiməsinə çatım imkanının artırılması**

Yambol İnzibati Məhkəməsi (Bolqarıstan) məhkəmə prosesinə inamın artırılmasına yönələn xidmətləri barədə dəqiq və açıq məlumatlar təqdim etmək səylərinə görə Ədalət mühakiməsinin büllur tərəzisi – 2010" mükafatına layiq görülüb. Məhkəmə vətəndaşlar və media üçün nəzərdə tutduğu fəaliyyət planını həyata keçirib; o öz personalından vətəndaşlarla ünsiyyətdə olarkən sadə dildən istifadə etməyi tələb edir. Digər tədbirlər sırasına "Müştərilərə xidmət haqqında xartiya"nın qəbulu daxildir, bu, məhkəmənin öz xidmətlərini anlaşıqlı, açıq və dəqiq şəkildə təqdim etməsi barədə yazılı öhdəlik sənədidir. Bu cür tədbirlər fərdlərin məhkəməyə müraciət imkanlarını yaxşılaşdıra bilər, belə ki, onlar həddən artıq mürəkkəb ünsiyyət formalarını azaldır. Sorğular təsdiq edir ki, məhkəmənin fəaliyyətləri barədə vətəndaşların təəssüratları xeyli dərəcədə yaxşılaşıb.

*Mənbə: Mənbə: Ədalət mühakiməsinin büllur tərəzisi mükafatı – 2010, Avropa Şurası və Avropa İttifaqı Komissiyası tərəfindən birgə təşkil edilən mükafatlandırma.*

## 6.2.3. Sübutlarla bağlı maneələr

Məhkəmələrdə adekvat kompensasiyaya nail olmaq üçün fərdlər iddialarını təsdiqləyən yetərli sübutlar təqdim etməlidirlər. Əgər sübutetmə standartı həddən artıq yüksəkdirsə, məhkəmələrdə qaldırılan iddialar uğursuzluqla nəticələnə və fərdin qanuni hüquqlarının həyata keçirilməsi praktikada mümkünsüz ola bilər.[400]

Bəzi hallarda sübutlarla bağlı maneələr işin elementlərini hansı tərəfin sübut etməli olduğu barədə konkret tələblərin (sübutetmə yükünə dair tələblərin) tətbiqi vasitəsilə azaldıla bilər. Məsələn, cinayət işlərində sübutetmə yükü ittiham tərəfinin üzərinə düşür. Buna görə də ittiham tərəfi cinayətdə ittiham edilən şəxsin təqsirini sübut etmək vəzifəsini daşıyır. Bu, AİHK-ın 6-cı maddəsində (2-ci bənd) və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 48-ci maddəsində (1-ci bənd)

399 AİHM, Rodriges Da Silva və Hoqkamer Niderlanda qarşı, ərizə № 50435/99, 31 yanvar 2006-cı il, 44-cü bənd.

400 FRA (2011), Avropada ədalət mühakiməsinə çatım: problemlərin və imkanların icmalı, səh. 62.

nəzərdə tutulmuş təqsirsizlik prezumpsiyası ilə bağlıdır. Sübutetmə yükünün digər tərəfin üzərinə qoyulması təqsirsizlik prezumpsiyasını poza bilər.

Bununla belə, AŞ hüququna əsasən, çox konkret və məhdud hallarda sübut yükü müdafiə tərəfinin üzərinə qoyula bilər. Sübut yükünün subyektinin bu cür dəyişdirilməsinin qəbuledilən sayılması barədə qərar verərkən araşdırılan məsələnin mühümlüyü və müdafiə hüquqlarının qorunması üçün təminatların mövcudluğu nəzərə alınmalıdır.[401]

Nümunə: *Kluvi Fransaya qarşı* məhkəmə işində[402] ərizəçi 1994-cü ildə keçmiş müdiri P.-yə qarşı cinayət işi açılması üçün şikayət ərizəsi verərək onu zorlamada və seksual təqibdə ittiham etmişdi. İşin istintaqını aparan hakim kifayət qədər sübut olmadığına görə 1998-ci ildə qərara aldı ki, bu işdə cinayət hadisəsi yoxdur. Bu arada P. qərəzli ittihama görə ərizəçiyə qarşı cinayət işi başlanması üçün müraciət etdi. Ərizəçi şərti olaraq azadlıqdan məhrumetmə cəzası aldı və həmçinin qərara alındı ki, o, ziyana görə kompensasiya ödəməlidir. Onun apellyasiya şikayəti rədd edildi. O, AİHM-ə şikayət edərək təqsirsizlik prezumpsiyasının pozulduğunu bildirdi.

AİHM qəbul etdi ki, hər bir ölkədaxili sistemdə hüquqi prezumpsiyalardan istifadə edilir. Lakin hazırkı işdə məhkəmə qərarı cinayət məcəlləsinin tətbiqi zamanı onun müddəalarının məhdud çərçivəli şərhinə əsaslanmışdı, belə ki, qərara görə, birincisi, əgər cinayət hadisəsi yox idisə, bu mütləq qaydada o demək idi ki, ərizəçinin ittihamları saxta olub və ikincisi, ərizəçi dəfələrlə törədilmiş zorlamadan və seksual təqibdən şikayət etdiyinə görə bilirdi ki, iddiaları yalandır, bu isə onun bilərəkdən yalan ittiham irəli sürdüyünü sübuta yetirirdi. Bu ehtimallar o demək idi ki, qərəzli ittiham irəli sürməkdə təqsirləndirilən ərizəçinin öz müdafiəsini həyata keçirməsi üçün heç bir vasitə yox idi. Bu, AİHK-ın 6-cı maddəsinin (2-ci bənd) pozuntusu idi.

Müəyyən situasiyalarda faktlarla bağlı digər prezumpsiyalar (ehtimallar) yarana bilər. Məsələn, AİHK-ın 3-cü maddəsinə (işgəncənin və ya qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması) aid işlərdə müvafiq hadisələr dövlətin nəzarəti daxilində (məsələn, həbsxanada) baş verdiyi zaman sübutetmə yükü dövlətin üzərinə keçə bilər. Bu isə o deməkdir ki, dövlət orqanları şəxsin həbsdə olarkən aldığı xəsarətlərlə bağlı qaneedici və inandırıcı izahat verməlidirlər.[403]

Aİ-yə gəlincə, Avropa İttifaqı Parlamentinin və Şurasının direktivi barədə Avropa Komissiyasının təklifi Aİ daxilində təqsirsizlik prezumpsiyasının müəyyən aspektlərini gücləndirmək məqsədi daşıyır.[404] Hazırkı layihə versiyasının kompromis əsasında

401 AİHM, Salabiaku Fransaya qarşı, ərizə № 10519/83, 7 oktyabr 1988-ci il.
402 AİHM, Kluvi Fransaya qarşı, ərizə № 30754/03, 30 iyun 2011-ci il.
403 AİHM, Qurqurov Moldovaya qarşı, ərizə № 7045/08, 16 iyun 2009-cu il, 56-cı bənd.
404 Avropa Kommissiyası (2013), Təqsirsizlik prezumpsiyasının və məhkəmə araşdırmasında iştirak etmək hüququnun müəyyən aspektlərinin gücləndirilməsi barədə təklif, COM(2013) 821, yekun versiya, Brüssel, 27 noyabr 2013-cü il, mad. 5(2).

tərtib edilmiş 5-ci maddəsində təqsirsizlik prezumpsiyası təsdiq edilir və üzv dövlətlərdən xahiş olunur ki, şübhəli və təqsirləndirilən şəxslərin təqsirinin sübuta yetirilməsi üçün sübutetmə yükünün ittiham tərəfinin üzərinə düşməsini təmin etsinlər. [405]

Bundan başqa, Aİ hüququna əsasən, ayrı-seçkilik faktını sübut etməyə çalışan və sübutetmə cəhdlərində ənənəvi olaraq olduqca mürəkkəb maneələrlə üzləşən fərdlərə hazırda xüsusi rejim şamil olunur.[406] Aİ hüququna əsasən, iddiaçı faktlarla bağlı ilkin sübutlarını təqdim etməli və əgər ayrı-seçkiliyin baş verdiyinə dair prezumpsiya (ehtimal) yaranarsa, cavabdeh tərəf ayrı-seçkiliyin baş vermədiyini sübut etməlidir. Sübutetmə yükünün digər tərəfin üzərinə bu cür keçməsi hazırda ayrı-seçkiliyin yolverilməzliyi barəsində Aİ qanunvericiliyində, məsələn, İrqi bərabərlik haqqında direktivdə və Gender bərabərliyi haqqında direktivdə öz əksini tapıb.[407] Bu direktivlərin müddəalarında ərizəçilərin öz işlərində irəli sürdükləri bütün elementləri sübut etmək vəzifəsini nəzərdə tutan adi sübutetmə tələblərindən kənara çıxan istisnalar nəzərdə tutulub.

Nümunə: *Galina Meister v. Speech Design Carrier Systems GmbH* məhkəmə işində[408] Rusiya vətəndaşı "təcrübəli proqramçı" vakant yerinə işə götürülmək üçün müraciət etmişdi. Onun ərizəsi təmin edilmədi. Çox keçmədən eyni şirkət tərəfindən eyni məzmunda ikinci elan dərc olundu. Ərizəçi xanımın növbəti ərizəsi də rədd edildi. O iddia etdi ki, cinsinə, yaşına və etnik mənşəyinə görə ayrı-seçkiliyin qurbanı olub. O, işəgötürmədə ayrı-seçkiliklə bağlı kompensasiya almaq üçün iddia qaldırdı və işə götürülmüş namizədə aid məlumatların açıqlanmasını tələb etdi. Onun iddia tələbi rədd edildi və onun bu qərardan verdiyi apellyasiya şikayəti də təmin edilmədi. Daha sonra o, Federal Əmək Məhkəməsinə şikayət etdi, həmin məhkəmə isə AİƏM-ə belə bir sorğu ilə müraciət etdi ki, ərizəçi bir neçə müvafiq direktivin əsasında məlumatların açıqlanmasını tələb etmək hüququna malikdirmi?

AİƏM qeyd etdi ki, ayrı-seçkiliyə məruz qaldıqlarını hesab edən şəxslər ayrı-seçkilik prezumpsiyasının (ehtimalının) yaranması üçün əvvəlcə müvafiq faktların sübutlarını təqdim etməlidirlər. Yalnız bu faktlar təsdiqləndikdən sonra cavabdeh ayrı-seçkiliyin baş vermədiyini sübut etməlidir. AİƏM qərara aldı ki, cavabdehin

405 Bax: http://data.consilium.europa.eu/doc/document/ST-13471-2015-INIT/en/pdf.
406 AİƏM, C-127/92, Dr. Pamela MaryEnderby v. Frenchay Health Authority and Secretary of State for Health, 27 oktyabr 1993-cü il. Həmçinin bax: FRA (2011), Ayrı-seçkilik əleyhinə Avropa hüququna dair məlumat kitabı, Lüksemburq, Rəsmi Nərşlər Bürosu.
407 Sübutetmə yükünün digər tərəfin üzərinə keçməsini nəzərdə tutan Aİ qanunvericiliyi üçün bax: İrqi bərabərlik haqqnda direktiv, mad. 8; Mallara və xidmətlərə çıxış əldə etməkdə və onların təchizatında kişilərə və qadınlara münasibətdə bərabər rəftar haqqında direktiv, mad. 9; Gender bərabərliyi haqqnda direktiv, mad. 18; və Məşğulluq sahəsində bərabər rəftar üçün ümumi sistemin müəyyən edilməsi haqqında direktiv, mad. 10.
408 AİƏM, C-415/10, Galina Meister v. Speech Design Carrier Systems GmbH, 19 aprel 2012-ci il. Həmçinin bax: AİƏM, C-83/14, CHEZ Razpredelenie Bulgaria AD v. Komisia za zashtita ot diskriminatsia, 16 iyul 2015-ci il.

müvafiq məlumatları açıqlamaqdan imtina etməsi ərizəçinin ilkin faktları sübut etməsinə əngəl törədə bilərdi. Sorğu vermiş məhkəmə yoxlayıb əmin olmalıdır ki, bu imtina ərizəçinin öz iddiasını sübut etməsinin qarşısını almayıb.

### 6.2.4. İddia müddətləri

İddia müddətləri müvafiq tərəfin iddia qaldırması üçün nəzərdə tutulan vaxt məhdudiyyətini müəyyən edir. İddia qaldırılması üçün ağlabatan müddətlərin tətbiq edilməsi və iddia qaldırmanın prosessual şərtlərinin müəyyən edilməsi hüquqi müəyyənlik prinsipini və qərarların qətiliyini təmin etməklə ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə şərait yarada və potensial cavabdehləri zaman keçdiyinə görə təkzib edilməsi çətin ola biləcək köhnə iddialardan qoruya bilər.[409] AŞ və Aİ hüququna əsasən, iddia müddətinin tətbiqi, müvafiq olaraq, AİHK-ın 6-cı maddəsini (1-ci bənd), yaxud da Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsini prinsipcə pozmur.

Aİ hüququna əsasən, iddia müddətləri milli hüquq sistemlərinin ümumi cəhəti olsa da və bir neçə mühüm məqsədə xidmət etsə də, qanuni hesab edilmək üçün bu müddətlər qanuni məqsəd daşımalı və həmin məqsədə mütənasib olmalıdır.[410]

Nümunə: *Boqdel Litvaya qarşı* məhkəmə işində[411] ərizəçilərə dövlətdən satın alınmış torpaq sahəsi miras qalmışdı. On il sonra məhkəmə qərara aldı ki, həmin ilkin satış qanunsuz olub və torpaq sahəsi ödənişsiz olaraq dövlətə qaytarılmalıdır. Ərizəçilər bu qərardan şikayət etdilər; apellyasiya məhkəməsi qərara aldı ki, torpaq sahəsi üçün ödənilmiş olan məbləğ geri qaytarılmalıdır, amma ərizəçilərin torpaq üzərində mülkiyyət hüququ qəbul edilmədi. Ərizəçilər bildirdilər ki, torpaq sahəsi ilə bağlı dövlətin iddia tələbinin iddia müddəti ötmüşdü.

AİHM bir daha bildirdi ki, iddia müddətləri "iştirakçı dövlətlərin milli hüquq sistemlərinin ümumi cəhətidir". Onlar hüquqi müəyyənliyi təmin edir, potensial cavabdehləri qoruyur və zaman keçdikcə etibarlılığını və ya tamlığını itirən sübutlar əsasında məhkəmələrin keçmişdə baş vermiş hadisələrə dair qərar qəbul etməsi tələb olunan hallarda baş verə biləcək ədalətsizliklərin qarşısını alır. Bu işdə ərizəçilər AİHM qarşısında iddia edirdilər ki, dövlət orqanlarına və özəl qurumlara iddia müddətlərinin başlanğıc günü ilə bağlı fərqli qaydaların tətbiq edilməsi ayrı-seçkilik xarakteri daşıyır, amma onlar bu məsələni ölkədaxili məhkəmələrdə qaldırmamışdılar. Bununla belə, AİHM bu nəticəyə gəldi ki, bu fərqin nəticələri ərizəçilərin məhkəməyə müraciət hüququna uyğundur və AİHK-ın 6-cı maddəsi (1-ci bənd) pozulmayıb.

409 AİHM, "MPP Qolub" Ukraynaya qarşı, ərizə № 6778/05, 18 oktyabr 2005-ci il.
410 AİHM, Stabbinqs və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 22083/93 və 22095/93, 22 oktyabr 1996-cı il, 50-56-cı bəndlər.
411 AİHM, Boqdel Litvaya qarşı, ərizə № 41248/06, 26 noyabr 2013-cü il.

Eynilə Aİ hüququnda da milli məhkəmələrdə iddia qaldırmaq üçün qanunla müəyyən edilən iddia müddətlərinin tətbiqi qanunsuz sayılmaya bilər.[412]

> Nümunə: *Q-Beef and others* məhkəmə işində[413] ərizəçilər 2 aprel 2007-ci ildə Belçika dövlətinə qarşı məhkəmə işi qaldıraraq 1993-cü ilin yanvarından 1998-ci ilin aprelinədək ödədikləri haqların geri qaytarılmasını tələb etdilər. AİƏM-ə sorğu vermiş məhkəmənin bildirdiyinə görə, ərizəçilərin bu iddiası üçün müəyyən edilmiş beş illik iddia müddəti ötmüşdü.
>
> AİƏM qərara aldı ki, məhkəmədə iş qaldırılması üçün hüquqi müəyyənlik prinsipinin maraqları naminə ağlabatan iddia müddətlərinin müəyyən edilməsi səmərəlilik prinsipi baxımından Aİ qanunvericiliyinə uyğundur. Bu iddia müddətləri Aİ qanunvericiliyində müəyyən edilmiş hüquqların həyata keçirilməsini faktiki olaraq mümkünsüz və ya həddən artıq çətin hala gətirməməlidir.

Bundan əlavə, Aİ qanunvericiliyində müəyyən edilmiş iddia müddətləri analoji ölkədaxili iddialar üçün müəyyən edilmiş müddətlərə nisbətən əlverişsiz olmamalıdır.[414] Aİ-nin bir neçə ikinci dərəcəli qanunvericilik aktlarında bununla bağlı xüsusi normalar yer alıb; məsələn, Mediasiya haqqında direktiv (2.4.2-ci bölməyə bax) dövlətlərdən tələb edir ki, mübahisə ilə bağlı mediasiya prosesi aparılarkən iddia müddətlərinin axımının dayandırılmasını təmin etsinlər.[415]

## 6.2.5. İmmunitetlər

İmmunitetlər prosessual maneələrin xüsusi növüdür. Dövlətlər həmçinin məhkəmə iddialarının qarşısını almaq üçün immunitetlər tətbiq edə bilərlər. Hüquqi immunitet şəxsin məhkəmə prosesinə cəlb edilməkdən, məsələn, hüquqi öhdəlikdən, cəzadan və ya cinayət təqibindən bütünlüklə və ya qismən azad edilməsi deməkdir.[416] Bəzi immunitetlər, məsələn, dövlət immuniteti və ya diplomatik immunitet beynəlxalq ümumi hüquqdan irəli gələn öhdəliklərə riayət edilməsi üçün nəzərdə tutulur; digərləri isə, ölkədaxili səviyyədə nəzərdə tutula bilər, məsələn, rəsmi vəzifələrini icra edərkən qəbul etdikləri qərarlara görə dövlət rəsmilərini məsuliyyətdən müdafiə edən, yaxud deputatların söz azadlığını qoruyan immunitet.

Deputat immuniteti parlamentdə söz azadlığını qorumaq və ya qanunvericilik və

412 AİƏM, C-231/96, Edilizia Industriale Siderurgica Srl (Edis) v. Ministero delle Finanze, 15 sentyabr 1998-ci il, 34-36-cı bəndlər.

413 AİƏM, Birləşdirilmiş işlər C-89/10 və C-96/10, Q-Beef NV v. Belgische Staat and Frans Bosschaert v. Belgische Staat, Vleesgroothandel Georges Goossens en Zonen NV and Slachthuizen Goossens NV, 8 sentyabr 2011-ci il.

414 AİƏM, C-261/95, Rosalba Palmisani v. Istituto nazionale della previdenza sociale (INPS), 10 iyul 1997-ci il, 27-28-ci bəndlər.

415 Mülki və kommersiya hüququ işlərində mediasiyanın müəyyən aspektləri haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2008-ci il tarixli 2008/52/EC saylı direktivi (Mediasiya haqqında direktiv), OJ 2008 L 136, mad. 8.

416 Kloth, M. (2010), Immunities and the right of access to the court under Art. 6 of the European Convention on Human Rights, Leiden, Martinus Nijhoff Publishers, p. 1.

məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsünü təmin etmək kimi qanuni məqsədlər daşıyırsa, 6-cı maddəyə uyğun ola bilər.[417] İmmunitet parlament fəaliyyəti ilə sıx əlaqədardırsa, ona haqq qazandırmaq daha asandır.[418]

Nümunə: *C.G.I.L. və Kofferati İtaliyaya qarşı* (№ 2) məhkəmə işində[419] ərizəçilər İtaliyanın həmkarlar ittifaqı federasiyası və onun baş katibi idi. 2002-ci ildə əmək naziri Qırmızı Briqadalar tərəfindən qətlə yetirildi. Parlamentdə müzakirələr zamanı terrorizmlə həmkarlar ittifaqlarının apardığı kampaniyalar arasında əlaqə olduğu qeyd edildi. Parlament üzvü mətbuata açıqlamalar verdi. Ərizəçilər onlara dəymiş ziyanla bağlı məhkəmə iddiası qaldıraraq bildirdilər ki, onun açıqlamaları onların nüfuzuna zərər yetirib. Nümayəndələr Palatası bu açıqlamalara deputat immunitetinin şamil olunduğunu elan etdi. Ərizəçilər şikayət etdilər ki, bu onların məhkəməyə müraciət etmək hüququna müdaxilədir.

AİHM AİHK-ın 6-cı maddəsinin pozulduğunu müəyyən etdi. Deputat immuniteti deputatların söz azadlığını qorumaq məqsədi ilə uzun müddətdən bəri tətbiq edilən praktika idi. Ərizəçilərin hüquqlarına müdaxilə qanuni məqsəd daşıyırdı, amma həmin məqsədə mütənasib deyildi. Konkret desək, bu açıqlamalar deputat vəzifələrinin yerinə yetirilməsi ilə bağlı deyildi. Dövlət orqanları cəmiyyətin ümumi maraqları ilə fərdin əsas hüquqlarının qorunması tələbləri arasında ədalətli balansa riayət etməmişdilər.

Məhkəmə işlərinin birində belə hesab edildi ki, dövlət immuniteti (və ya suveren immunitet) məhkəməyə müraciət hüququnun məhdudlaşdırılmasına haqq qazandıran qanuni məqsəd daşıyır, belə ki, o, beynəlxalq hüququn tanınmış konsepsiyası olaraq dövlətlər arasında ehtirama (qarşılıqlı hörmətə) və xoş münasibətlərə şərait yaradır.[420] Dövlət immuniteti hətta işgəncə barədə iddiaların irəli sürüldüyü hallarda da tətbiq edə bilər. Bununla belə, AİHM qeyd etdi ki, beynəlxalq ümumi hüququn bu sahəsində hazırda gedən inkişaf proseslərinin işığında dövlətlər bu məsələləri nəzarət altında saxlamalıdırlar.[421]

Digər immunitetlər mülki dövlət qulluqçularının açıqlamalarından və ya rəylərindən şikayət etmək üçün fərdlərin məhkəmədə iddia qaldırmalarına qoyulan məhdudiyyətləri əhatə edə bilər. Belə məhdudiyyətlər qanuni məqsəd daşıdıqları, məsələn, araşdırmanın səmərəli şəkildə aparılmasına yönəldikləri təqdirdə qəbuledilən sayıla bilərlər.[422] Lakin istifadə edilən vasitələrlə qarşıya qoyulan qanuni məqsəd arasında mütənasiblik əlaqəsi olmalıdır. [423]

417 AİHM, A. Birləşmiş Krallığa qarşı, ərizə № 35373/97, 17 dekabr 2002-ci il, 75-77-ci bəndlər.
418 AİHM, Kordova İtaliyaya qarşı (№ 2), ərizə № 45649/99, 30 yanvar 2003-cü il, 64-cü bənd.
419 AİHM, C.G.I.L. və Kofferati (№ 2) İtaliyaya qarşı, ərizə № 2/08, 6 aprel 2010-cu il, 44-cü bənd.
420 AİHM, Əl-Adsani Birləşmiş Krallığa qarşı [BP], ərizə № 35763/97, 21 noyabr 2001-ci il, 56-cı bənd.
421 AİHM, Cons və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 34356/06 və 40528/06, 14 yanvar 2014-cü il, 215-ci bənd.
422 AİHM, Fayed Birləşmiş Krallığa qarşı, ərizə № 17101/90, 21 sentyabr 1994-cü il, 70-ci bənd.
423 Yenə orada, 75-82-ci bəndlər.

## 6.3. Yekun məhkəmə qərarlarının icrasının gecikdirilməsi

### Əsas məqamlar

- Məhkəməyə müraciət hüququ məhkəmə qərarının icra edilməsi hüququnu özündə ehtiva edir. Məhkəmə qərarının icra edilməməsi ədalət mühakiməsinə çatıma haqsız maneə yarada və AİHK-ın 13-cü maddəsini poza bilər.
- AİHM-in presedent hüququnda məhkəmə qərarlarının icrasının gecikdirilməsinin əsaslı olub-olmadığının müəyyənləşdirilməsi üçün əhəmiyyət daşıyan bir neçə meyar müəyyən edilib, məsələn, icra prosedurlarının mürəkkəbliyi; ərizəçinin və səlahiyyətli orqanların davranışı; məhkəmənin təyin etdiyi kompensasiyanın məbləği və xarakteri.
- Aİ hüququna əsasən, məhkəmə qərarının icra edilməməsi üzv dövlətin Avropa İttifaqı haqqında müqavilənin 4-cü maddəsinin 3-cü bəndində və 19-cu maddəsində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasında nəzərdə tutulmuş öhdəliklərinin pozuntusudur. AİƏM (indiyədək) bu məsələ ilə bağlı 47-ci maddə əsasında qərar qəbul etməyib.

Məhkəmə qərarlarının icra edilməməsi ədalət mühakiməsinə çatımı məhdudlaşdırır. O, əsas hüquqların müdafiəsinə xələl gətirə və fərdləri səmərəli məhkəmə müdafiəsindən məhrum edə bilər. Bu baxımdan məhkəmə qərarlarının icra edilməməsi həm də qanunun aliliyinə xələl gətirmiş olur.[424]

AŞ hüququna əsasən, məhkəməyə müraciət hüququ məhkəmə qərarının lüzumsuz gecikdirmə olmadan icra edilməsi hüququnu özündə ehtiva edir. Beləliklə, ölkədaxili məhkəmə qərarlarının icra edilməməsi halları AİHK-ın 6-cı maddəsinin tətbiq dairəsinə düşür.[425] Həmçinin məhkəmə qərarının icrasında ləngimələrin olması da pozuntuya gətirib çıxara bilər.[426] Dövlətlər məcburi qüvvəyə malik yekun məhkəmə qərarlarının icrasını təmin etmək vəzifəsini daşıyırlar. Əgər məhkəmə qərarının icrasının gecikdirilməsi və ya icra edilməməsi dövlətin təqsiri ucbatından baş

424 Avropa Şurası, CEPEJ (2010), Məhkəmə qərarlarının məcburi icrasında hakimlərin rolu haqqında 13 (2010) saylı rəy, Strasburq, 7-ci bənd; Avropa Şurası, CEPEJ (2007), Avropada məhkəmə qərarlarının məcburi icrası, CEPEJ-in araşdırmaları № 8, Strasburq; CEPEJ (2010), Avropada ədalət mühakiməsinə çatım, Strasburq; Avropa Şurası, CEPEJ (2008), Ədalət mühakiməsinin və məhkəmələrin keyfiyyətinin artırılması üçün yoxlanış vərəqəsi, Strasburq, səh.16.
425 AİHM, Hornsbi Yunanıstana qarşı, ərizə № 18357/91, 19 mart 1997-ci il, 40-cı bənd. Həmçinin bax: BMT, İnsan Hüquqları Komitəsi (İHK) (2005), 823/1998 saylı iş, Çernin Çex Respublikasına qarşı, 29 mart 2005-ci il (qərarların icrası məsələsində hərəkətsizlik və icranın gecikdirilməsi MSHBP-nin 14-cü maddəsini pozur).
426 Avropa Şurası, Nazirlər Komitəsi (2003), Məcburi icra haqqında üzv dövlətlərə Rec(2003)17 saylı tövsiyə, 9 sentyabr 2003-cü il. Həmçinin bax: Avropa Şurası, CEPEJ (2009), Avropa Şurasının məcburi icra haqqında mövcud tövsiyəsinin daha yaxşı yerinə yetirilməsi üçün rəhbər prinsiplər.

veribsə, bu, AİHK-ın 13 maddəsi əsasında iddia qaldırılmasına səbəb ola bilər.

Nümunə: *İvanov Ukraynaya qarşı* məhkəmə işində[427] ərizəçi onun xeyrinə çıxarılmış məhkəmə qərarlarının icra edilməməsindən və ölkədaxili səviyyədə səmərəli hüquqi müdafiə vasitəsinin olmamasından şikayət etmişdi.

AİHM təsdiq etdi ki, yekun məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinə maneə olan və ya bunun qarşısını alan amillər dövlət orqanlarının nəzarəti daxilində olan amillərdirsə, o halda dövlət yekun məhkəmə qərarlarının icrasına görə cavabdehlik daşıyır. AİHM məhkəmə qərarlarının icrası məsələsini 6-cı maddə əsasında nəzərdən keçirdi və yubanmaların əsaslı olub-olmadığının müəyyənləşdirilməsi üçün əhəmiyyət daşıyan aşağıdakı amilləri müəyyən etdi: i) icra prosedurlarının mürəkkəbliyi; ii) ərizəçinin və səlahiyyətli orqanların davranışı; və iii) məhkəmənin təyin etdiyi kompensasiyanın məbləği və xarakteri. Məhkəmə bu işdə AİHK-ın 6-cı və 13-cü maddələrinin pozulduğunu müəyyən etdi.

Dövlətə qarşı məhkəmə qərarının qəbul edilməsinə nail olmuş şəxsdən həmin qərarın icrası üçün məhkəmə işi qaldırmasını tələb etmək düzgün deyil.[428] Qərarın icrası üçün addımlar atmaq dövlətin vəzifəsidir. Dövlət orqanı məhkəmə qərarı ilə müəyyən edilmiş borcun ödənilməməsinə haqq qazandırmaq üçün vəsait çatışmazlığını əsas gətirə bilməz.[429] Bundan əlavə, icra prosedurlarından sonra həyata keçirilən gecikdirilmiş ödəniş adekvat kompensasiya təşkil etmir.[430] AİHM bildirib ki, məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı hallarda həmin qərarların vaxtında icra olunmasını təmin etməyə yönələn tədbirlər "böyük əhəmiyyət" kəsb edir. Bununla belə, dövlətlər sırf kompensasiya xarakterli hüquqi müdafiə vasitəsini təqdim etmək variantını seçə bilərlər, bu şərtlə ki, həmin vasitə konkret tələblərə cavab vermiş olsun (məhkəmə qərarlarının icra edilmədiyi işlərdə hüquqi müdafiə vasitəsi kimi kompensasiyanın təqdim edilməsi ilə bağlı əlavə müzakirə üçün 5.2.1-ci bölməyə bax).

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Xartiyanın 47-ci maddəsi Aİ hüququndan irəli gələn bütün hüquqlara şamil olunur və fərdlər bu hüquqların məhkəmə qaydasında səmərəli müdafiəsi hüququna malikdirlər. Məhkəmə qərarının icra edilməməsi üzv dövlətin Avropa İttifaqı haqqında müqavilənin 4-cü maddəsinin 3-cü bəndində və 19-cu maddəsində (1-ci bölməyə bax) və Fundamental hüquqlar haqqında Xartiyada nəzərdə tutulmuş öhdəliklərinin pozuntusudur. AİƏM (indiyədək) bu məsələ ilə bağlı 47-ci maddə əsasında qərar qəbul etməyib.

Məhkəmə qərarlarının icrasının daha geniş əhatəli məsələləri ilə bağlı Aİ tərəfindən ikinci dərəcəli qanunvericilik qəbul edilib ki, həmin qanunvericilikdə məhkəmə

427 AİHM, Yuri Nikolayeviç İvanov Ukraynaya qarşı, ərizə № 40450/04, 15 oktyabr 2009-cu il, 53-57-ci bəndlər.
428 AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il, 198-ci bənd.
429 AİHM, Sakaleanu Rumıniyaya qarşı, ərizə № 73970/01, 6 sentyabr 2005-ci il.
430 AİHM, Karahalios Yunanıstana qarşı, ərizə № 62503/00, 11 dekabr 2003-cü il, 23-cü bənd.

qərarlarının digər Aİ ölkələrində tanınması və icrası məsələləri nəzərdə tutulur. Məsələn:[431]

- AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il, 198-ci bənd.
- AİHM, Sakaleanu Rumıniyaya qarşı, ərizə № 73970/01, 6 sentyabr 2005-ci il.

Avropa icra vərəqəsi (AİV) Aİ-yə üzv olan digər dövlətlərdə mülki və ya kommersiya işləri üzrə mübahisələdirilməyən məhkəmə qərarlarının icrası üçün nəzərdə tutulub.[432] "Mübahisələdirilməyən" termini o deməkdir ki, cavabdeh iddia tələbi ilə razılaşıb, yaxud məhkəmə tərəflərin əldə etdiyi razılaşmanı təsdiq edib, yaxud da cavabdeh iddia tələbi ilə bağlı mövqeyini müdafiə etmək üçün məhkəməyə gəlməyib. Fərdlər icranın təmin edilməsi barədə bəyannamə ala bilərlər. Daha sonra AİV Avropa İttifaqına üzv olan müvafiq dövlətin məhkəmə qərarlarının icrasını təmin edən orqanına göndərilir. Amma açıq-aydın istisna hallar da var, məsələn, vəsiyyətnamələrlə və vərəsəliklə, yaxud ailə mülkiyyəti ilə bağlı hallar.

Əgər AİV-in istifadəsi mümkün deyilsə, fərdlər 2001-ci il tarixli I Brüssel Reqlamentindən istifadə edərək məhkəmə qərarlarının icrasına nail ola bilərlər.[433] AİV-in şamil olunmadığı prosedurlara bunlar daxildir: arbitraj prosedurları, müflisləşmə prosedurları və ailə-nikah işləri üzrə icraat. 2001-ci il tarixli I Brüssel Reqlamentini əvəz etmiş yeni I Brüssel Reqlamenti 10 yanvar 2015-ci ildə qüvvəyə minib.[434] Bununla belə, əvvəlki I Brüssel Reqlamenti bu tarixdən əvvəl başlamış

---

431 Digər nümunələrə bunlar daxildir: "Vərəsəlik məsələlərində məhkəmə yurisdiksiyası, tətbiq edilə bilən qanunvericilik, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi və autentik sənədlərin qəbulu və icrası və Avropa vərəsəlik şəhadətnaməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının (EU) 650/2012 saylı Reqlamenti, OJ 2012 L 201/107; Ailə-nikah hüququna və valideynlərin məsuliyyətinə aid işlərdə məhkəmə yurisdiksiyası, tətbiq edilə bilən qanunvericilik, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə Aİ Şurasının (EC) 2201/2003 saylı Reqlamenti, 27 noyabr 2003-cü il, OJ 2003 L 338/1; və Aliment öhdəlikləri ilə əlaqədar işlərdə məhkəmə yurisdiksiyası, tətbiq edilə bilən qanunvericilik, məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi və əməkdaşlıq barədə Aİ Şurasının (EC) 18 dekabr 2008-ci il tarixli 4/2009 saylı Reqlamenti, OJ L 7/1.

432 Mübahisələndirilməyən iddialar üzrə Avropa icra vərəqəsinin tətbiqi haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 21 aprel 2004-cü il tarixli 805/2004 saylı reqlamenti, OJ 2004 L143. O, Danimarkaya şamil olunmur.

433 "Mülki və kommersiya hüququ işlərində məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi, həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 22 dekabr 2000-ci il tarixli (EC) 44/2001 saylı Reqlamenti, OJ 2001 L 12. Bu sənədin müddəaları aşağıdakı qərarla Danimarkaya da şamil olunur: Mülki və kommersiya hüququ işlərində məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi, həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə Avropa Birliyi ilə Danimarka Krallığı arasında sazişin bağlanmasına dair Aİ Şurasının 27 aprel 2006-cı il tarixli 2006/325/EC saylı qərarı, OJ 2006 120. Həmçinin bax: Mülki və kommersiya hüququ işlərində məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi, həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi haqqında Konvensiya (Luqano Konvensiyası), OJ 2007 L339, 30 oktyabr 2007-ci il – həmin Konvensiya, Aİ, Danimarka, İslandiya, Norveç və İsveçrə tərəfindən imzalanıb.

434 "Mülki və kommersiya hüququ işlərində məhkəmə yurisdiksiyasının müəyyənləşdirilməsi,

məhkəmə proseslərində çıxarılan qərarlara şamil olunur.

## Perspektivli praktika

**Məhkəmə qərarlarının səmərəli icrası**

İsveçdə borcların ödənişi İsveç məhkəmə qərarlarınıın icrası orqanı (SEA) tərəfindən təmin edilir. Kreditor borcun ödənişinin təmin edilməsi üçün ərizə ilə müraciət edir. Ərizəyə bütün zəruri sənədlər əlavə olunubsa, SEA borcluya borc barəsində bildiriş göndərir və borcu ödəməsi və ya borca etiraz etməsi üçün ona iki həftə vaxt verir. Borclu ödəniş etmədikdə məcburi icra proseduru başlaya bilər. SEA borcun yönəldilə biləcəyi əmlakın axtarışını həyata keçirir (məsələn, torpaq reyestri, şirkətlərin reyestri və ya vergi hesabatları vasitəsilə). Borclu öz əmlakı barədə məlumat təqdim etməlidir və ona həmin əmlak barədə suallar verilə bilər. Həmçinin üçüncü tərəflər də borclunun əmlakı barədə məlumat təqdim etməlidirlər, amma bu məsələ üçüncü tərəflərin öz ixtiyarındadır. SEA məlumatları qiymətləndirir və borcluya mümkün qədər az zərər dəyməsi şərti ilə onun borcunu həmin borcun dəyərini ödəyə biləcək əmlaka yönəldir. Əgər borc öhdəliyi bank hesabındakı pula yönəldilibsə, pul bir neçə gün ərzində SEA-nın hesabına köçürülür və sonra kreditorlar arasında bölüşdürülür.

*Mıənbə: İsveç məhkəmə qərarlarınıın icrası orqanı, www.kronofogden.se saytı.*

həmin işlər üzrə məhkəmə qərarlarının tanınması və icrasının təmin edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 12 dekabr 2012-ci il tarixli 1215/2012 saylı reqlamenti (yenilənmiş versiya), OJ 2012 L351. Danimarka bu sənədə qoşulmayıb.

# 7

# Ədalət mühakiməsinə çatıma qoyulan məhdudiyyətlər: məhkəmə prosesinin müddəti



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Qanuni məqsəd və mütənasiblik | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br><br>Fundamental hüquqlar haqqında Xartiya, 41-ci maddə (yaxşı idarəçilik hüququ) | **Prosesin müddətinin** | AİHK, 6-cı maddənin 1-ci bəndi (ədalətli məhkəmə araşdırması hüququ) |
| | **Qeyri-cinayət prosesi** | AİHM, Orşuş və başqaları Xorvatiyaya qarşı [BP], ərizə № 15766/03, 2010 |
| | **Cinayət prosesi** | AİHM, Malkov Estoniyaya qarşı, ərizə № 31407/07, 2010 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Prosesin ağlabatan müddətdə aparılıb-aparılmaması | | |
| AİƏM, C-500/10,Ufficio IVA di Piacenza v. Belvedere Costruzioni Srl., 2012 | **Ağlabatan müddətin-müəyyənləş dirilməsinin meyarları** | AİHM, Starokadomski Rusiyaya qarşı (№ 2), ərizə № 27455/06, 2014 |
| | **İşin mürəkkəbliyi** | AİHM, Maton Polşaya qarşı, ərizə № 30279/07, 2009 |
| | **Ərizəçinin davranışı** | AİHM, Vəliyev Rusiyaya qarşı, ərizə № 24202/05, 2010 |
| | **Dövlət orqanlarının davranışı** | AİHM, “Sociedade de Construções Martins & Vieira, Lda.” və başqaları Portuqaliyaya qarşı, ərizələr № 56637/10 və s., 2014 |
| | **Nəzərdən keçirilən hüququn mühümlüyü** | AİHM, Mikuliç Xorvatiyaya qarşı, ərizə № 53176/99, 2002 |
| Prosesin həddən artıq uzun sürməsinə qarşı hüquqi müdafiə vasitələri | | |
| AİƏM, C-58/12 P, Groupe Gascogne SA v. European Commission, 2013 | **ayət prosesi** | AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 2006 |

Məhkəmə prosesinin ağlabatan müddətdə yekunlaşması hüququ həm qeyri-cinayət, həm də cinayət prosesində əsas insan hüququ hesab edilir. Bu fəsildə prosesin müddətinin müəyyənləşdirilməsinə və həmin müddətin ağlabatan olub-olmadığının təyin edilməsinə dair Avropa Şurası və Avropa İttifaqı hüququnun müddəaları ətraflı nəzərdən keçirilir. 7.3-cü bölmədə prosesin həddən artıq uzun sürməsinə qarşı hüquqi müdafiə vasitələrindən bəhs edilir.

## 7.1. Prosesin müddətinin müəyyənləşdirilməsi

### Əsas məqamlar

- Ağlabatan müddətdə məhkəmə araşdırması hüququ həm AİHK-ın 6-cı maddəsi ilə, həm də Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi ilə təmin edilir.
- Məhkəmə prosesinin ağlabatan müddətdə yekunlaşıb-yekunlaşmadığına dair qərar verərkən bütövlükdə prosesin müddəti nəzərə alınır.
- Qeyri-cinayət işlərində adətən müddətin axımı məhkəmədə iş açıldığı andan başlayır.
- Cinayət işlərində müddətin axımı isə adətən şəxsə qarşı "ittiham" irəli sürüldüyü andan başlayır. Bu o deməkdir ki, müddətin axımı prosesin şəxsin durumuna (hüquqi vəziyyətinə) "əhəmiyyətli dərəcədə təsir göstərdiyi" andan başlayır.
- Həm cinayət, həm də qeyri-cinayət işlərində müddətin axımı iş üzrə yekun qərar çıxarıldığı anda (qərardan şikayət vermənin daha mümkün olmadığı andan etibarən) başa çatır.

### Perspektivli praktika

**Ailə işlərinin icraatının sürətləndirilməsi**

Almaniyanın ailə işləri üzrə məhkəmələri və Berlin Vəkillər Kollegiyası ailə işləri üzrə məhkəmə proseslərini sürətləndirmək üçün Berlində uğurlu birgə layihə həyata keçiriblər. Layihə prosesin uzun sürməsinin və məsələn, tərəflər arasında mümkün münaqişənin qarşısını alır. Layihə çərçivəsində müxtəlif sahələrin peşəkarlarını (vəkilləri, sosial işçiləri və hakimləri) əhatə edən ardıcıl və çoxsahəli yanaşma tətbiq edilir, valideynlərin öz uşaqlarının tələbatlarını müəyyənləşdirmələrinə və ödəmələrinə köməklik üçün birgə müdaxilələr həyata keçirilir və işlər daha səmərəli həll olunur.

*Mənbə: Ədalət mühakiməsinin büllur tərəzisi mükafatı – 2014, Avropa Şurası və Avropa İttifaqı Komissiyası tərəfindən birgə təşkil edilən mükafatlandırma..*

Ağlabatan müddətdə məhkəmə araşdırması hüququ AİHK-ın 6-cı maddəsində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində əks olunub. Bu hüququn mühümlüyünə baxmayaraq, məhkəmə araşdırmalarının uzun sürməsi AİHM-ə verilən şikayətlər ərizələrində ən çox qaldırılan məsələdir.[435]

435 Avropa Şurası, Nazirlər Komitəsi (2010), Məhkəmə icraatının həddən artıq uzun sürməsinə qarşı

Prosesin ağlabatan müddətdə başa çatması tələbi "məhkəmə prosesindəki bütün tərəflərə şamil olunur və onun məqsədi prosedurların həddindən artıq gecikdirilməsinə qarşı müdafiəni təmin etməkdir".[436] Həddindən artıq ləngimələr qanunun aliliyinə riayət edilməsinə xələl gətirə və ədalət mühakiməsinə çatımın qarşısını ala bilər. Məhkəmə qərarlarının qəbul edilməsinin və icrasının yubadılması ədalət mühakiməsinə aparan yolda prosessual maneə təşkil edə bilər (6.3-cü bölməyə bax). Dövlətlər öz hüquq sistemlərini elə təşkil etməlidir ki, onların məhkəmələri işləri ağlabatan müddətdə həll etmək öhdəliyini yerinə yetirə bilsinlər.[437] İşə ağlabatan müddətdə baxılmaması səmərəli hüquqi müdafiə vasitələri hüququnun yaranmasına səbəb olur (7.3-cü bölməyə bax).[438] Dövlətlər məhkəmə icraatının həddən artıq uzun sürməsinə qarşı fərdlərin hüquqi müdafiə vasitələrindən istifadə edə bilmələri üçün konkret hüquqi imkanları təmin etməlidirlər, bunun təmin edilməməsi ayrılıqda götürülmüş 13-cü maddənin pozuntusunu təşkil edir.[439]

Nə AŞ, nə də Aİ hüququnda "ağlabatan müddət" hesab edilə bilən konkret müddət müəyyən edilməyib. Bu məsələ fərdi qaydada və işin bütün konkret halları nəzərə alınmaqla qiymətləndirilir. Bu qiymətləndirmə AİHM tərəfindən onun presedent hüququnda müəyyən edilən meyarlar əsasında aparılır və həmin meyarlar AİƏM tərəfindən də tətbiq edilir. Prosesin həddən artıq uzun sürüb-sürmədiyini müəyyənləşdirərkən AİHM əvvəlcə nəzərə alnmalı olan müddəti müəyyənləşdirir. Sonra o, həmin müddətin ağlabatan olub-olmadığını nəzərdən keçirir (aşağıda 7.2-ci bölməyə bax).[440] 1-ci fəsildə (xüsusilə sxemdə) Fundamental hüquqlar haqqında Aİ Xartiyasında və AİHK-da yer alan hüquqlar arasında əlaqə əks olunub, məhz bu əlaqə səbəbindən AŞ hüququnun aşağıda qeyd edilən müddəaları Xartiyanın 47-ci maddəsinin vasitəsilə Aİ hüququnda da tətbiq edilir.

Məhkəmə araşdırmasının ağlabatan müddətdə aparılması prinsipi Aİ daxilində aparılan inzibati prosedurlar kontekstində də tətbiq edilir.[441] Bu fikir Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 41-ci maddəsində də öz əksini tapıb, belə ki, həmin maddə bütün vətəndaşlara Aİ orqanlarında və təsisatlarında işlərinin qərəzsiz və ədalətli şəkildə və ağlabatan müddətdə həll edilməsi hüququnu verir.

---

səmərəli hüquqi müdafiə vasitələri ilə bağlı üzv dövlətlərə Rec(2010)3 saylı tövsiyə, 24 fevral 2010-cu il. Həmçinin bax: Avropa Şurası, Avropa İnsan Hüquqları Məhkəməsinin Katibliyi, İllik hesabat, 2014-cü il, səh. 174-175.

436 AİHM, Stoqmüller Avstriyaya qarşı, ərizə № 1602/62, 10 noyabr 1969-cu il, 5-ci bənd.

437 AİHM, Skuderi İtaliyaya qarşı, ərizə № 12986/87, 24 avqust 1993-cü il, 16-cı bənd. AİHM, Yama Sloveniyaya qarşı, ərizə № 48163/08, 19 iyul 2012-ci il, 36-cı bənd.

438 Avropa Şurası, Nazirlər Komitəsi (2010), Rec (2010)3 saylı tövsiyə. Həmçinin bax: Avropa Şurası, CEPEJ (2012), Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən Avropa Şurasına üzv olan dövlətlərdə məhkəmə proseslərinin müddəti. Hesabatlarda "ağlabatan müddətlə" bağlı presedent hüququnun əsas prinsipləri müəyyənləşdirilir və dəyərləndirilir.

439 AİHM, Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il, 159-160-cı bəndlər.

440 AİHM, Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il, 124-cü bənd.

441 Həmçinin bax: AİƏM, T-214/06, Imperial Chemical Industries Ltd v. European Commission, 5 iyun 2012-ci il, 284-cü bənd.

### 7.1.1. Qeyri-cinayət prosesinin müddətinin müəyyənləşdirilməsi

Qeyri-cinayət işlərində adətən müddətin axımı məhkəmədə iş açıldığı andan başlayır.[442] Lakin bəzən müddətin axımı məhkəmə icraatının başlanmasından əvvəl başlaya bilər.[443] Bu yalnız müstəsna hallarda, məsələn, icraatın başlanmasına qədər müəyyən ilkin addımların atılması zəruri olduqda baş verir.[444] Məsələn, ərizəçi məhkəmədə iş qaldırmazdan əvvəl inzibati orqana müraciət etməlidirsə, o halda nəzərə alınmalı olan ümumi müddətə həmin müddət daxil edilə bilər.[445] Nəzərə alınmalı olan müddət bütövlükdə icraatın ümumi müddətini əhatə edir, buraya apellyasiya icraatının müddəti də daxildir.[446]

Müddətin axımı iş üzrə yekun qərar çıxarıldığı anda başa çatır (iş üzrə qərar çıxarıldıqdan sonra ziyanın qiymətləndirilməsi prosesi də buraya daxildir).[447] AİHM prosesin müddətinin ağlabatan olub-olmadığını müəyyənləşdirərkən prosesi bütöv halda nəzərə alır.[448] İcraatın başa çatdığı ana gəlincə, məhkəmə qərarının icrası və ya məcburi icra prosedurları müvafiq müddətin hesablanması məqsədləri üçün işin ayrılmaz tərkib hissəsi sayılır.[449]

Nümunə: *Orşuş və başqaları Xorvatiyaya qarşı* məhkəmə işində[450] ərizəçilər 1996-cı və 2000-ci illər arasında iki ibtidai məktəbə getmiş qaraçı mənşəli 15 şagird idi. Onlar müəyyən vaxtlarda yalnız qaraçılar üçün keçilən dərslərdə iştirak edirdilər. 19 aprel 2002-ci ildə onlar məktəblərə qarşı iddia qaldıraraq irqi mənsubiyyət əsasında ayrı-seçkiliyə məruz qaldıqlarını və təhsil hüquqlarının pozulduğunu iddia etdilər. 2002-ci ilin sentyabrında məhkəmə onların şikayətini rədd etdi və bu qərar apellyasiya məhkəməsi tərəfindən qüvvədə saxlanıldı. 7 fevral 2007-ci ildə Konstitusiya Məhkəməsi ərizəçilərin şikayətini rədd etdi. Onlar məhkəmə prosesinin həddən artıq uzun sürməsindən AİHM-ə şikayət etdilər.

AİHM qeyd etdi ki, məhkəmə prosesi 19 aprel 2002-ci ildə başlayıb və bələdiyyə və dairə məhkəmələrindəki icraatdan sonra 7 fevral 2007-ci ildə Konstitusiya Məhkəməsinin qərar qəbul etməsi ilə başa çatıb. AİHM qərara aldı ki, birinci instansiya və apellyasiya məhkəmələrində işin həlli sürətlə həyata keçirilsə də, Konstitusiya Məhkəməsində icraat dörd il bir ay 18 gün davam edib. AİHM bu qənaətə gəldi ki, AİHK-ın 6-cı maddəsi (1-ci bənd) pozulub.

Konstitusiya məhkəmələrində icraatların müddətinə gəlincə, AİHM onların

442 AİHM, Poyss Avstriyaya qarşı, ərizə № 9816/82, 23 aprel 1987-ci il, 50-ci bənd.
443 AİHM, Qolder Birləşmiş Krallığa qarşı, ərizə № 4451/70, 21 fevral 1975-ci il, 32-ci bənd.
444 AİHM, Bleyk Birləşmiş Krallığa qarşı, ərizə № 68890/01, 26 sentyabr 2006-cı il, 40-cı bənd.
445 AİHM, Köniq Almaniyaya qarşı, ərizə № 6232/73, 28 iyun 1978-ci il, 98-ci bənd.
446 AİHM, Poyss Avstriyaya qarşı, ərizə № 9816/82, 23 aprel 1987-ci il, 50-ci bənd.
447 AİHM, Ginço Portuqaliyaya qarşı, ərizə № 8990/80, 10 iyul 1984-cü il.
448 AİHM, Dobberten Fransaya qarşı, ərizə № 13089/87, 25 fevral 1993-cü il, 44-cü bənd.
449 AİHM, Martinş Moreyra Portuqaliyaya qarşı, ərizə № 11371/85, 26 oktyabr 1988-ci il, 44-cü bənd.
450 AİHM, Orşuş və başqaları Xorvatiyaya qarşı [BP], ərizə № 15766/03, 16 mart 2010-cu il.

“Konstitusiyanın qoruyucusu” qismində xüsusi rolunu nəzərə alır.[451] Məhkəmə icraatının müddətinin ağlabatan olub-olmadığının qiymətləndirilməsi zamanı konstitusiya məhkəməsindəki icraatın müddətinin nəzərə alınmalı olub-olmadığını müəyyənləşdirərkən aydınlaşdırmaq lazımdır ki, həmin məhkəmədəki icraatın nəticəsi ümumi məhkəmələrdə baxılaraq həll edilmiş mübahisənin nəticəsinə təsir göstərə bilərmi?[452]

İddiaçı vəfat etdikdə və digər şəxs iddiaçının vərəsəsi qismində icraatı davam etdirmək niyyətində olduğunu bildirdikdə, icraatın müddətini müəyyənləşdirmək üçün proses bütöv halda nəzərə alına bilər.[453] Şəxs prosesə yalnız öz adından üçüncü tərəf qismində qatıldıqda isə, əksinə, həmin şəxs üçün müddətin axımı onun prosesə qatıldığı tarixdən başlayır.[454]

## 7.1.2. Cinayət prosesinin müddətinin müəyyənləşdirilməsi

Cinayət prosesində ağlabatan müddət tələbi “təqsirləndirilən şəxslərin onlara qarşı irəli sürülən cinayət ittihamlarının nəticəsi ilə bağlı uzun müddət qeyri-müəyyən vəziyyətdə qalmamalarını” təmin etmək məqsədini daşıyır.[455] Cinayət işlərində müddətin axımı şəxsin “ittiham edildiyi” andan başlayır.[456] Bu o deməkdir ki, müddətin axımı prosesin təqsirləndirilən şəxsin durumuna (hüquqi vəziyyətinə) “əhəmiyyətli dərəcədə təsir göstərdiyi” andan başlayır.[457] Qeyd etmək lazımdır ki, müddətin axımı işin birinci instansiya məhkəməsinə göndərilməsindən əvvəl, məsələn, şəxsin tutulduğu[458] və ya ibtidai istintaqın başlandığı[459] andan etibarən başlaya bilər.

Nümunə: *Malkov Estoniyaya qarşı* məhkəmə işində[460] ərizəçi 2008-ci ildə taksi sürücüsünü qətlə yetirdiyinə görə məhkum edilmişdi. Cinayət işinin istintaqı 6 avqust 1998-ci ildə başlanmışdı. Ərizəçi prosesin həddən artıq uzun sürməsindən şikayət etdi.

AİHM bir daha bildirdi ki, cinayət işlərində müddətin axımı şəxsin “ittiham edildiyi” andan başlayır ki, bu da işin məhkəməyə göndərilməsindən əvvəl baş verə bilər. “İttiham” termini şübhəli şəxsin hüquqi vəziyyətinə aydınlıq gətirilməsini bildirir. Bu işdə Məhkəmə müddətin başlanğıc günü kimi 17 avqust 2001-ci il tarixini, yəni polis müstəntiqi tərəfindən ərizəçiyə qarşı ittiham sənədinin tərtib edildiyi və onun barəsində axtarış elan edildiyi tarixi qəbul etdi. Prosesin bitmə tarixi

451 Yenə orada, 109-cu bənd.
452 AİHM, Züssmann Almaniyaya qarşı [BP], ərizə № 20024/92, 16 sentyabr 1996-cı il, 39-cu bənd.
453 AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il, 220-ci bənd.
454 Yenə orada.
455 AİHM, Vemhoff Almaniyaya qarşı, ərizə № 2122/64, 27 iyun 1968-ci il, 18-ci bənd.
456 AİHM, Tıçko Rusiyaya qarşı, ərizə № 56097/07, 11 iyun 2015-ci il, 63-cü bənd.
457 AİHM, Ekle Almaniyaya qarşı, ərizə № 8130/78, 15 iyul 1982-ci il.
458 AİHM, Vemhoff Almaniyaya qarşı, ərizə № 2122/64, 27 iyun 1968-ci il, 19-cu bənd.
459 AİHM, Rinqayzen Avstriyaya qarşı, ərizə № 2614/65, 16 iyul 1971-ci il, 110-cu bənd.
460 AİHM, Malkov Estoniyaya qarşı, ərizə № 31407/07, 4 fevral 2010-cu il.

22 aprel 2009-cu ilə, yəni Ali Məhkəmə tərəfindən ərizəçinin şikayətinin rədd edildiyi günə təsadüf edirdi. Ümumilikdə proses üç məhkəmə instansiyasında yeddi il səkkiz ay ərzində davam etmişdi. Prosesə həddən artıq uzun vaxt sərf edilmişdi ki, bu da AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) tələblərini pozmuşdu. Bu nöqsan ərizəçinin cəza müddətinin azaldılması yolu ilə aradan qaldırılmışdı.

Ağlabatan müddət tələbi apellyasiya icraatı da daxil olmaqla bütün prosesə şamil olunur.[461] Beləliklə, müddətin axımı təqsirlilik məsələsini həll edən hökmün qəbulunadək davam edir; bu, işin mahiyyəti üzrə apellyasiya məhkəməsinin çıxardığı qərar ola bilər.[462] Cinayət ittihamı ilə bağlı təqsirlilik məsələsi yalnız hökm qüvvəyə mindiyi anda "həll edilmiş" sayılır.[463] Məhkəmə qərarının icrası 6-cı maddənin məqsədləri üçün məhkəmə araşdırmasının ayrılmaz tərkib hissəsi sayılır; buraya bəraət hökmünün icrası da daxildir.[464]

## 7.2. Prosesin müddətinin ağlabatan olub-olmadığını müəyyənləşdirmək üçün meyarlar

### Əsas məqamlar

- Cinayət və qeyri-cinayət proseslərinin müddətinin ağlabatan olub-olmaması hər bir işin konkret hallarından asılıdır.
- Cinayət və qeyri-cinayət proseslərinin müddətinin ağlabatan olub-olmadığını qiymətləndirmək üçün aşağıdakı dörd meyardan istifadə olunur: işin mürəkkəbliyi; şikayətçinin davranışı; dövlət orqanlarının davranışı; və işin ərizəçi üçün nə dərəcədə önəmli olması.

Prosesin həddən artıq uzun sürüb-sürmədiyinin müəyyənləşdirilməsinə yanaşma "nəzəri" xarakter daşımaqdan daha çox, "praqmatik" xarakter daşımalıdır.[465] AŞ və Aİ hüququna əsasən, həm cinayət, həm də qeyri-cinayət proseslərində icraatın müddətinin ağlabatan olub-olmaması hər bir işin konkret hallarından asılıdır.[466]

Cinayət və qeyri-cinayət proseslərinin müddətinin ağlabatan olub-olmadığını qiymətləndirmək üçün aşağıdakı dörd meyardan istifadə olunur:

i) işin mürəkkəbliyi;

461 AİHM, Köniq Almaniyaya qarşı, ərizə № 6232/73, 28 iyun 1978-ci il, 98-ci bənd.
462 AİHM, Noymayster Avstriyaya qarşı, ərizə № 1936/63, 27 iyun 1968-ci il, 19-cu bənd.
463 AİHM, Ekle Almaniyaya qarşı, ərizə № 8130/78, 15 iyul 1982-ci il, 77-ci bənd.
464 AİHM, Assanidze Gürcütstana qarşı [BP], ərizə № 71503/01, 8 aprel 2004-cü il, 181-182-ci bəndlər.
465 AİƏM-in Baş vəkili Şarpstonun rəyi, C-58/12, Groupe Gascogne SAv. European Commission, 30 may 2013-cü il, 72-73-cü bəndlər.
466 AİHM, Köniq Almaniyaya qarşı, ərizə № 6232/73, 28 iyun 1978-ci il, 110-cu bənd.

ii) şikayətçinin davranışı;

iii) dövlət orqanlarının davranışı;

iv) işin ərizəçi üçün nə dərəcədə önəmli olması (7.2.1-7.2.4-cü bölmələrə bax).[467]

Bu meyarları tətbiq edərkən AİHM, məsələn, cinayət prosesinin 10 il[468] və 13 il[469] davam etməsini ağlabatan müddət hesab etməyib. O həmçinin mülki prosesin 10 il[470] və intizam icraatının 7 il[471] davam etməsini ağlabatan müddət hesab etməyib. Məhkəmə işləri bir sıra məhkəmə instansiyalarından keçə bilər (məsələn, apellyasiya şikayətinin verilməsi yolu ilə). Müddətin ağlabatan olub-olmadığı nəzərdən keçirilərkən bu amil nəzərə alınır. Müddətin ağlabatan olub-olmaması ilə bağlı qərar verərkən hər bir instansiyada yol verilən ləngimələrin nəticələri məcmu halında nəzərə alır.[472]

Lakin prosesin operativliyi ilə ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi arasında balansa nail olunmalıdır. Məsələn, işin tezliklə həll olunmasının zəruriliyi təqsirləndirilən şəxsi müdafiə hüquqlarından məhrum etməməlidir (şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxt və imkana malik olması barədə 4.2.4-cü bölməyə bax).[473]

Nümunə: *Starokadomski Rusiyaya qarşı* (№ 2) məhkəmə işində[474] ərizəçi 1998-ci ilin fevralında ağırlaşdırıcı hallarla adam öldürməkdə ittiham olunurdu. Sonradan o, bir neçə digər şübhəli şəxs ilə birlikdə başqa zorakı cinayətlərə görə də təqsirləndirildi. 2004-cü ilin noyabrında o, bir sıra cinayətlərə, o cümlədən qətl törətmək üçün sövdələşməyə görə məhkum edildi. Onun barəsindəki ittiham hökmü apellyasiya məhkəməsi tərəfindən qüvvədə saxlanıldı və o, yekunda 2005-ci ilin noyabrında on il müddətinə azadlıqdan məhrum edildi. Ərizəçi şikayət etdi ki, cinayət prosesi ağlabatan müddət ərzində keçirilməyib.

Bu işdə ölkədaxili məhkəmə tərəfindən prosesin müddətinin əsaslandırıldığını göstərən heç nə yox idi. 6-cı maddə məhkəmə icraatının ağlabatan müddətdə yekunlaşmasını tələb edir, lakin həm də daha ümumi prinsip olan ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi prinsipini təsbit edir. Bu işdə Məhkəmə dövlət orqanları tərəfindən bu əsas tələbin müxtəlif aspektləri arasında ədalətli balansın təmin edildiyinə əmin deyildi. Ərizəçi həbsdə idi, buna görə də həmin orqanların xüsusi səy göstərmələri tələb olunurdu. Məhkəmə AİHK-ın 6-cı maddəsinin (1-ci bənd) pozulduğunu müəyyən etdi.

467 Misal üçün bax: AİHM, Fridlender Fransaya qarşı [BP], ərizə № 30979/96, 27 iyun 2000-ci il, 43-xü bənd (məşğulluq).
468 AİHM, Milasi İtaliyaya qarşı, ərizə № 10527/83, 25 iyun 1987-ci il.
469 AİHM, Baggetta İtaliyaya qarşı, ərizə № 10256/83, 25 iyun 1987-ci il.
470 AİHM, Kapuano İtaliyaya qarşı, ərizə № 9381/81, 25 iyun 1987-ci il.
471 AİHM, Kinkses Macarıstana qarşı, ərizə № 66232/10, 27 yanvar 2015-ci il.
472 AİHM, Doymeland Almaniyaya qarşı, ərizə № 9384/81, 29 may 1986-cı il, 90-cı bənd.
473 AİHM, Boddaert Belçikaya qarşı, ərizə № 12919/87, 12 oktyabr 1992-ci il, 39-cu bənd.
474 AİHM, Starokadomski Rusiyaya qarşı (№ 2), ərizə № 27455/06, 13 mart 2014-cü il.

AİƏM eyni meyarları Avropa İttifaqının Ümumi yurisdiksiyalı məhkəməsindəki icraata tətbiq edib. [475] AİƏM həmçinin qərara alıb ki, Aİ qarşısındakı hüquqi öhdəliklər üzv dövlətlərin ağlabatan müddət prinsipinə riayət etməməsinə haqq qazandırmır.

Nümunə: *Ufficio IVA di Piacenza v. Belvedere Costruzioni Srl* məhkəmə işində[476] İtaliya qanunvericiliyində nəzərdə tutulmuşdu ki, vergi işləri üzrə üçüncü instansiya məhkəməsinin icraatında olan, on ildən artıq öncə birinci instansiya məhkəməsində qaldırılan müəyyən vergi məsələləri üzrə məhkəmə işi avtomatik olaraq bağlanmalıdır. Bu, Aİ qanunvericiliyinə uyğun hesab edildi.

AİƏM qeyd etdi ki, Avropa İttifaqı vəsaitlərinin səmərəli şəkildə toplanmasını təmin etmək öhdəliyi Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsindən və AİHK-ın 6-cı maddəsindən (1-ci bənd) irəli gələn prinsipə, yəni məhkəmə qərarının ağlabatan müddətdə qəbul edilməsi prisnipinə riayət etmək öhdəliyi ilə ziddiyyət təşkil edə bilməz.

## 7.2.1. İşin mürəkkəbliyi

İşin mürəkkəbliyi həm faktlara, həm də hüquqi məsələlərə aiddir. Mürəkkəb iş aşağıdakılarla bağlı məsələləri özündə ehtiva edə bilər: ərizəçinin sağlamlıq durumu,[477] dəlillərin çoxluğu,[478] mürəkkəb hüquqi məsələlər,[479] çoxlu sayda şahidləri dindirmək zərurəti,[480] yaxud araşdırılan məsələnin çoxlu sayda insanlara təsir göstərməsi.[481] Bəzi işlər, məsələn, həm cəmiyyətin, həm də fərdin maraqlarına aid olan işlər xarakterinə görə daha mürəkkəb görünə bilər.[482] Lakin işin sadəcə olaraq çox mürəkkəb hesab edilməsi o demək deyil ki, prosesdəki bütün ləngimələr əsaslı hesab ediləcək.[483]

Nümunə: *Maton Polşaya qarşı* məhkəmə işində[484] 19 iyun 2000-ci ildə ərizəçi narkotik alverində, qanunsuz olaraq odlu silah saxlamaqda və mütəşəkkil cinayətkar dəstənin üzvü olmaqda ittiham edilmişdi. İşdə 36 müttəhim və 147 şahid vardı. Ərizəçi 2008-ci ildə məhkum edildi. O, hökmdən regional məhkəməyə apellyasiya şikayəti verdi, AİHM-də bu iş üzrə dinləmə keçirilərkən həmin

475 AİƏM, C-58/12 P, Groupe Gascogne SA v. European Commission, 26 noyabr 2013-cü il, 82-88-ci bəndlər.
476 AİƏM, C-500/10, Ufficio IVA di Piacenza v. Belvedere Costruzioni Srl., 29 mart 2012-ci il, 23-cü bənd.
477 AİHM, Yaikov Rusiyaya qarşı, ərizə № 39317/05, 18 iyun 2015-ci il, 76-cı bənd.
478 AİHM, Ekle Almaniyaya qarşı, ərizə № 8130/78, 15 iyul 1982-ci il.
479 AİHM, Braynsberger və Ventselhümer Avstriyaya qarşı, ərizə № 46601/07, 27 noyabr 2012-ci il, 30-33-cü bəndlər.
480 AİHM, Mitev Bolqarıstana qarşı, ərizə № 40063/98, 22 dekabr 2004-cü il, 99-cu bənd.
481 AİHM, Papaxelas Yunanıstana qarşı [BP], ərizə № 31423/96, 25 mart 1999-cu il, 39-cu bənd (faktların mürəkkəbliyi).
482 AİHM, Vizinger Avstriyaya qarşı, ərizə № 11796/85, 30 oktyabr 1991-ci il, 55-ci bənd.
483 AİHM, Ferrantelli və Santangelo İtaliyaya qarşı, ərizə № 19874/92, 7 avqust 1996-cı il, 42-ci bənd. Həmçinin bax: AİHM, Rinqayzen Avstriyaya qarşı, ərizə № 2614/65, 16 iyul 1971-ci il, 110-cu bənd.
484 AİHM, Maton Polşaya qarşı, ərizə № 30279/07, 9 iyun 2009-cu il.

şikayətə hələ baxılmamışdı. O, həmçinin apellyasiya məhkəməsinə ağlabatan müddətdə məhkəmə araşdırması hüququnun pozulmasından şikayət etmişdi. Həmin məhkəmə onun şikayətini rədd etmişdi.

AİHM qəbul etdi ki, iş çox mürəkkəb idi və çoxlu sayda müttəhimləri və iri həcmli sübutları əhatə edirdi. Bununla belə, o bildirdi ki, bu bütövlükdə cinayət prosesinin uzun sürməsinə özü-özlüyündə haqq qazandıra bilməz. Hətta dövlət hakimiyyəti orqanlarının əhəmiyyətli çətinliklərlə üzləşdikləri nəzərə alınsa belə, onların məhkəmə araşdırmasını səmərəli şəkildə təşkil etmələri və AİHM-də yer alan təminatlara riayət edilməsini təmin etmələri tələb olunurdu. Cinayət prosesinin səkkiz ildən artıq davam etməsi ağlabatan müddət tələbinə uyğun sayıla bilməzdi. Bu işdə AİHK-ın 6-cı maddəsi pozulmuşdu.

Beləliklə, baxmayaraq ki, mürəkkəb işlərin yekunlaşdırılmasına daha çox vaxt tələb oluna bilər, işin mürəkkəbliyi heç də bütün hallarda prosesin uzun sürməsinə haqq qazandırmır.[485]

## 7.2.2. Ərizəçinin davranışı

Ərizəçinin davranışı prosesin dövlət tərəfindən nəzarət edilə bilməyən obyektiv xüsusiyyətidir. Buna görə də, prosesin müddətinin ağlabatan həddi keçib-keçmədiyini müəyyələnşdirərkən onun davranışı nəzərə alınmalıdır.[486]

Fərdlər öz hüquqlarını həyata keçirdiklərinə və ya sərəncamlarında olan bütün apellyasiya imkanlarından istifadə etdiklərinə görə qınana bilməzlər.[487] Ərizəçilər onlara qarşı aparılan prosesdə akiv əməkdaşlıq etməyə borclu deyillər.[488] Ərizəçinin vəzifəsi iş üzrə mövqeyini vicdanla müdafiə etmək, prosesi gecikdirmə taktikalarından istifadə etməkdən çəkinmək və prosesin müddətinin qısalması üçün sərəncamında olan imkanlardan istifadə etməkdir.[489]

Nümunə: *Vəliyev Rusiyaya qarşı* məhkəmə işində[490] ərizəçi çoxsaylı mütəşəkkil silahlı quldurluq əməllərində iştirakda şübhəli bilinmiş və 26 fevral 2004-cü ildə tutularaq həbsdə saxlanılmışdı. Birinci instansiya məhkəməsinin qərarı 21 iyun 2006-cı ildə qəbul edilmişdi. İttiham hökmü apellyasiya məhkəməsi tərəfindən təsdiqlənmişdi. Hökumət iddia edirdi ki, prosesin uzanmasının səbəbi təqsirləndirilən şəxslərin bilərəkdən etdikləri hərəkətlər, materialların rus

485 Avropa Şurası, CEPEJ (2012), Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən Avropa Şurasına üzv olan dövlətlərdə məhkəmə proseslərinin müddəti, səh. 20.
486 AİHM, Wiesinger v. Austria, Wizinger Avstriyaya qarşı, ərizə № 11796/85, 30 oktyabr 1991-ci il, 57-ci bənd.
487 AİHM, Qubkin Rusiyaya qarşı, ərizə № 36941/02, 23 aprel 2009-cu il, 167-ci bənd. Həmçinin bax: AİHM, Moiseyev Rusiyaya qarşı, ərizə № 62936/00, 9 oktyabr 2008-ci il, 192-ci bənd.
488 AİHM, Ekle Almaniyaya qarşı, ərizə № 8130/78, 15 iyul 1982-ci il, 82-ci bənd.
489 AİHM, “Union Alimentaria Sanders SA” İspaniyaya qarşı, ərizə № 11681/85, 7 iyul 1989-cu il, 35-ci bənd.
490 AİHM, Vəliyev Rusiyaya qarşı, ərizə № 24202/05, 24 iyun 2010-cu il.

dilindən azərbaycan dilinə tərcümə edilməsi və bəzi hallarda ərizəçinin, digər təqsirləndirilən şəxslərin və vəkillərin xəstələnməsidir.

AİHM bir daha bildirdi ki, ərizəçi məhkəmə orqanları ilə fəal əməkdaşlığa məcbur edilə və sərəncamında olan ölkədaxili hüquqi müdafiə vasitələrindən tam istifadə etdiyinə görə tənqid edilə bilməz. Bu işdə ərizəçi prosesin həddən artıq uzun sürməsinə əhəmiyyətli dərəcədə şərait yaratmamışdı və prosesdəki müəyyən ləngimələrdə dövlət hakimiyyəti orqanlarını təqsirkar hesab etmək olardı. 6-cı maddə məhkəmə icraatının operativ şəkildə həyata keçirilməsini tələb edir və həmçinin ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi prinsipini təsbit edir. Dövlət hakimiyyəti orqanları bu fundamental tələbin müxtəlif aspektləri arasında ədalətli balansı təmin etməmiş və AİHK-ın 6-cı maddəsini pozmuşdular.

Fərdin prosesin ləngiməsinə gətirib çıxara biləcək davranışları sırasına ölkədən qaçması da daxildir. Buna görə də bir qayda olaraq, təqsirləndirilən şəxs yetərli əsas olmadan ölkədən qaçdıqdan sonra prosesin əsassız olaraq uzanmasından şikayət edə bilməz.[491] Ərizəçinin davranışından dövlət orqanlarının hərəkətsizliyinə haqq qazandırmaq üçün istifadə edilməməlidir.

## 7.2.3. Dövlət orqanlarının davranışı

Dövlətin təqsiri ucbatından baş verən ləngimələr nəzərə alınmalıdır,[492] amma onun təqsirkar olub-olmadığını nəzərdən keçirərkən diqqətli olmaq lazımdır. Məsələn, prosesdəki yubanma ilkin qərar çıxarılması üçün AİƏM-ə sorğu ilə müraciət etmənin nəticəsində baş veribsə, belə yubanmada dövlət təqsikar deyil.[493]

Dövlətlər öz hüquq sistemlərini elə təşkil etməlidir ki, onların məhkəmələri ağlabatan müddət ərzində yekun qərar çıxarılması hüququnu təmin edə bilsinlər.[494] Amma işin hazırlanmasına və məhkəmə araşdırmasının operativ şəkildə aparılmasına görə əsas məsuliyyət hakimin üzərinə düşür.[495] AİHM bu qənaətə gəlib ki, hakimin dəfələrlə dəyişdirilməsi “ədalət mühakiməsinin lazımi qaydada təşkil olunmasının təmin edilməsinə görə cavabdehlik daşıyan dövlətə” prosesin uzanması məsələsində “bəraət qazandıra bilməz”.[496] Eyinlə, “iş yükünün daima çox olması” prosesin həddən artıq uzun sürməsinə haqq qazandırmır.[497] Dövlət təkcə məhkəmələrə görə

491 AİHM, Vayiç Türkiyəyə qarşı, ərizə № 18078/02, 20 iyun 2006-cı il, 44-cü bənd.
492 AİHM, Buxholts Almaniyaya qarşı, ərizə № 7759/77, 6 may 1981-ci il, 49-cu bənd. Həmçini bax: AİHM, Yaqtzilar və başqaları Yunanıstana qarşı, ərizə № 41727/98, 6 dekabr 2001-ci il.
493 AİHM, Pafitis və başqaları Yunanıstana qarşı, ərizə № 20323/92, 26 fevral 1998-ci il, 95-ci bənd.
494 AİHM, Kokyarella İtaliyaya qarşı [BP], ərizə № 64886/01, 29 mart 2006-cı il, 119-cu bənd. Cinayət işi üçün bu mənbəyə bax: AİHM, Dobberten Fransaya qarşı, ərizə № 13089/87, 25 fevral 1993-cü il, 44-cü bənd.
495 AİHM, Kapuano İtaliyaya qarşı, ərizə № 9381/81, 25 iyun 1987-ci il, 30-31-ci bəndlər.
496 AİHM, Lexner və Hess Avstriyaya qarşı, ərizə № 9316/81, 23 aprel 1987-ci il, 58-ci bənd.
497 AİHM, Probstmayer Almaniyaya qarşı, ərizə № 20950/92, 1 iyul 1997-ci il, 64-cü bənd.

deyil, bütün dövlət orqanlarına görə cavabdehlik daşıyır.[498]

> Nümunə: *Sociedade de Construções Martins & Vieira, Lda. və başqaları Portuqaliyaya qarşı* məhkəmə işində[499] Portu prokurorluğu 17 sentyabr 1999-cu ildə ərizəçinin keçmiş maliyyə fəaliyyəti ilə bağlı araşdırmaya başlamışdı. Sonradan Portu və Barseluş cinayət məhkəmələrində ayrı-ayrı iki cinayət işi qaldırıldı. AİHM tərəfindən bu işə baxılarkən hər iki işin icraatı hələ də davam edirdi.
>
> AİHM qeyd etdi ki, həmin işlər üzrə icraatların müddəti artıq 14 ili ötüb. Ərizəçilərin prosesdə müttəhimə çevrildiyi 1999-cu ilin dekabrından onlara qarşı rəsmi ittihamların irəli sürüldüyü 2003-cü ilin aprelinə və noyabrına qədər təxminən dörd il ərzində heç bir prosessual hərəkət edilməmişdi. Məhkəmə iclasının vaxtı təyin edildikdən sonra 2003-cü ildən 2005-ci ilədək prosesdə daha iki illik yubanma baş vermişdi. Bu göstərirdi ki, daxili məhkəmələr ərizəçilərin işinə baxılmasında lazımi səy göstərməyiblər. Məhkəmə bildirdi ki, prosessual səmərəlilik baxımından daxili məhkəmələrin paralel aparılan icraatın nəticəsini gözləmələri məqsədəuyğun ola bilərdi, amma bu mütənasib olmalı idi, əks halda təqsirləndirilən şəxsləri uzun müddət qeyri-müəyyən vəziyyətdə saxlayacaqdı. Məhkəmə bu işdə AİHK-ın 6-cı maddəsinin pozulduğunu müəyyən etdi.

Müvəqqəti olaraq məhkəmənin iş yükünün çoxluğu səbəbindən prosesin yubanması dövlətin məsuliyyətini doğurmur, bu şərtlə ki, dövlət problemi həll etmək üçün operativ və münasib tədbir görmüş olsun.[500] İş yükü probleminin aradan qaldırılması üçün dövlət müvəqqəti tədbirlər görə bilər, məsələn, işlərə müəyyən növbəlilik qaydasında baxılması variantını seçə bilər.[501] Amma bu müvəqqəti tədbirlər səmərə verməzsə, dövlətlər problemin həlli üçün daha təsirli tədbirlər görülməlidirlər.[502] Dövlətlər öz məhkəmə sistemlərinin proseslərdə ləngimələrə yol verməməsini təmin etməyin yollarını axtarmalıdırlar.

---

498 AİHM, Martins Moreyra Portuqaliyaya qarşı, ərizə № 11371/85, 26 oktyabr 1988-ci il, 60-cı bənd.

499 AİHM, Sociedade de Construções Martins & Vieira, Lda. və başqaları Portuqaliyaya qarşı, ərizələr № 56637/10, 59856/10, 72525/10, 7646/11 və 12592/11, 30 oktyabr 2014-cü il.

500 AİHM, Probstmeier v. Germany, ərizə № 20950/92, 1 iyul 1997-ci il, 64-cü bənd. Həmçinin bax: Avropa Şurası, CEPEJ (2012), Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən Avropa Şurasına üzv olan dövlətlərdə məhkəmə proseslərinin müddəti, səh. 3.

501 AİHM, Simmermann and Ştayner İsveçrəyə qarşı, ərizə № 8737/79, 13 iyul 1983-cü il, 29-cu bənd. Həmçinin bax: AİHM, Rutkovski və başqaları Polşaya qarşı, ərizələr № 72287/10, 13927/11 və 46187/11, 7 iyul 2015-ci il, 207-210-ci bəndlər. Cinayət işi üçün bu mənbəyə bax: AİHM, Milasi İtaliyaya qarşı, ərizə № 10527/83, 25 iyun 1987-ci il, 18-ci bənd.

502 AİHM, Simmermann and Ştayner İsveçrəyə qarşı, ərizə № 8737/79, 13 iyul 1983-cü il, 29-cu bənd.

**Perspektivli praktika**

**Məhkəmə sisteminin istifadəçilərini dinləməklə prosesin müddətinin qısaldılması**

İsveçdə "Keyfiyyətli məhkəmə idarəçiliyi" layihəsi sayəsində apellyasiya və rayon məhkəmələrində icraatların müddətinin qısaldılmasında uğur əldə edilib. Layihə çərçivəsində məhkəmələrin idarə olunması barədə məhkəmə sistemi daxilindəki şəxslərin, yəni hakimlərin və məhkəmə personalının rəyləri öyrənilib. Həmçinin məhkəmələrlə təmasda olan şəxslərin, yəni müttəhimlərin, şahidlərin və vəkillərin rəyləri də öyrənilib. Bu dialoq araşdırmalar, sorğular və kiçik qruplarla iş vasitəsilə aparılıb. Məhkəmələr tərəfindən işlərə baxılmasınıın yaxşılaşdırılması barədə təkliflər həyata keçirilib və işlərin yekunlaşması üçün sərf olunan müddətin azalmasına səbəb olub.

*Mənbə: Carboni, N. (2014), 'From quality to access to justice: Improving the functioning of European judicial systems', Civil and Legal Sciences, Volume 3, Issue 4, p. 4.*

## 7.2.4. İşin ərizəçi üçün nə dərəcədə önəmli olması

İşin şikayətçi (ərizəçi) üçün nə dərəcədə önəmli olması prosesin müddətinin qiymətləndirilməsi zamanı nəzərə alınmalı olan digər bir meyardır. Təqsirləndirilən şəxs həbsdədirsə, prosesin müddəti məsələsinə daha ciddi standartlar şamil olunur və prosesin ləngiməməsi üçün dövlət orqanları tərəfindən "xüsusi səy" göstərilməsi tələb olunur.[503] Uşaqlarla və ya həyat üçün təhlükəli xəstəliklə bağlı işlərin daha tez həll edilməsi tələb olunur. [504]

**Perspektivli praktika**

**Prosesin tezləşdirilməsi**

Finlandiyanın Espoo şəhərində cinayət məhkəmələri "Cuko günləri" deyilən aksiya təşkil edirlər, belə ki, həmin günlərdə uşaqların işlərinə prioritet qaydada baxılır və işlərin növbəsində onların işləri birinci sıraya qoyulur. Bu, prosesin daha qısa sürməsi ilə və prosesdə iştirak edən uşaqların daha az stressə məruz qalması ilə nəticələnir.

*Mənbə: FRA (2015), Uşağın maraqlarını önə çəkən ədalət mühakiməsi – Aİ-yə üzv olan 10 dövlətdə mülki və cinayət mühakimə icraatlarında uşaqların iştirakı ilə bağlı perspektivlər və peşəkarların təcrübələri, səh. 35.*

503 AİHM, Yablonski Polşaya qarşı, ərizə № 33492/96, 21 dekabr 2000-ci il, 102-ci bənd. Həmçinin bax: AİHM, Çudun Rusiyaya qarşı, ərizə № 20641/04, 21 iyun 2011-ci il, 112-ci bənd.

504 AİHM, Hokkanen Finlandiyaya qarşı, ərizə № 19823/92, 23 sentyabr 1994-cü il, 72-ci bənd ("[uşaq] üzərində qəyyumluğa aid işlərin tez həll edilməsi önəmlidir"). Həmçinin bax: AİHM, X Fransaya qarşı, ərizə № 18020/91, 31 mart 1992-ci il, 45-ci bənd (bu işdə şəxsin ömrünün sonuna az qalması ilə əlaqədar olaraq onun işinə təcili şəkildə baxılmalı idi).

Məsələn, Beynəlxalq uşaq oğurluğunun mülki hüquqi aspektləri haqqında Konvensiya əsasında uşaqların Norveçə qaytarılmasına dair iddia ilə bağlı işdə AİHM yubanmaların faktiki olaraq işin nəticəsinə təsir göstərə biləcəyi bu tip proseslərdə vaxtın keçməsi amilinin "mühüm əhəmiyyət" daşıdığını vurğuladı.[505] Həmçinin yol-nəqliyyat qəzalarının qurbanları üçün kompensasiya məsələsinin həlli[506] və əmək mübahisələri[507] ilə bağlı proseslərdə ləngimələrin olmaması üçün xüsusi səy tələb olunur.

Nümunə: *Mikuliç Xorvatiyaya qarşı* məhkəmə işində[508] ərizəçi və anası H.P.-nin atalığı faktı barədə məhkəmədə iş qaldırmışdılar. 15 dəfə məhkəmə iclasının vaxtı təyin olunmuş, onlardan altısı H.P.-nin iclasa gəlməməsi səbəbindən təxirə salınmışdı. O, həmçinin DNT testinə gəlməkdən də daim boyun qaçırırdı. İş AİHM-in icraatına verildiyi anda proses artıq dörd il vaxt aparmışdı və hələ də davam edirdi.

İşdə 8-ci maddənin iddia edilən pozuntusu müzakirə olunsa da, AİHM bir daha bildirdi ki, vətəndaşlıq vəziyyətinə və mülki hüquq qabiliyyətinə aid işlərdə yubanmalara yol verilməməsi üçün xüsusi səy tələb olunur. İşin ərizəçi üçün nə dərəcədə önəmli olduğu və bioloji atasının kimliyi ilə bağlı qeyri-müəyyənliyin aradan qaldırılması üçün müvafiq şəxsin onun atası olması faktının təsdiq və ya təkzib edilməsi hüququna ərizəçinin malik olduğu nəzərə alınaraq, 6-cı maddə səlahiyyətli milli hakimiyyət orqanları tərəfindən xüsusi səy göstərilməsini tələb edirdi. Bu işdə AİHK-ın 6-cı maddəsi (1-ci bənd) pozulmuşdu.

## 7.3. Məhkəmə prosesinin həddən artıq uzun sürməsinə qarşı hüquqi müdafiə vasitələri

7-ci fəsildə icraatın ağlabatan müddətdə yekunlaşması hüququndan bəhs edilir.[509] Bu bölmədə məhkəmə prosesinin həddən artıq uzun sürməsi ilə bağlı hüquqi müdafiə vasitəsinin təmin edilməsi məsələsinə AİHM-in yanaşması nəzərdən keçirilir. Qeyd etmək lazımdır ki, dövlətlər məhkəmə prosesinin həddən artıq uzun

505 AİHM, Hoholm Slovakiyaya qarşı, ərizə № 35632/13, 13 yanvar 2015-ci il, 51-ci bənd.
506 AİHM, Martins Moreyra Portuqaliyaya qarşı, ərizə № 11371/85, 26 oktyabr 1988-ci il.
507 AİHM, Vokaturo İtaliyaya qarşı, ərizə № 11891/85, 24 may 1991-ci il, 17-cu bənd; AİHM, Bauer Sloveniyaya qarşı, ərizə № 75402/01, 9 mart 2006-cı il, 19-cu bənd. Əlavə səylər tələb edən işlərlə bağlı təfsilatlar üçün bu mənbəyə də bax: Avropa Şurası, CEPEJ (2012), Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən Avropa Şurasına üzv olan dövlətlərdə məhkəmə proseslərinin müddəti, səh. 3. Həmçinin bu mənbəyə də bax: Avropa Şurası (CEPEJ) (2013), Dövlətlərin apellyasiya və ali məhkəmələrində icraatların müddətləri.
508 AİHM, Mikuliç Xorvatiyaya qarşı, ərizə № 53176/99, 7 fevral 2002-ci il.
509 Müddətin ağlabatan olub-olmadığını müəyyənləşdirən amillər AİHM-in presedent hüququnda əks olunub; misal üçün bax: AİHM, Kemmaş Fransaya qarşı (№ 1 və 2), ərizələr № 12325/86 və 14992/89, 27 noyabr 1991-ci il, 60-cı bənd. AİƏM də eyni yanaşmanı qəbul edib. Bax: AİƏM, C-185/95 P, Baustahlgewebe GmbH v. Commission of the European Communities, 17 dekabr 1998-ci il, 29-cu bənd.

sürməsi problemini kompensasiya yolu ilə həll etməkdənsə, bu problemin qarşısını almağa təşviq edilirlər (məsələn öz məhkəmə sistemlərini yenidən təşkil etməklə). AİHM bildirib ki, məhkəmə prosesinin həddən artıq uzun sürməsinin qarşısını almaq üçün prosesin sürətləndirilməsinə şərait yaradan hüquqi müdafiə vasitələri daha əlverişlidir, belə ki, bu, eyni məhkəmə prosesi çərçivəsində ardıcıl pozuntuların baş verdiyi barədə qərarların çıxarılmasına yol verməməyə imkan yaradır.[510]

> Nümunə: *Skordino İtaliyaya qarşı* (№ 1) məhkəmə işi[511] torpaq sahəsinin müsadirəsinə görə kompensasiya tələbi ilə əlaqədar idi. Şikayətçi həmçinin prosesin həddən artıq uzun sürməsindən şikayət etmişdi, belə ki, proses iki məhkəmə instansiyasında səkkiz il yarım davam etmişdi.
>
> Səmərəli hüquqi müdafiə vasitəsi məsələsinə gəlincə, AİHM bildirdi ki, pozuntular müxtəlif növ hüquqi müdafiə vasitələri ilə düzəldilə bilər. Bəzi dövlətlər kompensasiya ilə bağlı icraatı tezləşdirmək hüquqi müdafiə vasitələrini kombinə etməyə üstünlük verirlər. Bu məsələdə dövlətlərə müəyyən diskresion səlahiyyət verilir; yalnız kompensasiya təyin edilməsinə yönələn hüquqi müdafiə vasitəsi AİHM-in tələblərinə uyğun olarsa, o halda səmərəsiz vasitə hesab edilmir. Ciddi, amma təkzib oluna bilən ehtimala əsasən, həddən artıq uzun sürən məhkəmə prosesləri mənəvi ziyana səbəb olur. Amma kompensasiyanın səviyyəsi ölkədaxili hüquqi müdafiə vasitəsinin xüsusiyyətlərindən və səmərəliliyindən asılıdır.

AŞ hüququnda preventiv (qabaqlayıcı) hüquqi müdafiə vasitəsinə (məsələn, dinləmənin tarixini dərhal təyin etməklə prosesin tezləşdirilməsinə) üstünlük verilir. Kompensasiyaedici hüquqi müdafiə vasitəsi isə icraatın artıq uzun müddətdən bəri davam etdiyi və preventiv hüquqi müdafiə vasitəsinin mövcud olmadığı hallarda səmərəli ola bilər.[512] Cinayət işlərində AİHM cəza müddətinin azaldılmasını səmərəli hüquqi müdafiə vasitəsi hesab edə bilər.[513]

Aİ hüququna gəlincə, AİƏM ölkədaxili məhkəmə prosesinin uzun sürməsi ilə bağlı indiyədək Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi əsasında qərar qəbul etməyib, amma Avropa İttifaqının Ümumi yurisdiksiyalı məhkəməsində 47-ci maddənin tələblərinə zidd olan icraatla bağlı kompensasiya təyin olunmasını səmərəli hüquqi müdafiə vasitəsi kimi qəbul edib.

> Nümunə: *Groupe Gascogne v. Commission* məhkəmə işində[514] AİƏM işin icraatının həddən artıq uzun sürməsi ilə əlaqədar şikayətləri və Ümumi Yurisdiksiyalı

510 AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il, 183-cü bənd; AİHM, Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il, 152-ci bənd.
511 AİHM, Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il, 106-108 və 201-205-ci bəndlər.
512 AİHM, Makfarleyn İrlandiyaya qarşı [BP], ərizə № 31333/06, 10 sentyabr 2010-cu il, 108-ci bənd.
513 AİHM, Orçovski Polşaya qarşı, ərizə № 17885/04, 22 oktyabr 2009-cu il; və Norbert Sikorski Polşaya qarşı, ərizə № 17599/05, 22 oktyabr 2009-cu il.
514 AİƏM, C-58/12 P, Groupe Gascogne SA v. European Commission, 26 noyabr 2013-cü il, 82-88-ci bəndlər.

Məhkəmədə (ÜYM) aparılmış icraatda müvafiq hüquqi müdafiə vasitəsi ilə təmin edilmə məsələsini nəzərdən keçirdi.

AİƏM bu qənaətə gəldi ki, Avropa İttifaqının Məhkəməsi Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində nəzərdə tutulmuş icraatındakı işlərə ağlabatan müddətdə baxmaq öhdəliyini pozursa, sanksiya olaraq ÜYM-də ziyana görə kompensasiya tələbi irəli sürülməlidir. Bu, səmərəli hüquqi müdafiə vasitəsidir.

2010-ci ildə Avropa Şurasının Nazirlər Komitəsi prosesin həddən artıq uzun sürməsi ilə bağlı kompensasiya məsələsinə dair praktiki təlimatlar təqdim edən tövsiyə qəbul etdi.[515] Tövsiyədə prosesin sürətləndirilməsi önə çəkilir.

515 Avropa Şurası, Nazirlər Komitəsi (2010), İcraatın həddən artıq uzun sürməsi ilə bağlı hüquqi müdafiə vasitələri haqqında üzv dövlətlərə Rec (2010)3 saylı tövsiyə, 24 fevral 2010-cu il.

# 8

# Seçilmiş kateqoriyalarda və sahələrdə ədalət mühakiməsinə çatım



| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Əlillər | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 6-cı (azadlıq və təhlükəsizlik hüququ), 20-ci (qanun qarşısında bərabərlik), 21-ci (ayrı-seçkiliyin yolverilməzliyi) və 47-ci (səmərəli hüquqi müdafiə vasitələri hüququ) maddələr<br>Qurbanların hüquqları haqqında direktiv (2012/29/EU)<br>Şifahi və yazılı tərcümə haqqında direktiv (2010/64/EU)<br>Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında direktiv (2012/13/EU)<br>Vəkillə təmin edilmək hüququ haqqında direktiv (2013/48/EU) | **Ədalət mühakiməsinə çatım** | AİHK, 5-ci (azadlıq və toxunulmazlıq hüququ), 6-cı (ədalətli məhkəmə araşdırması hüququ) və 14-cü (ayrı-seçkiliyin qadağan olunması) maddələr<br>AİHM, A.K. və L. Xorvatiyaya qarşı, ərizə № 37956/11, 2013 |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| | **Hüquq qabiliyyəti** | AİHM, Ştukaturov Rusiyaya qarşı, ərizə № 44009/05, 2008 |
| Cinayət qurbanları | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 47-ci maddə<br>AİƏM, C-105/03, Criminal proceedings against Maria Pupino, 2005<br>Qurbanların hüquqi vəziyyəti haqqında Çərçivə qərarı<br>(2001/220/JHA)<br>Qurbanların hüquqları haqqında direktiv (2012/29/EU)<br>Cinayət qurbanları üçün kompensasiya haqqında direktiv (2004/80/EC) | **Ağlabatan müddətin-müəyyənləşdirilməsinin meyarları** | AİHM, 13-cü maddə (səmərəli hüquqi müdafiə vasitələri hüququ)<br>AİHM, Dink Türkiyəyə qarşı, ərizələr № 2668/07 və s., 2010<br>Ağır cinayətlərin qurbanlarına kompensasiya ödənilməsi haqqında Konvensiya (CETS № 116) |
| Məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar | | |
| Fundamental hüquqlar haqqında Xartiya, 6-cı maddə<br>Şifahi və yazılı tərcümə haqqında direktiv (2010/64/EU)<br>Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında direktiv (2012/13/EU)<br>Vəkillə təmin edilmək hüququ haqqında direktiv (2013/48/EU) | **Məhkəməyə və vəkilin yardımına müraciət imkanı** | AİHK, 5-ci maddə |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Fundamental hüquqlar haqqında Xartiya, 6-cı maddə | **Azadlıqdan məhrum edilməkdən şikayət hüququ** | AİHK, 5-ci maddə (1, 3 və 4-cü bəndlər)<br><br>AİHM, Stanev Bolqarıstana qarşı [BP], ərizə № 36760/06, 2012<br><br>AİHM, Hassan və başqaları Fransaya qarşı, ərizələr № 46695/10 və 54588/10, 2014 |
| Fundamental hüquqlar haqqında Xartiya, 6-cı maddə | **Qanunsuz həbsə görə kompensasiya** | AİHK, 5-ci maddə (5-ci bənd) |
| Ətraf mühitin mühafizəsi hüququ | | |
| CJEU, C-115/09, Bund für Umwelt und Naturschutz Deutschland, Landesverband Nordrhein-Westfalen eV v. Bezirksregierung Arnsberg, 2011<br><br>İctimaiyyətin ətraf mühit barəsində məlumatlara çıxışı haqqında direktiv (2003/4/EC)<br><br>İctimai iştirakçılıq haqqında direktiv (2003/35/EC)<br><br>Orxus Konvensiyasının müddəalarının tətbiqi haqqında (EC) 1367/2006 saylı reqlament | | AİHM, Tatar Rumıniyaya qarşı, ərizə № 67021/01, 2009<br><br>Avropa Sosial Xartiyası, 11-ci maddə (sağlamlığın qorunması hüququ) |

| Aİ | Əhatə edilən məsələlər | AŞ |
|---|---|---|
| Elektron ədalət mühakiməsi | | |
| AİƏM, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, 2010<br><br>Avropa əmr icraatının tətbiqi haqqında (EC) 1896/2006 saylı reqlament<br><br>Kiçik məbləğli iddialar üzrə Avropa proseduru haqqında (EC) 861/2007 saylı reqlament | | AİHM, "Lawyer Partners a.s." Slovakiyaya qarşı, ərizələr № 54252/07 və s., 2009 |

Bu fəsildə aşağıdakı müəyyən qruplar üçün və müəyyən seçilmiş sahələrdə ədalət mühakiməsinə çatım imkanları nəzərdən keçirilir və AŞ və Aİ hüququnda onların hər biri ilə bağlı konkret prinsiplər formalaşdırılıb: əlillər, (8.1-ci bölmə) cinayət qurbanları (8.2-ci bölmə) məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar (8.3-cü bölmə), ətraf mühitin mühafizəsi hüququ (8.4-cü bölmə) və elektron ədalət mühakiməsi (8.5-ci bölmə). Digər qruplardan (konkret olaraq uşaqlar və qanunsuz miqrantlar) sığınacaq, sərhəd və immiqrasiya məsələləri üzrə Avropa hüququ və uşaq hüquqları ilə bağlı Avropa hüququ barəsində mövcud FRA-AİHM məlumat kitablarında bəhs edilir.[516] Qeyd etmək lazımdır ki, 1-7-ci fəsillərdə əks olunmuş AŞ və Aİ hüququnun müddəaları 8-ci fəslə də aiddir. 8-ci fəsildə fərdlərin ədalət mühakiməsinə çatım imkanlarından tam istifadə etmələrini təmin edə biləcək əlavə tədbirlər nəzərdən keçirilir.

516 FRA (2014), Sığınacaq, sərhəd və immiqrasiya məsələləri üzrə Avropa hüququna dair məlumat kitabı; və Uşaq hüquqları ilə bağlı Avropa hüququna dair məlumat kitabı.

# 8.1. Əlillər

## Əsas məqamlar

- AŞ və Aİ hüququnda Əlillərin hüquqları haqqında BMT Konvensiyasının (ƏHK) müddəaları və prinsipləri öz əksini tapıb.
- Hamının qanun qarşısında bərabərliyini təsdiq edən Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 20-ci maddəsində və əlillik əsasında ayrı-seçkiliyə məruz qalmanı qadağan edən 21-ci maddəsində əlillərin ədalət mühakiməsinə çatım hüququ təsbit olunur. AŞ hüququna əsasən, AİHK-ın 14-cü maddəsi AİHK-da nəzərdə tutulmuş hüquqlara münasibətdə müxtəlif əlamətlərə görə ayrı-seçkiliyi qadağan edir. Həmin əlamətlər arasında əlillik birbaşa göstərilməyib, amma həmin maddədə qeyd edilən "digər" əlamətlər anlayışına şərh verərkən AİHM əlillik əlamətini də oraya daxil edib.
- Əlillərin müxtəlif xidmətlərə çıxış imkanına malik olması ƏHK-nin əsas prinsiplərindən biridir. ƏHK-nin iştirakçısı olan dövlətlər əlillərin fiziki mühitdən, informasiya və rabitədən, xidmət və obyektlərdən (digər şəxslərlə bərabər əsasda) istifadə edə bilmələrini təmin etməlidirlər. ƏHK həmçinin əlillərin digər şəxslərlə bərabər əsasda məhkəməyə gələ və hüquqi prosedurlarda iştirak edə bilməsinin təmin edilməsi üçün ağlabatan şərait yaradılmasını tələb edir.
- ƏHK-da, AİHK-da və Fundamental hüquqlar haqqında Aİ Xartiyasında həbsə alınmış əlillərin ruhi sağlamlıq problemləri ilə əlaqədar olaraq prosessual müdafiəsini və hüquq qabiliyyəti olmayan şəxslərin ədalət mühakiməsinə çatımının təmin edilməsini nəzərdə tutan normalar yer alıb.

Əlillər ədalət mühakiməsinə çatım əldə etməyə çalışarkən konkret maneələrlə üzləşirlər. Buna görə də dövlətlər əlillərin ədalət mühakiməsinə çatım hüququndan tam istifadə edə bilmələrini təmin etmək üçün əlavə öhdəliklər daşıyırlar.[517] Bu bölmədə bununla bağlı bir sıra mühüm məsələlər, o cümlədən əlillərin ədalət mühakiməsinə çatımı və hüquq qabiliyyəti məsələləri araşdırılır. 8.3-cü bölmədə fiziki qüsuru olan şəxslərin məcburi qaydada xüsusi müəssisələrə yerləşdirilməsi müzakirə edilir (bu, AİHM qarşısında tez-tez qaldırılan məsələdir).[518]

517 Misal üçün bax: Avropa Şurası, İnsan hüquqları üzrə komissar (2008), İnsan hüquqları və əlillik: hamı üçün bərabər hüquqlar, 3.4-cü bənd; və 4 saylı tövsiyə. Həmçinin bax: Avropa Şurası, CEPEJ (2010), Avropada ədalət mühakiməsinə çatım, CEPEJ Studies № 9.

518 AİHM, Qorşkov Ukraynaya qarşı, ərizə № 67531/01, 8 noyabr 2005-ci il, 44-cü bənd. FRA (2012), Ruhi sağlamlıq problemləri olan şəxslərin məcburi qaydada xüsusi müəssisələrə yerləşdirilməsi və məcburi müalicəsi, səh. 18–19.

ƏHK-nın 1-ci maddəsində "əlil" termininə belə anlayış verilir: "müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar". ƏHK-da təsdiq edilir ki, əlillərə xeyriyyə yardımı alanlar kimi deyil, digər şəxslərlə bərabər hüquqlara malik insanlar kimi baxılmalıdır. Aİ və onun üzvü olan 25 dövlət ƏHK-nı ratifikasiya ediblər. [519]

## 8.1.1. Ədalət mühakiməsinə çatım

Əlillər üçün xidmətlərin əlçatan olması ƏHK-nın əsas prinsipidir və "müxtəlif mülki, siyasi, iqtisadi və mədəni hüquqlardan faktiki və bərabər əsasda istifadə üçün zəruri ilkin şərtdir". 9-cu maddəyə əsasən, Konvensiyanın iştirakçısı olan dövlətlər əlillərin digər şəxslərlə bərabər əsasda fiziki obyektlərə (məsələn, binalara), informasiya və rabitə vasitələrinə və ictimaiyyət üçün açıq olan digər obyekt və xidmətlərə çıxış imkanına malik olmalarını təmin etməlidirlər. ƏHK-nın iştirakçısı olan dövlətlər xidmətlərin əlçatan olması üçün yardımın müvafiq formalarını, o cümlədən bələdçilərin, qiraətçilərin və peşəkar lal-kar tərcüməçilərinin yardımını təmin etməlidirlər. Ərizəçinin müəyyən səbəbdən, məsələn, hərəkət imkanlarının məhdudluğu səbəbindən fiziki cəhətdən məhkəməyə giriş imkanı mümkün olmazsa, onun məhkəməyə müraciət hüququ pozula bilər.[520]

### Perspektivli praktika

**Polisin əlillərə yardım üçün təlimatla təmin edilməsi**

İspaniyada polisin əqli imkanları məhdud olan şəxslər üçün xidmətləri daha yaxşı təmin etməsi məqsədi ilə  Mülki Qvardiya (xüsusi təyinatlı polis qüvvələri) tərəfindən polis əməkdaşları üçün xüsusi təlimat hazırlanıb.

*Mənbə: SeeCarrasco, A. et al (2013), Guía de intervención policial con personas con discapacidad intelectual, Madrid, Fundación Carmen Pardo-Valcarce.*

Məhkəmə prosesində iştirak etmək hüququ ədalət mühakiməsinə çatım hüququnun mühüm tərkib hissəsidir.[521] ƏHK-nın 13-cü maddəsi ədalət mühakiməsinə səmərəli çatım hüququnu təmin edir. Belə ki, əlillər digər məhkəmə istifadəçiləri ilə bərabər hüquqlara malik olmaqla məhkəməyə getmək, digər şəxsləri məhkəməyə gətirmək, şahid qismində çıxış etmək və məhkəmədə baş verənlərdən xəbərdar olmaq üçün prosesdə iştirak etmək hüququna malikdirlər. Əlillərin öz hüquqlarını digər şəxslərlə

519 FRA-nın ratifikasiya barəsindəki onlayn cədvəlində hansı dövlətlərin onu ratifikasiya etdikləri göstərilib. Digər onlayn cədvəldə Əlillərin hüquqları haqqında BMT Konvensiyasının 33-cü maddəsində qeyd edilən qurumlar (Konvensiyanın icrasını monitorinq edən qurumlar) sadalanır.
520  AİHM, Farkaş Rumıniyaya qarşı, ərizə № 32596/04, 14 sentyabr 2010-cu il, 48-ci bənd.
521  Ayrı-seçkilik baş verdiyi hallarda ədalət mühakiməsinə çatım məsələsinə dair FRA-nın hesabatında ədalət mühakiməsinə çatımı asanlaşdıran strukturlar, prosedurlar və dəstək mexanizmləri barədə tövsiyələr verilir. Bax: FRA (2012), Aİ-də ayrı-seçkilik hallarında ədalət mühakiməsinə çatım: bərabərliyin möhkəmləndirilməsinə yönələn tədbirlər.

bərabər əsasda həyata keçirə bilmələri üçün ağlabatan şərait yaradılmalıdır. Müvafiq olaraq, ƏHK-nın iştirakçısı olan dövlətlər zəruri hallarda əlilin məhkəməyə gələ bilməsini və məhkəmə prosesində iştirak etməsini təmin etmək üçün lazımi tədbirlər görməlidirlər. Bu məsələdə yardımlar aşağıdakıları özündə ehtiva edə bilər: əl işarələri dilindən istifadənin təmin edilməsi, sənədlərin əlçatan formatlarda, o cümlədən Brayl şrifti ilə və ya asan oxunan formatda təqdim edilməsi və s.[522] 13-cü maddə həmçinin məhkəmə, polis və penitensiar orqanların əməkdaşları üçün müvafiq təlimlər keçilməsini tələb edir.

AŞ hüququna əsasən, əlillər AİHK-ın 6-cı maddəsinə uyğun olaraq ədalət mühakiməsinə çatım hüququna malikdirlər. 14-cü maddədə işlədilən "digər əlamətlər" ifadəsi onları hüquqlarının həyata keçirilməsində hər hansı ayrı-seçkiliyə məruz qalmaqdan müdafiə edir.[523] Lakin 14-cü maddədə nəzərdə tutulmuş hüquq müstəqil şəkildə tətbiq edilən hüquq deyil: bu maddə yalnız AİHK-da yer alan substantiv hüquqlara münasibətdə əlillərə qarşı ayrı-seçkiliyə yol verilməsini qadağan edir. AİHK-ın 12 saylı Protokolu daxili qanunvericilikdə təmin edilən istənilən hüquqlara və ya dövlət orqanının istənilən hərəkətinə münasibətdə ayrı-seçkiliyə qarşı müdafiəni nəzərdə tutur və bu baxımdan onun tətbiq dairəsi 14-cü maddənin tətbiq dairəsindən daha genişdir,[524] lakin bu Protokolun müddəaları yalnız onu ratifikasiya etmiş dövlətlərə şamil olunur.[525]

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində ədalət mühakiməsinə çatım hüququ ümumi hüquq olaraq təsbit edilir. Həmçinin Xartiyanın hamının qanun qarşısında bərabər olduğunu təsdiqləyən 20-ci maddəsi və əlillik əlaməti əsasında ayrı-seçkiliyi qadağan edən 21-ci maddəsi əlilləri ayrı-seçkilikdən müdafiə edir.

AŞ və Aİ hüququna əsasən, ayrı-seçkiliyin qadağan olunması o deməkdir ki, dövlətlər əlillərin praktikada hüquqlarından istifadə edə bilmələrini təmin etmək üçün pozitiv tədbirlər görməlidirlər. Tələb olunan tədbirlər konkret hallardan asılıdır. Məsələn, əlil şəxslər prosesin mürəkkəb detallarını anlamaqda çətinlik çəkirsə, ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsi üçün əlillərin vəkilin pulsuz hüquqi yardımı ilə təmin edilməsi tələb oluna bilər (3.1.2 və 3.1.3.-cü bölmələrə bax).[526]

Nümunə: *A.K. və L. Xorvatiyaya qarşı* məhkəmə işində[527] uşaq doğulmasından az sonra anasının razılığı ilə himayədar ailəyə verilmişdi. Sonradan ana valideynlik

522 Misal üçün bax: Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında Avropa İttifaqı Parlamentinin və Şurasının 20 oktyabr 2010-cu il tarixli 2010/64/EU saylı direktivi, OJ 2010 L 280; və Avropa Kommissiyası (2013), Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında 27 November 2013-cü il tarixli Tövsiyə, OJ 2013 C 378.

523 AİHM, Qlor İsveçrəyə qarşı, ərizə № 13444/04, 30 aprel 2009-cu il.

524 Avropa Şurası, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 12 saylı Protokolu, CETS № 177, Roma, 4.11.2000, səh. 1-3.

525 AİHK-ın 12 saylı Protokolunu ratifikasiya etmiş dövlətlərin hazırkı siyahısı üçün bax: http://www.coe.int/en/web/conventions/full-list/-/conventions/treaty/177/signatures?p_auth=w7ZQNTfu.

526 AİHM, Nenov Bolqarıstna qarşı, ərizə № 33738/02, 16 iyul 2009-cu il, 52-ci bənd.

527 AİHM, A.K. və L. Xorvatiyaya qarşı, ərizə № 37956/11, 8 yanvar 2013-cü il.

hüquqlarından məhrum edilmiş və belə əsas gətirilmişdi ki, o, əqli inkişafdan geri qalıb və oğlunun qayğısına lazımınca qalmaq iqtidarında deyil. Ərizəçi valideynlik hüquqlarının bərpası üçün ərizə ilə müraciət etmiş, amma üçüncü şəxslər artıq uşağı övladlığa götürdüklərinə görə ərizəsi rədd edilmişdi. Ana övladlığa götürmə prosesi barədə məlumatlandırılmamış və həmin prosesdə tərəf qismində iştirak etməmişdi.

AİHM qərara aldı ki, milli hakimiyyət orqanları məhkəmə prosesində ananın maraqlarının lazımi qaydada qorunmasını təmin etməli idilər. Ananın fərdi xüsusiyyətləri nəzərə alınmaqla aydın idi ki, o, bu cür prosesin bütövlükdə hüquqi nəticələrini lazımınca anlaya və ya iş üzrə mövqeyini lazımi şəkildə müdafiə edə bilməzdi, amma bununla belə, daxili məhkəmə onun vəkillə təmsil olunmasına şərait yaratmamışdı. Avropa Məhkəməsi belə qənaətə gəldi ki, bunu qəbul etmək çətindir ki, ananın nitqində qüsur olması və söz ehtiyatının kasad olması uşağına lazımi şəkildə danışmağı öyrədə bilməyəcəyindən ehtiyatlanmaq üçün əsas sayılıb, amma bununla belə hesab edilib ki, o, valideynlik hüquqları ilə bağlı işdə öz mövqeyini müdafiə edə bilər. Bu, 8-ci maddənin pozuntusu idi.

Bundan əlavə, Aİ hüququna əsasən, Aİ-nin ikinci dərəcəli qanunvericiliyində əlillər üçün xüsusi hüquqlar nəzərdə tutulur. Qurbanların hüquqları haqqında direktivdə (8.2-ci bönlməyə bax) deyilir ki, cinayət qurbanı olan əlillər direktivdə nəzərdən tutulmuş hüquqlardan tam istifadə etmək imkanına malik olmalıdırlar.[528] Aİ həmçinin cinayət prosesində əlillərin xüsusi müdafiəsini nəzərdə tutan qanunvericilik normaları qəbul edib. Məsələn, “Cinayət prosesində məlumatlandırılmaq hüququ haqqında direktiv” üzv dövlətlərin üzərinə belə bir öhdəlik qoyur ki, həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslərin xüsusi ehtiyaclarını nəzərə alaraq məlumatların sadə və anlaşılan dildə verilməsini təmin etsinlər.[529] “Cinayət prosesində şifahi və yazılı tərcümə hüququ haqqında direktiv” eşitmə və nitq qabiliyyətində qüsurlar olan şəxslərə lazımi yardım göstərilməsini tələb edir.[530] Bundan əlavə, “Vəkillə təmin edilmək hüququ haqqında direktiv” üzv dövlətlərdən tələb edir ki, onun müddəalarını tətbiq edərkən həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslərin xüsusi ehtiyaclarının nəzərə alınmasını təmin etsinlər.[531] Nəhayət, Aİ Komissiyası qəbul etdiyi Tövsiyədə cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatların nəzərdə tutulmasını tövsiyə edib.[532]

528 2012/29/EU saylı direktiv, preambulanın 15-ci bəndi.
529 2012/13/EU saylı direktiv, mad. 3 (2).
530 2010/64/EU saylı direktiv, mad. 2 (3).
531 2013/48/EU saylı direktiv, mad. 13.
532 Cinayət prosesində həssas durumda olan şübhəli və ya təqsirləndirilən şəxslər üçün prosessual təminatlar haqqında Aİ Komissiyasının 27 November 2013-cü il tarixli Tövsiyəsi, OJ 2013 C 378.

## 8.1.2. Hüquq qabiliyyəti

Həmçinin hüquq qabiliyyəti də əqli və psixoloji qüsurları olan bir çox şəxslər üçün mühüm məsələ ola bilər. ƏHK-nın 12-ci maddəsində təsdiq edilir ki, əlillər digər şəxslərlə "bərabər əsasda hüquqi müdafiə hüququna" və bərabər səviyyədə hüquq qabiliyyətinə malikdirlər. "Hüquq qabiliyyəti" termininə beynəlxalq səviyyədə qəbul edilmiş anlayış verilməyib. Hüquq qabiliyyəti "şəxsin qəbul etdiyi qərarların qanunla tanınması" kimi təsvir edilir, o, müvafiq şəxsi "hüquq subyektinə və qanuni hüquq və vəzifələrin daşıyıcısına çevirir".[533] Bu cür tanınma şəxsin qərarlarının hüquqi qüvvəyə malik olmasını tələb edir. Ədalət mühakiməsinə çatım nöqteyi-nəzərindən baxsaq, hüquq qabiliyyətinin olmaması şəxsin məhkəmədə iddia qaldırmasına və ya ədalət mühakiməsinə çatım əldə etmək üçün vəkilə müraciət etməsinə maneçilik törədir.

Dövlətlərdən tələb olunur ki, hüquq qabiliyyəti olmayan şəxslərin məhkəmə icraatında səmərəli iştirak imkanını təmin etsinlər.[534] AİHK-ın 6-cı maddəsi ərizəçinin hüquq qabiliyyəti ilə bağlı qərarın qəbul ediləcəyi məhkəmə prosesində ərizəçinin iştirakını tələb edir.

Nümunə: *Ştukaturov Rusiyaya qarşı* məhkəmə işində[535] ərizəçi ruhi xəstəlik tarixçəsi olan şəxs idi. Anası oğlunun hüquq qabiliyyəti olmayan şəxs elan edilməsi üçün məhkəməyə müraciət etmiş və belə əsas gətirmişdi ki, o, müstəqil həyat sürmək iqtidarında deyil və ona qəyyum tələb olunur. Ərizəçi məhkəmə prosesi barəsində rəsmən məlumatlandırılmamışdı. Məhkəmənin bu müraciətə baxdığı iclasda rayon prokuroru və ərizəçinin həmin il bir müddət öncə yerləşdirildiyi psixiatriya xəstəxanasının nümayəndəsi iştirak edirdi. Ərizəçi məhkəmə iclasının keçiriləcəyi barədə məlumatlandırılmamışdı və orada iştirak etmirdi. Ərizəçi hüquq qabiliyyəti olmayan şəxs elan edildi və anası onun qəyyumu təyin olundu. Ərizəçi sonradan vəkillə əlaqə saxladı, vəkil hesab edirdi ki, o, məhkəmədə baxılan kompleks hüquqi məsələləri tam anlamaq iqtidarındadır. Qərardan apellyasiya şikayəti verildi, amma məhkəmə şikayətə baxmadan onu rədd etdi və belə əsas gətirdi ki, ərizəçi hüquqi qabiliyyətinə malik deyil və yalnız rəsmi qəyyumu vasitəsilə apellyasiya şikayəti verə bilər. Ərizəçinin anası onun psixiatriya xəstəxanasına yerləşdirilməsinə nail oldu, orada isə ərizəçinin vəkili ilə görüşməsinə icazə verilmədi, sonra isə ətraf aləmlə bütün təmaslarına son qoyuldu. Vəkilinin onun xəstəxanadan çıxarılmasına nail olmaq cəhdləri uğursuz oldu. AİHM-ə şikayət ərizəsi verildi və o, Məhkəmə Reqlamentinin 39-cu qaydası əsasında qərara aldı ki, ərizəçinin və vəkilinin görüşmələrinə imkan yaradılmalı və AİHM-in icraatında olan iş üzrə arqumentlərini hazırlamaları üçün onlara lazımi vaxt və imkan verilməlidir. Rusiyanın dövlət orqanları bu qərara əməl etməkdən

533 Bax: FRA (2013), Əqli qüsurları və psixi sağlamlıq problemləri olan şəxslərin hüquq qabiliyyəti, səh.9.
534 AİHM, Sehentner Avstriyaya qarşı, ərizə № 20082/02, 16 iyul 2009-cu il, 65 və 78-ci bəndlər.
535 AİHM, Ştukaturov Rusiyaya qarşı, ərizə № 44009/05, 27 mart 2008-ci il.

imtina etdilər. Ərizəçi 2006-cı ilin mayında xəstəxanadan buraxıldı, amma belə görünür ki, sonradan anasının tələbi ilə yenidən xəstəxanaya yerləşdirilib.

Məhkəmə AİHK-ın 6-cı maddəsinin 1-ci bəndinin pozulduğunu müəyyən etdi. Hüquq qabiliyyəti ilə bağlı məhkəmə prosesi ərizəçi üçün önəmli idi, çünki bu proses, demək olar ki, həyatın bütün sahələrində ərizəçinin şəxsi müstəqilliyi ilə əlaqədar idi və onun azadlığının məhdudlaşdırılması ilə nəticələnmişdi. Onun prosesdə iştirakı vacib idi, belə ki, bu halda o həm iş üzrə mövqeyini müdafiə edə bilərdi, həm də onun əqli imkanları barədə hakimin rəyinin formalaşmasına imkan yaranmış olardı. Müvafiq olaraq, ərizəçini (sağlamlıq durumu qənaətbəxş olmasa da o, nisbətən müstəqil düşüncə qabiliyyətinə malik idi) görmədən və ya dinləmədən işi yazılı dəlillər əsasında həll etmək barədə hakimin qərarı əsassız idi və məhkəmə araşdırmasının çəkişmə xarakteri daşıması prinsipini pozmuşdu. Dinləmədə xəstəxana nümayəndəsinin və on dəqiqəlik iclas ərzində passiv qalmış rayon prokurorunun iştirak etməsi o demək deyildi ki, proses həqiqətən çəkişmə xarakteri daşıyıb. Həmçinin ərizəçi qərardan şikayət etmək imkanına malik olmayıb, belə ki, onun apellyasiya şikayəti baxılmadan rədd edilmişdi. Xülasə, rayon məhkəməsində icraat ədalətsiz şəkildə aparılmışdı.

Hüquq qabiliyyətinin müəyyən edildiyi məhkəmə iclasında şəxsin iştirakı iki səbəbdən önəmlidir: birincisi, bu, ərizəçinin iş üzrə mövqeyini müdafiə etməsinə və ikincisi, onun əqli imkanları barədə hakimin rəyinin formalaşmasına imkan yaradır.[536] Hüquq qabiliyyətinin məhdudlaşdırılması yalnız o halda baş verə bilər ki, bu, müvafiq şəxsi qorumaq üçün zəruri olsun.[537]

536 AİHM, X və Y Xorvatiyaya qarşı, ərizə № 5193/09, 3 noyabr 2011-ci il, 84-85-ci bəndlər.
537 Avropa Şurası, Nazirlər Komitəsi (1999), Fəaliyyət qabiliyyətinə malik olmayan yetkinlik yaşına çatmış şəxslərin hüquqi müdafiəsinə dair prinsiplər haqqında üzv dövlətlərə R(99)4 saylı tövsiyə, 23 fevral 1999-cu il, 3-cü prinsip. Müəyyən müddətdən sonra, xüsusən müvafiq şəxs bu barədə müraciət etdikdə, məhdudiyyətlərə yenidən baxılması tələb oluna bilər; bax: AİHM, Matter Slovakiyaya qarşı, ərizə № 31534/96, 5 iyul 1999-cu il, 68-ci bənd.

# 8.2. Cinayət qurbanları

## Əsas məqamlar

- AŞ hüququna əsasən, qurbanların prosessual hüquqları AİHK-ın 13-cü maddəsi ilə qorunur. Cinayət qurbanları cinayət prosesi çərçivəsində mülki iddia tələbləri irəli sürmək üçün cinayət prosesində iştirak edə bilməsələr, AİHK-ın 6-cı maddəsində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması hüquqlarının müdafiəsinə nail ola bilməzlər.
- Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi Aİ qanunvericiliyindən irəli gələn bütün hüquqları qoruyur. Cinayət qurbanları cinayət işi qaldırılması formasında səmərəli hüquqi müdafiə vasitələri hüququna malikdirlər. Beləliklə, Xartiyaya əsasən cinayət qurbanları həm səmərəli hüquqi müdafiə vasitələri hüququna (AİHK-ın 13-cü maddəsi), həm də ədalətli məhkəmə araşdırması hüququna (AİHK-ın 6-cı maddəsinin 1-ci bəndi) malikdirlər. Xartiyanın 47-ci maddəsi cinayət qurbanlarına işlərinin müstəqil məhkəmə vasitəsilə ədalətli və açıq araşdırılması hüququnu, vəkildən məsləhətlər almaq və vəkillə təmsil olunmaq hüququnu, hüquqi yardım almaq hüququnu və səmərəli hüquqi müdafiə vasitələri hüququnu verir.
- Qurbanlarının hüquqları haqqında Aİ direktivi qurbanların ədalətli məhkəmə araşdırması hüquqlarının Aİ qanunvericiliyində nəzərdə tutulan mühüm aspektlərini, o cümlədən məsləhət və mənəvi dəstək almaq hüququnu təsbit edir.
- Dövlətlər dövlət nümayəndələri tərəfindən, eləcə də adi fiziki şəxslər tərəfindən insan hüquqlarının pozulmasının qarşısını almaq üçün pozitiv tədbirlər görməlidirlər. Bu, insan hüquqlarının ciddi pozuntularının cinayət qanunvericiliyinə daxil edilməsini (kriminallaşdırılmasını) və AİHK-ın 2-ci və 3-cü maddələrinin və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 2-ci və 4-cü maddələrinin pozuntularının qarşısının alınması və araşdırılması üçün tədbirlərin görülməsini tələb edir.
- Bəzi cinayət qurbanları (məsələn, insan alverinin qurbanları) həm AİHK-da, həm də Fundamental hüquqlar haqqında Aİ Xartiyasında, habelə Aİ-nin ikinci dərəcəli qanunvericiliyində nəzərdə tutulmuş əlavə, xüsusi müdafiədən yararlanmaq imkanına malikdirlər.

Bu bölmədə cinayət qurbanlarının ədalət mühakiməsinə çatım imkanından bəhs edilir. Qurbanların ədalət mühakiməsinə çatım hüququ heç də həmişə müttəhimlərin hüquqlarının təmin olunması ilə bərabər səviyyədə tutulmayıb və bu hüquqa yalnız son dövrlərdən etibarən müttəhimlərin hüquqları ilə eyni

səviyyəli hüquqlar kimi baxılır.[538] Bu bölmədə bütövlükdə qurbanlarla bağlı Avropa hüququ nəzərdən keçirilir. Amma qeyd etmək vacibdir ki, zərərçəkənlərin müxtəlif qruplarına (məsələn, qərəzli niyyətlə törədilən cinayətlərin qurbanlarına, insan alverinin qurbanlarına[539] və seksual hüquq pozuntularının qurbanı olan uşaqlara[540]) xüsusi hüquqi tədbirlər və konkret presedent hüququ şamil olunur.[541]

AŞ hüququna əsasən, AİHK-ın 1-ci maddəsi dövlətlərin üzərinə öz yurisdiksiyaları daxilində olan şəxslərin insan hüquqlarını təmin etmək öhdəliyini qoyur. Digər maddələrin, məsələn, 2-ci (yaşamaq hüququ) və 3-cü (işgəncənin və qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması) maddələrin tələbləri ilə birlikdə götürülməklə bu öhdəlik dövlətlərdən tələb edir ki, dövlət nümayəndələri tərəfindən fərdlərin hüquqlarının pozulmamasını təmin etmək üçün pozitiv tədbirlər görsünlər.[542]

Bu pozitiv öhdəliklərə fiziki şəxslər tərəfindən törədilən insan hüquqlarının ciddi pozuntularının qarşısının alınması da daxildir.[543] Bu, dövlətlər tərəfindən xüsusilə uşaqların və həssas durumda olan digər şəxslərin səmərəli müdafiənin təmin olunmasını və barəsində məlumatlı olduqları və ya məlumatlı olmağa borclu olduqları hüquqa zidd rəftarın qarşısının alınmasını tələb edir.[544]

Dövlətlərin mühüm vəzifəsi insan haqlarının ciddi pozuntularını cinayət qanunvericiliyinə daxil etməkdir (kiriminallaşdırmaq).[545] Ona görə ki, dövlətlər bu cür cinayətlərə görə cəzasızlığı aradan qaldırmaq öhdəliyini daşıyırlar.[546] Məsələn, dövlətlər insanları şəxsiyyət əleyhinə cinayət törətməkdən çəkindirmək üçün səmərəli cinayət qanunvericiliyi normaları sistemini qəbul etməklə yaşamaq hüququnu təmin etməlidirlər və bu sistem hüquq-mühafizə mexanizmi vasitəsilə dəstəklənməlidir ki, həmin normaların pozulması hallarının qarşısı alınsın, kökü

538 Goodey, J. (2005), Victims And Victimology: Research, Policy and Practice.
539 Avropa Şurası, İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya, CETS № 197, 2005-ci il. Çex Respublikası Avropa İttifaqına üzv olan yeganə dövlətdir ki, hələ bu Konvensiyanı ratifikasiya etməyib.
540 Avropa Şurası, Uşaqların cinsi istismardan və seksual xarakterli hərəkətlərdən müdafiəsi haqqında Konvensiya, CETS № 201, 2007-ci il.
541 Misal üçün bax: AİHM, Çorkan və başqaları Rumıniyaya qarşı, ərizələr № 29414/09 və 44841/09, 27 yanvar 2015-ci il (irqi motivli cinayət); AİHM, Rantsev Kiprə və Rusiyaya qarşı, ərizə № 25965/04, 7 yanvar 2010-cu il (insan alveri); AİHM, P. və S. Polşaya qarşı, ərizə № 57375/08, 30 oktyabr 2012-ci il (seksual xarakterli hərəkətlərin qurbanı olan uşaq).
542 AİHM, Naçova və başqaları Bolqarıstana qarşı [BP], ərizələr № 43577/98 və 43579/98, 6 iyul 2005-ci il, 93-97-ci bəndlər.
543 AİHM, M. və başqaları İtaliyaya və Bolqarıstana qarşı, ərizə № 40020/03, 31 iyul 2012-ci il, 99-100-cü bəndlər.
544 AİHM, Z və başqaları Birləşmiş Krallığa qarşı, ərizə № 29392/95, 10 may 2001-ci il, 73-cü bənd.
545 AİHM, X və Y Niderlanda qarşı, ərizə № 8978/80, 26 mart 1985-ci il.
546 Avropa Şurası, Nazirlər Komitəsi (2011), İnsan hüquqlarının ciddi pozuntularına görə cəzasızlığın aradan qaldırılmasına dair Avropa Şurasının Nazirlər Komitəsinin rəhbər prinsipləri, 30 mart 2011-ci il.

kəsilsin və təqsirkarlar cəzalandırılsın.[547] Analoji vəzifələr həmçinin 3-cü maddə üzrə də yaranır.[548] Buraya fiziki şəxslər tərəfindən törədilən hüquqa zidd rəftar halları da daxildir.[549] Lakin həmin hüquqa zidd rəftarın 3-cü maddənin tətbiq dairəsinə düşməsi üçün o, müəyyən minimal qəddarlıq səviyyəsinə çatmalıdır.[550] Dövlətlərin pozitiv öhdəlikləri həmçinin şəxsiyyətin toxunulmazlığı və ləyaqətinnin ciddi pozuntuları, məsələn, seksual cinayətlər baş verdiyi halda da yaranmış olur. [551] Bundan əlavə, bu hüquqların qorunması üçün dövlətlər AİHK-ın 2-ci və 3-cü maddələrinin istənilən pozuntuları ilə bağlı səmərəli araşdırma aparılmasını təmin etməlidirlər.[552] Dövlət araşdırmaya öz təşəbbüsü ilə başlamalı və bu təşəbbüsü qurbanın öhdəsinə buraxmamalıdır.[553]

İstintaqın gedişində araşdırmanın açıq-aşkar bəlli istiqamətdə aparılmaması da 2-ci maddənin tələblərini poza bilər.[554] AİHM qərara alıb ki, "araşdırmada olan hər hansı nöqsan araşdırmanın gedişində təqsirkarı və ya təqsirkarları müəyyənləşdirmək imkanına xələl gətirirsə, bu hal bu maddənin pozuntusunu təşkil edə bilər".[555]

Nümunə: *Dink Türkiyəyə qarşı* məhkəmə işində[556] ərizəçilər türkcə-ermənicə çıxan həftəlik qəzetin erməni mənşəli Türkiyə vətəndaşı olan baş redaktorunun ailə üzvləri idilər. O, erməni identikliyi barədə silsilə məqalələr yazmışdı. İfrat türk millətçiləri nümayişlər keçirməklə, hədələyici məktublar yazmaqla və cinayət işi açılması üçün şikayət ərizələri verməklə bu məqalələrə reaksiya vermişdilər. Cənab Dinkin "türklüyü" ləkələməkdə təqsirli bilindi və şərti olaraq azadlıqdan məhrum edildi. Sonradan o, qətlə yetirildi. Sui-qəsd planı barədə polisin məlumatlı olub-olmadığını müəyyənləşdirməyə yönələn bir neçə istintaq və məhkəmə prosesinə xitam verilmişdi.

Cənab Dinkin məqalələrinə reaksiyaları nəzərə alaraq, təhlükəsizlik qüvvələri məntiqə görə ona qarşı qatı düşmənçilik münasibəti barədə məlumatlı olmalı idilər. Bundan başqa, belə görünür ki, polis idarələri ehtimal olunan sui-qəsd cəhdi barədə məlumatlı idilər və hətta təhrikçilərin kimliyini də bilirdilər. Bununla belə, dövlət onun həyatına qarşı real və birbaşa təhlükənin qarşısının alınması üçün ağlabatan tədbirlər görməmiş və beləliklə AİHK-ın 2-ci maddəsi pozulmuşdu.

547 AİHM, Osman Birləşmiş Krallığa qarşı [BP], ərizə № 23452/94, 28 oktyabr 1998-ci il, 115-ci bənd. Həmçinin bax: AİHM, Menson Birləşmiş Krallığa qarşı, ərizə № 47916/99, 6 may 2003-cü il, 1-ci bənd.
548 AİHM, Valyulyene Litvaya qarşı, ərizə № 33234/07, 26 mart 2013-cü il, 74-cü bənd.
549 AİHM, Mehmet Ümit Erdem Türkiyəyə qarşı, ərizə № 42234/02, 17 iyul 2008-ci il, 26-cı bənd.
550 AİHM, Kostello Roberts Birləşmiş Krallığa qarşı, ərizə № 13134/87, 25 mart 1993-cü il, 30-cu bənd. Ən son dövrə aid iş üçün bax: AİHM, Rumor İtaliyaya qarşı, ərizə № 72964/10, 27 may 2014-cü il, 57-ci bənd.
551 AİHM, X və Y Niderlanda qarşı, ərizə № 8978/80, 26 mart 1985-ci il.
552 AİHM, Qafgen Almaniyaya qarşı [BP], ərizə № 22978/05, 1 iyun 2010-cu il, 117-ci bənd.
553 AİHM, Cadıroğlu Türkiyəyə qarşı, ərizə № 15762/10, 3 sentyabr 2013-cü il, 30-cu bənd.
554 AİHM, Kolevlər Bolqarıstana qarşı, ərizə № 1108/02, 5 noyabr 2009-cu il, 201-ci bənd.
555 AİHM, Ramsahai və başqaları Niderlanda qarşı [BP], ərizə № 52391/99, 15 may 2007-ci il, 324-cü bənd.
556 AİHM, Dink Türkiyəyə qarşı, ərizələr № 2668/07, 6102/08, 30079/08, 7072/09 və 7124/09, 14 sentyabr 2010-cu il, 64-cü bənd.

Cinayət qurbanları cinayət işi qaldırılması formasında səmərəli hüquqi müdafiə vasitələri hüququna malikdirlər. Cinayət işinin qaldırılmaması AİHK-ın 13-cü maddəsini poza bilər.[557] Cinayət mühakiməsi icraatı sisteminə çıxış imkanının olması yetərli deyil; dövlət həm də bu sistemin səmərəliliyini təmin etməlidir.[558] Məsələn, təqsirləndirilən şəxsin müdafiəsi üçün həddindən artıq imkan yaradılırsa, o halda cinayət qanunvericiliyi qurbanların hüquqlarının müdafiəsi məsələsində səmərəli ola bilməz.[559] Bundan əlavə, AİHK-ın 6-cı maddəsində qurbanların hüquqi vəziyyətinə birbaşa toxunulmasa da, ədalətli məhkəmə araşdırması prinsipləri tələb edir ki, lazımi hallarda qurbanların hüquqları tanınmalı və müdafiə tərəfinin hüquqları ilə balanslaşdırılmalıdır.[560]

## Perspektivli praktika

**Öyrənmə qabiliyyəti zəif olan qurbanlara dəstək**

Qurbanlara Dəstək üzrə Portuqaliya Assosiasiyası (APAV) cinayət qurbanlarına, onların ailələrinə və dostlarına dəstək göstərir. Qurbanlara ümumi yardımdan əlavə, APAV həm də hüquqi, psixoloji və sosial dəstək kimi ixtisaslaşmış xidmətlər göstərir. APAV həmçinin müxtəlif auditoiyalara, əsasən məktəblilərə ünvanlanan məlumatlandırıcı və qabaqlayıcı kampaniyalar keçirməklə cinayətlərin qarşısının alınmasında rol oynayır. O həmçinin qurbanların cinayət prosesində təmsil edilməsinə könüllü əsasda yardım göstərir, hərçənd ki, bu onun missiyasına daxil deyil.

*Mənbə: FRA (2015), Avropa İttifaqında cinayət qurbanları: qurbanlara yardımın miqyası və xarakteri , səh. 114.*

Eyni müdafiə Aİ hüququnda da nəzərdə tutulub. AİHK-da yer alan yuxarıda qeyd edilmiş hüquqlar, yəni aşağıdakılar Fundamental hüquqlar haqqında Aİ Xartiyasında da əks olunub: 2-ci maddə (yaşamaq hüququ), 4-cü maddə (işgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan olunması) və 7-ci maddə (şəxsi və ailə həyatına hörmət). Xartiyanın 52-ci maddəsinin 3-cü bəndinə dair izahatlarda təsdiq edilir ki, bu hüquqlar AİHK-da yer alan hüquqların ekvivalentidir və onlarla eyni mənaya və eyni tətbiq dairəsinə malikdir (1-ci fəslə və oradakı sxemə bax) verilir.

Lakin Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində cinayət qurbanları üçün də ədalətli məhkəmə araşdırması hüquqları nəzərdə tutulub. 47-ci maddə Aİ hüququndan irəli gələn bütün hüquqlara şamil olunur. Bu o deməkdir ki, söhbət Xartiyada yer alan, yaxud Aİ-nin birinci və ya ikinci dərəcəli

557 AİHM, A Xorvatiyaya qarşı, ərizə № 55164/08, 14 oktyabr 2010-cu il, 78 və 87-ci bəndlər.
558 AİHM, M.C. Bolqarıstana qarşı, ərizə № 39272/98, 4 dekabr 2003-cü il, 150-151-ci bəndlər.
559 AİHM, A. Birləşmiş Krallığa qarşı, ərizə № 100/1997/884/1096, 23 sentyabr 1998-ci il, 24-cü bənd.
560 AİHM, Doorson Niderlanda qarşı, ərizə № 20524/92, 26 mart 1996-cı il, 70-ci bənd; AİHM, Y. Sloveniyaya qarşı, ərizə № 41107/10, 28 may 2015-ci il.

qanunvericiliyində (belə direktivlərdə) əks olunan hüquqlardan gedirsə, belə hallarda 47-ci maddədə müəyyən edilmiş hüquqlar tətbiq edilir. 47-ci maddəyə əsasən, ədalətli məhkəmə araşdırması hüquqları müstəqil məhkəmə tərəfindən işə ədalətli və açıq şəkildə baxılması hüququnu, vəkildən məsləhətlər almaq və vəkillə təmsil olunmaq hüququnu, hüquqi yardım almaq hüququnu və səmərəli hüquqi müdafiə vasitələri hüququnu özündə ehtiva edir. Aİ-yə üzv olan dövlətlərin milli səviyyədə bu hüquqların səmərəli məhkəmə müdafiəsini təmin etmələri tələb olunur ("səmərəli hüquqi müdafiə vasitəsi" termininin mənası üçün 1-ci fəslə və 5.1-ci bölməyə bax). Səmərəlilik prinsipi o deməkdir ki, daxili qanunvericilik Aİ qanunvericiliyində nəzərdə tutulmuş hüquqların müdafiəsinin təmin edilməsini mümkünsüz və ya həddən artıq çətin hala gətirməməlidir.[561]

Aİ hüququna əsasən, qurbanların hüquqları Qurbanların hüquqi vəziyyəti haqqında Çərçivə Qərarını (bu sənəd Danimarkaya münasibətdə qüvvəsini saxlayır) əvəzləyən 2012/29EU saylı direktiv (Qurbanların hüquqları haqqında direktiv) vasitəsilə daha da gücləndirilib.[562] Qurbanların hüquqları haqqında direktiv cinayət qurbanlarının hüquqları, dəstəklənməsi və müdafiəsi ilə bağlı minimal standartları müəyyən edir. Orada deyilir ki, "cinayət cəmiyyətə qarşı törədilən hüquq pozuntusudur, eləcə də qurbanların fərdi hüquqlarının pozuntusudur" (preambulanın 9-cu bəndi). 2-ci maddədə "qurban" terminınə geniş çərçivəli anlayış verilir: i) fiziki, mənəvi, emosional ziyan və maddi itkilər də daxil olmaqla cinayət əməlinin birbaşa səbəb olduğu ziyana məruz qalmış fiziki şəxs; ii) ölümünə cinayət əməli birbaşa səbəb olmuş şəxsin ölümü nəticəsində zərər çəkən ailə üzvləri. [563]

Qurbanların hüquqları haqqında direktiv üzv dövlətlərin üzərinə qurbanlar üçün yardım xidmətlərini (8 və 9-cu maddələr) və ədalətli məhkəmə araşdırması hüquqlarına daxil olan müəyyən hüquqları, yəni dinlənilmək hüququnu (10-cu maddə) və hüquqi yardım almaq hüququnu (13-cü maddə) təmin etmək öhdəliyini qoyur. Orada həmçinin cinayət işi açmamaq qərarına yenidən baxılması üçün müraciət etmək hüququ barədə yeni müddəalar (11-ci maddə) və xüsusi müdafiə tələbatlarına dair geniş normalar (22-24-cü maddələr) yer alıb.

Ədalət mühakiməsinə çatım əldə edə bilmələri üçün qurbanlara praktiki dəstək

---

561 AİƏM, C-33/76, Rewe-Zentralfinanz eG and Rewe-Zentral AG v. Landwirtschaftskammer für das Saarland,16 dekabr 1976-cı il. Ən sön dövrə aid iş üçün bax: AİƏM, C-415/11, Mohamed Aziz v. Caixa d´Estalvis de Catalunya, Tarragona i Manresa (Catalunyacaixa), 14 mart 2013-cü il, 50-ci bənd; və AİƏM, Birləşdirilmiş işlər C-482/13, C-484/13, C-485/13, C-487/13, Unicaja Banco SA v. José Hidalgo Rueda and Others, Caixabank SA v. Manuel María Rueda Ledesma and Others, Caixabank SA v. José Labella Crespo and Others and Caixabank SA v. Alberto Galán Luna and Others, 21 yanvar 2015-ci il.

562 2012/29/EU saylı direktiv; Cinayət prosesində qurbanların hüquqi vəziyyəti haqqında Aİ Şurasının 15 mart 2001-ci il tarixli 2001/220/JHA saylı çərçivə qərarı, OJ L 82, 22 mart 2001-ci il.

563 Çərçivə qərarında qurbanın özü öldüyü hallarda ailə üzvləri qurbanlar sırasına daxil edilmirdi. Direktivdə yer alan anlayış isə bu sənəddəki anlayışın analoqudur: Avropa Şurası, Nazirlər Komitəsi (2006), Cinayət qurbanlarına yardım haqqında üzv dövlətlərə Rec (2006)8 saylı tövsiyə, 14 iyun 2006-cı il, 1.1-ci bənd.

göstərilməlidir.[564] Buraya qurbanların yardımla təmin edilməsi, hüquqları barədə məlumatlandırılması və hüquq mühafizə orqanlarının əməkdaşlarına yetərli təlimlər keçilməsi daxildir.

AİƏM qurbanların hüquqlarına aid işlərə Fundamental hüquqlar haqqında Aİ Xartiyası və ya Qurbanların hüquqları haqqında direktiv əsasında hələ ki baxmayıb, lakin müəyyən işlərə baxarkən Qurbanların hüquqi vəziyyəti haqqında Çərçivə Qərarının müddəalarına müraciət edib.

Nümunə: Mariya Pupinoya qarşı cinayət işində (*Criminal proceedings against Maria Pupino*[565] ) məktəbəqədər hazırlıq müəssisəsinin müəlliməsi xanım Pupino şagirdlərinə ağır xəsarətlər yetirməkdə ittiham olunurdu. Çərçivə Qərarının 8-ci maddəsində "həssas durumda olan" qurbanlar üçün xüsusi müdafiə nəzərdə tutulmuşdu. Həmin maddənin tətbiqinin mümkünlüyü ilə bağlı ilkin qərar çıxarılması üçün AİƏM-ə sorğu ilə müraciət edildi.

AİƏM qərarında bildirdi ki, müəllimləri tərəfindən hüquqa zidd rəftara məruz qaldıqları iddia edilən azyaşlı uşaqlar Çərçivə Qərarında nəzərdə tutulmuş "həssas durumda olan" qurbanlardır. Buna görə də onlar həmin sənəddə nəzərdə tutulmuş xüsusi müdafiə ilə təmin edilmək hüququna malikdirlər. Milli məhkəmə milli qanunvericiliyi şərh edərkən "Çərçivə Qərarının mətnini və məqsədini mümkün qədər nəzərə almalıdır".

AŞ və Aİ hüququnda cinayət qurbanları üçün kompensasiya da nəzərdə tutulub. Bu öhdəlik "dövlətin müdafiə etməyə borclu olduğu, amma müdafiəsini təmin edə bilmədiyi hüquqların pozulmasından irəli gələn zərərdən" doğur.[566] 5.2.1-ci bölmədə ümumən kompensasiya barədə AİHM-in və AİƏM-in presedent hüququna dair təfsilatlar təqdim edilir, amma əlavə, xüsusi müddəalar var ki, onlar cinayət qurbanlarına aiddir. Məsələn, Qurbanların hüquqları haqqında direktivin 16-cı maddəsində kompensasiya məsələsi də nəzərdə tutulur, həmçinin Kompensasiya haqqında Aİ direktivi transsərhəd situasiyalarında cinayət qurbanlarının kompensasiya əldə etməsini asanlaşdırmaq üçün əməkdaşlıq sistemi yaradılmasını nəzərdə tutur.[567] Bundan əlavə, "Ağır cinayətlərin qurbanlarına kompensasiya ödənilməsi haqqında Avropa Şurasının Konvensiyası"nda cinayət qurbanları üçün dövlət kompensasiyasının minimum standartları müəyyən edilir.[568] Nəhayət, Avropa Şurasının Nazirlər Komitəsi cinayət qurbanları ilə bağlı bir sıra tövsiyələr qəbul edib.[569]

564 Qurbanların yardım hüquqları ilə bağlı ətraflı müzakirə üçün bax: FRA (2015), Avropa İttifaqında cinayət qurbanları: qurbanlara yardımın miqyası və xarakteri.

565 AİƏM, C-105/03, Criminal proceedings against Maria Pupino, 16 iyun 2005-ci il.

566 Baş vəkil Lentsin 6 dekabr 1988-ci il tarixli rəyi, AİƏM, C-186/87, Ian William Cowan v. Trésor public, 2 fevral 1989-cu il. Bu iş qurbanların hüquqlarından daha geniş çərçivəli prinsiplərlə əlaqədar idi.

567 Cinayət qurbanlarına kompensasiya ödənilməsi haqqında Aİ Şurasının 29 aprel 2004-cü il tarixli 2004/80/EC saylı direktivi, OJ 2004 L 26.

568 Avropa Şurası, Ağır cinayətlərin qurbanlarına kompensasiya ödənilməsi haqqında Konvensiya, CETS № 116, 1983-cü il.

569 Avropa Şurası, Nazirlər Kommitəsi (2006), Cinayət qurbanlarına yardım haqqında üzv dövlətlərə Rec (2006)8 saylı tövsiyə, 14 iyun 2006-cı il; Avropa Şurası, Nazirlər Kommitəsi (2005), Şahidlərin

## 8.3. Məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar

### Əsas məqamlar

- Məhbusların və məhkəməyəqədər həbsdə saxlanılanların cinayət prosesində özlərini müdafiə etmək və ya mülki iddia qaldırmaq üçün məhkəməyə müraciət etmək imkanına malik olmaları tələb olunur. Onlar həmçinin şərti azadlığa buraxılma ilə bağlı məhkəmə iclasında və ya intizam icraatında vəkillə təmsil olunmaq hüququna malikdirlər.
- AİHK-ın 5-ci maddəsinin 1, 3 və 4-cü bəndlərində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsində məhbusların müdafiəsinə dair konkret müddəalar nəzərdə tutulub. 5-ci maddənin 1-ci bəndi azadlıq hüququnu təmin edir; 5-ci maddənin 3-cü bəndi tutulmuş şəxsin dərhal hakimin yanına gətirilməsini tələb edir; 5-ci maddənin 4-cü bəndi isə tutulmuş şəxslərə tutulmalarının qanuniliyinə etiraz etmək üçün məhkəməyə müraciət etmək hüququ verir. Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsində bu barədə konkret göstəriş olmasa da, Xartiyaya dair izahatlarda təsdiq edilir ki, 6-cı maddə AİHK-ın 5-ci maddəsində əks olunan bütün hüquqları təmin edir.
- AİHK-ın 5-ci maddəsinin 5-ci bəndində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsində qanunsuz tutulmaya və ya həbsə görə kompensasiya hüququ nəzərdə tutulur.

Məhbusların və məhkəməyəqədər həbsdə saxlanılanların həbs qərarından, ittiham hökmündən və ya saxlanma şəraitindən şikayət etməyə ehtiyacları ola bilər. Onlar həmçinin şərti azadlığa buraxılma ilə bağlı məhkəmə iclasında və ya intizam icraatında vəkilin yardımından istifadə etmək hüququna malikdirlər. Məhkumlar və məhkəməyəqədər həbsdə saxlanılanlar həmçinin həbsxanadan kənardakı həyatları ilə, məsələn, məşğulluq, cərimə, borc və ailə problemləri ilə əlaqədar mülki hüquqlarına və vəzifələrinə aid müxtəlif məsələlərin həlli üçün məhkəməyə müraciət etməyə ehtiyac duya bilərlər. Lakin həbsxanada olmaları səbəbindən məhbusların və məhkəməyəqədər həbsdə saxlanılanların hüquqi məlumat və məsləhət almaq və ya vəkillə təmsil olunmaq üçün praktiki imkanları məhdud ola bilər. Bundan əlavə, digər problemlər məhbusların daha həssas durumda olmasına səbəb ola bilər, belə ki, onların əlilliyi, ruhi sağlamlıq problemləri ola, yaxud "təhsil sahəsində irəliləyişləri çox zəif ola bilər".[570] Bu bölmədə qətimkan tədbiri qismində

və ədalət mühakiməsi ilə əməkdaşlıq edənlərin müdafiəsi haqqında üzv dövlətlərə Rec(2005)9 saylı tövsiyə, 20 aprel 2005-ci il. Həmçinin bax: Avropa Şurası, CEPEJ (2008), Ədalət mühakiməsinin və məhkəmələrin keyfiyyətinin artırılması üçün yoxlanış vərəqəsi, Strasburq, səh. 19-21 (məhkəmələrə çıxış imkanı).

570 Avropa Şurası, Nazirlər Kommitəsi (1989), Həbsxanada təhsil haqqında üzv dövlətlərə Rec(89)12 saylı tövsiyə, 13 oktyabr 1989-cu il.

həbsdə saxlanılan və ya ittiham hökmü nəticəsində azadlıqdan məhrum edilən şəxslərin ədalət mühakiməsinə çatım hüququna dair Avropa hüququnun bəzi müddəaları öz əksini tapıb.[571]

Qeyd etmək lazımdır ki, BMT də hər hansı formada həbsdə saxlanılan şəxslərə münasibətdə məcburi qüvvəyə malik olmayan rəhbər müddəalar qəbul edib: həmin müddəalar azadlıqdan məhrum edilmiş şəxslər üçün əsas standartlara dair sənədin layihəsində öz əksini tapıb.[572] Rəhbər müddəalarda təsdiq edilir ki, habeas corpus (həbsin qanuniliyi məsələsinə məhkəmə tərəfindən baxılması) proseduru çərçivəsində şikayətlərə səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən baxılmalıdır.[573] Sənəddə həmçinin hüquqi təmsilçiliyə və hüquqi yardıma,[574] habelə tutulmuş şəxsin vəkillə, ailə üzvləri ilə və digər maraqlı tərəflərlə təmasda olmaq hüququna[575] dair təlimatlar verilir.

### 8.3.1. Məhkəməyə və vəkilin yardımına müraciət imkanı

Hüquqi yardım almaq hüququndan və hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququndan 3-cü və 4-cü fəsillərdə bəhs olunur. Məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar bu sahədə çətinliklərlə üzləşdiklərinə görə bu hüquqlar bu bölmədə də müzakirə olunur.

571 Burada “məhbus” termininin bu mənbədəki anlayışı əsas götürülüb: Avropa Şurası, Nazirlər Kommitəsi (2006), Avropa penitensiar qaydalarına dair Rec(2006)2 saylı tövsiyə, 11 yanvar 2006-cı il, 10.1-ci qayda. Ruhi xəstəliyi olan pasiyentlərin təcrid halında saxlanması ilə bağlı 8.1-ci bölməyə bax.
572 BMT, Tutma və ya həbsə alma yolu ilə azadlıqdan məhrum edilmiş hər kəsin tutulmasının qanuniliyi ilə bağlı məhkəməyə şikayət etməsi üçün hüquqi müdafiə vasitələrinə və prosedurlara dair əsas prinsiplərin və rəhbər müddəaların layihəsi.
573 6-cı prinsip və 4-cü rəhbər müddəa. Həmçinin dövlət orqanlarının həbsin zəruriliyini və mütənasibliyini əsaslandırmaq öhdəliyi ilə bağlı 14-cü rəhbər müddəaya bax.
574 9-cu prinsip və 8-ci rəhbər müddəa.
575 10-cu prinsip.

## Perspektivli praktika

**Öyrənmə qabiliyyəti zəif olan məhbusların ədalət mühakiməsinə çatımına yardım edilməsi**

Uelsdə müxtəlif qurumların, o cümlədən əlillər üçün xeyriyyə təşkilatlarının, Penitensiar İslahat Fondunun, polis orqanlarının, penitensiar və prokurorluq xidmətlərinin və Uels hökumətinin təmsilçilərini birləşdirən qrup ədalət mühakiməsinə çatıma dair təlimat kitabı çap edib. Kİtabın məqsədi Uelsdə cinayət mühakimə icraatı sistemində öyrənmə qabiliyyəti zəif olan yetkin yaşlı şəxslərin işlərinin məsuliyyətli və məqsədəuyğun şəkildə idarə olunmasına yardım göstərməkdir. Onun məqsədi həm də səhiyyə, sosial təminat və cinayət mühakimə icraatı xidmətlərində çalışan səlahiyyətli şəxslərə, həmin xidmətlərdə planlaşdırma işi ilə və praktiki fəaliyyətlə məşğul olanlara yuxarıda qeyd edilən şəxslərə göstərilən xidmətlərin yaxşılaşdırılmasında kömək etməkdir.

*Mənbə: Ədalət mühakiməsinə çatım: Uelsdə cinayət mühakimə icraatı sistemində öyrənmə qabiliyyəti zəif olan yetkin yaşlı şəxslərin işlərinin məsuliyyətli və məqsədəuyğun şəkildə idarə olunmasına yardım göstərilməsinə dair təlimat kitabı (2013)*

AŞ hüququna əsasən, məhbuslar qeyri-cinayət işlərində məhkəmələrə müraciət etmək hüququna və bu hüququn vasitəsilə həm də vəkilin yardımı üçün müraciət etmək hüququna malikdirlər (2.1-ci bölməyə bax).[576] Məhbusun vəkilin yardımı üçün müraciət etməsinə tətbiq edilən hər hansı məhdudiyyət “qarşıya qoyulan məqsədə mütənasib” olmalı və bu “hüququn mahiyyətinə xələl gətirməməlidir”.[577] Hüquqi məsləhət almaq hüququnun səmərəli olması konfidensial ünsiyyət imkanının olmasını tələb edir, bu isə həbsxanada olan şəxs üçün praktiki çətinliklərlə müşayiət oluna bilər (4.2.1 və 4.2.4-cü bölmələrə bax). Qeyd etmək lazımdır ki, şəxsin vəkillə yazışmaları oxunursa, bu AİHK-ın 8-ci maddəsinin (şəxsi və ailə həyatına, mənzil toxunulmazlığına və yazıma sirrinə hörmət hüququ) tələblərini poza bilər və buna yalnız müstəsna hallarda, məsələn, məktubda yazılanların həbsxanada asayişə və ya digər şəxslərin təhlükəsizliyinə təhlükə yarada biləcəyini güman etmək üçün əsaslı səbəblər olduqda yol verilə bilər.[578]

AİHK-ın 6-cı maddəsinə intizam icraatında da istinad edilir.[579] Avropa penitensiar qaydalarının 59-cu maddəsinin “c” bəndi buna imkan verir, orada nəzərdə tutulur ki, intizam pozuntusu törətməkdə təqsirləndirilənlər, ədalət mühakiməsinin maraqları tələb edirsə, özlərini şəxsən və ya hüquqi yardımdan istifadə etməklə müdafiə etmək imkanına malik olmalıdırlar.

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci

576 AİHM, Qolder Birləşmiş Krallığa qarşı, ərizə № 4451/70, 21 fevral 1975-ci il.
577 AİHM, Eşinqdeyn Birləşmiş Krallığa qarşı, ərizə № 8225/78, 28 may 1985-ci il, 57-ci bənd.
578 AİHM, Pexoviç Polşaya qarşı, ərizə № 20071/07, 17 aprel 2012-ci il, 239-240-cı bəndlər.
579 AİHM, Gülməz Türkiyəyə qarşı, ərizə № 16330/02, 20 may 2008-ci il, 37-39-ci bəndlər.

maddəsində nəzərdə tutulan hüquqlar AİHK-ın 6-cı maddəsində müəyyən edilən hüquqların ekvivalentidir.[580] Bundan əlavə, Avropa İttifaqının ikinci dərəcəli qanunvericiliyində cinayət prosesi çərçivəsində şübhəli və təqsirləndirilən şəxslər üçün xüsusi hüquqlar, məsələn, məlumat almaq hüququ, şifahi və yazılı tərcümə hüququ və vəkilin yardımından istifadə etmək hüququ nəzərdə tutulur.[581]

## 8.3.2. Azadlıqdan məhrum edilməkdən şikayət hüququ

Həbsin qanuniliyi AİHM qarşısında tez-tez qaldırılan məsələdir. Həbsdə saxlanma anlayışı psixo-sosial pozuntuları olan şəxslərin məcburi qaydada xüsusi müəssisələrə yerləşdirilməsinə də şamil olunur.[582] Belə hallarda obyektiv tibbi rəyin olması, eləcə də praktiki və hüquqi cəhətdən səmərəli olan prosessual təminatların, o cümlədən hüquqi təmsilçilik imkanının mövcudluğu tələb olunur.[583]

Nümunə: *Stanev Bolqarıstana qarşı* məhkəmə işində[584] 2000-ci ildə məhkəmə ərizəçinin şizofreniyadan əziyyət çəkdiyini əsas gətirərək onu məhdud hüquq qabiliyyətli şəxs elan etmişdi. 2002-ci ildə ərizəçinin iradəsi əleyhinə olaraq onun üzərində qismən qəyyumluq təyin edildi və ucqar bir yerdə "psixi pozuntuları" olan şəxslər üçün sosial himayə evinə yerləşdirildi. 2003 və 2004-cü illərdə buraya rəsmi səfərlərindən sonra İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (İQK) bu qənaətə gəldi ki, himayə evindəki şəraiti qeyri-insani və ləyaqəti alçaldan rəftar təşkil edən şərait adlandırmaq olar. Ərizəçi vəkili vasitəsilə prokurordan və merdən xahiş etdi ki, qismən qəyyumluğun onun üzərindən götürülməsi üçün məhkəmədə iş qaldırsınlar, amma bu barədə vəsatətləri rədd edildi. Eynilə onun qəyyumu da bu cür iş qaldırmaqdan imtina etdi. 2006-cı ildə vəkilinin təşəbbüsü ilə ərizəçi müstəqil psixiatr tərəfindən müayinə olundu və o, belə qənaətə gəldi ki, şizofreniya diaqnozu düzgün diaqnoz deyil. Psixiatrın rəyi ondan ibarət idi ki, ərizəçinin sosial himayə evində qalması onun sağlamlığına çox böyük ziyan yetirib.

AİHM bu qənaətə gəldi ki, ərizəçinin ilkin razılığını almadan onu himayə evinə yerləşdirmək barədə qərar çıxarılması Bolqarıstan qanunvericiliyinə zidd idi. Təkcə elə bu faktın özü Məhkəmənin ərizəçinin bu cür azadlıqdan məhrum edilməsinin AİHK-ın 5-ci maddəsinin 1-ci bəndinə zidd olduğu qənaətinə gəlməsi

580 Fundamental hüquqlar haqqında Aİ Xartiyası, mad. 52 (3).

581 2010/64/EU saylı direktiv (Danimarkaya şamil olunmur); 2012/13/EU saylı direktiv (Danimarkaya şamil olunmur); 2013/48/EU saylı direktiv (İrlandiyaya, Birləşmiş Krallığa və Danimarkaya şamil olunmur).

582 AİHM, Qorşkov Ukraynaya qarşı, ərizə № 67531/01, 8 noyabr 2005-ci il, 44-cü bənd. FRA (2012), Ruhi sağlamlıq problemləri olan şəxslərin məcburi qaydada xüsusi müəssisələrə yerləşdirilməsi və məcburi müalicəsi, səh. 18–19.

583 AİHM, Vinterverp Niderlanda qarşı, ərizə № 6301/73, 24 oktyabr 1979-cu il, 39-cu bənd; və AİHM, Medyeri Almaniyaya qarşı, ərizə № 13770/88, 12 may 1992-ci il, 23-cü bənd.

584 AİHM, Stanev Bolqarıstana qarşı [BP], ərizə № 36760/06, 17 yanvar 2012-ci il.

üçün kifayət idi. AİHK-ın 5-ci maddəsinin 4-cü bəndinə gəlincə, hökumət ərizəçini sosial himayə evinə yerləşdirilməsinin və bu tədbirin davamlı olaraq tətbiq edilməsinin qanuniliyi məsələsindən şikayət etmək üçün birbaşa imkanla təmin edən ölkədaxili hüquqi müdafiə vasitəsinin mövcud olduğunu sübut edə bilmədi. Bu cür himayə evlərinə yerləşdirilmə qərarına avtomatik olaraq məhkəmə tərəfindən dövri qaydada yenidən baxılması imkanı mövcud deyildi və daxili qanunvericilikdə bu cür imkan nəzərdə tutulmamışdı. Bundan başqa, ərizəçinin himayə evinə yerləşdirilməsi Bolqarıstan qanunvericiliyinə əsasən azadlıqdan məhrumetmə hesab edilmirdi və bu cür azadlıqdan məhrumetmə tədbirinin qanuniliyi məsələsindən şikayət etmək üçün hər hansı ölkədaxili hüquqi müdafiə vasitələrini nəzərdə tutan müddəa yox idi. Beləliklə, 5-ci maddənin 4-cü bəndi pozulmuşdu. Nəhayət, azadlıqdan qanunsuz olaraq məhrum edilməsi ilə bağlı ərizəçi üçün heç bir kompensasiya hüququ nəzərdə tutulmadığına görə AİHM 5-ci maddənin 5-ci bəndinin də pozulduğunu müəyyən etdi.

AŞ və Aİ hüququnun müddəaları azadlıqdan məhrum edilməyə qarşı hüquqi müdafiəni təmin edir. AİHK-ın 5-ci maddəsinin 1-ci bəndi və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsi şəxsin azadlıq hüququnu təmin edir və (Xartiyaya dair izahatlara əsasən) bu maddələrdə eyni hüquqlar əks olunub.[585] Avropa Şurası və Avropa İttifaqı hüququna əsasən, hər hansı şəxsin azadlıqdan məhrum edilməsi barədə qərar həmişə “qanunla müəyyən olunmuş qaydada” qəbul edilməlidir.[586] Həbs tədbiri AİHK-ın 5-ci maddəsinin 1-ci bəndində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsində qeyd edilən məqsədlərə hər zaman uyğun olmalıdır.[587]

Məhbuslar azadlıqdan məhrum edilmələrindən şikayət etmək üçün məhkəməyə müraciət etmək hüququna malikdirlər. Məhkəməyə müraciət hüququnun praktiki və səmərəli olmasının təmin edilməsi üçün məhbuslara hüquqi məsləhət və hüquqi yardımla təmin edilmək hüququ verilə bilər. Məhkəməyəqədər həbsdə saxlanılan şəxslərə gəlincə, AŞ hüququna əsasən, AİHK-ın 5-ci maddəsinin 3-cü bəndi tələb edir ki, cinayət əməllərində ittiham olunan şəxslər onların həbsə alınması və ya məhkəmə araşdırmasına qədər azadlığa buraxılması barədə qərarın qəbulu üçün “dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin yanına gətirilməli” və məhkəmə araşdırmasının ağlabatan müddət ərzində keçirilməsi təmin edilməlidir. Bu maddə şəxsin hüquqa zidd rəftara məruz qalmasına və ya həbs edilməsinin onun azadlığı üçün əsassız nəticələrə səbəb olmasına qarşı müdafiəni təmin etmək məqsədi daşıyır.

585 Fundamental hüquqlar haqqında Xartiyaya dair izahatlar, OJ 2007 C303/17.
586 AİHM, Tsarenko Rusiyaya qarşı, ərizə № 5235/09, 3 mart 2011-ci il, 62-ci bənd.
587 AİHM, L.B. Belçikaya qarşı, ərizə № 22831/08, 2 oktyabr 2012-ci il, 92 və 101-ci bəndlər. Həmçinin bax: Avropa Şurası, Naizrlər Komitəsi (2006), Avropa penitensiar qaydalarına dair Rec(2006)2 saylı tövsiyə; və Avropa Şurası, Naizrlər Komitəsi (2006), Həbs qətimkan tədbirinin tətbiq edilməsi, tətbiqinin şərtləri və sui-istifadə hallarına qarşı təminatların təmin edilməsi haqqında üzv dövlətlərə Rec(2006)13 saylı tövsiyə.

"Dərhal" sözünə gəlincə, AİHM bildirib ki, hakimin yanına gətirilmənin dörd gündən artıq yubadılması həddən artıq uzun müddət hesab edilir.[588] Lakin işin xüsusi halları tutulmuş şəxsin məhkəməyə daha tez gətirilməsini zəruri edərsə, hətta dörd gündən az müddət belə, "dərhal gətirilmə" tələbinə zidd hesab edilə bilər.[589]

Nümunə: *Hassan və başqaları Fransaya qarşı* məhkəmə işində[590] doqquz ərizəçinin piratlıqda iştirak etdikləri iddia olunurdu. Ərizəçilər Fransa hərbçiləri tərəfindən tutularaq həbs edilmiş və hərbi təyyarədə Fransaya gətirilmişdilər. Onlar polisin nəzarətinə veriləne və məhkəmə işinin istintaqını aparan hakimin yanına gətiriləne qədər bir halda təxminən dörd gün iyirmi saat, digər halda isə altı gün on altı saat Fransanın hakimiyyət orqanlarının nəzarəti altında saxlanmışdılar. Sonradan ərizəçilərin altısı azadlıqdan məhrumetmə cəzası almışdı.

AİHK-ın 5-ci maddəsinin 3-cü bəndi ilə əlaqədar olaraq AİHM qeyd etdi ki, ərizəçilərin həbsi "adi qaydada" baş verməyib: hadisə Fransanın materik hissəsinin 6.000 kilometrliyində, Somalinin hakimiyyət orqanlarının ərizəçiləri məhkəməyə cəlb etmək iqtidarında olmadığı bir şəraitdə baş verib. Onların Fransaya aparılmasına tələb olunan müddətdən uzun vaxt sərf edildiyini düşünmək üçün heç bir əsas yox idi. Ərizəçilərin tutulmaları ilə Fransa torpağına gətirilmələri arasındakı dövrdə azadlıqdan məhrum edilmələrinin müəyyən müddət davam etməsi "işin müstəsna halları" ilə izah olunurdu. Lakin Fransaya gətirildikdən sonra ərizəçilər dərhal işin istintaqını aparan hakimin yanına gətirilmək əvəzinə 48 saat ərzində polisin nəzarətinə verilmişdilər. Bu əlavə yubadılmaya haqq qazandıran heç bir əsas yox idi. 5-ci maddənin 3-cü bəndinin məqsədi dövlət orqanlarına "şübhəli şəxslərə rəsmi ittiham irəli sürmək məqsədi ilə istintaqın gedişini sürətləndirmək" imkanı yaratmaq deyil. Bu işdə AİHK-ın 5-ci maddəsinin 3-cü bəndi pozulmuşdu.

Məhkəməyəqədər həbsdə saxlanılan şəxs məhkəməyə gətirilərkən həbsin qanuniliyi məsələsinə mahiyyəti üzrə həqiqətən baxılmalıdır.[591] Hakim şəxsin həbsdə qalması və ya girov (zəmanət) müqabilində azadlığa buraxılması barədə qərar qəbul edərkən təqsirsizlik prezumpsiyasını nəzərə almalı, azadlığa buraxılmanın lehinə və əleyhinə dəlalət edən bütün faktları araşdırmalı və qərarını aydın şəkildə ifadə etməlidir.[592] Təqsirləndirilən şəxsin həbsdə saxlanmasının əsaslı olub-olmaması işin faktları əsasında qiymətləndirilməlidir.[593] Tutulmuş şəxs azad edilməli olduğunu sübut etməyə borclu deyil.[594]

588 AİHM, Makkey Birləşmiş Krallığa qarşı [BP], ərizə № 543/03, 3 oktyabr 2006-cı il, 47-ci bənd. Bu qərarı aşağıdakı şərhlə müqayisə et: BMT, İnsan Hüquqları Komitəsi (2014), 9-ci maddəyə (azadlıq və toxunulmazlıq hüququ) dair 35 saylı ümumi şərh, 16 dekabr 2014-cü il, 33-cü bənd (bi sənəddə deyilir ki, hakimin yanına gətirilmənin 48 saatdan artıq yubadılmasına "yalnız müstəsna hallarda" yol verilə bilər).

589 AİHM, Qutsanovlar Bolqarıstana qarşı, ərizə № 34529/10, 15 oktyabr 2013-cü il, 154 və 159-cu bəndlər.

590 AİHM, Hassan və başqaları Fransaya qarşı, ərizələr № 46695/10 və 54588/10, 4 dekabr 2014-cü il.

591 AİHM, Akvilina Maltaya qarşı, ərizə № 25642/94, 29 aprel 1999-cu il, 47-ci bənd.

592 AİHM, Bıkov Rusiyaya qarşı [BP], ərizə № 4378/02, 10 mart 2009-cu il, 63-cü il.

593 AİHM, İdalov Rusiyaya qarşı [BP], ərizə № 5826/03, 22 may 2012-ci il, 139-cu il.

594 AİHM, Bıkov Rusiyaya qarşı [BP], ərizə № 4378/02, 10 mart 2009-cu il, 64-cü il.

Azadlıq hüququnun digər bir təminatı AİHK-ın 5-ci maddəsinin 4-cü bəndində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsində yer alan "operativlik" tələbində öz əksini tapıb.[595] Belə ki, AİHK-ın 5-ci maddəsinin 4-cü bəndinə əsasən, dövlətlər tutulmuş şəxslərin hakimin yanına gətirilməsi üçün müstəqil hüquqi prosedurlar müəyyən etməli və bu prosedurlar çərçivəsində hakim onların həbsdə saxlanmasının qanuniliyi məsələsinə "təxirə salmadan" baxmalıdır. Dövlətlər aşağıdakı tələblərə riayət edilməsini təmin etməyə borcludurlar:

- hüquqi yardım və vəkillə təmsil olunma barədə qərarlar operativ şəkildə qəbul edilməlidir;[596]
- tutulmuş şəxs həbsinin qanuniliyi məsələsinə mütəmadi olaraq yenidən baxılması hüququna malikdir;[597]
- müvafiq hallarda ərizəçi məhkəməyə çatım əldə etmək üçün vəkillə təmsil olunmaq hüququna malikdir;[598]
- zəruri hallarda hüquqi yardımın xərclərini dövlət çəkməli və bu yardım səmərəli olmalıdır (hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ barəsində 4-cü fəslə bax) olmalıdır).[599]

AİHK-ın 5-ci maddəsinin 4-cü bəndi habeas corpus (həbsin qanuniliyi məsələsinə məhkəmə tərəfindən baxılması) prosedurunu nəzərdə tutur. O, tutulmuş şəxsin həbsdə saxlanmasının qanuniliyi məsələsinə mütəmadi olaraq yenidən baxılmasını tələb edir və həmin şəxsin həbsdə saxlanma üçün əsasların hələ də mövcud olub-olmadığının yoxlanılmasını məhkəmədən tələb etməsinə imkan verir. Şəxsin 5-ci maddənin 1-ci bəndində nəzərdə tutulmuş qanuni həbsi dövlətləri 5-ci maddənin 4-cü bəndində nəzərdə tutulmuş həbsin qanuniliyini təxirə salmadan qiymətləndirmək vəzifəsindən azad etmir.[600] Operativlik tələbinə riayət edilib-edilməməsi hər bir işin hallarının işığında müəyyən edilməlidir.[601] Eyni amillər həmçinin AİHK-ın 6-cı maddəsinin 1-ci bəndində və Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsində yer alan ağlabatan müddət tələbi ilə bağlı tətbiq edilir (müddətin ağlabatan olub-olmadığının müəyyənləşdirilməsi üçün meyarlarla bağlı 7.2-ci bölməyə bax).[602] Bir qayda olaraq müddətin axımı ərizəçinin azadlığa buraxılmaq üçün müraciət etdiyi və ya işin icraatının başlanıldığı andan başlayır və onun həbsinin qanuniliyi məsələsinə dair yekun qərar çıxarıldığı anda başa çatır.[603] İşin (məsələn, mürəkkəb tibbi dəlillər və ya sübutlara aid mürəkkəb məsələlər

595 Fundamental hüquqlar haqqında Xartiyaya dair izahatlar, OJ 2007 C303/17.
596 AİHM, L.R. Fransaya qarşı, ərizə № 33395/96, 27 iyun 2002-ci il, 38-ci bənd.
597 AİHM, M.H. Birləşmiş Krallığa qarşı, ərizə № 11577/06, 22 oktyabr 2013-cü il, 97-99-cu bəndlər.
598 AİHM, Medyeri Almaniyaya qarşı, ərizə № 13770/88, 12 may 1992-ci il, 23-cü bənd.
599 AİHM, Magalyaeş Pereyra Portuqaliyaya qarşı, ərizə № 44872/98, 26 fevral 2002-ci il, 54-63-cü bəndlər.
600 AİHM, Duiyeb Niderlanda qarşı [BP], ərizə № 31464/96, 4 avqust 1999-cu il, 57-ci bənd.
601 AİHM, Mooren Almaniyaya qarşı [BP], ərizə № 11364/03, 9 iyul 2009-cu il, 106-cı bənd.
602 Yenə orada, 106-cı bənd.
603 AİHM, Rebok Sloveniyaya qarşı, ərizə № 29462/95, 28 noyabr 2000-ci il, 85-ci bənd.

səbəbindən) müstəsna dərəcədə mürəkkəbliyi milli hakimiyyət orqanlarını məsələyə ağlabatan müddətdə baxmaq tələbini yerinə yetirmək vəzifəsindən azad etmir.[604] 5-ci maddənin 4-cü bəndi həmçinin ərizəçinin həbsdə saxlanmasına son qoyulması ilə nəticələnməyən, sadəcə olaraq həbs formasının dəyişdirilməsi (məsələn, onun xəstəxanadan həbsxanaya köçürülməsi) ilə nəticələnən prosedurlara da şamil olunur.[605]

Aİ hüququna əsasən, baxmayaraq ki, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 6-cı maddəsində bu barədə konkret müddəa əks olunmayıb, Xartiyaya dair izahatlarda təsdiq edilir ki, AİHK-ın 5-ci maddəsində müəyyən edilmiş bütün hüquqlar Xartiyanın 6-cı maddəsi ilə təmin edilir. Bu o deməkdir ki, AİHM-in presedent hüququ Xartiyanın 6-cı maddəsinin şərhi üçün mühüm mənbədir, çünki bu maddənin mənası və tətbiq dairəsi AİHK-ın 5-ci maddəsininki ilə eyni hesab edilir.

Avropa Şurası və Avropa İttifaqı məhbusların cəzalarını öz mənşə ölkələrində çəkmələrinə imkan yaradılmasını asanlaşdıran sənədlər qəbul ediblər.[606] Həmçinin alternativ cəzaların digər üzv dövlətlərdə çəkilməsinə kömək etmək və bunu asanlaşdırmaq üçün normalar qəbul edilib.[607] Məhbuslar sadəcə olaraq əcnəbi olmaları səbəbindən heç vaxt həbsdə saxlanmamalıdırlar.[608] Aİ hüququna əsasən, “Avropa həbs orderi haqqında çərçivə qərarı”na müvafiq olaraq, fərdlər cəzalarını çəkmək üçün praktiki olaraq digər dövlətə avtomatik surətdə köçürülə bilərlər.[609]

604 AİHM, Frasik Polşaya qarşı, ərizə № 22933/02, 5 yanvar 2010-cu il, 63-cü bənd.
605 AİHM, Kuttner Avstriyaya qarşı, ərizə № 7997/08, 16 iyul 2015-ci il, 36-38-ci bəndlər.
606 Avropa Şurası, Məhkumların təhvil verilməsi haqqında Konvensiya, CETS № 112, 1983-cü il; Avropa Şurası, Məhkumların təhvil verilməsi haqqında Konvensiyanın Əlavə Protokolu, CETS № 167, 1997-ci il; Avropa İttifaqında cinayət işləri üzrə azadlıqdan məhrumetmə növündə cəzanı və ya azadlıqdan məhrumetmə ilə əlaqədar olan tədbirləri nəzərdə tutan qərarların qarşılıqlı tanınması prinsipinin tətbiqi haqqında Aİ Şurasının 27 noyabr 2008-ci il tarixli 2008/909/JHA saylı Çərçivə qərarı, OJ L 327, 5.12.2008; bu qərara 2009/299/JHA saylı Çərçivə qərarı (OJ 2009 L 81) ilə dəyişiklik edilib. Həmçinin bax: AİHM, Somogi Macarıstana qarşı, ərizə № 5770/05, 11 yanvar 2011-ci il, 22-ci bənd (bu işdə ərizəçi cəzasını çəkmək üçün öz ölkəsinə qaytarıldıqdan sonra cəzası daha da ağırlaşmışdı).
607 Avropa Şurası, Şərti məhkum olunmuş və ya şərti azad edilmiş hüquqpozanlara nəzarət haqqında Konvensiya, CETS № 51, 1964; Avropa İttifaqına üzv olan dövlətlər arasında müvəqqəti həbsin alternativi qismində nəzarətə götürmə barədə qərarların qarşılıqlı tanınması prinsipinin tətbiqi haqqında Aİ Şurasının 23 oktyabr 2009-cu il tarixli 2009/829/JHA saylı Çərçivə qərarı, OJ 2009 L 294; Probasiya tədbirlərinə və alternativ sanksiyalara nəzarət məqsədi ilə hökmlərin və probasiya qərarlarının qarşılıqlı tanınması prinsipinin tətbiqi haqqında Aİ Şurasının 27 noyabr 2008-ci il tarixli 2008/947/JHA saylı Çərçivə qərarı, OJ 2008 L 337/102; Avropa Şurası, Nazirlər Komitəsi (2010), Avropa Probasiya qaydaları haqqında üzv dövlətlərə Rec(2010)1 saylı tövsiyə, 20 yanvar 2010-cu il; Avropa Şurası, Nazirlər Komitəsi (2000), İctimai sanksiyalar və tədbirlər haqqında Avropa qaydalarının tətbiqinin təkmilləşdirilməsinə dair üzv dövlətlərə Rec(2000)22 saylı tövsiyə, 29 noyabr 2000-ci il; Avropa Şurası, Nazirlər Komitəsi (1992), İctimai sanksiyalar və tədbirlər haqqında Avropa qaydalarına dair üzv dövlətlərə Rec(92)16 saylı tövsiyə, 19 oktyabr 1992-ci il.
608 Avropa Şurası, Nazirlər Komitəsi (2012), Üzv dövlətlərə əcnəbi məhbuslarla əlaqədar Rec(2012)12 saylı tövsiyə, 10 oktyabr 2012-ci il, 13.2.b bəndi (həmin bənddə bu məhbusların qarşılaşa biləcəyi çətinliklərdən bəhs edilir və onlarla rəftarın əsas prinsipləri müəyyən edilir).
609 Avropa həbs orderi və üzv dövlətlər arasında təhvil vermə prosedurları haqqında 2002/584/JHA saylı çərçivə qərarı, OJ 2002 L 190/1.

Buna görə də Aİ-nin direktivlərində üzv dövlətlərdə ədalətli məhkəmə araşdırması hüquqlarını gücləndirməyə yönələn hüquqlar müəyyən edilib (yuxarıya bax).

### 8.3.3. Qanunsuz həbsə görə kompensasiya

AİHK-ın 5-ci maddəsinin 5-ci bəndində 5-ci maddəyə zidd olaraq tutulmuş və ya həbs edilmiş şəxslər üçün məcburi hüquqi qüvvəyə malik kompensasiya hüququ müəyyən edilir.[610] Fundamental hüquqlar haqqında Aİ Xartiyasına dair izahatlara əsasən, AİHK-ın 5-ci maddəsi ilə təmin edilən hüquqlar Xartiyasının 6-cı maddəsi ilə qorunur.

Kompensasiya hüququnun təmin edə biləcək konkret məbləği müəyyən edilməyib.[611] Dövlətlər ödəniləcək məbləğin müəyyənləşdirilməsində qiymətləndirmə sərbəstliyinə malikdirlər və ziyanın sübuta yetirilməsini tələb edə bilərlər.[612] Lakin ərizəçinin məhkəməyəqədər həbs müddətinin eyni hüquq pozuntusu ilə əlaqəsi olmayan başqa hüquq pozuntusuna görə təyin olunmuş cəza müddətinin hesablanmasında nəzərə alınması 5-ci maddənin 5-ci bəndində nəzərdə tutulmuş kompensasiya hüququna uyğun deyil.[613] Eləcə də təyin olunan kompensasiya məbləği 5-ci maddənin analoji pozuntularına görə AİHM tərəfindən təyin olunmuş məbləğlərdən əhəmiyyətli dərəcədə aşağı ola bilməz.[614]

610 Həmçinin bax: AİHK-ın 7 saylı Protokolu, 3-cü maddə (həmin maddədə məhkəmə səhvinə görə kompensasiyadan bəhs edilir).
611 AİHM, Damyan-Burueana və Damyan Rumıniyaya qarşı, ərizə № 6773/02, 26 may 2009-cu il, 89-cu bənd.
612 AİHM, Vassink Niderlanda qarşı, ərizə № 12535/86, 27 sentyabr 1990-cı il, 38-ci bənd.
613 AİHM, Vlox Polşaya qarşı (№ 2), ərizə № 33475/08, 10 may 2011-ci il, 32-ci bənd.
614 AİHM, Kristina Boyçenko Moldovaya qarşı, ərizə № 25688/09, 27 sentyabr 2011-ci il, 43-cü bənd.

# 8.4. Ətraf mühit hüququ

## Əsas məqamlar

- AİHK sağlam ətraf mühit hüququnu təmin etmir, amma bununla belə, ətraf mühitə aid işlərdə AİHK-da yer alan hüquqlara (məsələn, şəxsi və ailə həyatına hörmət hüququna) istinad edilə bilər. Ətraf mühitin mühafizəsinə yönələn actio popularis prosesləri (ictimai maraqların müdafiəsi naminə məhkəmə çəkişmələri) AİHK-da nəzərdə tutulmayıb.
- Aİ Orxus Konvensiyasını qəbul edilib. Bu Konvensiya ətraf mühit məsələlərinə dair qərarların qəbulu prosesində ictimaiyyətin iştirakını nəzərdə tutur və Konvensiyada yer alan ekoloji hüquq normaları pozulduqda fərdlərin və QHT-lərin ədalət mühakiməsinə çatımını  təmin edir.
- Bəzi QHT-lərin bu cür proseslərdə iştirakını məhdudlaşdıran milli normalar Aİ hüququna zidd ola bilər.

“Ətraf mühit” aşağıdakıları özündə ehtiva edən məfhum kimi müəyyən edilib: hava, su, torpaq, fauna və floranı; mədəni irsin bir hissəsini təşkil edən əmlakı; və landşaftın səciyyəvi aspektlərini.[615] Ekoloji məsələlər mülki, siyasi, sosial və iqtisadi hüquqları özündə ehtiva edə bilər. Sağlam ətraf mühit hüququ həm də kollektiv hüquqdur, çünki sağlam ətraf mühit həm hazırda, həm də gələcəkdə bütün cəmiyyətə təsir göstərən amildir.

Məsələn, BMT-nin Orxus Konvensiyasının 1-ci maddəsində indiki və gələcək nəsillərin sağlamlığı və rifahı üçün əlverişli olan ətraf mühitdə yaşamaq hüququ təsbit olunub.[616] Konvensiyada etiraf edilir ki, buna nail olmaq üçün aşağıdakı “üç komponentə” nail olmaq tələb olunur: ətraf mühitə dair məlumatların əldə edilməsi, ətraf mühitə aid məsələlərdə ictimaiyyətin iştirakı və ədalət mühakiməsinə çatımın təmin edilməsi, yəni ədalət mühakiməsinə çatımın qarşısındakı maneələrin aradan qaldırılması, məsələn, qərarlardan şikayət verilməsinin məsrəflərinin həddən artıq yüksək olmaması. 6.2-ci bölmədə qeyd edilib ki, prosesdə iştirakla bağlı sərt qaydaların tətbiqi ədalət mühakiməsinə çatımın qarşısında prosessual maneəyə bərabərdir. Orxus Konvensiyasının 9-cu maddəsində ətraf mühitə aid məsələlərlə bağlı ədalət mühakiməsinə çatım sahəsində (üçüncü komponent) konkret hüquqlar öz əksini tapıb.

615 Avropa Şurası, Ətraf mühit üçün təhlükəli fəaliyyət nəticəsində dəymiş ziyana görə mülki məsuliyyət haqqında Konvensiya, CETS № 150, 1993, mad. 2 (10).

616 BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) (1998), Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Orxus Konvensiyası, 25 iyun 1998-ci il. Bu Konvensiya Aİ tərəfindən və bir dövlət (İrlandiya) istisna olmaqla Aİ üzvü olan bütün dövlətlər tərəfindən ratifikasiya olunub.

AŞ hüququna əsasən, AİHK-da sağlam ətraf mühit hüququ nəzərdə tutulmayıb, amma AİHM-in presedent hüququ təsdiq edir ki, ətraf mühitə aid işlərdə AİHK-da yer alan müəyyən hüquqlara, məsələn, AİHK-ın 2-ci maddəsinə (yaşamaq hüququ)[617] 8-ci maddəsinə (şəxsi və ailə həyatına hörmət hüququ)[618] istinad edilə bilər. Ətraf mühitin ciddi şəkildə çirkləndirilməsi insanların sağlamlığına təsir göstərə, onların öz evlərində istədikləri kimi yaşamalarına mane ola və onların şəxsi və ailə həyatına mənfi təsirə malik ola bilər.[619]

Nümunə: *Tatar Rumıniyaya qarşı* məhkəmə işində[620] ərizəçilər qızıl-filiz hasilatı zavodunun yaxınlığında yerləşən yaşayış zonasında yaşayırdılar. Onlar şirkət tərəfindən natrium sianidin istifadəsini özündə ehtiva edən texnoloji prosedurun tətbiqi səbəbindən məruz qaldıqları risklərlə bağlı bir neçə dəfə şikayət etmişdilər. 2000-ci ildə hakimiyyət orqanları ərazidə yetərli təhlükəsizlik mexanizmlərinin mövcud olduğuna ərizəçiləri əmin etsələr də, çoxlu miqdarda çirkab suları müxtəlif çaylara tökülmüş, bir neçə sərhədləri keçmiş və bir neçə ölkənin ətraf mühitinə təsir göstərmişdi. Ərizəçilər iddia etdilər ki, bu çirklənmə onların sağlamlığına mənfi təsir göstərib.

AİHM qərara aldı ki, 8-ci maddə ətraf mühitin çirklənməsinə bilavasitə dövlətin səbəb olduğu işlərdə tətbiq edilə bilər və ya özəl sektorun dövlət tərəfindən lazımi qaydada tənzimlənmədiyi hallarda həmin maddə üzrə dövlətin məsuliyyəti yarana bilər. Məhkəmə qərara aldı ki, Rumıniyanın dövlət orqanları hakimiyyəti mümkün risklərin öncədən qənaətbəxş şəkildə qiymətləndirilməsini həyata keçirməyiblər, maraqlı şəxslərə kifayət qədər məlumat verməyiblər və insidentdən sonra zavodun istehsalat fəaliyyətinə son qoymayıblar. Beləliklə, 8-ci maddə pozulub. 8-ci maddədə hər hansı prosessual tələb birbaşa yer almasa da, müdaxilə tədbirlərinə gətirib çıxaran qərarların qəbulu prosesi ədalətli olmalı və fərdin bu maddə ilə təmin edilən maraqları həmin prosesdə yetərincə nəzərə alınmalıdır.

Yalnız konkret olaraq ekoloji proseslərin təsirinə məruz qalanlar ətraf mühitlə bağlı qərarların qəbulunda iştirak etmək hüququna malikdirlər. Ətraf mühitin mühafizəsinə yönələn actio popularis prosesləri, yəni bu sahədə ictimaiyyətin malik olduğu hüquqların qorunması və müdafiəsinin təmin edilməsi (ictimai maraqların müdafiəsi naminə məhkəmə çəkişmələri) AİHK-da nəzərdə tutulmayıb.[621]

617 Misal üçün bax: AİHM, Öneryıldız Türkiyəyə qarşı [BP], ərizə № 48939/99, 30 noyabr 2004-cü il, 111-118-ci bəndlər (2-ci maddənin prosessual aspektlərinə aid bəndlər).

618 Misal üçün bax: AİHM, Lopes Ostra İspaniyaya qarşı, ərizə № 16798/90, 9 dekabr 1994-cü il, 58-ci bənd; AİHM, Taşkın və başqaları Türkiyəyə qarşı, ərizə № 46117/99, 10 noyabr 2004-cü il, 126-cı bənd. Həmçinin bax: Avropa Şurası (2012), Ətraf mühit sahəsində insan hüquqlarına dair təlimat kitabı. Həmçinin bax: Avropa Şurası, Cinayət hüququ vasitəsilə ətraf mühitin mühafizəsi haqqında Konvensiya, CETS № 172, 1998-ci il (bu Konvensiya iştirakçı dövlətlərdən tələb edir ki, ciddi ekoloji hüquq pozuntularını kriminallaşdırsınlar və bu sahədə cinayət hüququ normalarının yerinə yetirilməsində əməkdaşlıq etsinlər).

619 AİHM, Gerra və başqaları İtaliyaya qarşı [BP], ərizə № 14967/89, 19 fevral 1998-ci il, 60-cı bənd.

620 AİHM, Tatar Rumıniyaya qarşı, ərizə № 67021/01, 27 yanvar 2009-cu il.

621 AİHM, İlhan Türkiyəyə qarşı [BP], ərizə № 22277/93, 27 iyun 2000-ci il, 52-53-cü bəndlər.

**Perspektivli praktika**

**Ekoloji demokratiyanın praktikada təşviqi**

itva ölkələrin qəbul edilmiş ekoloji standartlar əsasında qiymətləndirildiyi "Ekoloji demokratiya indeksi"nin (EDİ) reytinqində ən yüksək pillədə qərarlaşıb və bütövlükdə hüquqi indeks üzrə ən yüksək bal alıb. İctimaiyyət ekoloji informasiyaların təqdim edilməsindən imtina hallarından şikayət etmək və ekoloji hüquqları pozulduqda və ya ziyana məruz qaldıqda bir çox müxtəlif məhkəmə iddiaları qaldırmaq hüququna malikdir. Litva ekoloji hüquqların qanunvericilikdə təsbit edilməsi istiqamətində bir sıra addımlar atıb ki, bu da ekoloji demokratiyanın dəstəklənməsinə yönəlib. Əlavə təfsilatları EDİ-nin İnternet saytından tapmaq olar.

*Mənbə: www.environmentaldemocracyindex.org/country/ltu.*

AİHM-in qərarlarında beynəlxalq ekoloji standartlardan və Orxus Konvensiyasında yer alan hüquqlardan bəhs edilir.[622] Məhkəmə həmçinin ətraf mühitin sağlamlığa ciddi təsirlərinin mümkün olduğu hallarda hökumətdən informasiya əldə etmək hüququnun vacibliyini təsdiqləyib.[623] Hökumət müvafiq şəxslərin sağlamlığı üçün mənfi nəticələr doğura bilən ekoloji zərərli fəaliyyətlərlə məşğul olduğu hallarda 8-ci maddə tələb edir ki, maraqlı şəxslərin bütün aktual və lazımi informasiyaları əldə etməsi üçün səmərəli və əlçatan prosedur təşkil edilməlidir.[624] AİHM həmçinin qəbul edib ki, assosiasiya fərdi əmlaklarına və üzvlərinin həyatına qarşı konkret və birbaşa təhlükənin mövcudluğundan şikayət etmək üçün ədalət mühakiməsinə çatım hüququna malikdir.[625]

Sağlamlığın mühafizəsi hüququ həmçinin Avropa Şurasının qəbul etdiyi Avropa Sosial Xartiyasının 11-ci maddəsində və Sosial Xartiyanın yenilənmiş versiyasının eyni maddəsində öz əksini tapıb.[626] Bu Xartiyanın 1998-ci ildə qüvvəyə minmiş Əlavə Protokoluna əsasən, milli həmkarlar ittifaqları və işəgötürənlərin milli təşkilatları, eləcə də bəzi Avropa həmkarlar ittifaqları və işəgötürənlərin Avropa təşkilatları və beynəlxalq QHT-lər hüquq pozuntuları ilə əlaqədar olaraq Avropa Sosial Hüquqlar Komitəsinə Protokolun iştirakçısı olan dövlətlərə qarşı şikayət vermək hüququna malikdirlər. Bundan əlavə, müvafiq dövlət bu sahədə milli QHT-lərin şikayət vermək hüququnu tanıdığını bəyan edərsə, milli QHT-lər də şikayət verə bilərlər.

Aİ hüququna əsasən, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 37-ci

622 AİHM, Tatar Rumıniyaya qarşı, ərizə № 67021/01, 27 yanvar 2009-cu il, 93, 101, 113-116 və 118-ci bəndlər.
623 AİHM, Makginli və İqan Birləşmiş Krallığa qarşı, ərizələr № 21825/93 və 23414/94, 9 iyun 1998-ci il, 101-ci bənd.
624 AİHM, Cakomelli İtaliyaya qarşı, ərizə № 59909/00, 2 noyabr 2006-cı il.
625 AİHM, Qorrais Lisarraqa və başqaları İspaniyaya qarşı, ərizə № 62543/00, 27 aprel 2004-cü il.
626 Avropa Şurası, Avropa Sosial Xartiyası, CETS № 35, 1961-ci il; və Avropa Şurası, Yenilənmiş Sosial Xartiya, CETS № 163, 1996-cı il.

maddəsində deyilir ki, ətraf mühitin daha yüksək səviyyəli mühafizəsi və ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması məsələləri İttifaqın siyasətində yer almalıdır.[627] Bundan başqa, bu məlumat kitabında dəfələrlə qeyd edildiyi kimi, Fundamental hüquqlar haqqında Aİ Xartiyasının 47-ci maddəsi Aİ hüququndan irəli gələn bütün hüquqlarla bağlı ədalət mühakiməsinə çatım hüququnu təmin edir.

Bundan əlavə, Aİ-nin ikinci dərəcəli qanunvericiliyində ədalət mühakiməsinə çatım hüquqları öz əksini tapıb. Orxus Konvensiyanın bəzi müddəalarına 2003/4/EC saylı direktivdə ("ətraf mühitə dair məlumatların əldə edilməsi" komponenti), 2003/35/EC saylı direktivdə ("ətraf mühitə aid məsələlərdə ictimaiyyətin iştirakı və ədalət mühakiməsinə çatımın təmin edilməsi" komponenti) və (EC) 1367/2006 saylı Reqlamentdə (bu sənədə əsasən Orxus Konvensiyası Aİ təsisatlarına və orqanlarına şamil olunur) rast gəlmək olar.[628] Hazırda ədalət mühakiməsinə çatıma dair normalar bir sıra müxtəlif ictimai və özəl layihələrə şamil olunan Ətraf mühitə təsirlər haqqında direktivin (ƏTD) 10-cu maddəsinə[629] və Sənaye tullantıları haqqında direktivin 25-ci maddəsinə[630] daxil edilib.

ƏTD-nın 11-ci maddəsi üzv dövlətlərdən tələb edir ki, ƏTD-də yer alan iştirakçılıq tələblərinin şamil olunduğu qərarların "substantiv və ya prosessual baxımdan qanuniliyi" məsələsindən "maraqlı ictimaiyyətin" şikayət edə bilməsi üçün həmin qərarlara yenidən baxılması proseduruna çıxışı təmin etsinlər. ƏTD-nin 1-ci maddəsinin 2-ci bəndinə əsasən, "maraqlı ictimaiyyət" dedikdə "ətraf mühitlə bağlı qərarların qəbulu prosedurlarının təsir göstərdiyi və ya təsir göstərə biləcəyi, yaxud da həmin qərarlara münasibətdə maraqları olan ictimaiyyət" nəzərdə tutulur. Buraya QHT-lər də daxildir. Beləliklə, Orxus Konvensiyası və müvafiq Aİ direktivləri

---

627 Həmçinin bax: Aİ haqqında müqavilə, mad. 3 (3) və Aİ-nin fəaliyyəti haqqında müqavilə, 11 və 191-ci maddələr.

628 İctimaiyyətin ətraf mühit barəsində məlumatlara çıxışı və Aİ Şurasının 90/313/EEC saylı direktivinin ləğv edilməsi haqqında Aİ Parlamentinin və Aİ Şurasının 28 yanvar 2003-cü il tarixli 2003/4/EC saylı direktivi, OJ 2003 L 41; Ətraf mühitə dair müəyyən planların və proqramların hazırlanmasında ictimaiyyətin iştirakının təmin edilməsi və Aİ Şurasının ictimai iştirakçılıq və ədalət mühakiməsinə çatım barəsindəki 85/337/EEC və 96/61/E saylı direktivlətində dəyişilik edilməsi haqqında Aİ Parlamentinin və Şurasının 26 may 2003-cü il tarixli 2003/35/EC saylı direktivi, OJ 2003 L 156; Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Orxus Konvensiyasının müddəalarının Birliyin təsisatlarına və orqanlarına tətbiqi haqqında Aİ Parlamentinin və Şurasının 6 sentyabr 2006-cı il tarixli (EC) 1367/2006 saylı reqlamenti, OJ 2006 L 264. Həmçinin bax: AİƏM, C-240/09, Lesoochranárske zoskupenie VLK v. Ministerstvo životného prostredia Slovenskej republiky, 8 mart 2011-ci il.

629 Müəyyən dövlət layihələrinin və özəl layihələrin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi haqqında Aİ Parlamentinin və Şurasının 13 dekabr 2011-ci il tarixli 2011/92/EU saylı direktivi, OJ 2012 L 26; həmin direktivdə aşağıdakı direktiv vasitəsilə dəyişikliklər edilib: Müəyyən dövlət layihələrinin və özəl layihələrin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi haqqında 2011/92/EU saylı direktivdə dəyişikliklər edilməsi haqqında Aİ Parlamentinin və Şurasının 16 aprel 2014-cü il tarixli 2014/52/EU saylı direktivi, OJ 2014 L 124.

630 Sənaye tullantıları (çirklənmənin kompleks halında qarşısının alınması və nəzarətdə saxlanması) haqqında Aİ Parlamentinin və Şurasının 24 noyabr 2010-cu il tarixli 2010/75/EU saylı direktivi, OJ 2010 L 334.

QHT-lər tərəfindən irəli sürülən iddia tələblərinin milli məhkəmələr tərəfindən qəbul edilməsini tələb edir ki, bu da bu hüququn kollektiv əhəmiyyətini əks etdirir.[631] QHT-lərin prosesdə tərəf kimi iştirak etməsini məhdudlaşdıran milli normalar ƏTD-nin məqsədlərinə zidd ola bilər.[632]

Nümunə: *Bund für Umwelt und Naturschutz Deautschland, Landesverband Nordrhein-Westfalen eV v. Bezirksregierung Arnsberg* məhkəmə işində (*"Trianel" işi*)[633] "Trianel" şirkətinə Lünendə (Almaniya) kömürlə işləyən elektrik stansiyasının tikilməsi və istismarı üçün icazə verilmişdi. Stansiya üçün təklif olunan yer Habitat Direktivinə əsasən xüsusi mühafizə zonası hesab edilən beş məkanın yaxınlığında idi. Bir QHT icazənin ləğv olunması üçün məhkəməyə müraciət edərək iddia etdi ki, o, bu direktivin Almaniya qanunvericiliyinə daxil edilmiş müddəalarını pozur. Almaniya məhkəməsi qərara aldı ki, Almaniya qanunvericiliyinə əsasən QHT ümumi hüquqların pozulduğu barədə iddia qaldıra bilməz. Məhkəməyə müraciət edə bilməsi üçün onun öz hüquqları pozulmuş olmalıdır. Məhkəmə AİƏM-ə belə bir sorğu ilə müraciət etdi ki, bu qərar ƏTD-nin ədalət mühakiməsinə çatıma dair müddəalarına zidd deyil ki?

AİƏM bu qənaətə gəldi ki, milli qanunvericiliyin müddəaları bu sahədə dəqiq öhdəliklər müəyyən edən Aİ qanunvericiliyindən götürüldüyünə görə, üzv dövlət ekoloji təşkilatların prosesdə iştirakının fərdi hüquqlar konsepsiyasından asılı hala salınmasını tələb edə bilməz.

Məhkəmədə iddia qaldırmanın xərcləri ədalət mühakiməsinə çatımın qarşısında ümumi maneədir. Həm Aİ qanunvericiliyi, həm də Orxus Konvensiyası üzv dövlətlərin və iştirakçı tərəflərin üzərinə ətraf mühit məsələlərinə aid məhkəmə proseslərinin "çəkindirici dərəcədə bahalı" olmamasını təmin etmək öhdəliyini qoyur.[634] Daxili məhkəmələr yalnız ayrı-ayrı iddiaçıların maddi imkanlarına nəzər salmamalı, həm də bir sıra digər amilləri, o cümlədən aşağıdakıları nəzərə almalıdırlar: iddiaçının işi udması perspektivinin ağlabatan olub-olmadığını; işin iddiaçı üçün və ətraf mühitin mühafizəsi üçün nə dərəcədə önəmli olduğunu; müvafiq hüquqi məsələlərin mürəkkəbliyini; ətraf mühitin mühafizəsinin ictimai və ya digər mənbələrdən

631 AİƏM, Birləşdirilmiş işlər C-128/09, C-129/09, C-130/09, C-131/09, C-134/09 və C-135/09, Antoine Boxus and Willy Roua, Guido Durlet and Others, Paul Fastrez and Henriette Fastrez, Philippe Daras, Association des riverains et habitants des communes proches de l'aéroport BSCA (Brussels South Charleroi Airport) (ARACh), Bernard Page and Léon L'Hoir and Nadine Dartois v. Région wallonne, 18 oktyabr 2011-ci il, 44-46 və 51-ci bəndlər. Ümumən məhkəmə prosesində tərəf qismində iştirakla bağlı bu mənbəyə bax: European Parliament, Directorate General for Internal Policies (2012), Standing up for your right(s) in Europe: A Comparative study on Legal Standing (Locus Standi) before the EU and Member States' Courts.

632 AİƏM, C-263/08, Djurgården-Lilla Värtans Miljöskyddsförening v. Stockholms kommun genom dess marknämnd, 15 oktyabr 2009-cu il.

633 AİƏM, C-115/09-cu il, Bund für Umwelt und Naturschutz Deutschland, Landesverband Nordrhein-Westfalen eV v. Bezirksregierung Arnsberg, 12 may 2011-ci il.

634 BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) (1998), Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Konvensiya, 25 iyun 1998-ci il, mad. 9 (4) (ədalət mühakiməsinə çatıma dair müddəalar).

maliyyələşdirməsi sistemlərinin mövcud olub-olmadığını.[635] Məhkəmələrin öz diskresion səlahiyyətlərindən istifadə edərək məhkəmə xərclərini işi uduzmuş tərəfin üzərinə qoymaqdan imtina edəcəklərinə ümid bəsləmək hüquqi qeyri-müəyyənlik yaradır və Aİ qanunvericiliyinin tələblərinin milli səviyyədə səmərəli tətbiqinə imkan vermir.[636]

## 8.5. Elektron ədalət mühakiməsi

### Əsas məqamlar

- Texnologiyaların tətbiqi məhkəmə prosesinin səmərəliliyini və şəffaflığını artıra və fərdlərin ədalət mühakiməsinə çatımını asanlaşdıra bilər. Lakin eyni zamanda texnologiyaların bütünlüklə ənənəvi prosedurları əvəz etməsi bəzilərinin (məsələn, İnternetə çıxışı olmayanların) ədalət mühakiməsinə çatımına xələl gətirə bilər.
- AİƏM bildirib ki, “elektron vasitələr” ədalət mühakiməsinə çatım üçün təklif olunan yeganə vasitələr ola bilməz, çünki bu, bəzi insanların öz hüquqlarını həyata keçirmələrini mümkünsüz edə bilər.

Texnologiyaların tətbiqi məhkəmə prosesinin səmərəliliyini və şəffaflığını artıra və fərdlərin ədalət mühakiməsinə çatımını asanlaşdıra bilər. “Elektron ədalət mühakiməsi” termini geniş çeşidli təşəbbüsləri, o cümlədən aşağıdakıları əhatə edir: elektron poçtdan istifadəni; iddia ərizələrinin onlayn qaydada təqdim edilməsini; informasiyaların (o cümlədən presedent hüququna aid məlumatların) onlayn rejimində verilməsini; videodinləmə və videokonfrans texnologiyasından istifadə vasitəsilə məhkəmə prosesində iştirakı; işlərin qeydiyyatının və icraatının gedişinin onlayn rejimində izlənilməsini; və hakimlərin və ya qərarları qəbul edən digər şəxslərin informasiyalara elektron qaydada çıxışını. Bu bölmədə elektron ədalət mühakiməsi ilə bağlı tələblərdən bəhs edilir və daha sonra Aİ qanunvericiliyi əsasında tətbiq edilən bu cür təşəbbüslərin konkret nümunələri təqdim edilir.

AŞ hüququna əsasən, AİHM elektron ədalət mühakiməsi ilə bağlı heç bir konkret tələb müəyyən etmir, lakin elektron ədalət mühakiməsi təşəbbüsləri tətbiq edilərkən AİHK-ın 6-cı maddəsində yer alan məhkəməyə müraciət imkanı və ədalətli məhkəmə araşdırması hüququ haqqında normalar nəzərə alınmalıdır.

635 AİƏM, C 260/11, The Queen, on the application of David Edwards and Lilian Pallikaropoulos v. Environment Agency and Others, 11 aprel 2013-cü il, 46-cı bənd.
636 AİƏM, C-427/07, Commission of the European Communities v. Ireland, 16 iyul 2009-cu il, 94-cü bənd. Həmçinin bax: AİƏM, C 530/11, European Commission v. the United Kingdom of Great Britain and Northern Ireland, 13 fevral 2014-cü il, 54-58-ci bəndlər.

Nümunə: *"Lawyer Partners a.s." Slovakiyaya qarşı* məhkəmə işində[637] məhdud məsuliyyətli özəl şirkət olan ərizəçi borclarının ona qaytarılması üçün 70.000-dən artıq mülki iddia qaldırmışdı. İddiaların sayının olduqca çox olduğunu nəzərə alaraq, o, iddia ərizələrini kompakt rəqəmsal diskə (DVD-yə) yazmış və izahlı məktubla birlikdə məhkəməyə göndərmişdi. Baxmayaraq ki, daxili qanunvericilik iddia ərizələrinin bu qaydada verilməsinə icazə verirdi, məhkəmə zəruri avadanlığın olmadığını əsas gətirərək onları qeydiyyata almaqdan imtina etmişdi. Konstitusiya Məhkəməsinə verilmiş şikayət qanunla müəyyən edilmiş iki aylıq müddət buraxıldığına görə rədd edilmişdi.

AİHM qeyd etdi ki, şirkətin iddia ərizələri və onlara əlavə olunmuş sənədlər çap olunmuş halda təqdim edilsəydi, onların həcmi 40 milyon səhifədən artıq olacaqdı. Belə olan halda onun ərizələri təqdim etmək üçün bu vasitəni seçməsi məqsədəuyğun olmayan seçim sayıla bilməzdi. Daxili qanunvericilikdə iddia ərizələrinin məhkəməyə elektron formada təqdim edilməsi imkanı nəzərdə tutulmuşdu və ərizəçi şirkət bu imkandan istifadə etdiyinə görə tənqid edə bilməzdi. Məhkəmənin onun iddia ərizələrini qeydiyyata almaqdan imtina etməsi onun məhkəməyə müraciət hüququna qoyulan qeyri-mütənasib məhdudiyyət təşkil edirdi.

Aİ-nin "ədalət mühakiməsi sahəsində vahid elektron pəncərə" sistemi olan Avropa elektron ədalət mühakiməsi portalı Aİ-na üzv olan və e-CODEX-in (fərdlərin və müəssisələrin ölkə sərhədləri xaricindəki hüquqi vasitələrə çıxış imkanlarını, konkret olaraq sərhədlərarası hüquqi prosedurlardan onlayn qaydada istifadə etmə imkanlarını yaxşılaşdırmaq üçün nəzərdə tutulan irimiqyaslı layihə) iştirakçısı olan dövlətlərdə Aİ-nin müvafiq ikinci dərəcəli qanunvericiliyinə uyğun olaraq fərdlərin kiçik məbləğli transsərhəd iddialarını və ya ödəniş tapşırıqlarını hazırda onlayn qaydada təqdim etmələrinə imkan yaradır. 1896/2006 saylı reqlamentə uyğun olaraq Avropa Ödəniş Tapşırığı (EPO) proseduru təsis edilib.[638] Bu prosedur mülki və kommersiya hüququ sahəsinə aid məsələlər üzrə mübahisələndirilməyən maddi iddialarla bağlı transsərhəd işlərinin həllini sadələşdirir. Avropa Ödəniş Tapşırığı onun qanuni qüvvəyə minməsinin elan edilməsinə ehtiyac olmadan Aİ-na üzv olan bütün dövlətlərdə tanınır və icra edilir, yeganə istisna Danimarkadır. O, kreditorların doldurula və səlahiyyətli məhkəməyə göndərilə biləcək standart formalardan istifadə etməklə məhkəməyə gəlmədən iddia tələbləri təqdim etmələrinə imkan yaradır.

Aİ-nin (EC) 861/2007 saylı reqlamentinə əsasən, iddia tələbləri "kiçik məbləğli iddialar üzrə Avropa proseduru"na uyğun olaraq Avropa elektron ədalət mühakiməsi portalı vasitəsilə də irəli sürülə bilər. Bu vasitə mülki və kommersiya

637 AİHM, "Lawyer Partners a.s." Slovakiyaya qarşı, ərizələr № 54252/07, 3274/08, 3377/08, 3505/08, 3526/08, 3741/08, 3786/08, 3807/08, 3824/08, 15055/08, 29548/08, 29551/08, 29552/08, 29555/08 və 29557/08, 16 iyun 2009-cu il.

638 Avropa əmr icraatının tətbiqi haqqında Aİ Parlamentinin və Şurasının 12 dekabr 2006-cıl il tarixli (EC) 1896/2006 saylı reqlamenti, OJ 2006 L 399.

hüququ məsələləri üzrə məbləği 2000 avrodan çox olmayan iddia tələblərinin irəli sürülməsi prosedurlarının təkmilləşdirilməsi və sadələşdirilməsi məqsədini daşıyır.[639] Kiçik məbləğli iddialar üzrə prosedur, Danimarka istisna olmaqla, Aİ-yə üzv olan bütün dövlətlərə şamil olunur. Şifahi məhkəmə iclası məhkəmə tərəfindən zəruri hesab edilməzsə, bu prosedur yazılı şəkildə aparılır.[640] Bu prosedur məhkəmə prosesinin operativ şəkildə aparılması üçün tərəflərin və məhkəmənin qarşısında müddət tələbi qoyur və həm maddi, həm də mənəvi ziyanla bağlı iddialara tətbiq edilir. Bir qayda olaraq, bu prosedur nəticəsində çıxarılmış məhkəmə qərarı digər üzv dövlətdə avtomatik olaraq tanınmalı və icra edilməlidir.

Videokonfransların və videodinləmələrin tətbiqinin inkişaf etdirilməsi də ədalət mühakiməsinin həyata keçirilməsinin asanlaşdırılmasına kömək edə bilər. Məsələn, Avropa Nəzarət Orderi Aİ-yə üzv olan dövlətlərə imkan verir ki, məhkəmə araşdırmasını gözləyən şübhəli və ya təqsirləndirilən şəxslərin yaşayış yerinin olduğu dövlətlərin ərazisində nəzarət altında olmaqla azadlığa buraxılmaları barədə nəzarət orderi qəbul etsinlər.[641] 19-cu maddənin 4-cü bəndində nəzərdə tutulur ki, milli qanunvericilik nəzarət orderi qəbul etmiş üzv dövlətin nəzarət tədbirlərini dəyişməzdən və ya həbs orderi qəbul etməzdən əvvəl müttəhimi dinləməsini tələb edirsə, telekonfranslardan və videokonfranslardan istifadə edilə bilər. Dinləmələr üçün videokonfranslardan istifadə edilməsi Aİ-nin digər sənədlərində də təşviq edilir.[642]

639 Kiçik məbləğli iddialar üzrə Avropa prosedurunun təsis edilməsi haqqında Aİ Parlamentinin və Şurasının 11 iyul 2007-ci il tarixli (EC) 861/2007 saylı reqlamenti, OJ 2007 L 199.
640 (EC) 861/2007 saylı reqlament, mad. 5 (1).
641 Bu məsələ məhkəmə araşdırmasını gözləməkdə olan şəxslərin başqa ölkəyə köçürülməsi ilə bağlı Aİ qanunvericiliyinin praktikada necə tətbiq edildiyinə dair FRA-nın hazırlayacağı hesabatda öz əksini tapacaq.
642 Avropa İttifaqına üzv olan dövlətlər arasında müvəqqəti həbsin alternativi qismində nəzarətə götürmə barədə qərarların qarşılıqlı tanınması prinsipinin tətbiqi haqqında Aİ Şurasının 23 oktyabr 2009-cu il tarixli 2009/829/JHA saylı Çərçivə qərarı, OJ 2009 L 294. Həmçini bax: 2012/29/EU saylı direktiv, mad. 17; Avropa İttifaqına üzv olan dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Konvensiyanın qəbuluna dair Aİ Şurasının 29 may 2000-ci il tarixli aktı, OJ 2000 C 197, mad. 10; Mülki və kommersiya işləri üzrə sübutların qəbul edilməsində Avropa İttifaqına üzv olan dövlətlərin məhkəmələrinin əməkdaşlığı haqqında Aİ Şurasının 28 may 2001-ci il tarixli (EC) 1206/2001 saylı reqlamenti, OJ 2001 L 174, mad. 10 (4) və 17 (4) (bu sənədin məqsədi sübutların qəbul edilməsində məhkəmələr arasında əməkdaşlığın təkmilləşdirilməsi, sadələşdirilməsi və sürətləndirilməsidir); Cinayət qurbanlarına kompensasiya ödənilməsi haqqında Aİ Şurasının 29 aprel 2004-cü il tarixli 2004/80/EC saylı direktivi, OJ 2004 L 261, mad. 9 (1); və Kiçik məbləğli iddialar üzrə Avropa prosedurunun təsis edilməsi haqqında Aİ Parlamentinin və Şurasının 11 iyul 2007-ci il tarixli (EC) 861/2007 saylı reqlamenti, maddələr 8 və 9 (1).

## Perspektivli praktika

**Cəza təyin edilməsinin vizuallaşdırılması: ədalət mühakiməsinə çatımın asanlaşdırılmasına yönələn onlayn alət**

Birləşmiş Krallığın Ədliyyə Nazirliyi insanların cəza təyin edilməsi prosedurunu başa düşmələrinə kömək etmək üçün “you be the judge” (“hakim kimi qərar ver”) interaktiv bələdçisini hazırladığına görə “Beynəlxalq vizual kommunikasiyalar mükafatı”na layiq görülüb. Bu alət insanları real məhkəmə zalından kənarda məhkəmə prosedurları ilə tanış etməklə ədalət mühakiməsinə çatımı asanlaşdırır.

*Mənbə: FRA (2012), Əsas hüquqlar sahəsində 2011-ci ildə problemlər və nailiyyətlər – FRA-nın illik hesabatı, səh. 207.*

Lakin inkişaf edən texnologiyalara çıxış imkanına heç də hər kəs malik deyil, buna görə də bu sistemin ənənəvi sistemlərlə paralel mövcud olması önəmlidir. AİƏM təsdiq edib ki, “elektron vasitələrin” ədalət mühakiməsinə çatım üçün təklif olunan yeganə vasitə olması bəzi insanların öz hüquqlarını həyata keçirmələrini mümkünsüz edə bilər. [643]

Nümunə: *Rosalba Alassini v. Telecom Italia SpA* məhkəmə işində[644] AİƏM ilkin qərarın qəbulu üçün İskya şəhərinin magistrat məhkəməsi (*Giudice di Pace di Ischia*) tərəfindən ona birgə halda təqdim edilmiş dörd sorğunu nəzərdən keçirdi, həmin sorğular milli məhkəmələrin icraatına qəbul edilməsi mümkün olan mübahisənin məhkəmədənkənar həllinə cəhd etməyi müəyyən hallarda məcburi şərt kimi nəzərdə tutan müddəalarla əlaqədar idi. Həmin müddəalar Universal xidmət haqqında direktivə[645] uyğun olaraq qəbul edilmişdi. AİƏM bu məcburi müddəaların səmərəli məhkəmə müdafiəsi prinsipinə uyğun olub-olmadığını nəzərdən keçirdi.

Məcburi müddəalarla bağlı qərar 2.4.2-ci bölmədə ətraflı şəkildə verilib. Bu məsələni nəzərdən keçirərkən AİƏM onu da qeyd etdi ki, həll proseduruna çıxış yalnız elektron vasitələrlə mümkün olarsa, Universal xidmət haqqında direktivdə müəyyən edilmiş hüquqların həyata keçirilməsi müəyyən şəxslər (konkret olaraq İnternetə çıxışı olmayanlar) üçün praktikada mümkünsüz və ya həddən artıq çətin ola bilər.

643 AİƏM, Birləşdirilmiş işlər C-317/08, C-318/08, C-319/08 və C-320/08, Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, 18 mart 2010-cu il, 58-ci bənd.
644 AİƏM, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, 18 mart 2010-cu il, 67-ci bənd.
645 Elektron kommunikasiya şəbəkələri və xidmətləri ilə bağlı universal xidmət və istifadəçilərin hüquqları haqqında Aİ Parlamentinin və Şurasının 7 mart 2002-ci il tarixli 2002/22/EC saylı direktivi, OJ 2002 L 108.

# Əlavə ədəbiyyat

**[Əlavə ədəbiyyatın siyahısı orijinal dildə verilir]**



## 1-ci fəsil

Anagnoustou, D. (2013), ECHR; Implementing Strasbourg's judgment on domestic policy, Edinburgh, Edinburgh University Press.

Brillat, R. (2009), 'The European Social Charter' in Alfredsson, G. et al. (eds.), International Human Rights Monitoring Mechanisms, Leiden, Martinus Nijhoff.

Bratza, N. (2013), 'The European Convention on Human Rights and the Charter of Fundamental Rights of the European Union: a process of mutual enrichment', in Rosas, A. et al(eds.), Court of Justice and construction of Europe: analyses and perspectives on sixty years of case-law, The Hague, T.M.C. Asser Press.

Carrera, S., De Somer, M. and Petkova, B. (2012), 'The Court of Justice of the European Union as a Fundamental Rights Tribunal– Challenges for the Effective Delivery of Fundamental Rights in the Area of Freedom, Security and Justice', Liberty and Security in Europe Papers, Centre for European Policy Studies, No. 49.

CJEU, Reflets, available at: http://curia.europa.eu/jcms/jcms/Jo2_7063/

Coutron, L. and Picheral, C. (eds.) (2012), Charte des droits fondamentaux de l'Union européenne et Convention européenne des droits de l'homme, Brussels, Bruylant.

Craig, P. (2010), The Lisbon Treaty. Law, Politics, and Treaty Reform, Oxford, Oxford University Press.

Francioni, F. (2007), Access to Justice as a Human Right, New York, Oxford University Press.

Klamert, M. (2014), The Principle of Loyalty in EU Law, Oxford, Oxford University Press.

Lavranos, N. (2013), 'The ECJ's Judgments in Melloni and Åkerberg Fransson: Un ménage à trois difficulté', European Law Reporter, No. 4, pp. 133–141.

Meyer, J. (ed.) (2014), Charta der Grundrechte der Europäischen Union, 4th Edition, Baden-Baden, Nomos.

Pech, L. (2010), 'A Union founded on the Rule of Law: Meaning and Reality of the Rule of Law as Constitutional Principle of EU Law ', European Constitutional Law Review, Vol. 6, No. 3, pp. 359–396.

Stricker, A. (2010), Die Bedeutung der Europäischen Menschenrechtskonvention und der gemeinsamen Verfassungsüberlieferungen für den Grundrechtsschutz der Europäischen Union, Frankfurt am Main, Peter Lang.

Timmermans, C. (2013), 'Fundamental rights protection in Europe before and after accession of the European Union to the European Convention on Human Rights', in van Dijk, P. and van Roosmalen, M.et al (eds.), Fundamental Rights and Principles, Antwerp, Intersentia.

United Nations Development Programme (2005), 'Programming for Justice: Access for All: A Practitioner's Guide to a Human Rights-Based Approach to Access to Justice', Bangkok, UNDP.

## 2-ci fəsil

Adams, S. and Parras, F.J. (2013), 'The European Stability Mechanism through the legal meanderings of Union's constitutionalism: Comment on Pringle', European Law Review, Vol. 8, No. 6, pp. 848–865.

Benöhr, I. (2014), 'Collective Redress in the Field of European Consumer Law', Legal Issues of Economic Integration, Vol. 14, No. 3, pp. 243–256.

De Palo, G. and Trevor, M. (2012), EU Mediation Law and Practice, Oxford, Oxford University Press.

Doobay, A. (2013), 'The right to a fair trial in light of the recent ECtHR and CJEU case-law', ERA Forum, Vol. 14, No. 2, pp. 251–262.

Flattery, J. (2010), 'Balancing efficiency and justice in EU competition law: elements of procedural fairness and their impact on the right to a fair hearing', Competition Law Review, Vol. 7, No. 1, p. 53–58.

FRA, Charterpedia available at:

http://infoportal.fra.europa.eu/InfoPortal/infobaseFrontEndCountryHome.do?btnCountryLinkHome_1

FRA (2012), Bringing rights to life: The fundamental rights landscape of the European Union, Luxembourg, Publications Office.

Galetta, D. (2010), Procedural Autonomy of EU Member States: Paradise Lost?, Heidelberg,Springer.

Gilliaux, P. (2012), Droit(s) européen(s) à un procès equitable, Brussels, Bruylant.

Hodges, S. (2014), 'Consumer ombudsmen: better regulation and dispute resolution', ERA Forum, Vol. 15, No. 4, pp. 593–608.

Luzak, J. (2014), 'Online consumer contracts', ERA Forum, Vol. 15, No. 3,pp. 381–392.

Müller, L. F. (2015), Richterliche Unabhängigkeit und Unparteilichkeit nach Art. 6 EMRK.: Anforderungen der Europäischen Menschenrechtskonvention und spezifische Probleme in den östlichen Europaratsstaaten, Berlin, Duncker & Humblot.

Peers, S., Ward, A. et al(eds.) (2013), Commentary on Charter of Fundamental Rights, Oxford, Hart Publishing.

Polakiewicz, J. (2009–2010), 'European Union action on procedural rights and the European Convention on Human Rights', Human Rights Law Journal, Vol. 30, No. 1–2, pp. 12–16.

Stürner, M., Inchausti Gascón, F., Caponi, R. (eds.) (2014), The Role of Consumer ADR in the Administration of Justice. New Trends in Access to Justice under EU Directive 2013/11, Munich, Sellier.

Vitkauskas, D. and Dikov, G. (2012), Protecting the right to a fair trial under the European Convention on Human Rights, Strasbourg, Council of Europe.

Wrbka, S. (2014), European Consumer Access to Justice Revisited, Cambridge, Cambridge University Press.

## 3 və 4-cü fəsillər

Cape, E., Namoradze, N., Smith, R. and Spronken, T. (2010), Effective Criminal Defence in Europe, Cambridge, Intersentia.

Mole, N. and Harby, C., Council of Europe (2007), 'Le droit à un procès equitable: Un guide sur la mise en œuvre de l'Article 6 de la Convention européenne des Droits de l'Homme', Précis sur les droits de l'homme, No. 3.

Council of Europe (2013), Guide to a fair trial: civil limb, Strasbourg, Council of Europe.

Council of Europe (2014), Guide to a fair trial: criminal limb, Strasbourg, Council of Europe.

Engström, J. (2011), 'The Principle of Effective Judicial Protection after the

Lisbon Treaty: Reflection in the light of case C-279/09 DEB', Review of European Administrative Law, Vol. 4, No. 2,pp. 53–68.

FRA (2015), Child-friendly justice – Perspectives and experiences of professionals on children's participation in civil and criminal judicial proceedings in 10 EU Member States, Luxembourg, Publications Office.

Grabenwarter, C. and Pabel, K. (2012), Europäische Menschenrechtskonvention, 5th Edition, Munich, C. H. Beck.

Harris, D., O'Boyle, M., Warbrick, C. and Bates, E. (2014), Law of the European Convention on Human Rights, Oxford, Oxford University Press.

Kiraly, L. and Squires, N. (2011), 'Legal aid in the EU: from the Brussels Convention of 1968 to the Legal Aid Directive of 2003', Coventry Law Journal, Vol. 16, No. 2, pp. 28–47.

Oliver, P. (2011), 'Case C-279/09 DEB v. Germany', Common Market Law Review, Vol. 48, pp. 2023–2040.

Rainey, B., Wicks, E. and Ovey, C. (2014), The European Convention on Human Rights, Oxford, Oxford University Publishing.

Sayers, D. (2014), 'Protecting Fair Trial Rights in Criminal Cases in the European Union: Where does the Roadmap take Us?', Human Rights Law Review, Vol. 14, No. 4, pp. 733–760.

Trechsel, S. (2005), Human Rights in Criminal Proceedings, Oxford, Oxford University Press.

## 5-ci fəsil

Biondi, A. and Farley, P. (2009), The Right to Damages in European Law, Alphen on the Rhine, Kluwer Law International.

Buyse, A. (2009), 'Lost and Regained? Restitution as a remedy for human rights', Heidelberg Journal of International Law, Vol. 68, pp. 129–153.

Council of Europe (2013), Guide to good practice in respect of domestic remedies, Strasbourg, Council of Europe.

De Hert, P. and Korenica, F. (2012) , 'The doctrine of equivalent protection: its life and legitimacy before and after the European Union's accession to the European Convention on Human Rights', German Law Journal, Vol. 13, No. 7, pp. 874–895.

Gutman, K. (2011), 'The evolution of the action for damages against the European Union and its place in the system of judicial protection', Common Market Law Review, Vol. 48, No. 3, pp. 695–750.

Karpenstein, U. and Mayer, C. F. (2012), Konvention zum Schutz der Menschenrechte und Grundfreiheiten : Kommentar, München, C.H. Beck.

Keller, H. and Marti, C. (2013), 'Interim Relief Compared: Use of Interim Measures by the UN Human Rights Committee and the European Court of Human Rights', Heidelberg Journal of International Law, Vol. 73,pp. 325–372.

Kuijer, M. (2014), Effective remedies as a fundamental right, Barcelona, Escuela Judicial Española & European Judicial Training Network.

Lenaerts, K., Maselis, I. and Gutman, K. (2014), EU procedural law, Oxford, Oxford University Press.

Le Sueur, A. (2012), 'Designing Redress: Who Does it, How and Why?',Asia Pacific Law Review, Vol. 20, No. 1, pp. 17–44.

Mak, C. (2012), 'Rights and Remedies – Article 47 EUCFR and Effective Judicial Protection in European Private Law Matters', Amsterdam Law school Research Paper, No. 2012–88.

Marguénaud, J.-P. (2012), La cour européenne des droits de l'homme, 6th edition, Paris, Dalloz.

McBride, J. (2009), Access to justice for migrants and asylum-seekers in Europe, European Committee on Legal Cooperation, Strasbourg, Council of Europe.

Peers, S. (2012), 'Sanctions for infringement of EU law after the Treaty of Lisbon', European Public Law, Vol. 18, p. 33.

Peers, S. (2014), 'Reconciling the Dublin system with European fundamental rights and the Charter', ERA Forum, Vol. 15, No. 4, pp. 485–494.

Schlote, M. (2014), 'The San Giorgio "cause of action"', British Tax Review, No. 2, pp. 103–113.

Van Gerven, W.(2000), 'Of Rights, Remedies and Procedures', Common Market Law Review, Vol. 37, Issue 3, pp. 501–36.

Wakefield, J. (2010), 'Retrench and Reform: The Action for Damages', in Eeckhout, P. and Tridimas, T. (eds), Yearbook of European Law, Vol. 28.

Ward, A. (2011), 'National and EC Remedies under the EU Treaty; Limits and the Role of the ECHR', in Barnard, C. and Odudu, O. (eds.), The Outer Limits of the Treaty, Oxford, Hart Publishing.

Ward, A. (2012), 'Damages under the EU Charter of Fundamental Rights', ERA Forum, Vol. 12, No. 4, pp. 589–611.

# 6-cı fəsil

Balthasarv, S. (2010), ‘Locus Standi Rules for Challenge to Regulatory Acts by Private Applicants: the new Article 263(4)’, European Law Review,Vol. 35,No. 4, pp. 542–550.

Carboni, N. (2014), ‘From Quality to Access to Justice: Improving the Functioning of European Judicial Systems’, Civil and Legal Sciences, Vol. 3, No. 4.

FRA (2011), Access to justice in Europe: an overview of challenges and opportunities, Luxembourg, Publications Office.

Kloth, M. (2010), Immunities and the right of access to the court under Article 6 of the European Convention on Human Rights, Leiden, Martinus Nijhoff Publishers.

Nascimbene, B. (2009), ‘European judicial cooperation in criminal matters: what protection for individuals under the Lisbon Treaty?’, ERA Forum, Vol. 10, No. 3, pp. 397–407.

Reich, N. (2013), General Principles of EU Civil Law, Antwerp, Intersentia.

# 7-ci fəsil

Edel, F. (2007), The length of civil and criminal proceedings in the case law of the European Court of Human Rights, Strasbourg, Council of Europe.

European Commission for the Efficiency of Justice (CEPEJ) (2012), Length of court proceedings in the member states of the Council of Europe based on the case law of the European Court of Human Rights, Strasbourg, Council of Europe.

Greer, S. (2006), The European Convention on Human Rights: Achievements, Problems and Prospects, Cambridge, Cambridge University Press.

Henzelin, M. and Rordorf, H. (2014), ‘When Does the Length of Criminal Proceedings Become Unreasonable According to the European Court of Human Rights?’, New Journal of European Criminal Law, Vol. 5, No. 1, pp. 78–109.

Mahoney, P. (2004), ‘The right to a fair trial in criminal matters under Article 6 ECHR’, Judicial Studies Institute Journal, Vol. 4, No. 2, pp. 107–129.

Meyer-Ladewig, J. (2011), EMRK Europäische Menschenrechtskonvention – Handkommentar, 3rd Edition, Baden-Baden, Nomos.

Nicolas, M. (2012), Le droit au délai raisonnable devant les juridictions pénales internationales, Frankfurt am Main, Peter Lang.

Van Dijk, P., Van Hoof, G.J.H., Van Rijn, A. and Zwaak, L. (eds.) (2006),Theory and Practice of the European Convention on Human rights, Antwerp, Intersentia.

## 8-ci fəsil

Bartlett, P. et al (eds.) (2006), Mental Disability and the European Convention on Human Rights, Leiden, Martinus Nijhoff.

Cojocariu, C. (2011), 'Handicapping rules: The overly restrictive application of admissibility criteria by the European Court of Human Rights to complaints concerning disabled people', European Human Rights Law Review, No. 6, p. 686.

Contini, F.and. Lanzara, G. (2014), The Circulation of Agency in e-Justice, Dordrecht, Springer.

Council of Europe (2012), Manual on Human Rights and the Environment, Strasbourg, Council of Europe.

Easton, S. (2011), Prisoners' rights: principles and practice, Abingdon, Taylor & Francis.

FRA (2012), Access to justice in cases of discrimination in the EU: Steps to furtherequality, Luxembourg, Publications Office.

FRA (2012), Involuntary placement and involuntary treatment of persons with mental health problems, Luxembourg, Publications Office.

FRA (2013), Legal capacity of persons with intellectual disabilities and persons with mental health problems, Luxembourg, Publications Office.

FRA (2015), Victims of crime in the EU: the extent and nature of support for victims, Luxembourg, Publications Office.

FRA-ECtHR (2014), Handbook on European law relating to asylum, borders and immigration, Luxembourg, Publications Office.

FRA-ECtHR (2015), Handbook on European law relating to the rights of the child, Luxembourg, Publications Office.

Gavrielidis, T. (ed). (2014), A victim-led criminal justice system: addressing the paradox, London, IARS Publications.

Gramatikov, M. and Klaming, L. (2011), 'Getting divorced online: Procedural and outcome justice in online divorce mediation', Journal of Law and Family Studies, Vol. 13, No. 2, pp. 1–30.

Harding, A. (2007), Access to environmental justice: a comparative study, London, Brill.

Lindsay, W.R., Taylor, J.L. and Sturmey, P. (2004), Offenders with Developmental Disabilities, Chichester, Wiley.

Londono, P. (2007), 'Positive obligations, criminal procedure and rape cases',

European Human Rights Law Review, No. 2, pp. 158–171.

Lupo, G. and Bailey, J. (2014), 'Designing and Implementing e-Justice Systems: Some Lessons Learned from EU and Canadian Examples', Laws, Vol. 3, No. 2, pp. 353–387.

Ng, G. (2013), 'Experimenting with European Payment Order and of European Small Claims Procedure', in Contini, F. and Lanzara, G. (eds.), Building Interoperability for European Civil Proceedings online, CLUEB Bologna.

Ochoa, J.C. (2013), The Rights of Victims in Criminal Justice Proceedings for Serious Human Rights Violations, Leiden, Martinus Nijhoff.

Pallemaerts, M. (2009), The Aarhus Convention at ten. Interactions and Tensions between Conventional International Law and EU Environmental Law, Groningen,Europa Law Publishing.

Perlin, M. (2011), International human rights and mental disability law: when the silenced are heard, New York, Oxford University Press.

Smith, R. (2014), Digital delivery of legal services to people on low incomes, London, The Legal Education Foundation.

Starmer, K. (2014), 'Human rights, victims and the prosecution of crime in the 21st century', Criminal Law Review, No. 11, pp. 777–787.

Taylor, J.L. and Lindsay, W.R. (2010), 'Understanding and treating offenders with learning disabilities: a review of recent developments', Journal of Learning Disabilities and Offending Behaviour, Vol. 1, No. 1, p. 6.

The Harris Review (2015), 'Changing prisons, saving lives: report of the independent review into self-inflicted deaths in custody of 18-24 year olds', Command Paper 9087.

Van Zyl Smit, D. and Snacken, S. (2011), Principles of European Prison Law and Policy: Penology and Human Rights Paperback, Oxford, Oxford University Press.

Velicogna, M. Errera,A. and Derlange, S. (2013), 'Building e-Justice in Continental Europe: The TéléRecours Experience in France', Utrecht Law Review, Vol. 9, No. 1, pp. 38–59.

Young, L. (2014), The Young Review: Improving outcomes for young black and/or Muslim men in the Criminal Justice System, London, Barrow Cadbury Trust.

# Presedent hüququ

## Avropa İnsan Hüquqları Məhkəməsinin və Avropa İttifaqı Ədalət Məhkəməsinin seçilmiş presedent hüququ

**[AİƏM-in qərarlarının adları orijinal dildə verilir]**



## Məhkəməyə müraciət hüququ

### AİHM

Qolder Birləşmiş Krallığa qarşı, ərizə № 4451/70, 21 fevral 1975-ci il

"Yulius Kloyber Şlaxtxof GmbH" və başqaları Avstriyaya qarşı, ərizələr № 21565/07, 21572/07, 21575/07 və 21580/07, 4 aprel 2013-cü il

### AİƏM

Antoine Boxus, Willy Roua, Guido Durlet and Others, Paul Fastrez, Henriette Fastrez, Philippe Daras, Association des riverains et habitants des communes proches de l'aéroport BSCA (Brussels South Charleroi Airport) (ARACh), Bernard Page, Léon L'Hoir, Nadine Dartois v. Région wallonne, Birləşdirilmiş işlər C-128/09 – C-131/09, C-134/09 və C-135/09, 18 oktyabr 2011-ci il

Epitropos tou Elegktikou Synedriou sto Ypourgeio Politismou kai Tourismou v. Ypourgeio Politismou kai Tourismou - Ypiresia Dimosionomikou Elenchou, C-363/11, 16 fevral 2013-cü il

Valeri HarievBelov v. CHEZ Elektro Balgaria AD and others (Bulgaria and the European Commission intervening), C-394/11, 31 yanvar 2013-cü il

## Məhkəmələrin müstəqilliyi və qərəzsizliyi

### AİHM

İbrahim Gürkan Türkiyəyə qarşı, ərizə № 10987/10, 3 iyul 2012-ci il

Maktuf və Damyanoviç Bosniya və Herseqovinaya qarşı, ərizələr № 2312/08 və 34179/08, 18 iyul 2013-cü il

### AİƏM

Chronopost SA and La Poste v. Union française de l'express (UFEX) and Others, Birləşdirilmiş işlər C-341/06 P və C-342/06 P, 1 iyul 2008-ci il

Graham J. Wilson v. Ordre des avocats du barreau de Luxembourg, C-506/04, 19 sentyabr 2006-cı il

## Ədalətli və açıq məhkəmə araşdırması

### AİHM

Xrabrova Rusiyaya qarşı, ərizə № 18498/04, 2 oktyabr 2012-ci il

Ujukauskas Litvaya qarşı, ərizə № 16965/04, 6 iyul 20100-cu il

## Qeyri-məhkəmə orqanları və mübahisələrin alternativ həlli

### AİHM

Suda Çex Respublikasına qarşı, ərizə № 1643/06, 28 oktyabr 2010-cu il

### AİƏM

Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, 18 mart 2010-cu il

## Qeyri-cinayət prosesində hüquqi yardım

### AİHM

Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 oktyabr 1979-cu il

Makvikar Birləşmiş Krallığa qarşı, ərizə № 46311/99, 7 may 2002-ci il

### AİƏM

DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland, C-279/09, 22 dekabr 2010-cu il

## Cinayət prosesində hüquqi yardım

### AİHM

Tsonyo Tsonev Bolqarıstana qarşı (№ 2), ərizə № 2376/03, 14 yanvar 2010-cu il

Tualib Yunanıstana qarşı, ərizə № 24294/94, 9 iyun 1998-ci il

Zdravko Stanev Bolqarıstana qarşı, ərizə № 32238/04, 6 noyabr 2012-ci il

Qeyri-cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ

## AİHM

Anqhel İtaliyaya qarşı, ərizə № 5968/09, 25 iyun 2013-cü il

Bertutsi Fransaya qarşı, ərizə № 36378/97, 13 fevral 2003-cü il

## Cinayət prosesində hüquqi məsləhət almaq, müdafiə edilmək və təmsil olunmaq hüququ

## AİHM

Aras Türkiyəyə qarşı (№ 2), ərizə № 15065/07, 18 noyabr 2014-cü il

Lagerblom İsveçə qarşı, ərizə № 26891/95, 14 yanvar 2003-cü il

Lants Avstriyaya qarşı, ərizə № 24430/94, 31 yanvar 2002-ci il

Pişşalnikov Rusiyaya qarşı, ərizə № 7025/04, 24 sentyabr 2009-cu il

Salduz Türkiyəyə qarşı [BP], ərizə № 36391/02, 27 noyabr 2008-ci il

## AİƏM

Ordre des barreaux francophones et germanophone and others v. Conseil des ministres, C-305/05, 26 iyun 2007-ci il

## Özü-özünü təmsil etmək hüququ

## AİHM

Qalstyan Ermənistana qarşı, ərizə № 26986/03, 15 noyabr 2007-ci il

## Səmərəli hüquqi müdafiə vasitələri ilə bağlı tələblər

## AİHM

Makfarleyn İrlandiyaya qarşı [BP], ərizə № 31333/06, 10 sentyabr 2010-cu il

Ramires Sançes Fransaya qarşı [BP], ərizə № 59450/00, 4 iyul 2006-cı il

Rotaru Rumıniyaya qarşı [BP], ərizə № 28341/95, 4 may 2000-ci il

Yaraşonen Türkiyəyə qarşı, ərizə № 72710/11, 24 iyun 2014-cü il

## AİƏM

Brahim Samba Diouf v. Ministre du Travail, de l'Emploi et de l'Immigration, C-69/10, 28 iyul 2011-ci il

Inuit Tapiriit Kanatami and others v. European Parliament and Council of the European Union, C-583/11 P, 3 oktyabr 2013-cü il

Sofiane Fahas v. Council of the European Union, T-49/07, 7 dekabr 2010-cu il

## Xüsusi hüquqi müdafiə vasitələrinin nümunələri

### AİHM

Ananyev və başqaları Rusiyaya qarşı, ərizələr № 42525/07 və 60800/08, 10 yanvar 2012-ci il (kompensasiya)

Broza Almaniyaya qarşı, ərizə № 5709/09, 17 aprel 2014-cü il (məhkəmə əmri)

Burdov Rusiyaya qarşı (№ 2), ərizə № 33509/04, 15 yanvar 2009-cu il (kompensasiya)

### AİƏM

Andrea Francovich and Danila Bonifaci and others v. Italian Republic, Birləşdirilmiş işlər C-6/90 və C-9/90, 19 noyabr 1991-ci il (kompensasiya)

Gebr. Weber GmbH v. Jürgen Wittmer and Ingrid Putz v. Medianess Electronics GmbH, Birləşdirilmiş işlər C-65/09 və C-87/09, 16 iyun 2011-ci il (konkret hərəkətlərin icrasının təmin edilməsi)

UPC Telekabel Wien GmbH v. Constantin Film Verleih GmbH and WegaFilmproduktionsgesellschaft mbH, C-314/12, 27 mart 2014-cü il (məhkəmə əmri)

## Ədalət mühakiməsinə çatıma qoyulan məhdudiyyətlər

### AİHM

Boqdel Litvaya qarşı, ərizə № 41248/06, 26 noyabr 2013-cü il (iddia müddətləri)

C.G.I.L. və Kofferati (№ 2) İtaliyaya qarşı, ərizə № 2/08, 6 aprel 2010-cu il (immunitetlər)

Harrison Makki Macarıstana qarşı, ərizə № 22840/07, 3 iyun 2014-cü il (qanuni məqsəd və mütənasiblik)

Kluvi Fransaya qarşı, ərizə № 30754/03, 30 iyun 2011-ci il (sübutlarla bağlı maneələr)

Maşireviç Serbiyaya qarşı, ərizə № 30671/08, 11 fevral 2014-cü il (həddən artıq formalizm)

Puaro Fransaya qarşı, ərizə № 29938/07, 15 dekabr 2011-ci il (həddən artıq formalizm)

Stankov Bolqarıstana qarşı, ərizə № 68490/01, 12 iyul 2007-ci il (məhkəmə rüsumları)

Yuri Nikolayeviç İvanov Ukraynaya qarşı, ərizə № 40450/04, 15 oktyabr 2009-cu il (yekun məhkəmə qərarlarının icrasının gecikdirilməsi)

## AİƏM

European Commission v. the United Kingdom of Great Britain and Northern Ireland, C-530/11, 13 fevral 2014-cü il (məhkəmə rüsumları)

Galina Meister v. Speech Design Carrier Systems GmbH, C-415/10, 19 aprel 2012-ci il (sübutlarla bağlı maneələr)

Q-Beef NV v. Belgische Staat and Frans Bosschaert v. Belgische Staat and Others, Birləşdirilmiş işlər C-89/10 və C-96/10, 8 sentyabr 2011-ci il (iddia müddətləri)

Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, 18 mart 2010-cu il (qanuni məqsəd və mütənasiblik)

## Prosesin ümumi müddətinin müəyyənləşdirilməsi

## AİHM

Malkov Estoniyaya qarşı, ərizə № 31407/07, 4 fevral 2010-cu il (cinayət prosesi)

Orşuş və başqaları Xorvatiyaya qarşı [BP], ərizə № 15766/03, 16 mart 2010-cu il (qeyri-cinayət prosesi)

## Prosesin müddətinin ağlabatan olub-olmadığını müəyyənləşdirmək üçün meyarlar

## AİHM

Maton Polşaya qarşı, ərizə № 30279/07, 9 iyun 2009-cu il (işin mürəkkəbliyi)

Mikuliç Xorvatiyaya qarşı, ərizə № 53176/99, 7 fevral 2002-ci il (işin ərizəçi üçün nə dərəcədə önəmli olması)

Sociedade de Construções Martins & Vieira, Lda. və başqaları Portuqaliyaya qarşı, ərizələr № 56637/10, 59856/10, 72525/10, 7646/11 və 12592/11, 30 oktyabr 2014-cü il (dövlət orqanlarının davranışı)

Starokadomski Rusiyaya qarşı (№ 2), ərizə № 27455/06, 13 mart 2014-cü il (ümumi qaydalar)

AİHM, Vəliyev Rusiyaya qarşı, ərizə № 24202/05, 24 iyun 2010-cu il (ərizəçinin davranışı)

## AİƏM

Ufficio IVA di Piacenza v. Belvedere Costruzioni Srl., C-500/10, 29 mart 2012-ci il (ümumi qaydalar)

## Məhkəmə prosesinin həddən artıq uzun sürməsinə qarşı hüquqi müdafiə vasitələri

### AİHM

Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il

### AİƏM

Groupe Gascogne SA v. European Commission, C-58/12 P, 26 noyabr 2013-cü il

## Əlillər

### AİHM

A.K. və L. Xorvatiyaya qarşı, ərizə № 37956/11, 8 yanvar 2013-cü il

Ştukaturov Rusiyaya qarşı, ərizə № 44009/05, 27 mart 2008-ci il

## Cinayət qurbanları

### AİHM

Dink Türkiyəyə qarşı, ərizələr № 2668/07 və s., 14 sentyabr 2010-cu il

AİƏM

Criminal proceedings against Maria Pupino, C-105/03, 16 iyun 2005-ci il

## Məhbuslar və məhkəməyəqədər həbsdə saxlanılanlar

### AİHM

Hassan və başqaları Fransaya qarşı, ərizələr № 46695/10 və 54588/10, 4 dekabr 2014-cü il

Stanev Bolqarıstana qarşı, ərizə № 36760/06, 17 yanvar 2012-ci il

## Ətraf mühit hüququ

### AİHM

Tatar Rumıniyaya qarşı, ərizə № 67021/01, 27 yanvar 2009-cu il

### AİƏM

Bund für Umwelt und Naturschutz Deutschland, Landesverband Nordrhein-Westfalen eV v. Bezirksregierung Arnsberg, C-115/09, 12 may 2011-ci il

## Elektron ədalət mühakiməsi

## AİHM

"Lawyer Partners a.s." Slovakiyaya qarşı, ərizələr № 54252/07 və s., 16 iyun 2009-cu il

## AİƏM

Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, 18 mart 2010-cu il

# İstinad edilmiş işlərin siyahısı

**[Siyahıda işlər ingilis əlifbası üzrə sıralanır]**



## Avropa İttifaqı Ədalət Məhkəməsinin presedent hüququ

Åklagaren v. Hans Åkerberg Fransson, C-617/10 REC, 7 may 2013-cü il

Andrea Francovich and Danila Bonifaci and others v. Italian Republic, Birləşdirilmiş işlər C-6/90 və C-9/90, 19 noyabr 1991-ci il

Antoine Boxus, Willy Roua, Guido Durlet and Others, Paul Fastrez, Henriette Fastrez, Philippe Daras, Association des riverains et habitants des communes proches de l'aéroport BSCA (Brussels South Charleroi Airport) (ARACh), Bernard Page, Léon L'Hoir, Nadine Dartois v. Région wallonne, Birləşdirilmiş işlər C-128/09 – C-131/09, C-134/09 və C-135/09, 18 oktyabr 2011-ci il

Asociación de Consumidores Independientes de Castilla y León v. Anuntis Segundamano España SL, C-413/12, 5 dekabr 2013-cü il

Association de médiation sociale v. Union locale des syndicats CGT and Others, C-176/12, 15 yanvar 2014-cü il

Baustahlgewebe GmbH v. Commission of the European Communities, C-185/95 P, 17 dekabr 1998-ci il

Brahim Samba Diouf v. Ministre du Travail, de l'Emploi et de l'Immigration, C-69/10, 28 iyul 2011-ci il

Brasserie du Pêcheur SA v Bundesrepublik Deutschland and The Queen v Secretary of State for Transport, ex parte: Factortame Ltd and others, Birləşdirilmiş işlər C-46/93 və C-48/93, 5 mart 1996-cı il

Bund für Umwelt und Naturschutz Deutschland, Landesverband Nordrhein-Westfalen eV v. Bezirksregierung Arnsberg, C-115/09, 12 may 2011-ci il

Camera di Commercio, Industria, Artigianato e Agricoltura (CCIAA) di Cosenza v. Grillo Star Srl., C-443/09, 19 aprel 2012-ci il

CHEZ Razpredelenie Bulgaria AD v. Komisia za zashtita ot diskriminatsia, C-83/14, 16 iyul 2015-ci il

Chronopost SA and La Poste v. Union française de l'express (UFEX) and Others, Birləşdirilmiş işlər C-341/06 P və C-342/06 P, 1 iyul 2008-ci il

Commission of the European Communities v. Ireland, C-427/07, 16 iyul 2009-cu il

Courage Ltd v. Bernard Crehan and Bernard Crehan v. Courage Ltd and others, C-453/99, 20 sentyabr 2001-ci il

Criminal proceedings against Emil Eredics and Maria Vassne Sapi, C-205/09, 21 oktyabr 2010-cu il

Criminal proceedings against Magatte Gueye and Valentin Salmerón Sánchez, Birləşdirilmiş işlər C-483/09 və C-1/10, 15 sentyabr 2011-ci il

Criminal proceedings against Maria Pupino, C-105/03, 16 iyun 2005-ci il

Cruciano Siragusa v. Regione Sicilia - Soprintendenza Beni Culturali e Ambientali di Palermo, C-206/13, 6 mart 2014-cü il

DEB Deutsche Energiehandels- und Beratungsgesellschaft mbH v. Bundesrepublik Deutschland, C-279/09, 22 dekabr 2010-cu il

Dieter Krombach v. André Bamberski, C-7/98, 28 mart 2000-ci il

Djurgården-Lilla Värtans Miljöskyddsförening v. Stockholms kommun genom dess marknämnd, C-263/08, 15 oktyabr 2009-cu il

Dorsch Consult Ingenieurgesellschaft mbH v. Bundesbaugesellschaft Berlin mbH, C-54/96, 17 sentyabr 1997-ci il

Dr. Pamela Mary Enderby v. Frenchay Health Authority and Secretary of State for Health, C-127/92, 27 oktyabr 1993-cü il

Edilizia Industriale Siderurgica Srl (Edis) v. Ministero delle Finanze, C-231/96, 15 sentyabr 1998-ci il

Epitropos tou Elegktikou Synedriou sto Ypourgeio Politismou kai Tourismou v. Ypourgeio Politismou kai Tourismou - Ypiresia Dimosionomikou Elenchou, C-363/11, 19 dekabr 2012-ci il

ET Agrokonsulting-04-Velko Stoyanov v. Izpalnitelen direktor na Darzhaven fond Zemedelie - Razplashtatelna agentsia, C-93/12, 27 iyun 2013-cü il

European Commission v. the United Kingdom of Great Britain and Northern Ireland, C-530/11, 13 fevral 2014-cü il

Europese Gemeenschap v. Otis NV and Others, C-199/11, 6 noyabr 2012-ci il

Evropaïki Dynamiki — Proigmena Systimata Tilepikoinonion Pliroforikis kai Tilematikis AE v. European Investment Bank (EIB), T-461/08, 20 sentyabr 2011-ci il

Flaminio Costa v. E.N.E.L., C-6/64, 15 iyul 1964-cü il

Galina Meister v. Speech Design Carrier Systems GmbH, C-415/10, 19 aprel 2012-ci il

Gebr. Weber GmbH v. Jürgen Wittmer and Ingrid Putz v. Medianess Electronics GmbH, Joined casesC-65/09 and C-87/09, 16 iyun 2011-ci il

Gerhard Köbler v. Republik Austria, C-224/01, 30 sentyabr 2003-cü il

Graham J. Wilson v. Ordre des avocats du barreau de Luxembourg, C-506/04, 19 sentyabr 2006-cı il

GREP GmbH v. Freistaat Bayern, C-156/12, 13 iyun 2012-ci il

Groupe Gascogne SA v. European Commission, C-58/12 P, 26 noyabr 2013-cü il

Guy Denuit and Betty Cordenier v. Transorient - Mosaïque Voyages et Culture SA., C-125/04, 27 January 2005

Hoechst AG v. Commission of the European Communities, Birləşdirilmiş işlər C-46/87 və C-227/88, 21 sentyabr 1989-cu il

Hristo Byankov v. Glaven sekretar na Ministerstvo na vatreshnite raboti, C-249/11

4 oktyabr 2012-ci il

Ian William Cowan v. Trésor public, C-186/87, 2 fevral 1989-cu il

Imperial Chemical Industries Ltd v. European Commission, T-214/06, 5 iyun 2012-ci il

Inuit Tapiriit Kanatami and others v. European Parliament and Council of the European Union, C-583/11 P, 3 oktyabr 2013-cü il

Jan Sneller v. DAS Nederlandse Rechtsbijstand Verzekeringsmaatschappij NV, C-442/12, 7 noyabr 2013-cü il

Josef Köllensperger GmbH & Co. KG and Atzwanger AG v. Gemeindeverband Bezirkskrankenhaus Schwaz, C-103/97, 4 fevral 1999-cu il

Juan Carlos Sánchez Morcillo and María del Carmen Abril García v. Banco Bilbao Vizcaya Argentaria SA, C-169/14, 17 iyul 2014-cü il

Katarina Abrahamsson and Leif Anderson v Elisabet Fogelqvist, C-407/98, 6 iyul 2000-ci il

Kücükdeveci v. Swedex Gmbh & Co. KG, C-555/07, 19 yanvar 2010-cu il

Lesoochranárske zoskupenie VLK v. Ministerstvo životného prostredia Slovenskej republiky, C-240/09, 8 mart 2011-ci il

M. Helen Marshall v. Southampton and South-West Hampshire Area Health Authority, C-271/91, 2 avqust 1993-cü il

Marguerite Johnston v. Chief Constable of the Royal Ulster Constabulary, C-222/84, 15 may 1986-cı il

Merck Canada Inc. v Accord Healthcare Ltd and Others, C-555/13, 13 fevral 2014-cü il

Mohamed Aziz v. Caixa d´Estalvis de Catalunya, Tarragona i Manresa (Catalunyacaixa), C-415/11, 14 mart 2013-cü il

Nils Draehmpaehl v. Urania Immobilienservice OHG, C-180/95, 22 aprel 1997-ci il

Nóra Baczó and János István Vizsnyiczai v. Raiffeisen Bank Zrt, C-567/13, 12 fevral 2015-ci il

NV Algemene Transport- en Expeditie Onderneming van Gend & Loos v. Netherlands Inland Revenue Administration, C-26/62, 5 fevral 1963-cü il

Ordre des barreaux francophones et germanophone and others v. Conseil des ministres, C-305/05, 26 iyun 2007-ci il

Parti écologiste “Les Verts” v. European Parliament, C-294/83, 23 aprel 1986-cı il

Peterbroeck, Van Campenhout & Cie SCS v. Belgian State, C-312/93, 14 dekabr 1995-ci il

Pierre Corbiau v. Administration des contributions, C-24/92, 30 mart 1993-cü il

Q-Beef NV v. Belgische Staat and Frans Bosschaert v. Belgische Staat and Others, Joined cases C-89/10 and C-96/10, 8 sentyabr 2011-ci il

Quelle AG v. Bundesverband der Verbraucherzentralen und Verbraucherverbände, C-404/06, 17 aprel 2008-ci il

Rewe-Zentralfinanz eG and Rewe-Zentral AG v. Landwirtschaftskammer für das Saarland, C-33/76, 16 dekabr 1976-cı il

Rosalba Alassini v. Telecom Italia SpA, Filomena Califano v. Wind SpA, Lucia Anna Giorgia Iacono v. Telecom Italia SpA and Multiservice Srl v. Telecom Italia SpA, Birləşdirilmiş işlər C-317/08 – C-320/08, 18 mart 2010-cu il

Rosalba Palmisani v. Istituto nazionale della previdenza sociale (INPS), C-261/95, 10 iyul 1997-ci il

Scarlet Extended SA v. Société belge des auteurs, compositeurs et éditeurs SCRL (SABAM), C-70/10, 24 noyabr 2011-ci il

Shirley Preston and others v. Wolverhampton Healthcare NHS Trust and others and Dorothy Fletcher and others v Midland Bank plc, C-78/98, 16 may 2000-ci il

Sofiane Fahas v. Council of the European Union, T-49/07, 7 dekabr 2010-cu il

Stefano Melloni v. Ministerio Fiscal, C-399/11, 26 fevral 2013-cü il

Texdata Software GmbH, C-418/11, 26 sentyabr 2013-cü il

The Queen v. Secretary of State for Transport, ex parte: Factortame Ltd and others, C-213/89, 19 iyun 1990-cı il

The Queen, on the application of David Edwards and Lilian Pallikaropoulos v. Environment Agency and others, C-260/11, 11 aprel 2013-cü il

Thomas Pringle v. Government of Ireland, Ireland and The Attorney General, C-370/12, 27 noyabr 2012-ci il

Trade Agency Ltd v. Seramico Investments Ltd, C-619/10, 6 sentyabr 2012-ci il

Ufficio IVA di Piacenza v. Belvedere Costruzioni Srl., C-500/10, 29 mart 2012-ci il

Unibet (London) Ltd and Unibet (International) Ltd v. Justitiekanslern, C-432/05, 13 mart 2007-ci il

Unicaja Banco SA v. José Hidalgo Rueda and Others, Caixabank SA v. Manuel María Rueda Ledesma and Others, Caixabank SA v. José Labella Crespo and Others and Caixabank SA v. Alberto Galán Luna and Others, Birləşdirilmiş işlər C-482/13, C-484/13, C-485/13, C-487/13, 21 yanvar 2015-ci il

Unión de Pequeños Agricultores v. Council of the European Union, C-50/00 P, 25 iyul 2002-ci il

UPC Telekabel Wien GmbH v. Constantin Film Verleih GmbH and Wega Filmproduktionsgesellschaft mbH, C-314/12, 27 mart 2014-cü il

Ute Reindl v. Bezirkshauptmannschaft Innsbruck, C-443/13, 13 noyabr 2014-cü il

Valeri Hariev Belov v. CHEZ Elektro Balgaria AD and others (Bulgaria and the European Commission intervening), C-394/11, 31 yanvar 2013-cü il

Volker und Markus Schecke GbR and Hartmut Eifert v. Land Hessen, C-92/09 and C-93/09, 9 November 2010

Yassin Abdullah Kadi and Al Barakaat International Foundation v. Council of the European Union and Commission of the European Communities, Birləşdirilmiş işlər C-402/05 P və C-415/05 P, 3 sentyabr 2008-ci il

ZZ v. Secretary of State for the Home Department, C-300/11, 4 iyun 2013-cü il

# Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ

A Xorvatiyaya qarşı, ərizə № 55164/08, 14 oktyabr 2010-cu il

A. Birləşmiş Krallığa qarşı, ərizə № 100/1997/884/1096, 23 sentyabr 1998-ci il

A. Birləşmiş Krallığa qarşı, ərizə № 35373/97, 17 dekabr 2002-ci il

A.B. Slovakiyaya qarşı, ərizə № 41784/98, 4 mart 2003-cü il

A.K. və L. Xorvatiyaya qarşı, ərizə № 37956/11, 8 yanvar 2013-cü il

A.K. Lixtenşteynə qarşı, ərizə № 38191/12, 9 iyul 2015-ci il

A.T. Lüksemburqa qarşı, ərizə № 30460/13, 9 aprel 2015-ci il

Abdollahi Türkiyəyə qarşı, ərizə № 23980/08, 3 noyabr 2009-cu il

Aerts v. Belgium, ərizə № 25357/94, 30 iyul 1998-ci il

Eyri İrlandiyaya qarşı, ərizə № 6289/73, 9 oktyabr 1979-cu il

Əl-Adsani Birləşmiş Krallığa qarşı [BP], ərizə № 35763/97, 21 noyabr 2001-ci il

Alber və Le Kont Belçikaya qarşı, ərizələr № 7299/75 və 7496/76, 10 fevral 1983-cü il

Alişiç və başqaları Bosniya və Herseqovinaya, Xorvatiyaya, Serbiyaya, Sloveniyaya və keçmiş Yuqoslaviya Republikası Makedoniyaya qarşı [BP], ərizə № 60642/08, 16 iyul 2014-cü il

Alan Yakobsson (№ 2) İsveçə qarşı, ərizə № 16970/90, 19 fevral 1998-ci il

Əl-Skeyni və başqaları Birləşmiş Krallığa qarşı [BP], ərizə № 55721/07, 7 iyul 2011-ci il

Ananyev və başqaları Rusiyaya qarşı, ərizələr № 42525/07 və 60800/08, 10 yanvar 2012-ci il

Anqhel İtaliyaya qarşı, ərizə № 5968/09, 25 iyun 2013-cü il

Akvilina Maltaya qarşı [BP], ərizə № 25642/94, 29 aprel 1999-cu il

Aras Türkiyəyə qarşı (№ 2), ərizə № 15065/07, 18 noyabr 2014-cü il

Artiko İtaliyaya qarşı, ərizə № 6694/74, 13 may 1980-ci il

Eşinqdeyn Birləşmiş Krallığa qarşı, ərizə № 8225/78, 28 may 1985-ci il

Assanidze Gürcütstana qarşı [BP], ərizə № 71503/01, 8 aprel 2004-cü il

B. və P. Birləşmiş Krallığa qarşı, ərizələr № 36337/97 və 35974/97, 24 aprel 2001-ci il

Baggetta İtaliyaya qarşı, ərizə № 10256/83, 25 iyun 1987-ci il

Bauer Sloveniyaya qarşı, ərizə № 75402/01, 9 mart 2006-cı il

Bomartan Fransaya qarşı, ərizə № 15287/89, 24 noyabr 1994-cü il

Bekker Avstriyaya qarşı, ərizə № 19844/08, 11 iyun 2015-ci il

Beleş və başqaları Çex Respublikasına qarşı, ərizə № 47273/99, 12 noyabr 2002-ci il

Belilos İsveçrəyə qarşı, ərizə № 10328/83, 29 aprel 1988-ci il

Benhem Birləşmiş Krallığa qarşı [BP], ərizə № 19380/92, 10 iyun 1996-cı il

Bentem Niderlanda qarşı, ərizə № 8848/80, 23 oktyabr 1985-ci il

Bertutsi Fransaya qarşı, ərizə № 36378/97, 13 fevral 2003-cü il

Bleyk Birləşmiş Krallığa qarşı, ərizə № 68890/01, 26 sentyabr 2006-cı il

Boddaert Belçikaya qarşı, ərizə № 12919/87, 12 oktyabr 1992-ci il

Boqdel Litvaya qarşı, ərizə № 41248/06, 26 noyabr 2013-cü il

Bulua Lüksemburqa qarşı [BP], ərizə № 37575/04, 3 aprel 2012-ci il

Brandştetter Avstriyaya qarşı, ərizələr № 11170/84, 12876/87 və 13468/87, 28 avqust 1991-ci il

Braynsberger və Ventselhümer Avstriyaya qarşı, ərizə № 46601/07, 27 noyabr 2012-ci il

Brennan Birləşmiş Krallığa qarşı, ərizə № 39846/98, 16 oktyabr 2001-ci il

Broza Almaniyaya qarşı, ərizə № 5709/09, 17 aprel 2014-cü il

Buxholts Almaniyaya qarşı, ərizə № 7759/77, 6 may 1981-ci il

Budayeva və başqaları Rusiyaya qarşı, ərizələr № 15339/02, 21166/02, 20058/02, 11673/02 və 15343/02, 20 mart 2008-ci il

Burdov Rusiyaya qarşı (№ 2), ərizə № 33509/04, 15 yanvar 2009-cu il

Bıkov Rusiyaya qarşı [BP], ərizə № 4378/02, 10 mart 2009-cu il

C.G.I.L. və Kofferati (№ 2) İtaliyaya qarşı, ərizə № 2/08, 6 aprel 2010-cu il

Cadıroğlu Türkiyəyə qarşı, ərizə № 15762/10, 3 sentyabr 2013-cü il

Kempbell və Fell Birləşmiş Krallığa qarşı, ərizələr № 7819/77 və 7878/77, 28 iyun 1984-cü il

Kapuano İtaliyaya qarşı, ərizə № 9381/81, 25 iyun 1987-ci il

Çahal Birləşmiş Krallığa qarşı, ərizə № 22414/93, 15 noyabr 1996-cı il

Çudun Rusiyaya qarşı, ərizə № 20641/04, 21 iyun 2011-ci il

Çorkan və başqaları Rumıniyaya qarşı, ərizələr № 29414/09 və 44841/09, 27 yanvar 2015-ci il

"Klinik dez Akasia" və başqaları Fransaya qarşı, ərizələr № 65399/01, 65406/01, 65405/01 və 65407/01, 13 oktyabr 2005-ci il

Kokyarella İtaliyaya qarşı [BP], ərizə № 64886/01, 29 mart 2006-cı il

Kordova İtaliyaya qarşı (№ 2), ərizə № 45649/99, 30 yanvar 2003-cü il

Korreyya di Matuş Portuqaliyaya qarşı, ərizə № 48188/99, 15 noyabr 2001-ci il

Kostello-Roberts Birləşmiş Krallığa qarşı, ərizə № 13134/87, 25 mart 1993-cü il

Kristina Boyçenko Moldovaya qarşı, ərizə № 25688/09, 27 sentyabr 2011-ci il

Kruassan Almaniyaya qarşı, ərizə № 13611/88, 25 sentyabr 1992-ci il

Çekalla Portuqaliyaya qarşı, ərizə № 38830/97, 10 oktyabr 2002-ci il

Damyan-Buruyana və Damyan Rumıniyaya qarşı, ərizə № 6773/02, 26 may 2009-cu il

Daud Portuqaliyaya qarşı, ərizə № 22600/93, 21 aprel 1998-ci il

Dayanan Türkiyəyə qarşı, ərizə № 7377/03, 13 oktyabr 2009-cu il

Di Souza Ribeyru Fransaya qarşı [BP], ərizə № 22689/07, 13 dekabr 2012-ci il

Del Sol Fransaya qarşı, ərizə № 46800/99, 26 fevral 2002-ci il

Doymeland Almaniyaya qarşı, ərizə № 9384/81, 29 may 1986-cı il

Dyenne Fransaya qarşı, ərizə № 18160/91, 26 sentyabr 1995-ci il

Dink Türkiyəyə qarşı, ərizələr № 2668/07 və s., 14 sentyabr 2010-cu il

Dobberten Fransaya qarşı, ərizə № 13089/87, 25 fevral 1993-cü il

Doorson Niderlanda qarşı, ərizə № 20524/92, 26 mart 1996-cı il

Duiyeb Niderlanda qarşı [BP], ərizə № 31464/96, 4 avqust 1999-cu il

DRAFT - OVA a.s. Slovakiyaya qarşı, ərizə № 72493/10, 9 iyun 2015-ci il

Ekle Almaniyaya qarşı, ərizə № 8130/78, 15 iyul 1982-ci il

"Edisyon Plon" Fransaya qarşı, ərizə № 58148/00, 18 avqust 2004-cü il

Edvards Birləşmiş Krallığa qarşı, ərizə № 13071/87, 16 dekabr 1992-ci il

Engel və başqaları Niderlanda qarşı, ərizələr № 5100/71, 5101/71, 5102/71, 5354/72 və 5370/72, 8 iyun 1976-cı il

Er və başqaları Türkiyəyə qarşı, ərizə № 23016/04, 31 iyul 2012-ci il

Eze və Konnors Birləşmiş Krallığa qarşı [BP], ərizələr № 39665/98 və 40086/98, 9 oktyabr 2003-cü il

Farkaş Rumıniyaya qarşı, ərizə № 32596/04, 14 sentyabr 2010-cu il

Fayed Birləşmiş Krallığa qarşı, ərizə № 17101/90, 21 sentyabr 1994-cü il

Ferrantelli və Santangelo İtaliyaya qarşı, ərizə № 19874/92, 7 avqust 1996-cı il

Ferrazzini İtaliyaya qarşı [BP], ərizə № 44759/98, 12 iyul 2001-ci il

Fey Avstriyaya qarşı, ərizə № 14396/88, 24 fevral 1993-cü il

Findli Birləşmiş Krallığa qarşı, ərizə № 22107/93, 25 fevral 1997-ci il

Frasik Polşaya qarşı, ərizə № 22933/02, 5 yanvar 2010-cu il

Fruni Slovakiyaya qarşı, ərizə № 8014/07, 21 iyun 2011-ci il

Fridlender Fransaya qarşı [BP], ərizə № 30979/96, 27 iyun 2000-ci il

Qafgen Almaniyaya qarşı [BP], ərizə № 22978/05, 1 iyun 2010-cu il

Qalina Kostova Bolqarıstana qarşı, ərizə № 36181/05, 12 noyabr 2013-cü il

Qalstyan Ermənistana qarşı, ərizə № 26986/03, 15 noyabr 2007-ci il

Qarsiya Ruis İspaniyaya qarşı [BP], ərizə № 30544/96, 21 yanvar 1999-cu il

Qotren və başqaları Fransaya qarşı, ərizə № 21257/93, 20 may 1998-ci il

Georq Kempers Avstriyaya qarşı, ərizə № 21842/93. Komissiyanın 14 fevral 1998-ci ildə qəbul edilmiş məruzəsi

Cakomelli İtaliyaya qarşı, ərizə № 59909/00, 2 noyabr 2006-cı il

Qleyzer Birləşmiş Krallığa qarşı, ərizə № 32346/96, 19 sentyabr 2000-ci il

Qlor İsveçrəyə qarşı, ərizə № 13444/04, 30 aprel 2009-cu il

Qnaore Fransaya qarşı, ərizə № 40031/98, 19 sentyabr 2000-ci il

Qoddi İtaliyaya qarşı, ərizə № 8966/80, 9 aprel 1984-cü il

Qolder Birləşmiş Krallığa qarşı, ərizə № 4451/70, 21 fevral 1975-ci il

Qorrais Lisarraqa və başqaları İspaniyaya qarşı, ərizə № 62543/00, 27 aprel 2004-cü il

Qorşkov Ukraynaya qarşı, ərizə № 67531/01, 8 noyabr 2005-ci il

Qrancer Birləşmiş Krallığa qarşı, ərizə № 11932/86, 28 mart 1990-cı il

“Qranos Orqanikos Nasionales S.A.” Almaniyaya qarşı, ərizə № 19508/07, 22 mart 2012-ci il

Qubkin Rusiyaya qarşı, ərizə № 36941/02, 23 aprel 2009-cu il

Gerra və başqaları İtaliyaya qarşı [BP], ərizə № 14967/89, 19 fevral 1998-ci il

Ginço Portuqaliyaya qarşı, ərizə № 8990/80, 10 iyul 1984-cü il

Gülməz Türkiyəyə qarşı, ərizə № 16330/02, 20 may 2008-ci il

Qurqurov Moldovaya qarşı, ərizə № 7045/08, 16 iyun 2009-cu il

Qutsanovlar Bolqarıstana qarşı, ərizə № 34529/10, 15 oktyabr 2013-cü il

Hacianastassiu Yunanıstana qarşı, ərizə № 12945/87, 16 dekabr 1992-ci il

Hakansson və Sturesson İsveçə qarşı, ərizə № 11855/85, 21 fevral 1990-cı il

Hansen Norveçə qarşı, ərizə № 15319/09, 2 oktyabr 2014-cü il

Harrison Makki Macarıstana qarşı, ərizə № 22840/07, 3 iyun 2014-cü il

Hassan və başqaları Fransaya qarşı, ərizələr № 46695/10 və 54588/10, 4 dekabr 2014-cü il

Henrik Urban və Rışard Urban Polşaya qarşı, ərizə № 23614/08, 30 noyabr 2010-cu il

Hermi İtaliyaya qarşı [BP], ərizə № 18114/02, 18 oktyabr 2006-cı il

Hirvisaari Finlandiyaya qarşı, ərizə 49684/99, 27 sentyabr 2001-ci il

Hoholm Slovakiyaya qarşı, ərizə № 35632/13, 13 yanvar 2015-ci il

Hokkanen Finlandiyaya qarşı, ərizə № 19823/92, 23 sentyabr 1994-cü il

Hornsbi Yunanıstana qarşı, ərizə № 18357/91, 19 mart 1997-ci il

İbrahim Gürkan Türkiyəyə qarşı, ərizə № 10987/10, 3 iyul 2012-ci il

İdalov Rusiyaya qarşı [BP], ərizə № 5826/03, 22 may 2012-ci il

İqlin Ukraynaya qarşı, ərizə № 39908/05, 12 yanvar 2012-ci il

İlhan Türkiyəyə qarşı [BP], ərizə № 22277/93, 27 iyun 2000-ci il

İmbroşşia İsveçrəyə qarşı, ərizə № 13972/88, 24 noyabr 1993-cü il

Yablonski Polşaya qarşı, ərizə № 33492/96, 21 dekabr 2000-ci il

Yama Sloveniyaya qarşı, ərizə № 48163/08, 19 iyul 2012-ci il

Yanoseviç İsveçə qarşı, ərizə № 34619/97, 23 iyul 2002-ci il

Yodko Litvaya qarşı, ərizə № 39350/98, 7 sentyabr 1999-cu il

Con Mürrey Birləşmiş Krallığa qarşı [BP], ərizə № 18731/91, 8 fevral 1996-cı il

Cons və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 34356/06 və 40528/06, 14

yanvar 2014-cü il

"Yulius Kloyber Şlaxtxof GmbH" və başqaları Avstriyaya qarşı, ərizələr № 21565/07, 21572/07, 21575/07 və 21580/07, 4 aprel 2013-cü il

Yussila Finlandiyaya qarşı [BP], ərizə № 73053/01, 23 noyabr 2006-cı il

Karahalios Yunanıstana qarşı, ərizə № 62503/00, 11 dekabr 2003-cü il

Kemmaş Fransaya qarşı (№ 1 və 2), ərizələr № 12325/86 və 14992/89, 27 noyabr 1991-ci il

Xalfaui Fransaya qarşı, ərizə № 34791/97, 14 dekabr 1999-cu il

Xan Birləşmiş Krallığa qarşı, ərizə № 35394/97, 12 may 2000-ci il

Xrabrova Rusiyaya qarşı, ərizə № 18498/04, 2 oktyabr 2012-ci i

Kiyevska Polşaya qarşı, ərizə № 73002/01, 6 sentyabr 2007-ci il

Kinkses Macarıstana qarşı, ərizə № 66232/10, 27 yanvar 2015-ci il

Kirilova və başqaları Bolqarıstana qarşı, ərizələr № 42908/98, 44038/98, 44816/98 və 7319/02, 9 iyun 2005-ci il

Klass və başqaları Almaniyaya qarşı, ərizə № 5029/71, 6 sentyabr 1978-ci il

Kleyn və başqaları Niderlanda qarşı [BP], ərizələr № 39343/98, 39651/98, 43147/98 və 46664/99, 6 may 2003-cü il

Kluvi Fransaya qarşı, ərizə № 30754/03, 30 iyun 2011-ci il

Kolevlər Bolqarıstana qarşı, ərizə № 1108/02, 5 noyabr 2009-cu il

Köniq Almaniyaya qarşı, ərizə 6232/73, 28 iyun 1978-ci il

Koottyummel Avstriyaya qarşı, ərizə № 49616/06, 10 dekabr 2009-cu il

Krasuski Polşaya qarşı, ərizə № 61444/00, 14 iyun 2005-ci il

Krçmar və başqaları Çex Respublikasına qarşı, ərizə № 35376/973 mart 2000-ci il

Kremtsov Avstriyaya qarşı, ərizə № 12350/86, 21 sentyabr 1993-cü il

Kreyts Polşaya qarşı, ərizə № 28249/95, 19 iyun 2001-ci il

Kudla Polşaya qarşı [BP], ərizə № 30210/96, 26 oktyabr 2000-ci il

Kutiç Xorvatiyaya qarşı, ərizə № 48778/99, 1 mart 2002-ci il

Kuttner Avstriyaya qarşı, ərizə № 7997/08, 16 iyul 2015-ci il

Kiprianu Kiprə qarşı [BP], ərizə № 73797/01, 15 dekabr 2005-ci il

L.B. Belçikaya qarşı, ərizə № 22831/08, 2 oktyabr 2012-ci il

L.R. Fransaya qarşı, ərizə № 33395/96, 27 iyun 2002-ci il

Lagerblom İsveçə qarşı, ərizə № 26891/95, 14 yanvar 2003-cü il

Lanqborger İsveçə qarşı, ərizə № 11179/84, 22 iyun 1989-cu il

Lants Avstriyaya qarşı, ərizə № 24430/94, 31 yanvar 2002-ci il

"Lawyer Partners a.s." Slovakiyaya qarşı, ərizələr № 54252/07 və s., 16 iyun 2009-cu il

Lexner və Hess Avstriyaya qarşı, ərizə № 9316/81, 23 aprel 1987-ci il

Litqou və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 9006/80, 9262/81, 9263/81, 9265/81, 9266/81, 9313/81 və 9405/81, 8 iyul 1986-cı il

Lopes Ostra İspaniyaya qarşı, ərizə № 16798/90, 9 dekabr 1994-cü il

M. və başqaları İtaliyaya və Bolqarıstana qarşı, ərizə № 40020/03, 31 iyul 2012-ci il

M.C. Bolqarıstana qarşı, ərizə № 39272/98, 4 dekabr 2003-cü il

M.H. Birləşmiş Krallığa qarşı, ərizə № 11577/06, 22 oktyabr 2013-cü il

M.S.S. Belçikaya və Yunanıstana qarşı [BP], ərizə № 30696/09, 21 yanvar 2011-ci il

Maauyya Fransaya qarşı [BP], ərizə № 39652/98, 5 oktyabr 2000-ci il

Maktuf və Damyanoviç Bosniya və Herseqovinaya qarşı, ərizələr № 2312/08 və 34179/08, 18 iyul 2013-cü il

Maqalyaeş Pereyra Portuqaliyaya qarşı, ərizə № 44872/98, 26 fevral 2002-ci il

Malkov Estoniyaya qarşı, ərizə № 31407/07, 4 fevral 2010-cu il

Martini Fransaya qarşı [BP], ərizə № 58675/00, 12 aprel 2006-cı il

Martinş Moreyra Portuqaliyaya qarşı, ərizə № 11371/85, 26 oktyabr 1988-ci il

Maşireviç Serbiyaya qarşı, ərizə № 30671/08, 11 fevral 2014-cü il

Maton Polşaya qarşı, ərizə № 30279/07, 9 iyun 2009-cu il

Matter Slovakiyaya qarşı, ərizə № 31534/96, 5 iyul 1999-cu il

Mayzit Rusiyaya qarşı, ərizə № 63378/00, 20 yanvar 2005-ci il

Makfarleyn İrlandiyaya qarşı [BP], ərizə № 31333/06, 10 sentyabr 2010-cu il

Makginli və İqan Birləşmiş Krallığa qarşı, ərizələr № 21825/93 və 23414/94, 9 iyun 1998-ci il

Makkey Birləşmiş Krallığa qarşı [BP], ərizə № 543/03, 3 oktyabr 2006-cı il

Makvikar Birləşmiş Krallığa qarşı, ərizə № 46311/99, 7 may 2002-ci il

Meftah və başqaları Fransaya qarşı [BP], ərizələr № 32911/96, 35237/97 və 34595/97, 26 iyul 2002-ci il

Medyeri Almaniyaya qarşı, ərizə № 13770/88, 12 may 1992-ci il

Mehmet Ümit Erdem Türkiyəyə qarşı, ərizə № 42234/02, 17 iyul 2008-ci il

Melen Fransaya qarşı, ərizə № 12914/87, 22 iyun 1993-cü il

Menson Birləşmiş Krallığa qarşı, ərizə № 47916/99, 6 may 2003-cü il

Mikallef Maltaya qarşı [BP], ərizə № 17056/06, 15 oktyabr 2009-cu il

Mikuliç Xorvatiyaya qarşı, ərizə № 53176/99, 7 fevral 2002-ci il

Milasi İtaliyaya qarşı, ərizə № 10527/83, 25 iyun 1987-ci il

Miraqal Eskolano və başqaları İspaniyaya qarşı, ərizələr № 38366/97, 38688/97, 40777/98, 40843/98, 41015/98, 41400/98, 41446/98, 41484/98, 41487/98 və 41509/98, 25 may 2000-ci il

Miroslav Ojexovski Polşaya qarşı, ərizə № 13526/07, 13 yanvar 2009-cu il

Mitev Bolqarıstana qarşı, ərizə № 40063/98, 22 dekabr 2004-cü il

Moiseyev Rusiyaya qarşı, ərizə № 62936/00, 9 oktyabr 2008-ci il

Momçiloviç Xorvatiyaya qarşı, ərizə № 11239/11, 26 mart 2015-ci il

Monnell və Morris Birləşmiş Krallığa qarşı, ərizələr № 9562/81 və 9818/82, 2 mart 1987-ci il

Mooren Almaniyaya qarşı [BP], ərizə № 11364/03, 9 iyul 2009-cu il

Moris Fransaya qarşı [BP], ərizə № 29369/10, 23 aprel 2015-ci il

Mosli Birləşmiş Krallığa qarşı, ərizə № 48009/08, 10 may 2011-ci il

"MPP Qolub" Ukraynaya qarşı, ərizə № 6778/05, 18 oktyabr 2005-ci il

Naçova və başqaları Bolqarıstana qarşı [BP], ərizələr № 43577/98 və 43579/98, 6 iyul 2005-ci il

Nenov Bolqarıstana qarşı, ərizə № 33738/02, 16 iyul 2009-cu il

Noymayster Avstriyaya qarşı, ərizə № 1936/63, 27 iyun 1968-ci il

Norbert Sikorski Polşaya qarşı, ərizə № 17599/05, 22 oktyabr 2009-cu il

Öcalan Türkiyəyə qarşı [BP], ərizə № 46221/99, 12 may 2005-ci il

Aleksandr Volkov Ukraynaya qarşı, ərizə № 21722/11, 9 yanvar 2013-cü il

Öneryıldız Türkiyəyə qarşı [BP], ərizə № 48939/99, 30 noyabr 2004-cü il

Orçovski Polşaya qarşı, ərizə № 17885/04, 22 oktyabr 2009-cu il

Orşuş və başqaları Xorvatiyaya qarşı [BP], ərizə № 15766/03, 16 mart 2010-cu il

Osman Birləşmiş Krallığa qarşı [BP], ərizə № 23452/94, 28 oktyabr 1998-ci il

Öztürk Almaniyaya qarşı, ərizə № 8544/79, 21 fevral 1984-cü il

P. və S. Polşaya qarşı, ərizə № 57375/08, 30 oktyabr 2012-ci il

P., C. və S. Birləşmiş Krallığa qarşı, ərizə № 56547/00, 16 iyul 2002-ci il

Pafitis və başqaları Yunanıstana qarşı, ərizə № 20323/92, 26 fevral 1998-ci il

Pakelli Almaniyaya qarşı, ərizə № 8398/78, 25 aprel 1983-cü il

Panovits Kiprə qarşı, ərizə № 4268/04, 11 dekabr 2008-ci il

Papaxelas Yunanıstana qarşı [BP], ərizə № 31423/96, 25 mart 1999-cu il

Papon Fransaya qarşı (№ 2), ərizə № 54210/00, 25 iyul 2002-ci il

Parlov-Tkalčić Xorvatiyaya qarşı, ərizə № 24810/06, 22 dekabr 2009-cu il

Perdiqanu Portuqaliyaya qarşı [BP], ərizə № 24768/06, 16 noyabr 2010-cü il

Perks və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 25277/94, 25279/94, 25280/94, 25282/94, 25285/94, 28048/95, 28192/95 və 28456/95, 12 oktyabr 1999-cu il

Peskador Valero İspaniyaya qarşı, ərizə № 62435/00, 17 iyun 2003-cü il

Fam Hoanq Fransaya qarşı, ərizə № 13191/87, 25 sentyabr 1992-ci il

Filis Yunanıstana qarşı, ərizə № 16598/90, 1 iyul 1992-ci il

Pexoviç Polşaya qarşı, ərizə № 20071/07, 17 aprel 2012-ci il

Pyer-Bloş Fransaya qarşı, ərizə № 24194/94, 21 oktyabr 1997-ci il

Pinkova və Pink Çex Respublikasına qarşı, ərizə № 36548/97, 5 noyabr 2002-ci il

Pişşalnikov Rusiyaya qarşı, ərizə № 7025/04, 24 sentyabr 2009-cu il

Puaro Fransaya qarşı, ərizə № 29938/07, 15 dekabr 2011-ci il

Poyss Avstriyaya qarşı, ərizə № 9816/82, 23 aprel 1987-ci il

Pretto İtaliyaya qarşı, ərizə № 7984/77, 8 dekabr 1983-cü il

Probstmayer Almaniyaya qarşı, ərizə № 20950/92, 1 iyul 1997-ci il

Prokola Lüksemburqa qarşı, ərizə № 14570/89, 28 sentyabr 1995-ci il

Karanta İsveçrəyə qarşı, ərizə № 12744/87, 24 may 1991-ci il

R. D. Polşaya qarşı, ərizələr № 29692/96 və 34612/97, 18 dekabr 2001-ci il

Radkov Bolqarıstana qarşı (№ 2), ərizə № 18382/05, 10 fevral 2011-ci il

Ramires Sançes Fransaya qarşı [BP], ərizə № 59450/00, 4 iyul 2006-cı il

Ramsahai və başqaları Niderlanda qarşı [BP], ərizə № 52391/99, 15 may 2007-ci il

Rantsev Kiprə və Rusiyaya qarşı, ərizə № 25965/04, 7 yanvar 2010-cu il

“Ricent Kompani” Ukraynaya qarşı, ərizə № 773/03, 3 aprel 2008-ci il

Rebok Sloveniyaya qarşı, ərizə № 29462/95, 28 noyabr 2000-ci il

Rinqayzen Avstriyaya qarşı, ərizə № 2614/65, 16 iyul 1971-ci il

Rodriges Da Silva və Hoqkamer Niderlanda qarşı, ərizə № 50435/99, 31 yanvar 2006-cı il

Rotaru Rumıniyaya qarşı [BP], ərizə № 28341/95, 4 may 2000-ci il

Rou və Devis Birləşmiş Krallığa qarşı [BP], ərizə № 28901/95, 16 fevral 2000-ci il

Ruis-Mateos İspaniyaya qarşı, ərizə №. 12952/87, 23 iyun 1993-cü il

Rumor İtaliyaya qarşı, ərizə № 72964/10, 27 may 2014-cü il

Rutkovski və başqaları Polşaya qarşı, ərizələr № 72287/10, 13927/11 və 46187/11, 7 iyul 2015-ci il

S. İsveçrəyə qarşı, ərizələr № 12629/87 və 13965/88, 28 noyabr 1991-ci il

S.C. Birləşmiş Krallığa qarşı, ərizə № 60958/00, 15 iyun 2004-cü il

Sakaleanu Rumıniyaya qarşı, ərizə № 73970/01, 6 sentyabr 2005-ci il

“Sen-Pol Lüksemburq S.A.” Lüksemburqa qarşı, ərizə № 26419/10, 18 aprel 2013-cü il

Saxnovski Rusiyaya qarşı [BP], ərizə № 21272/03, 2 noyabr 2010-cu il

Salabiaku Fransaya qarşı, ərizə № 10519/83, 7 oktyabr 1988-ci il

Salduz Türkiyəyə qarşı [BP], ərizə № 36391/02, 27 noyabr 2008-ci il

Şaman Türkiyəyə qarşı, ərizə № 35292/05, 5 aprel 2011-ci il

Santambrocio İtaliyaya qarşı, ərizə № 61945/00, 21 sentyabr 2004-cü il

Skordino İtaliyaya qarşı (№ 1) [BP], ərizə № 36813/97, 29 mart 2006-cı il

Skuderi İtaliyaya qarşı, ərizə № 12986/87, 24 avqust 1993-cü il

Ştukaturov Rusiyaya qarşı, ərizə № 44009/05, 27 mart 2008-ci il

Şulgin Ukraynaya qarşı, ərizə № 29912/05, 8 dekabr 2011-ci il

Syalkovska Polşaya qarşı, ərizə № 8932/05, 22 mart 2007-ci il

Silver və başqaları Birləşmiş Krallğa qarşı, ərizələr № 5947/72, 6205/73, 7052/75,

7061/75, 7107/75, 7113/75 və 7136/75, 25 mart 1983-cü il

Sociedade de Construções Martins & Vieira, Lda. və başqaları Portuqaliyaya qarşı, ərizələr № 56637/10, 59856/10, 72525/10, 7646/11 və 12592/11, 30 oktyabr 2014-cü il

Somogi Macarıstana qarşı, ərizə № 5770/05, 11 yanvar 2011-ci il

"Sotiris ənd Nikos Kutras Atti" Yunanıstana qarşı, ərizə № 39442/98, 16 noyabr 2000-ci il

Sramek Avstriyaya qarşı, ərizə № 8790/79, 22 oktyabr 1984-cü il

Stanev Bolqarıstana qarşı [BP], ərizə № 36760/06, 17 yanvar 2012-ci il

Stankeviç Polşaya qarşı, ərizə № 46917/99, 6 aprel 2006-cı il

Stankov Bolqarıstana qarşı, ərizə № 68490/01, 12 iyul 2007-ci il

Starokadomski Rusiyaya qarşı (№ 2), ərizə № 27455/06, 13 mart 2014-cü il

Staroşşik Polşaya qarşı, ərizə № 59519/00, 22 mart 2007-ci il

Stil və Morris Birləşmiş Krallığa qarşı, ərizə № 68416/01, 15 fevral 2005-ci il

Stoqmüller Avstriyaya qarşı, ərizə № 1602/62, 10 noyabr 1969-cu il

Stabbinqs və başqaları Birləşmiş Krallığa qarşı, ərizələr № 22083/93 və 22095/93, 22 oktyabr 1996-cı il

Suda Çex Respublikasına qarşı, ərizə № 1643/06, 28 oktyabr 2010-cu il

Suominen Finlandiyaya qaeşı, ərizə №  37801/97, 1 iyul 2003-cü il

Züssmann Almaniyaya qarşı [BP], ərizə № 20024/92, 16 sentyabr 1996-cı il

T. Birləşmiş Krallığa qarşı [BP], ərizə № 24724/94, 16 dekabr 1999-cu il

Taşkın və başqaları Türkiyəyə qarşı, ərizə № 46117/99, 10 noyabr 2004-cü il

Tatar Rumıniyaya qarşı, ərizə № 67021/01, 27 yanvar 2009-cu il

Taske Belçikaya qarşı [BP], ərizə № 926/05, 16 noyabr 2010-cu il

Tirs və başqaları San-Marinoya qarşı, ərizələr № 24954/94, 24971/94, 24972/94, 25 iyul 2000-ci il

Tolstoy-Miloslavski Birləşmiş Krallığa qarşı, ərizə № 18139/91, 13 iyul 1995-ci il

Torrecani və başqaları İtaliyaya qarşı, ərizə № 43517/09, 8 yanvar 2013-cü il

Tripodi İtaliyaya qarşı, ərizə № 13743/88, 22 fevral 1994-cü il

Tsarenko Rusiyaya qarşı, ərizə № 5235/09, 3 mart 2011-ci il

Tsonyo Tsonev Bolqarıstana qarşı (№ 2), ərizə № 2376/03, 14 yanvar 2010-cu il

Tualib Yunanıstana qarşı, ərizə № 24294/94, 9 iyun 1998-ci il

Tıçko Rusiyaya qarşı, ərizə № 56097/07, 11 iyun 2015-ci il

“Union Alimentaria Sanders SA” İspaniyaya qarşı, ərizə № 11681/85, 7 iyul 1989-cu il

Ujukauskas Litvaya qarşı, ərizə № 16965/04, 6 iyul 20100-cu il

V. Birləşmiş Krallığa qarşı [BP], ərizə № 24888/94, 16 dekabr 1999-cü il

Valyulyene Litvaya qarşı, ərizə № 33234/07, 26 mart 2013-cü il

Valova, Slezak və Slezak v. Slovakiyaya qarşı, ərizə № 44925/98, 1 iyun 2004-cü il

Vamvakas Yunanıstana qarşı (№ 2), ərizə № 2870/11, 9 aprel 2015-ci il

Van Mexelen və başqaları Niderlanda qarşı, ərizələr № 21363/93, 21364/93, 21427/93 və 22056/93, 23 aprel 1997-ci il

Vayiç Türkiyəyə qarşı, ərizə № 18078/02, 20 iyun 2006-cı il

Vəliyev Rusiyaya qarşı, ərizə № 24202/05, 24 iyun 2010-cu il

Vermülen Belçikaya qarşı [BP], ərizə № 19075/91, 20 fevral 1996-cı il

Vokaturo İtaliyaya qarşı, ərizə № 11891/85, 24 may 1991-ci il

“VP Diffuzion Şarl” Fransaya qarşı, ərizə № 14565/04, 26 avqust 2008-ci il

Vuçkoviç və başqaları Serbiyaya qarşı [BP], ərizə № 17153/11 və 29 digər iş, 25 mart 2014-cü il

Vassink Niderlanda qarşı, ərizə № 12535/86, 27 sentyabr 1990-cı il

Veber İsveçrəyə qarşı, ərizə № 11034/84, 22 may 1990-cı il

Vemhoff Almaniyaya qarşı, ərizə № 2122/64, 27 iyun 1968-ci il

Verner Avstriyaya qarşı, ərizə № 21835/93, 24 noyabr 1997-ci il

Vizinger Avstriyaya qarşı, ərizə № 11796/85, 30 oktyabr 1991-ci il

Vinterverp Niderlanda qarşı, ərizə № 6301/73, 24 oktyabr 1979-cu il

Vlox Polşaya qarşı (№ 2), ərizə № 33475/08, 10 may 2011-ci il

X və Y Xorvatiyaya qarşı, ərizə № 5193/09, 3 noyabr 2011-ci il

X və Y Niderlanda qarşı, ərizə № 8978/80, 26 mart 1985-ci il

X Fransaya qarşı, ərizə № 18020/91, 31 mart 1992-ci il

Y. Sloveniyaya qarşı, ərizə № 41107/10, 28 may 2015-ci il

Yaqtzilar və başqaları Yunanıstana qarşı, ərizə № 41727/98, 6 dekabr 2001-ci il

Yaikov Rusiyaya qarşı, ərizə № 39317/05, 18 iyun 2015-ci il

Yaraşonen Türkiyəyə qarşı, ərizə № 72710/11, 24 iyun 2014-cü il

Yevgeni Petrenko Ukraynaya qarşı, ərizə №; 55749/08, 29 yanvar 2015-ci il

Yuri Nikolayeviç İvanov Ukraynaya qarşı, ərizə № 40450/04, 15 oktyabr 2009-cu il

Z və başqaları Birləşmiş Krallığa qarşı, ərizə № 29392/95, 10 may 2001-ci il

Zdravko Stanev Bolqarıstana qarşı, ərizə № 32238/04, 6 noyabr 2012-ci il

Sehentner Avstriyaya qarşı, ərizə № 20082/02, 16 iyul 2009-cu il

Ziliberberq Moldovaya qarşı, ərizə № 61821/00, 1 fevral 2005-ci il

Simmermann and Ştayner İsveçrəyə qarşı, ərizə № 8737/79, 13 iyul 1983-cü il

Zumtobel Avstriyaya qarşı, ərizə № 12235/86, 21 sentyabr 1993-cü il

## BMT-nin İnsan Hüquqları Komitəsinin presedent hüququ

Çernin Çex Respublikasına qarşı, məlumat (iş) № 823/1998, 29 mart 2005-ci il tarixli rəy

Kazanova Fransaya qarşı, məlumat (iş) № 1514/2006, 28 oktyabr 2008-ci il tarixli rəy

Fundamental Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi (FRA) barəsində çoxlu sayda məlumatlar İnternetdə yerləşdirilib. FRA-nın saytında onlarla tanış olmaq olar: fra.europa.eu.
Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna dair əlavə informasiyalar bu Məhkəmənin İnternet saytında yerləşdirilib: echr.coe.int. HUDOC axtarış portalı bu Məhkəmənin ingilis və (və ya) fransız dilində qərar və qərardadlarına, onların əlavə dillərə tərcümələrinə, qərarların hüquqi icmallarına, press-relizlərə və Məhkəmənin işi barədə digər məlumatlara çıxışı təmin edir.

**Aİ NƏŞRLƏRİNİ NECƏ ƏLDƏ ETMƏK OLAR:**

**Pulsuz nəşrlər:**

- bir nüsxə:
  Aİ-nin kitab mağazası vasitəsilə (http://bookshop.europa.eu);
- birdən artıq nüsxə və ya plakat və xəritələr:
  Avropa İttifaqının nümayəndəliklərindən
  (http://ec.europa.eu/represent_en.htm);
  Aİ üzvü olmayan ölkələrdəki nümayəndəliklərdən
  (http://eeas.europa.eu/delegations/index_en.htm);
  Europe Direct xidməti ilə əlaqə saxlamaqla
  (http://europa.eu/europedirect/index_en.htm); yaxud
  00 800 6 7 8 9 10 11 nömrəsinə zəng etməklə (Aİ-nin istənilən nöqtəsindən bu nömrə ilə zəng etmək pulsuzdur) (*).

(*) İnformasiyalar pulsuz verilir, zənglərin çoxu da pulsuzdur (hərçənd ki, bəzi operatorlar, telefon köşkləri və ya otellər Sizdən ödəniş ala bilərlər).

**Pullu nəşrlər:**

Aİ-nin kitab mağazası vasitəsilə (http://bookshop.europa.eu).

**Ödənişli abunələr:**

Avropa İttifaqının Rəsmi Nəşrlər Bürosunun satış nümayəndələrindən biri vasitəsilə (http://publications.europa.eu/others/agents/index_en.htm).

**Avropa Şurasının nəşrlərini necə əldə etmək olar**

Avropa Şurasının nəşriyyatı bu təşkilatın fəaliyyətinin bütün sahələrinə, o cümlədən insan hüquqları, hüquq, elm, səhiyyə, etika, sosial məsələlər, ətraf mühit, təhsil, mədəniyyət, idman, gənclər və memarlıq irsi kimi sahələrə aid nəşrlər buraxır. Kitabların və elektron nəşrlərin geniş kataloqunu onlayn qaydada sifariş etmək olar: (http://book.coe.int/).
Virtual oxu zalı istifadəçilərə imkan verir ki, yenicə çap olunmuş əsas materiallardan çıxarışlarla pulsuz tanış olsunlar və ya müəyyən sənədlərin tam mətnini pulsuz əldə etsinlər.
Avropa Şurasının konvensiyaları barədə informasiyaları, habelə onların tam mətnini AŞ-nin Müqavilələr Şöbəsinin saytından əldə etmək olar:
http://conventions.coe.int/.

EUROPEAN UNION AGENCY FOR FUNDAMENTAL RIGHTS

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Ədalət mühakiməsinə çatım qanunun aliliyinin mühüm elementidir. O, fərdlərə imkan verir ki, hüquqlarının pozulmasına qarşı özlərini müdafiə etsinlər, mülki hüquq pozuntularının düzəldilməsinə, icra hakimiyyəti orqanının məsuliyyətə cəlb olunmasına nail olsunlar və cinayət prosesində özlərini müdafiə etsinlər. Bu məlumat kitabında ədalət mühakiməsinə çatım sahəsində Avropa İttifaqının əsas hüquqi prinsiplərinin qısa icmalı verilir və bu zaman əsas diqqət mülki və cinayət hüququ sahələrinə yönəldilir. Kitabın məqsədi Avropa İttifaqı (Aİ) və Avropa Şurası tərəfindən müəyyən edilmiş müvafiq hüquq normaları barədə məlumatlılığın artırılmasından ibarətdir və bunun üçün xüsusən Avropa İttifaqı Ədalət Məhkəməsinin və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququndan istifadə edilib. Bu məlumat kitabının Aİ-yə və Avropa Şurasına üzv olan dövlətlərdəki məhkəmə proseslərinin iştirakçıları olan hakimlər, prokurorlar və praktiki hüquqşünaslar, eləcə də qeyri-hökumət təşkilatlarında çalışan şəxslər və ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində fəaliyyət göstərən digər qurumlar üçün praktiki təlimat rolunu oynaması nəzərdə tutulur.

**Fundamental Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi:**
**EUROPEAN UNION AGENCY FOR FUNDAMENTAL RIGHTS**
Schwarzenbergplatz 11 – 1040 Vienna – Austria
Tel. +43 (1) 580 30-60 – Fax +43 (1) 580 30-693
fra.europa.eu – info@fra.europa.eu

**Avropa İnsan Hüquqları Məhkəməsi, Avropa Şurası:**
**EUROPEAN COURT OF HUMAN RIGHTS**
**COUNCIL OF EUROPE**
67075 Strasbourg Cedex – France
Tel. +33 (0) 3 88 41 20 18 – Fax +33 (0) 3 88 41 27 30
echr.coe.int – publishing@echr.coe.int

Publications Office